Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
Azərbaycan Turizm və Menecment Universiteti

“MÜASİR DÖVRDƏ EFFEKTİV İDARƏETMƏNİN PROBLEMLƏRİ”

mövzusunda

VII Respublika elmi-praktik konfransının

MATERİALLARI

(25 NOYABR 2022-Cİ İL)

Bakı-2022

TƏŞKİLAT KOMİTƏSİ

Sədr:

1. **İlham İsa oğlu Mədətov**- Azərbaycan Turizm və Menecment Universitetinin rektoru;

Sədr müavinləri:

1. **İranə Məmməd qızı Əliyeva**, p.ü.e.d., prof. - ATMU-nun Elm və inkişaf məsələləri üzrə prorektoru;
2. **Zaur Siyavuş oğlu Bağırov**, f.ü.e.d.,prof. - ATMU-nun Tədris işləri üzrə prorektoru;

Üzvlər:

1. **Nəsirulla Beytulla oğlu Nəsirli**, f-r.e.n., dos. - Elm və innovasiya şöbəsinin müdiri;
2. **Bahadur Ənvər oğlu Bilalov**, t.e.n., dos. - Turizm və qonaqpərvərlik fakültəsinin dekanı;
3. **Vüqar Mehrəli oğlu Nəzərov**, i.ü.f.d.,dos. –Biznes idarəçiliyi fakültəsinin dekanı;
4. **Kənan Hüseyn oğlu Allahverdiyev**, f.e.n., dos. – Sosial menecment fakültəsinin dekanı;
5. **Məhərrəm Paşa oğlu Zülfüqarlı**, t.ü.e.d.,prof.- İctimai fənlər kafedrasının professoru;

Redaksiya heyəti:

1. **Rəna Polad qızı Sultanova,** i.ü.e.d., prof. - İqtisadiyyat kafedrasının professoru;
2. **Azad Yəhya oğlu Məmmədov**, fil.ü.e.d., prof. – Dillər kafedrasının professoru;
3. **Minaxanım Rafiq qızı Əsədova**, t.ü.e.d.,dos. - İctimai fənlər kafedrasının professoru;
4. **Novruz Əmirxan oğlu Quliyev**, p.e.n., dos. - Mehmanxana və restoran biznesi kafedarasının müdiri;
5. **Hafiz Feyruz oğlu Hüseynov**, f.e.n., dos. - Turizm biznesi kafedrasının müdiri;
6. **Səkinə Abdürəhim qızı Hacıyeva**, i.ü.f.d.,dos.-İqtisadiyyat kafedrasının dosenti;
7. **İbrahim Zülfüqar oğlu Əliyev**, t.e.n., dos. - İctimai fənlər kafedrasının dosenti;
8. **Əzizə Qurban qızı Məmmədova**, fil.ü.f.d.,dos. – Dillər kafedrasının müdiri.

ISBN: 978-9952-414-22-6

MÜNDƏRİCAT

PLENAR İCLAS

GİRİŞ SÖZÜ, İlham MƏDƏTOV 7

Nəsirulla NƏSİRLİ
AZƏRBAYCANDA MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNİN POTENSİALI VƏ PERSPEKTİVLƏRİ 8

Məhərrəm ZÜLFÜQARLI
SOVET İDARƏ SİSTEMİNİN ANTİHUMANİST MAHİYYƏTİ (1920-1921-Cİ İLLƏR) .. 13

BÖLMƏ 1
SOSİAL VƏ XİDMƏT SAHƏLƏRİNİN İDARƏ EDİLMƏSİ PROBLEMLƏRİ

Hafiz HÜSEYNOV
QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN TURİZMDƏ İSTİFADƏ İMKANLARININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİ 16

Əzizə MƏMMƏDOVA
NAXÇIVAN İQTİSADİ RAYONUNDA MİNERAL SULAR 23

Xumar VAHABOVA
NAXÇIVAN BÖLGƏSİNİN TƏBİƏT ABİDƏLƏRİ 27

Almaz ZÖHRABOVA
NAXÇIVAN REGİONUNDA MUZEYLƏR VƏ TEATRLAR 33

Xəyyam ABBASOV
NAXÇIVAN REGİONUNDA TURİZMİN İNKİŞAF PERESPEKTİVLƏRİ 37

Kazım QULİYEV
ORDUBAD RAYONUNUN TURİZM POTENSİALI 41

Könül SALMANOVA
NAXÇIVAN ŞƏHƏRİNİN TURİZM POTENSİALI 45

Məhbubə UMUDOVA
NAXÇIVAN REGİONUNDA TURİZM ƏHƏMİYYƏTLİ ÇAYLAR VƏ BULAQLAR 50

Ülkər QURBANOVA
NAXÇIVAN REGİONUNDA MÜALİCƏ TURİZMİ 54

Leyla ƏLİZADƏ
NAXÇIVANDAKI DUZ YATAQLARININ TURİZM BAXIMINDAN ƏHƏMİYYƏTİ 58

Mehriban ALLAHQULUYEVA
NAXÇIVAN REGİONUNUN TƏBİƏT ABİDƏLƏRİ TURİZM POTENSİALI KİMİ 62

Aygün MƏMMƏDOVA
TARİXİ ƏHƏMİYYƏTLİ MƏŞHUR ŞƏKİ KARVANSARAYLARI 65

Aynur AĞAZADƏ
PANDEMİYADAN (COVID-19) ƏVVƏL AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN MÖVCUD VƏZİYYƏTİ 69

Ayxan AĞAYEV
NƏQLİYYAT XİDMƏTLƏRİNİN İNKİŞAFININ TURİZM SEKTORUNA TƏSİRİ 75

Azər MEHDİYEV
QARABAĞ İQTİSADİ RAYONUNUN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ İDMAN TURİZMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ 81

Elmar MUSAYEV
MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN SAĞLAMLIQ TURİZMİNDƏ RİSKLƏR 86

Nəzrin MƏMMƏDOVA
GƏNCLƏR TURİZMİ VƏ ONUN AZƏRBAYCANDA İDARƏEDİLMƏSİ PROBLEMLƏRİ 91

Nigar RÜSTƏMLİ
QIŞ XİZƏK TURİZMİNİN İNKİŞAFI TƏHLİLİ 96

Nisə QULUZADƏ
NAXÇIVAN REGİONU, ŞAHBUZ RAYONU, QIŞ TURİZMİ İMKANLARI 101

Ramilə EL-OĞLU
QARABAĞ REGİONUNDA HADİSƏ TURİZMİNİN TƏŞKİLİNDƏ TURİZMƏ DAİR RİSKLƏR 105

Xədicə EMİNOVA
QARABAĞ İQTİSADİ RAYONUNUN BEYNƏLXALQ TURİZM BAZARINDA TANIDILMASI İSTİQAMƏTİNDƏ DÖVLƏT SİYASƏTİ 110

BÖLMƏ 2

İDARƏETMƏNİN MÜASİR PROBLEMLƏRİ

Meryem AKOĞLAN KOZAK, Vüqar NƏRİMANBƏYLİ
TURİZM SEKTORUNDA ÇALIŞANLARIN ŞƏXSİYYƏT XÜSUSİYYƏTLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİNDƏ YENİ BİR YANAŞMA: ENNEAGRAM 116

Hacı QASIMLI
TURİZMİN KİTABXANA-İNFORMASİYA TƏMİNATINA DAİR DÖVLƏT SİYASƏTİ VƏ ONUN ƏSAS İSTİQAMƏTLƏRİ 126

Bəhruz BAYRAMOV
MÜƏSSİSƏNİN MALİYYƏ TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN TƏHLİLİ 131

Əlosman ABİYEV
TEXNOLOGİYANIN REFERANSLARIN YOXLANMASI PROSESİNƏ TƏSİRİ 135

Rəna MƏMMƏDOVA
OTEL FƏALİYYƏTİNDƏ İDARƏETMƏNİN XÜSUSİYYƏTLƏRİ 139

Aysel GÖYYUSUBOVA
DÖVLƏTİN MİLLİ MARAQLARININ TƏMİN OLUNMASINDA MULTİKULTURALİZM FAKTORU 144

Hicran BABAŞOVA
"AĞILLI ŞƏHƏR" ANLAYIŞI VƏ
ONUN ƏSAS XARAKTERİK XÜSUSİYYƏTLƏRİ 149

Fidan ƏHMƏDZADƏ
MEHMANXANALARIN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ KADRLARIN KVALİFİKASİYANIN VƏ YENİ PROQRAMLARIN TƏTBİQ EDİLMƏSİ TEXNOLOGİYALARI ……..…… 154

İnci ABDULLAYEVA
TURİZM SƏNAYESİ ÜÇÜN KADR HAZIRLIĞI ÜZRƏ DÜNYA TƏCRÜBƏSİ 157

BÖLMƏ 3
İDARƏETMƏDƏ MİLLİ DƏYƏRLƏR

Ülviyyə BAXŞƏLİYEVA
NAXÇIVAN REGİONUNUN TARİXİ-MƏDƏNİ TURİZM ABİDƏLƏRİ 163

Samirə ƏMİROVA
NAXÇIVAN REGİONUNDA DİNİ TURİZM İMKANLARI 175

Sabir QULUZADƏ
AZƏRBAYCANIN DÜNYAYA İQTİSADİ İNTEQRASİYASINDA TURİZMİN ROLU ... 180

Zemfira QƏDİROVA
İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ TƏHSİLİ İDARƏETMƏ MEXANİZMLƏRİ 185

İlahə BAĞIROVA
QƏDİM NAXÇIVAN DİYARININ MEMARLIQ ABİDƏLƏRİ 190

Röya SÜLEYMANOVA
NAXÇIVAN DİYARINDA MƏDƏNİ TURİZMİN İNKİŞAF İSTİQAMƏTLƏRİ 193

Günel HƏBİBOVA
NAXÇIVAN REGİONUNUN TARİXİ ŞƏXSİYYƏTLƏRİ 199

Aysel QULİYEVA
NAXÇIVAN REGİONUNUN TARİXİ-MƏDƏNİ TURİZM EHTİYATLARI 207

Nübar HƏSƏNOVA
DÜNYA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİNDƏ DİSTANT TƏHSİLİN YERİ VƏ ROLU 213

Nəzrin ƏMRAHOVA
LAÇIN-KƏLBƏCƏR REGİONUNDA MƏDƏNİ TURİZMİN FƏALİYYƏTİ 220

Rəqsanə HACIYEVA
AZIX DAŞ DÖVRÜ ABİDƏSİNİN ARXEOLOGİYA ELMİNDƏ YERİ VƏ ROLU 226

Xəyal KƏRİMOV
BAKI XANLARININ SARAY KOMPLEKSİ ƏRAZİSİNDƏ 2017-Cİ İLDƏ APARILAN ARXEOLOJİ QAZINTILAR 232

İlahə SƏMƏDOVA
BEYNƏLXALQ TURİZM ƏLAQƏLƏRİNİN QURULMASINDA MİLLİ DƏYƏRLƏRİN ƏHƏMİYYƏTİ (İSMAYILLI TURİZM ZONASI TİMSALINDA) 236

Nərmin ABDULLAZADƏ
AZƏRBAYCANIN BEYNƏLXALQ TURİZM ƏLAQƏLƏRİNİN QURULMASININ SOSİAL ƏHƏMİYYƏTİ 242

Ülviyyə ƏZİMZADƏ
AZƏRBAYCANIN BEYNƏLXALQ TURİZM ƏLAQƏLƏRİNİN QURULMASINDA (MÖHKƏMLƏNMƏSİNDƏ) TURİZM- İNFORMASİYA MƏRKƏZLƏRİNİN FƏALİYYƏTİNİN İDARƏ OLUNMASI 248

Namaz MİRZƏYEV
AZƏRBAYCANIN MƏDƏNİYYƏT SİYASƏTİ VƏ ONUN ƏHƏMİYYƏTİ 255

Nazənin ŞİRİNOVA
AZƏRBAYCANDA ETNİK-MİLLİ MÜXTƏLİFLİK VƏ MULTİKULTURALİZM 259

PLENAR İCLAS

İlham MƏDƏTOV
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

Hörmətli konfrans iştirakçıları!

Hər birinizi Azərbaycan Turizm və Menecment Universitetində "Müasir dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda keçirilən VII Respublika Elmi-Praktik konfransında səmimi salamlayır və konfransın işinə uğurlar arzulayıram.

Konfransın keçirilməsində əsas məqsəd müasir dövrdə effektiv idarəetmənin inkişafı istiqamətində aparılan tədqiqat işləri çərçivəsində idarəetmənin mükəmməl modelinə nail olmaq, elmi tədqiqatların tətbiqi mexanizmini hazırlamaq, müxtəlif sahələrin idarə edilməsinin əsas mexanizmlərinin dövlətçiliyin inkişafına xidmət üsullarını müəyyənləşdirməkdir.

İdarəetmə sisteminin müasir tələblərə cavab verən formada həyata keçirilməsini təmin etmək üçün peşəkar rəhbərliyin üç başlıca şərtinə əməl etmək zəruridir:

• Yüksək idarəetmə orqanlarının göstərişi nəzərə alınmaqla bütün sərəncamları, onların yerinə yetirilməsi müddətini və bu iş üçün məsul qurumun müəyyənləşdirilməsi;

•Hər hansı bir göstəriş və sərəncamın vaxtında yerinə yetirilməsi üçün müəyyən edilmiş müddətə dəqiq yerinə yetirilməsinə nəzarət edilməli, nəzarətdə heç bir güzəştə yol verilməməli və nəzarət idarəetmə texnologiyasının zəruri elementinin nəzərə alınması;

• Əhəmiyyətindən asılı olmayaraq həyata keçirilən hər bir işin təhlil edilməsi və qiymətləndirilməsi.

Bütün iradlar dərhal icraçılara çatdırılmalı, yaxşı iş üçün rəğbətləndirmə həyata keçirilməlidir. Bu üç tələbi dəqiq və müntəzəm yerinə yetirən idarəetmə orqanı əmin ola bilər ki, onun idarəetmə sistemi istənilən şəraitdə etibarlı fəaliyyət göstərə bilər. Rəhbərlik üslubu dedikdə şəraitin işlənib hazırlanması, qəbul edilməsi və onun icrasına nəzarətin həyata keçirilmə formaları başa düşülməlidir. Rəhbərlik üslubu hər bir rəhbərə xas olan metodlar və üsullar sistemidir.

22 dekabr 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Turizm İnstitutunun bazasında Azərbaycan Turizm və Menecment Universitetinin yaradılması ilə idarəetmə sahələrində kadr hazırlığı ilə əlaqəli təhsil xidmətləri sıralarına qədəm qoyan ali təhsil ocağının üzərinə böyük vəzifələr qoyulmuşdu. ATMU bu vəzifənin yüksək səviyyədə icra edilməsi üçün bütün potensialını səfərbər edir.

Azərbaycanda idarəetmə təkcə təhsil sahəsində deyil, bütün sahələrdə uğurla həyata keçirilməkdədir. Müdafiə, iqtisadiyyat, sosial sahələrin səmərəli idarə edilməsi Azərbaycanın davamlı inkişafı üçün əsas zəmin yaradan prosesdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bugün dünyada idarəetmə sahəsində bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində bir çox layihələr həyata keçirilməkdədir.

Hörmətli konfrans iştirakçıları nəzərinizə çatdırım ki, konfrans "Sosial və xidmət sahələrinin idarə edilməsi problemləri"; "İdarəetmənin müasir problemləri", "İdarəetmədə milli dəyərlər" adlı bölmələr üzrə dinləmələr həyata keçirərək, işini davam etdirəcəkdir.

Əminəm ki, bugünkü konfrans müasir dövrdə effektiv idarəetmə mexanizminin daha da təkmilləşdirilməsi istiqamətində qarşıya çıxan bir sıra problemlərin uğurlu həllinə müsbət təsir göstərəcək.

Diqqətinizə görə təşəkkür edirəm!

Nəsirulla NƏSİRLİ
Azərbaycan Turizm və Menecment Universiteti,
fizika-riyaziyyat elmləri namizədi, dosent
n.nasirli@atmu.edu.az

AZƏRBAYCANDA MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNİN POTENSİALI VƏ PERSPEKTİVLƏRİ

POTENTIAL AND PROSPECTS OF MEDICAL-HEALTH TOURISM IN AZERBAIJAN

ПОТЕНЦИАЛ И ПЕРСПЕКТИВЫ ЛЕЧЕБНО-ОЗДОРОВИТЕЛЬНОГО ТУРИЗМА В АЗЕРБАЙДЖАНЕ

Xülasə: Tədqiqat işinin əsas məqsədi mövcud potensialın xüsusiyyətlərinin təhlili və qiymətləndirilməsi, bu sahənin rəqabət imkanlarının araşdırılmasıdır. Ölkənin bütün ərazisi tədqiqatın əhatə dairəsinə daxildir. Ona görə də sağlamlıq turizmi sahəsinə təsir edən təbii, iqtisadi və sosial amillər birlikdə araşdırılaraq bu sahənin Azərbaycanda turizmin inkişafının prioritet istiqaməti kimi qəbul edilməsi tövsiyyə edilmişdir.
Açar sözlər: Turizm, sağlamlıq turizmi, mineral sular, palçıq vulkanları, termal sular, sağlamlıq, bərpa, rekreasiya.

Abstract: The main purpose of the research work is the analysis and assessment of the characteristics of the existing potential, the examination of the competitive possibilities of this field. The entire territory of the country is included in the scope of the study. Therefore, the natural, economic and social factors affecting the field of health tourism were examined together and it was recommended to consider this field as a priority direction of tourism development in Azerbaijan.
Keywords: Tourism, health tourism, mineral waters, mud volcanoes, thermal waters, health, recovery, recreation.

Абстракт: Основной целью исследовательской работы является анализ и оценка характеристик имеющегося потенциала, изучение конкурентных возможностей данного направления. В сферу исследования включена вся территория страны. Поэтому природные, экономические и социальные факторы, влияющие на сферу оздоровительного туризма, были рассмотрены вместе, и было рекомендовано рассматривать эту сферу как приоритетное направление развития туризма в Азербайджане.
Ключевые слова: Туризм, оздоровительный туризм, минеральные воды, грязевые вулканы, термальные воды, здоровье, оздоровление, рекреация.

Sağlamlıq turizmi dünya turizminə hər il milyonlarla dollar vəsait gətirir. Buna görə də dünyada sağlamlıq turizmi sahəsində sürətli bir irəliləyiş və bu irəliləyiş böyük bir bazar yaratdı və bir çox ölkələr bu bazardan pay almaq üçün bir-biri ilə rəqabətə başladılar. 2015-ci il üçün sağlamlıq ilə əlaqəli səyahət xərclərinin təhlili göstərir ki, bu sahədə inkişaf etmiş ölkələrin vətəndaşları üstünlük təşkil edir. Beynəlxalq sağlamlıq turizmində ABŞ, Kanada, Qərbi Avropa ölkələri və Körfəz ölkələrinin vətəndaşları üstünlük təşkil edib. Bu da həmin ölkələrin vətəndaşlarının maliyyə imkanlarının daha yaxşı olması, tibbi və sağlamlıq xidməti almağa meyl etməsi ilə bağlıdır. ÜTT-nin verdiyi məlumata görə, 2018-ci ildə ABŞ-da sağlamlıq turizmi gəlirləri 22,5 milyard dollar, Avropada 54,2 milyard avro olduğu müəyyən edilib. Macarıstan və Çexiya kimi ölkələr bu sektordan 1 milyard dollardan çox gəlir əldə edib. Avropa Birliyi ölkələrində turizm gəlirlərinin 5,8%-i, Amerikada 9,2%-i, Asiyanın bütün subregionları üzrə 5,6%-i sağlamlıq turizminin payına düşür. Sağlamlıq turizmi digər sektorlarla qarşılıqlı şəkildə inkişaf

edir və bu sahədə yatırımlar edilməsi ilə ölkə iqtisadiyyatında irəliləyişlər əldə olunur. Turizm gəlirləri inkişaf etməkdə olan ölkələr üçün lazım olan xarici valyuta axınını təmin etdiyindən və digər ixrac məhsulları ilə müqayisədə üstün olduğundan bir çox ölkələr turizm gəlirlərini artırmaq üçün səylər göstərirlər. Tarixi və mədəni irsi ilə yanaşı, təbii ehtiyyatlari ilə zənginlik və müxtəlifliyə sahib olan ölkələrin sağlamlıq turizmi miqyasını genişləndirmək məqsədilərini bu sektora edilən investisiya təşəbbüslərinə göstərdikləri dəstəyi, tanıtım fəaliyyətlərini qiymətləndirmək lazımdır. Sağlamlıq turizmi investisiyaları uzunmüddətli gəlirləri təmin etdiyinə görə ölkələrin bu sahəyə maraqlarını artırmış olur. Sağlamlıq turizminin internet, media və digər kütləvi informasiya vasitələri ilə geniş yayılması insanların digər ölkələrdə alternativ tibbi imkanlardan, keyfiyyətli və sağlamlıq xidmətlərindən yararlanmağa sövq edir. Sağlamlıq turizmi sahəsində inkişaf edən və göstərilən tibbi xidmətlərin istiqamətinə və sayına görə, Amerikada ABŞ, Braziliya, Kolumbiya, Kosta Rika, Kuba, Meksika, Panama, Avropada Xorvatiya, Macarıstan, İspaniya, Türkiyə, Fransa, Almaniya, Asiyada BƏƏ, İordaniya, İran, Hindistan, Cənubi Koreya, Malayziya, Filippin, Sinqapur və Tayland, Afrikada CAR lider ölkələrdəndir, xarici pasiyentləri daha çox qəbul edir, tədiyə balansında bu sahənin payına görə fərqlənir. Son beş ildə ABŞ, Cənubi Koreya, Türkiyə, Tayland, Malayziya, Hindistanın sağlamlıq turizmindən əldə olunan gəlirləri dinamik olaraq artmaqdadır.

Keyfiyyətli müalicə almaq, sağlamlıq sahəsində müxtəlif texnologiyalara müraciət, müalicədən əlavə gəzmək və yeni mədəniyyətlərlə tanış olma arzusu və s. turistlərin bu və ya digər ölkəni sağlamlıq turizmi məqsədilə seçməsinə təsir göstərən əsas amillər hesab edilir. Artan səhiyyə xərcləri yerli sosial təminat qurumlarına, sığorta şirkətlərinə və digər ödəniş qurumlarına problemlər yaradır. Bu səbəbdən inkişaf etmiş ölkələrin sosial təminat və özəl sığorta qurumları keyfiyyətli səhiyyə xidmətləri göstərən digər ölkələrlə müqavilə bağlayaraq səhiyyə xidmətlərinin qiymətini azaltmağa çalışırlar. Avropada – Çexiya, Macarıstan, Fransa, Rusiya, Ukrayna və s. ölkələrdə daha çox inkişaf edən termal sularla müalicə təşkil edir. Bu ölkələrdəki mövcud müalicə-sağlamlıq müəssisələri ixtisaslaşdırılmış sanatoriya və sağlamlıq xidmətləri təklif edir. Mineral sularla müalicə almaq istəyən müştərilər sağlamlıq turizmindən istifadə üçün aşağıdakı amillərə önəm verirlər: Təbii mineral su mənbələrinin olması və suyun fiziki, kimyəvi, bakterioloji tərkibi haqqında kifayət qədər məlumatın mövcudluğu, müalicə, istirahət, rekreasiya, rahat gecələmə və sağlam qidalanma üçün müvafiq infrastrukturun olması, ətraf mühitin cəlbediciliyi, yüksək səviyyəli həkim personalı və orta tibb işçilərinin peşəkarlığı, yüksək səviyyəli xidmət heyətinin və yüksək qonaqpərvərlik ənənəsinin mövcudluğu, müasir tibbi texnologiya və xidmətlərin əlçatanlığı, İKT-dan geniş istifadə etməklə xidmət standartlarının təqdim olunması və s.

Palçıq vulkanları. Azərbaycan ərazisi dünyanın palçıq vulkanlarının zəngin olduğu unikal və qədim bölgəsidir. Bu təbiət abidələrinin sayına, çoxçeşidliyinə və aktiv fəaliyyətinə görə dünyada ölkəmizin ərazisinə oxşar yer yoxdur. Yer kürəsindəki məlum 1700-dək palçıq vulkanından 800-ü ölkəmizdə-əsasən Abşeron yarımadası, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı ərazisindədir. Azərbaycan palçıq vulkanları vətəni sayılır.

Palçıq vulkanlarının müalicəvi əhəmiyyəti tibbə çoxdan məlumdur. Əsasən lilli, torflu və sapropelli palçıqlardan alınan preparatlardan müalicə məqsədi ilə dünyada ineksiya, xanna, yuyub dezinfeksiya etmə formasında geniş istifadə edilir. Palçıq vulkanları bir çox xəstəliklərin-dəri, hərəkət orqanları, onurğa sütunu, mədə-bağırsaq traktı, şəkərli diabet, ostrexondrozun müalicəsində, ginekologiyada, urologiyada, kosmetologiyada və s. sahələrdə istifadə edilir. Vulkan palçığı kimyəvi tərkibinə görə əsasən silisium oksiddən ibarətdir. Bununla yanaşı, onda yod brom, kalsium, magnezium, natrium, xlor, litium, dəmir, selen, manqan, sink, və s. kimi elementlər aşkarlanır ki, bu da onun geniş miqyasda xəstəliklərin müalicəsi üçün istifadə edilməsinə zəmin yaradır. Azərbaycanda bu qiymətli palçığın olduqca böyük ehtiyyata malik olduğunu nəzərə almaqla palçıq müalicəsi həyata keçirən sanatoriyalarının yaradılması, vulkanik ərazilərin turizm kompleksinə çevrilməsi ölkə iqtisadiyyatının inkişafının enerji ehtiyyatlarından asılılığının aradan qaldırılması üçün mühüm addım olar. Abşeron rayonunun Qobustan kəndi ərazisində Palçıq Vulkanları Turizm kompleksinin təməlinin qoyulması bu istiqamətdə görülməli olan işlərin artıq həyata keçirilməsi üçün başlanğıc olduğunu hesab etmək olar.

Paralel olaraq infrastukturun formalaşdırılması eləcə də bu istiqamətində kadr hazırlığının həyata keçirilməsi əsasən təhsil müəssisələrinin üzərinə düşür [2]. Ümumiyyətlə maqmatik vulkanlarla müqayisə edildikdə, palçıq vulkanlarının qlobal miqyasda yayılması məhdudur. Bu vulkanlar dünyanın 30 ölkəsində (İtaliya, Ruminiya, Ukrayna, Azərbaycan, Türkmənistan, Pakistan, İran və s.) palçıq vulkanlarının çoxluğuna və tərkibinə görə Azərbaycan ərazisi unikal və klassik regiondur.

Palçıq vulkanları-yer qabığının dərin qatlarında baş verən proseslərlə bağlı olan təbii təzahürdür. Ötən əsrin 20-ci illərində görkəmli tətqiqatçı, professor D.V. Qolubyatnikov palçıq vulkanını "pulsuz" kəşfiyyat quyusu adlandırmışdır. Vulkanik palçıq çox geniş müalicə xüsusiyyətlərinə malikdir ki, bu da onun tərkibində bor, manqan, litium, vanadium, mis, və s. kimi qiymətli elementlərin və vulkanik suların tərkibində yod, bor, brom elementlərinin olması ilə əlaqəlidir. Azərbaycanın vulkanik palçığının üzvi komponentlərində bioloji aktiv maddələr aşkar edilmişdir. Yuxarıda sadalananlardan əlavə palçıq vulkanlarının tərkibində üzvü maddələrdən-naften, humin və fulvo turşuları və başqa bir sıra fermentlər qeydə alınıb. Bundan başqa, palçıqlar bakterisid maddələr və digər birləşmələr özündə ehtiva edir ki, onlar orqanizmin müalicəsində müstəsna rol oynayır. Üzvü maddələrin göstəricilərinə görə vulkan palçığı müalicəvi Naftalan neftinə yaxındır. Qeyd etmək vacibdir ki, palçıq vulkanları neft-qaz rayonlarında yayılıb. Bu təbii ki palçığın kimyəvi tərkibində və müalicəvi xüsusiyyətlərində əks olunur. Yerin dərinliklərindən çıxan palçıq vulkanları faydalı mikroelementlərlə və üzvi maddələrlə zəngin olub, yüksək biostimul təsirinə malikdir. Bu palçıqların daha bir xüsusiyyəti ondan ibarətdir ki, onların kimyəvi tərkibi sabitdir. Quru palçıq su ilə isladıldıqda ilkin vəziyyətini bərpa edir və bütün faydalı keyfiyyətlərini qoruyub saxlayır. Ona görə də müalicə üçün nəyinki təzə, həm də qurumuş palçıqdan istifadə etmək olar [3].

Palçıq vulkanlarının ərazisində müasir turizm infrastrukturunun yaradılması layihəsi "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq hazırlanıb. Lakin bu layihə yalnız Abşeronun cənubu və Qobustan ərazisində olan palçıq vulkanlarını əhatə edir. Bu prosesin genişləndirilməsi və digər vulkanik əraziləri əhatə etməsi sağlamlıq turizminin inkişafına güclü təsir göstərər.

Son illərdə Bakı və Abşeron yarımadasında yerləşən palçıq vulkanlarının mühafizəsinin gücləndirilməsinin vacibliyini, onların fəaliyyətinin öyrənilməsinin böyük elmi və praktik əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, bu təbiət sərvətinin gələcək nəsillərə çatdırılması və respublikamızın təbii irsinin geniş miqyasda təbliğ olunması məqsədilə "Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu" Dövlət Təbiət Qoruğunun yaradılması haqqında sərəncam imzalanmışdır [1].

Azərbaycanda mineral müalicə suları ilə müalicəvi palçıq vulkanları tektonik inkişafdan asılı olaraq, Qobustanda, Abşeron yarımadasında, Abşeron arxipelaqında, Cənub-Şərqi Şirvan düzündə, Şamaxı rayonunda, Ağsu çayının aşağı axarında, az miqdarda Siyəzən və Şabran rayonlarında yayılıb. 350-dən çox palçıq vulkanı mənbələri olan var ki, bunların da kimyəvi və üzvi tərkibinin zənginliyi onların müalicə məqsədilə istifadə olunmasına imkan verir. Vulkan palçıqlarının hamısı müalicə məqsədilə istifadə oluna bilməz. Vulkan palçıqlarının müalicəvi xüsusiyyətləri onun tərkibində bioaktiv maddələrin olması, yapışqanlığı, istilik tutumu, hidrogen-sulfidli, yod, brom və naftenli maddələrin olması ilə bağlıdır.

Vulkan palçığının digər palçıqlardan üstünlükləri: xırdalanmış, yumşaq gil kütləsi, yalnız özünə məxsus olan mineral birləşmələr və buna uyğun xüsusi terapevtik təsirdən ibarətdir. Bu üstünlüklər onların müalicə imkanlarını artırmaqla yanaşı, bioaktiv maddələrin stabil qalmasına imkan verir; yerin dərin qatlarından çıxan (4-7 km) vulkan palçıqları antropogen təsirə məruz qalmır lil, torf, sapropel palçıqlarından fərqli olaraq biostimullaşdırıcı təsirə malik kimyəvi mikroelementlər və üzvi maddələrlə zənginləşir. Bunun nəticəsində müalicə üçün tətbiq sahələri genişlənmiş olur. Əgər torflu və sapropel palçıqları dəri və dayaq hərəkəti orqanlarının müalicəsində effekt verirsə, vulkan palçıqlarında müalicə prosedurlarının sayı 10-dan çoxdur, kosmetik vasitələr və müalicəvi kremlər də istehsal etmək olur. Lil, torf, və digər palçıqlarından fərqli olaraq biostimullaşdırıcı təsirə malik kimyəvi mikroelementlər və üzvi maddələrlə zənginləşir ki, bunun nəticəsində müalicə üçün tətbiq sahələri və müalicə imkanları

genişlənmiş olur. Torflu və sapropel palçıqları dəri və dayaq hərəkəti orqanlarının müalicəsində səmərə verirsə, vulkan palçıqlarında müalicə prosedurlarının sayı 10-dan çoxdur. Bu palçıqlardan kosmetik vasitələrin və müalicəvi kremlərin istehsal edilməsi haqqında düşünmək məqsədəuyğun olar. Vulkan palçığında yod, brom, manqan və s. bir çox faydalı elementlərin olması da onun digər palçıqlarla müqayisədə müalicəvi imkanlarını artırır.

Azərbaycanın müalicəvi mineral suları. Mineral suların müalicə xüsusiyyətləri qədim zamanlardan insanlara məlum olub. Azərbaycan ərazisində insanlar müxtəlif tamlı, rəngli, temperaturlu və olduqca dəyərli müalicəvi xüsusiyyəti olan mineral sulardan istifadə edilib. Müəyyən ərazilərdə indiyənə qədər qalan daş hovuzlar da bunu sübut edir. Bu sular insan orqanizmində yaranan müəyyən xəstəliklərin və qeyri-normal funksiyaların müalicəsi üçün istifadə edilir. Mineral suaların müalicəvi xüsusiyyətləri onların tərkibindəki natrium, kalsium, magnezium, xlor, sulfat və hidrokarbonatla müəyyən edilir. Suların tərkibinin müxtəlifliyi isə bu elementlərin müxtəlif nisbətlərdə birləşməsindən asılıdır. Əgər hidrokarbonat və natrium ionu üstünlük təşkil edirsə, bu hidrokarbonatlı-natriumlu, yəni məşhur "Barjomi" tipli sualara aid edilir. Babək rayonu ərazisində çıxan "Sirab" la yanaşı Gülüstan (Culfa), Nəvi (Ordubad), Bicənək (Şahbuz), Dingə, Nəsirvaz (Culfa) və Babək ərazisindən çıxan "Qızılburun" bulaqları isə "Narzan" tipli sulardır. Babək rayonu ərazisində yerləşən "Əsabul-kəhf" ziyarətgahının yaxınlığında çıxan mineral su isə radonla zəngindir ki, bu Pyatiqorsk (Şimali Qafqaz) suyunun analoqu sinir, ürək-damar və revmatizm xəstəliklərinin müalicəsi üçün çox səmərəlidir. Naxçıvan MR ərazisində bu tipli mineral bulaqların sayı 200-dən çoxdur. (Culfa 85, Şahbuz, Babək 50, Ordubad 29) su mənbələri üzrə kəşfiyyat və axtarış işləri həyata keçirilib. Respublikamızın şəfaverici bulaqlarından biri də Şabran rayonundakı "Qalaaltı" suyudur. Əsasən böyrək xəstəliklərini müalicə edən su, maddələr mübadiləsi, mədə-bağırsaq, öd kisəsi xəstəliklərindən əziyyət çəkənlər üçün faydalı hesab edilir. Aparılan ilkin fiziki-kimyəvi tədqiqatlar bu suyun tərkibinin "Naftusiya" suyuna oxşardır. Müəyyən edilib ki, "Qalaaltı" suyu hidrokorbonat- kalsium, xlorid-sulfat-natriumlu mədən sularındandır və tərkibində çox miqdarda hidrogensulfid var ki, bu su tərkibindəki kimyəvi maddələrin köməyi ilə daşəridici və iltihab əleyhinə xassəyə malikdir. Öd kisəsində, öd yollarında, böyrək ləyənində, sidik kisəsində və yollarında əmələ gələn daşların əridilməsinə, iltihablı xəstəliklərin müalicəsinə olduqca yaxşı təsir göstərir. Bu siyahıya Masallıdakı "İstisu"yu göstərmək olar ki, bu su da bir sıra xəstəliklərin müalicəsinə kömək edir. Gədəbəy rayonunun ərazisi də mineral sularla zəngindir. Abşeron rayonunun şəfa bulaqları, Laçın-Kəlbəcər bölgəsinin mineral bulaqları və s. Azərbaycanın müalicə turizmi mərkəzinə çevrilməsi üçün təbii ehtiyyatlardır. Kəlbəcər rayonunda məşhur "Karlovı Varı" tipli mineral su yatağının analoqu olan Yuxarı istisu, Aşağı istisu, Qoturlu, Tutğun mineral suları bazasında əvəllər sanatoriya-kurort kompleksi fəaliyyət göstərirdi.

Son illərdə sağlamlıq turizmi sürətlə inkişaf edən bir turizm növü olaraq sağlamlıqla bağlı problemlərin həlli baxımından çox yararlı və diqqət mərkəzində olan sahədir.

Azərbaycanda müalicə-sağlamlaşdırma turizminin inkişafı üçün təbii ehtiyyatlar baxımından hər cür imkanlar mövcuddur. Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları və müalicəvi mineral suları, Abşeronun müalicəvi palçıq vulkanları və suları, Cənub zonasının müalicəvi mineral suları, Şamaxının, Xəzər sahilinin Nabran-Yalama, Giləzi-Zarat, Abşeron, Lənkəran-Astara çimərliklərinin yaxınlığında karbohidrogenli mineral sular və s. Bütün bu üstünlüklərə baxmayaraq ölkə əhalisinin çox hissəsi təbiətin bizə bəxş etdiyi bu imkanlardan yararlana bilmir. Çünki, Azərbycanda bu turizm növü çox az inkişaf edib, mövcud potensialın heç 10%-dən istifadə edilmir. Baxmayaraq ki, ÜTT-nın məlumatından aydın görünür ki, 2012-ci ildə turizmin bu sahəsindən gələn gəlir 100 milyard ABŞ dollarına bərabər olub. Turizmin bu sahəsi üzrə ən böyük pay sahibi olan ölkələr Sinqapur, Hindistan, Tailand, Malayziya kimi uzaq şərq ölkələridir. Hindistana hər il təxminən 150 min turist müalicə almaq məqsədi ilə gəlir, il üzrə 30% artım qeydə alınmışdır. Hindistanın bu sahədəki üstünlüyü bu tələbi öncədən görməsi, münasib qiymət siyasəti və xarici ölkələrdən gələn turistlər üçün xüsusi tərcüməçilər təqdim etməsidir. Tailanddakı Fuket müalicə mərkəzi 15 dildə tərcüməçi təqdim etməklə sağlamlıq üçün gələn turistə xidmət göstərir.

Azərbaycanda sanatoriya-kurort işinin təşkili üçün kifayət qədər təbii ehtiyyatlar mövcuddur və eyni zamanda rekreasiya, sağlamlıq və turizm baxımdan xidmət üçün əlverişli şərait mövcuddur. Mineral suları, müalicə nefti, palçıq vulkanlarının olması kurort yerlərinin əhəmiyyətini artırmaqla yanaşı, onların il boyu fəaliyyət göstərməsinə də şərait yaradır.

Azərbaycanda sağlamlıq turizminin inkişafı üçün geniş potensial olsa da onlardan istifadənin aşağı səviyyəsi, marketinq fəaliyyətinin təşkilati işlərin zəif təşkili rəqabət imkanlarını azaldır. Bu imkanları artırmaq üçün ilk növbədə infrastrukturun və müalicə üçün lazım olan avadanlıqların, təchizatın müasir tələblər səviyyəsində yaradılması əsas məsələdir. İkinci əsas məsələ müəssisənin bilavasitə istiqaməti üzrə insan resurslarının hazırlanması və yüksək keyfiyyətli xidmətin təşkili, asudə vaxtın səmərəli və cəlbedici keçirilməsinin təşkili, animasiya proqramlarının, SPA xidmətlərinin təşkili. Bunun üçün "Duzdağ", "Naftalan" və "Qalaaltı" brendlərinin beynəlxalq miqyasda rəqabət qabiliyyətli məhsullarının təqdim edilməsi, sanatoriya-kurort xidmətləri üzrə müalicə, rekreasiya paketlərinin hazırlanıb yayılması, keyfiyyətli marketinq xidmətlərinin və reklamın həyata keçirilməsi, sağlamlıq və rekreasiya resurslarının cəmləşdiyi ərazilərdə sağlamlıq-müalicə və rekreasiya fəaliyyətlərini həyata keçirən mərkəzlərin və müəssisələrin yaradılması, sağlamlıq turizminin inkişafı üçün investisiyaların cəlb edilməsi kimi fəaliyyətlərin həyata keçirilməsi bu sahənin inkişafına təkan vermiş olar. Əsas məsələlərdən biri də istifadə edilən mineral suların, müalicə palçığının dəqiq analizi onların müalicəvi xüsusiyyətlərinin dəqiq analizi, eləcə də həkim və tibb personalının hazırlanmasıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğunun yaradılması haqqında" Sərəncamı.-Bakı, 2007-ci il, 15 avqust.
2. az/news/179459
3. aztibb.az/az/news11076

Məhərrəm ZÜLFÜQARLI
Azərbaycan Turizm və Menecment Universiteti,
tarix üzrə elmlər doktoru, professor
mzulfugarli@mail.ru

SOVET İDARƏ SİSTEMİNİN ANTİHUMANİST MAHİYYƏTİ (1920-1921-Cİ İLLƏR)

THE ANTI-HUMANIST NATURE OF THE SOVIET MANAGEMENT SYSTEM (1920-1921)

АНТИГУМАНИСТИЧЕСКАЯ СУЩНОСТЬ СОВЕТСКОЙ СИСТЕМЫ УПРАВЛЕНИЯ (1920-1921-ЫЕ ГОДЫ)

Xülasə: Məqlədə kommunist ideologiyasına əsaslanan sovet rejiminin antihümanist idarə sistemindən bəhs olunur. Kommunist ideologiyası xüsusi mülkiyyətə düşmən, sinfi antoqonizmi təbliğ edən antihümanist, antimilli mahiyyət daşıdığından idarəetmə sistemi də cəmiyyətin inkişafı üçün yararsız idi. Bu ideologiyanı rəhbər tutuan sovet rejimi bir çox xalqlar kimi Azərbaycan xalqını da 70 il antihümanist metodlarla idarə etmişdir. Məqalə 20-ci illərin əvvələrinə aid olsa da antihümanist sovet idarə sistemi 1920-1991-ci illərdə mövcud olmuşdur.

Açar sözlər: Kommunist ideologiyası, sovet rejimi, sinifi antoqonizm, idarə sistemi, xüsusi mülkiyyət

Abstract: The article talks about the anti-humanist management system of the Soviet regime based on communist ideology. Since the communist ideology was hostile to private property, anti-humanist, and anti-national, promoting class antagonism, the management system was also unsuitable for the development of society. The Soviet regime, guided by this ideology, ruled the people of Azerbaijan with anti-humanist methods for 70 years, like many nations. Although the article is dedicated to the beginning of the 20s, the anti-humanist Soviet system of governance existed in 1920-1991.

Keywords: Communist ideology, Soviet regime, class antagonism, management system, private property

Абстракт: В статье говорится об антигуманистической системе управления советского режима, основанной на коммунистической идеологии. Поскольку коммунистическая идеология была враждебна частной собственности, антигуманистична и антинациональна, пропагандировала классовый антагонизм, система управления также была непригодна для развития общества. Советский режим, руководствуясь этой идеологией, в течение 70 лет правил азербайджанским народом антигуманистическими методами, как и многие народы. Хотя статья посвящена начала 20-х, но антигуманистическая советская система управления существовала в 1920-1991 годах.

Ключевые слова: Коммунистическая идеология, советский режим, классовый антагонизм, система управления, частная собственность

Kommunist ideologiyası xüsusi mülkiyyətə düşmən, sinfi antoqonizmi təbliğ edən antihümanist, antimilli mahiyyət daşıdığından idarəetmə sistemi də cəmiyyətin inkişafı üçün yararsız idi. Bu ideologiyanı rəhbər tutuan sovet rejimi bir çox xalqlar kimi Azərbaycan xalqını da 70 il antihümanist metodlarla idarə etmişdir.

Sovet hakimiyyətinin mahiyyətini Azərbaycan İnqilab Komitəsinin 1920-ci ilin mayından 1921-ci ilin mayına kimi qəbul etdiyi 368 dekretdə açıq aydın görmək olar [5].

Bu dekretlər işğalçı rejimin Azərbaycanda möhkənlənməsinə xidmət edirdi. Bunlar xüsusi mülkiyyətə düşmən olan kommunist rejiminin özəl müəssisələrin milliləşdirilməsinə, kəndlərdən ərzaq toplanmasına, sovet rejiminə qarşı yerli əhalinin müqavivətinin qırılmasına, sovet rejimi üçün kadrların hazırlanmasına, təhsilə və s. məsələlərə aid idi. Verilən dekretlərdən aydın olur ki, əhali bu dövrdə işğalçı rejiminin törətdiyi cinayətlərlə yanaşı yolxucu xəstəliklərdən də ciddi ziyan görmüşlər. Bunu "İri buynuzlu malqarada taun xəstəliyinə qarşı mübarizə tədbirləri haqqında" (24 mart 1921-ci il) 340 saylı dekret və "Malariyaya qarşı mübarizə üçün Komitənin təşkili haqqında" (17 aprel 1921-ci il) 350 saylı əmr sübut edir [5,s.518-519].

Aprel işğalı nəticəsində yeridilən siyasət, baş vermiş aclıq və səfalət əhalini dilənçi vəziyyətinə salmışdı. Belə çətin vəziyyətdə Azərbaycan İnqilab Komitəsi yoxsulluğun aradan qaldırılması istiqamətində lazımi tədbirlər görmək əvəzinə "Dilənçiliyin qadağan edilməsi haqqında qətnamə" (10 oktyabr 1920-ci il) qəbul etmişdi. Bu qətnaməyə görə dilənçiliklə məşğul olanlar 3 ay müddətinə həbslə cəzalandırılırdılar [5, s.334].

Bu və digər problemləri qadağalar yolu ilə yox əhalinin maddi-rifahını yüksəlmək yolu ilə aradan qaldırmaq istiqamətində addımlar atılmadığından vəziyyət acınacaqlı olaraq qalırdı. İşğal nəticəsində ağır iqtisadi və siyasi böhranla üzləşən Azərbaycanda vəziyyəti düzəltmək üçün səmərəli addımlar atmaq əvəzinə bolşeviklər əhalini daha çox istismar etmək, onları pulsuz işləməyə məcbur etmək üçün yeni üsullar axtarırdılar ki, bunlardan da biri kommunist iməcilikləri idi. Bolşeviklər kommunist iməciliklərində insanların könüllü işlədiklərini iddia etsələr də bu ağ yalan idi. Bu işlərə insanlar zor gücünə, inzibati təzyiqlərlə cəlb olunurdular ki, bu da fikrimizcə orta əsrlərə xas olan biyara daha çox bənzəyirdi. Kommunist imcəliklərinini ideoloji əsasını V.İ.Lenin "Böyük təşəbbüs" əsərində əsaslandırmağa çalışmışdı. O yazırdı: "Kommunist iməciliklərinin‖ məhz ona görə böyük tarixi əhəmiyyəti var idi ki, bu iməciliklər əmək məhsuldarlığını inkişaf etdirməkdə, yeni əmək intizamına keçməkdə, təsərrüfat və həyat üçün sosialist şəraiti yaratmaqda fəhlələrin şüurlu və könüllü təşəbbüslərini bizə göstərir." [3, 29 c.,s.430]

Yaddan çıxarmaq lazım deyil ki, kommunist iməcilikləri Azərbaycanda 70 il sovet rejimi dövründə davam etmiş, fəhlə və kəndlilərlən yanaşı ziyalılar da inzibati üsularla müxtəlif işlərə cəlb edilmişlər. Sovet tarixşünaslığının verdiyi məlumata görə, AK(b)P Bakı Komitəsinin qərarı ilə 1920-ci il iyunun 25-də təşkil olunuş iməcilikdə 12 min nəfər iştirak etmişdir. 1920-ci ilin təkcə axırıncı dörd ayı ərzində Bakıda təşkil olunan iməciliklərdə 285,5 mindən artıq adam iştirak etmişdi ki, bunların da 46,3 min nəfəri kommunist idi. Həmin iməciliklərdə görülən işin istehsala 30,8 milyon manat xeyri olmuşdu. Dəmir yolunda və qəzalarda tez-tez iməciliklər keçirildi. Kommunist iməciliklərində iştirak edənlər neft mədənlərini, neft emalı zavodlarını və digər zavodları, dəmir yollarını təmizləyib qaydaya salmaq, vaqon və paraxodları yükləmək, boşaltmaq, su kəmərləri çəkmək, Şəhərləri, qəza və rayon mərkəzlərini abadlaşdırmaq sahəsində böyük işlər görmüşlər [2,s.395].

Sovet Rusiyasında əsası qoyulan iməciliklər 1919-cu ildən başlayaraq sovet dövləti dağılana qədər davam etmişdir. Hətta müasir dövrdə bəzi postsovet məkanında hazırki dövrdə də onun qalıqlarına rast gəlmək olur.

Azərbaycan İnqilab Komitəsi 1920-ci ilin ortalarından Azərbaycanda hərbi kommunizm‖ siyasəti həyata keçirilməyə başladı və sentyabrın 23-də kəndlərdə sovetlərin təşkilinə şərait yaradılması adı altında kənd yoxsul komitələrinin təsis edilməsi haqqında dekret qəbul etdi. Sovet hakimiyyətinin 20-ci ilərin əvvəllərində əsas məqsədi kəndə yoxsul, ortabab və qolçamaq təbəqələrini yaratmaq, bunlar arasında düşmənçiliyi qızışdırmaqdan ibarət idi. Sovet rejimi Azərbaycan əhalisi arasında vətəndaş müharibəsini alovlandırmaqla öz siyasətini yeritməyə çalışırdı. Bu münasibətlə AK(b)P MK-nın 29 may 1920-ci ildə qəbul olunmuş müraciətində deyilirdi: " Kəndlilər! İndi sizin yeganə vəzifəniz mülkədarlara qarşı mübarizə aparmaqdır, bəyləri, xanları, ağaları, müsavatçıları məhv etməkdir, çünki onlar sizi torpaqsız qoymaq istəyirlər. Torpağı tutub alın, mülkədarları məhv edin, fəhlələrlə əlbir olub öz qardaşlarınızın qanlı qatillərinə qarşı mübarizəyə qalxın!" [4,s.30]

AK(b)P II qurultayından sonra Bakı partiya təşkilatının fəhlə-kəndli ittifaqını möhkəndirmək adı ilə

“Kəndli həftəsi” kampaniyasına başladı. Bunda məqsəd sovet hakimiyyətini qəbul etməyən kəndliləri təbəqələşdirərək bir-birinə qarşı qoymaq, onların əlində olan ərzağı açlıq çəkən Bakı proletariatına yardım‖ adı ilə müsadirə etmək idi. Bu məqsədlə 1500 nəfər qabaqcıl Bakı fəhləsi kəndlərə göndərilmişdir. Nuxa qəzasına göndərilmiş 31 nəfər fəhlə 67 yoxsul komitəsi, Göyçay qəzasına göndərilmiş fəhlələr isə 100-dən artıq yoxsul komitəsi təşkil edərək onları sovet rejiminə düşmən olan öz həmkəndlilərinə qarşı qoymuşlar. Kəndlərə göndərilmiş fəhlələr Azərbaycan İnqilab Komitəsinin ərzaq sapalağı siyasətini həyata keçirməsinə, artıq taxıl və digər kənd təsərrüfatı məhsullarının dövlətin xeyrinə zəbt etmək haqqında Azərbaycan İnqilab Komitəsinin 26 sentyabr 1920-ci il tarixli dekretinin həyata keçirilməsinə yaxından kömək edirdilər.

N.Nərimanov I Ümumazərbaycan sovetlər qurultayındakı (may 1921-ci il) çıxışında fəhlələrin kənlərdə yaratdığı yoxsul komitələri haqqında demişdir: “Yoxsul komitələri inqilab komitələrindən sonra, söz yoxdur ki, müəyyən nəticələr verdi. Yoxsul komitələri öz işlərini gördülər, kəndlilər içərisində təbəqələşməyə nail oldular.” [12,s.60-61]

Sovet hakimiyyətinin ilk illərində həyata keçirilən siyasət iqtisadiyyata ciddi ziyan vurmuşdu. Vətəndaş müharibəsinin yaratdığı problemlərlə yanaşı, iqtisadi siyasətin yaratdığı böhran kütləvi aclıq təhlükəsi yaradırdı. Petroqradda və Moskvada olduğu kimi, 1921-ci ilin yazında Bakıda bir sıra müəssisədə tətillər olmuşdu. Buna səbəb Bakıda tez-tez baş verən ərzaq qıtlığı, çörək normasının azaldılması idi. 1921-c ilin aprelində Balaxanıda fəhlələr tətil etdilər. Tətildə əsasən Cənubi Azərbaycandan gəlmiş, kəndlə bağlı olan İran təbəələri iştirak edirdilər. Onlar “Çörək verin, yoxsa evə qayıdırıq” tələbini irəli sürmüşdülər. 1921-ci ilin payızında isə əmək haqqının gecikdirilməsi ilə əlaqədar Xəzər nəqliyyatçıları tətil etdilər. 1921-ci ilin iyununda sovet hökumətinin vergi siyasətindən narazı olan Bakı dükançıları tətilə çıxdılar. Bir sıra qəzalarda kəndli həyəcanları baş verirdi. Bu çıxışlar rəsmi hakimiyyət orqanları tərəfindən “əksinqilab” kimi qiymətləndirilir və ya “siyasi quldurluq” hesab olunurdu [1,s.75-76].

Faktlar sübut edir ki, XI ordunun işğalı ilə Azərbaycanda qurulmuş sovet hakimiyyəti öz mahiyyətini nə qədər saxta şüarlar və faktlarla ört-basdır etmək istəsə də onun əsil mahiyyəti həmin dövrdə də əksəriyyətə məlum idi. Sovet hakimiyyətinin mövcud olduğu 70 ildə, qapalı rejim çərçivəsində sovet ideoloqları saxta tarix yazmaqla Azərbaycan xalqının hafizəsindən tarixi həqiqətləri silməyə çalışsalar da buna nail ola bilməmişlər.

Ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı. "Elm". 2008. 568 səh. + 48 səh. Illüstrasiya
2. Azərbaycan Kommunist Partiyasının tarixi I hissə. Azərnəşr, Bakı 1958, 424 s.
3. LeninV.İ. Əsərləri çoxcildlik.
4. Zülfüqarlı M.P. Tarixşünaslıq (1920-1991-ci illər) Azərbaycan tarixi – DƏSRLİK. Bakı ―MEKAN SERVES NN‖ 2017, 486 s.
5. Декреты Азревкома (1920-1921гг.).Баку, Азернешр, 1988, 519 с.

BÖLMƏ 1

SOSİAL VƏ XİDMƏT SAHƏLƏRİNİN İDARƏ EDİLMƏSİ PROBLEMLƏRİ

Hafiz HÜSEYNOV
Azərbaycan Turizm və Menecment Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
h.huseynov@atmu.edu.az

QUBA- XAÇMAZ İQTİSADİ RAYONUNDA TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN TURİZMDƏ İSTİFADƏ İMKANLARININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

DETERMINATION OF THE POSSIBILITIES OF USING THE HISTORICAL-CULTURAL MONUMENTS IN TOURISM IN GUBA-KHACMAZ ECONOMIC DISTRICT

ОПРЕДЕЛЕНИЕ ВОЗМОЖНОСТЕЙ ИСПОЛЬЗОВАНИЯ ИСТОРИКО-КУЛЬТУРНЫХ ПАМЯТНИКОВ В ТУРИЗМЕ ГУБА- ХАМАЗСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА

Xülasə: Məqalədə Quba-Xaçmaz iqtisadi rayonunda tarixi-mədəni abidələrin turizmdə istifadə imkanlarının müəyyənləşdirilməsi elmi cəhətdən araşdırılır. Nəzəri və praktik əhəmiyyət kəsb edən bir sıra dəyərli tövsiyələr irəli sürülür.
Açar sözlər: tarix, mədəniyyət, turizm, abidə, marşrut

Abstract: Determaning of usage opportunities of historical-cultural sources of Guba-Khachmaz economic district is studied scientifically in the article. Considerable recommendations are given which are significant practically and theorotically.
Keywords: history, culture, tourism, monument, route

Абстракт: В статье научно исследовано определение возможностей использования памятников истории и культуры в туризме Губа-Хачмазского экономического района. Выдвинуты ряд ценных рекомендаций, имеющих теоретическое и практическое значение.
Ключевые слова: история, культура, туризм, памятник, маршрут

Giriş

Müstəqillik əldə etdikdən sonra və bu günə qədər Azərbaycanın turizm sənayesi böyük inkişaf yolu keçib. Dövlət tərəfindən göstərilən diqqət və qayğı sayəsində xüsusən 44 günlük qələbədən sonra turizm sektoru xeyli genişlənməyə başlayıb. İlin bütün dövrlərində Azəraycanıın turizm obyektlərində yerli və xarici turistlərə yüksək səviyyədə xidmətlər göstərilir. Bu gün Azərbaycanda turizmin ən müxtəlif növləri, o cümlədən mədəni turizm, ekoloji turizm, idman turizmi və s., turizm üzrə xidmətlər tətbiq edilir. Quba-Xaçmaz İqtisadi rayonunda olan tarixi və dini abidələr mədəni turizm çərçivəsində regiona səyahət edən turistlərin diqqətini xüsusilə cəlb edir. Siyəzən, Şabran, Quba, Qusar, Xaçmazın qədim tarixi, zəngin mədəniyyəti və ənənəvi qonaqpərvərliyi ilə turizm sahəsinin inkişafı üçün böyük potensiala malikdir.

XXİ əsrin inkişaf edən ən vacib xidmət sektorlarından biri turizmdir. İnsanların gəlir səviyyəsinin artırılması, nəqliyyat və ünsiyyətdə baş verən texnoloji inkişaflar, həmçinin insanların həyatlarını asanlaşdırmaqda ortaya çıxan asudə vaxtların həm milli, həm də beynəlxalq səviyyədə qiymətləndirərək turizmdə iştiraka meyl davamlı olaraq artır.

Dünyanın ən böyük kütləvi hərəkəti olan turizm ən sadə dildə desək bir yerin tarixi təbii gözəlliklərini görmək, tanış olmaq, əylənmək və dincəlmək üçün səyahətdir.

Həyat səviyyəsinin yaxşılaşdırılması, asudə vaxt və istirahət üçün ayrılan vaxtın artırılması, rahat nəqliyyat və yerləşdirmə vasitələrinin yaranması - bütün bunlar dünyanın demək olar ki, bütün ölkələrində müasir turizmin inkişafına mühüm təsir göstərir. Dünya məkanının qloballaşması insanların gündəlik həyatının əhatə dairəsini xeyli genişləndirmiş, onların ətraf aləmə təbii marağını stimullaşdırmış, müxtəlif dövlətlərin vətəndaşlarının mədəni əlaqələrinin və qarşılıqlı səfərlərinin inkişafına ehtiyac yaratmışdır. Bunun fonunda mədəni abidələr turizmin inkişafı təbii xarakter alır, təkcə ibtidai səyahətə deyil, həm də yüksək keyfiyyətli asudə vaxt və istirahət əldə etməyə, habelə səfər edilən ölkələrin və regionların mədəni nailiyyətləri ilə tanış olmağa yönəlib. Turizm səyahət edən vətəndaşların yüksək mədəni tələblərinin təzahür sferasına çevrilir. Artan mədəni tələblər ev sahibi tərəfindən gücləndirilməlidir, əks halda ona maraq azalacaq.

Quba-Xaçmaz iqtisadi rayonu — Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən inzibati rayonlarını əhatə etməklə Azərbaycanın şimal-şərq hissəsində yerləşir.

Quba-Xaçmaz iqtisadi rayonunun ən inkişaf etmiş və önəmli şəhəri Qubadır. Ərazi şimaldan Rusiya Federasiyasının Dağıstan Respublikası, şərqdən Xəzər dənizi, cənub-şərqdən Abşeron, cənubdan Dağlıq Şirvan, cənub-qərbdən isə Şəki-Zaqatala iqtisadi rayonları ilə həmsərhəddir.

Quba rayonunun ərazisi ulu yaradan tərəfindən sanki turizm və insanların ağır əməkdən sonra istirahət etməsi üçün nəzərdə tutulmuşdur. Sıx meşələr, uca dağlar, şiş qayalar, gur çaylar, soyuq bulaqlar, nəğmə deyən şəlalələr, dibi görünməyən yarğanlar və s. buraya gələnləri vəcdə gətirir. Hər il on minlərlə turist, səyyah, qonaq, təbiət vurğunu bu əsrarəngiz gözəlliklərdən həzz alır.

Qubadan 65 kilometr məsafədə, uca dağlar qoynunda, dəniz səviyyəsindən 2.500 metr yüksəklikdə yerləşən Xınalıq kəndinin əhalisi nadir etnik qrupdur. Xınalıq dili dünyadakı müasir dillərin heç birinə bənzəmir. Kəndin yaxınlığında müqəddəs ziyarətgah yerləşir. IX əsrə aid bu ziyarətgahda yerin təkindən təbii alov çıxır. Yerli əhali bu yeri Atəşgah adlandırır. Əvvəllər bu kəndə ancaq atla getmək mümkün idi. Prezident İlham Əliyevin təşəbbüsü ilə kəndə geniş asfalt yol çəkilmişdir. İndi turistlər ilin bütün fəsillərində Xınalığa gedə bilərlər.

XVIII əsrdə yaşamış məşhur fransız yazıçısı Aleksandr Düma Azərbaycanda olarkən Qubaya da gəlmiş, bu məkanın əsrarəngiz təbiətinin seyrinə dalmış, tarixi abidələrinə tamaşa etmişdir. Mənzərəli yerlərin birində istirahət edən qubalılar məşhur yazıçını öz tonqalları ətrafına dəvət etmişlər. Qoyunun necə kəsilib soyulması, ustalıqla doğranması, köz üzərində bişirilən kababın özünəməxsus ləzzəti Dümada böyük təəssürat yaratmışdır. Norveç alimi və səyyahı Tur Heyerdal da bu füsunkar diyarın təbii möcüzələrindən həzz almış, yazdığı elmi əsərlərdə Qubanın gözəlliklərini təsvir etmişdir. Belə faktlar Quba ərazisinin yüz illər boyu alimlərin, səyyahların və turistlərin diqqətini cəlb edən maraqlı və ecazkar bir məkan olmasından xəbər verir.

Rayonun inzibati mərkəzi Quba Bakıdan 168 kilometr məsafədə, dəniz səviyyəsindən 600 metr yüksəklikdədir. Bura gələn turistlər Quba şəhərinin və Quba xanlığının tarixi, bu diyarı məşhurlaşdırmış şəxsiyyətlər barədə yerli tarix muzeyində ətraflı məlumat ala bilərlər. Azərbaycanın məşhur ictimai xadimi, yazıçı və maarifçi Abbasqulu ağa Bakıxanovun ev-muzeyi də buradadır. Azərbaycan tarixinə aid ilk elmi əsər hesab edilən "Gülüstani-İrəm" kitabını A.Bakıxanov məhz bu evdə yazmışdır.

İndiyədək qorunub saxlanılan Səkinə xanım məscidi, Cümə məscidi, XVI əsrə aid məqbərə, qədim şəhər hamamı kimi tikililər turistlərin maraq göstərdikləri tarixi yerlərdəndir.

Qubada yəhudilərin yığcam yaşadıqları Qırmızı Qəsəbə də turistlərin diqqətini çəkir. Qəsəbəyə gələn səyyahlar və turistlər sanki nağıllar aləminə düşdüklərini zənn edirlər. İki, üç, dördmərtəbəli abad, yaraşıqlı fərdi evlər, qəsəbədə fəaliyyət göstərən yəhudi sinaqoqu, azərbaycanlı və yəhudi uşaqlarının birgə təhsil aldıqları, hər cür tədris ləvazimatı və avadanlıqla təchiz olunmuş orta məktəb qonaqlarda böyük təəssürat yaradır.

Quba xalçaları dünyada çoxdan məşhurdur. Bura gələn həmvətənlərimiz, xüsusilə də əcnəbi qonaqlar yerli xalçaçı ustalar tərəfindən əllə toxunmuş xalçaları həvəslə alırlar. "Çiçi", "Pirəbədil",

“Qollu Çiçi”, “Qımıl”, “Cimi”, “Yerfi” və s. xalçalar dünyanın bir çox muzeylərinin və şəxsi kolleksiyaların bəzəyidir.

Rayonun ərazisi yay aylarında turistlərlə dolu olur. İstirahət mövsümündə məşhur Qəçrəş, Balbulaq, Təngəaltı, “Cənnət bağı” istirahət mərkəzlərindəki restoran, kafe və yeməkxanalarda boş masa tapmaq müşkül məsələyə çevrilir. Quba şəhərindən cəmi iki kilometr aralıda Quba-Qəçrəş yolunun üstündəki “Quba” istirahət zonasında turistlər və səyahətçilər üçün hər cür şərait vardır. Həmin yolla dağlara tərəf daha bir neçə kilometr irəlidə fəaliyyət göstərən “Aynur” istirahət mərkəzi respublikamızda məşhurdur. Yayın ən isti, bürkülü günlərində belə bura sərinliyi ilə fərqlənir. Qəçrəş kəndi yaxınlığında “Baba ocağı” istirahət guşəsi də turistlərin çox xoşladıqları yerlərdəndir. Ötən əsrin 60-cı illərindən fəaliyyət göstərən bu məkan turistlərə yaxşı tanışdır. “Uzunmeşə” istirahət mərkəzi göz yaşı kimi təmiz və soyuq sulu bulaqları, yaşıl meşələri ilə tanınır. İlin bütün fəsillərində buraya turist axınının ardı-arası kəsilmir.

Qubaya gəzməyə, yaxud qısamüddətli istirahətə gələnlər şəhərdəki “Şahdağ” mehmanxanasında, eləcə də Prezident İlham Əliyevin təşəbbüsü ilə tikilib istifadəyə verilmiş Olimpiya Mərkəzinin kotteclərində və mehmanxanasında gecələyə bilərlər. Kompleksdə uzunluğu 50 metr olan örtülü üzgüçülük hovuzu, açıq səma altında stadion, müxtəlif idman növləri üçün nəzərdə tutulmuş örtülü stadion, trenajor zalı, tennis kortu və mini futbol meydançası vardır.

"This is the marvelous wonder of the world." On harsh winter days we saw many rivers covered with ice. But never heard of rivers covered with salt. We don't think you've ever heard of it either. Tourists who come to Nakhichevan admire these rivers and waterfalls covered with salt. You can even taste the taste of pieces of salt that look like ice. A person does not want to part with the amazing beauty of these

places, the wonders of which no one has heard or seen. In this territory there are about 10 rivers covered with salt. And they all originate from Mount Duzdag.

Healing properties of the Duzdag salt clinic

The medical and tourist center "Duzdag", which is located in the ancient and historic region - the Nakhichevan Autonomous Republic in Azerbaijan is the well-known wellness center of world.

The health resort gained world fame thanks to the unique salt caves. Their powerful healing properties make it possible to treat respiratory diseases and allergy symptoms effectively. Treatment takes place in a natural salt bath, located two kilometers from the sanatorium itself. It was created in the bowels of a salt mine at a depth of 300 meters. Its height above sea level reaches 1173 meters. The clinic is equipped with special chambers where healing is carried out with salt vapors. The effectiveness of therapy is achieved due to the presence of the necessary factors: humidity, temperature, pressure, ionic composition of oxygen. Natural ventilation circulates here. There are no substances that cause allergic reactions, bacteria and microbes. One of the advantages of the natural clinic is its horizontal location. This allows patients to gradually adapt to the prevailing climatic conditions as they move to their rooms.

The main active element is dry salt particles. When inhaled, they enter the respiratory tract due to their small size (from 1 to 5 microns). Duzdag salts are environmentally friendly. They do not contain heavy minerals. Salt rooms have low humidity and stable temperature throughout the year (17-18 degrees). The oxygen level between the salt layers reaches 20%. In addition to salt particles, the air of the caves is saturated with useful elements in the form of iodine, calcium, sodium, magnesia, sodium chloride ions. This rarity of the chemical composition makes it possible to treat various diseases. Duzdag is a leader among many popular European centers for the treatment of respiratory diseases and allergic symptoms.

Historical approach

Since the middle of the 20th century, the increase in the number of allergic diseases in the world has become a serious concern for doctors. After a long search, it was found that such diseases are cured in salt mines. For the first time in 1871, near the Italian city of Florence, in the settlement of Monsammam in the province of Tuscany, in the conditions of a mine, patients with rheumatic fever were treated in stalactite and stalagmite mines. Such mines operate in such countries as Germany, Hungary, Belarus, Ukraine. Such mines have become karst caves, their microclimate is rich in calcium ions.

There are also salt mines where a microclimate with sodium and chlorine ions predominates. Such mines have been operating since 1968 in the Polish city of Krakow, in the Ukrainian village of Solotvino in the city of Uzhgorod, since 1979 near the city of Nakhichevan of the Nakhichevan Autonomous Republic in Azerbaijan. At first, this healing center was located in the Babek region as part of the Central Hospital as a department with 50 wards, then since 1982, near the salt mine in a separate building with 100 wards.

The Physiotherapy Center is located 2 km from the Duzdag Hotel in Nakhichevan. The hospital itself consists of above-ground and underground parts. The first is located in Duzdag and in the hotel "Duzdag", and the second - under the mountain. At a depth of 300 meters from the entrance to the 2nd main mining workshop of salt mines. The hospital, located in the hotel "Duzdag", consists of 5 galleries, in which there are 47 wards with 128 beds, a cafeteria, a TV room, a library. near the salt mine in a separate building with 100 chambers.

Salt as a natural resource

The history of Nakhchivan is connected with the history of extraction of Nakhchivan salt. In order to study Nakhchivan’s history, firstly, we need to learn the history of Nakhchivan salt. Nakhchivan salt, Duzdagh has been great importance in the formation of Nakhchivan as a city. 5-7 thousand years ago, the precious metals and money were not used in circulation. Taking into account that salt was the only means of circulation at that time, Nakhchivan was built in those areas where the salt was extracted. This allows the conclusion that the formation of the city of Nakhchivan began with the first extract of salt 5-7 thousand years ago in Nakhchivan. Historians from different countries also informed about this.

The Salt Museum was put into operation in Nakhchivan. This museum was created at the "Duzdagh" hotel. The establishment of this unique museum reflecting the formation of the city of Nakhchivan and its city traditions is very important for our autonomous republic as well as for our country. Because the formation of urban culture is not typical for all ancient settlements in our country. There should be reasons for creating a culture of mass in the same area and the necessity of public living conditions on the basis of this culture. Urbanization imposes demands on coexistence in a limited area which is derived from the development of public consciousness. From this point of view, salt production in Nakhchivan which requires the formation of urban culture is also of universal importance. Because it is about a field of 5000-7000 years of activities. One of the reasons of this museum's uniqueness is that, unlike the other unusual museums operating all over the world, this cultural institution is based absolutely on historical reality. As we know, there are a lot of museums in many countries and they are an aggregate of unusual interests in terms of tourist attraction. The fact makes this new museum unusual is that a simple blessing bestowed on us by nature is the carrier of an ancient culture for millennia.

Duzdag has 90 million tons of natural resources. This mountain of Azerbaijan is known not only for its transparent and pure salt, but also for its healing properties. According to information, 6000 years ago, since the time of Nuh-Nabi, salt was mined here. Before the world-famous "Silk Road" from the territory of Nakhichevan to the countries of the Middle East, a "road of salt" was stretched. Salt was transported to these countries from here.

In every span, mountain, stone of Duzdag, which is the most wonderful place of the ancient region of Nakhichevan, traces of a secret and magical history are hidden. Many scientific and journalistic works have been written about these places, but so far the secret of this land has not been fully disclosed. Therefore, we ourselves wanted to see the magical miracle of Duzdag.

In the treatment center of the Duzdag Hotel, a doctor, round-the-clock security and housekeeping are at tourists' service. Treatment of patients is carried out under the supervision of medical personnel. During the day, they can relax in comfortable rooms. By visiting the Aquapark, outdoor and indoor swimming pools, basketball, football grounds, tennis courts and fitness centers, tourists can relieve stress and fatigue.

Treatment in the salt caves of Duzdag, Nakhichevan

Patients from different regions of our republic and from foreign countries apply to the Physiotherapy Center "Duzdag" of the Nakhichevan Autonomous Republic. Based on many years of experience, it was found that in patients of older age groups with mild, moderate and severe bronchial asthma, an improvement of 80-86% was noted, and in children - 96-98%. Treatment is carried out during the period when there are no asthma attacks or during remission. In patients undergoing treatment in the mines, a positive therapeutic effect is observed on the 3rd-5th day of treatment. So, sputum secretion decreases, asthma attacks are not observed. The severity of attacks is relieved, dry and wet wheezing in the lungs decreases. Patients are recommended to undergo treatment 1 or, if necessary, 2 times a year (with the condition of consecutive treatment for 3 years).

Speleotherapy is an effective method of non-specific treatment of the broncho-pulmonary apparatus. However, it should also be noted in which cases speleotherapy is indicated and in which it is contraindicated.

Duzdag salts are effective in the treatment of:

- diseases of the bronchi and lungs (chronic obstructive bronchitis, chronic pneumonia of I and II degrees in the stage of weakening);
- pre-asthma condition;
- bronchial asthma of the 1st degree, infectious-allergic and atopic forms, mild, moderate and severe stages;
- allergic reactions;
- dermatological problems (psoriasis);
- diseases of the cardiovascular system;

- psychological conditions (depression, fatigue, tension);
- hormonal disorders;
- residual effects after acute respiratory infections, acute respiratory viral infections, influenza.

Conclusion

Nakhchivan has many ancient places. However, in terms of mass interest, three of them are more remarkable: Ashabi-Kahf Cave, Duzdagh, and Tomb of Prophet Noah. These are in the focus of foreign tourists because they exceed regional boundaries and are of global importance. Citizens of other countries are also informed about all these three places. The fact that tourists coming to our autonomous republic visit these places much is also the result of the overwhelming interest in the rich history of our ancient land. However, the point is that the erection of the monument of Prophet Noah at the Salt Museum makes viewers think again about the aspects that connect Nakhchivan and Noah. This shows that visual imagery in tourism is more effective than verbal and written information. All this plays an important role in promoting Nakhchivan as an ancient land of Noah. In general, the Nakhchivan Salt Museum is a cultural institution that demonstrates the world's first processing experience of salt by mining method, as well as the formation of the initial production culture of human beings.

References

1. Naxçıvan Ensiklopediyası. I cild (Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci *nəşr).* Naxçıvan*:* AMEA Naxçıvan bölməsi. V. Y. Talıbov. *2005. səh. 596.* ISBN 5-8066-1468-9.
2. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: 2008, səh.269-270 (az.)
3. https://www.duzdag.com/duzdag-fizioterapiya-merkezi
4. Nakhchivan: early settlement and Duzdag. Nakhchivan 2013. The materials of international symposium held in 2012, 27-28 July. 360 p.
5. Marro C., V. Bakhshaliyev and S. Sanz, 2010: "Archeological investigations on the salt mine of Duzdag (Nakhchivan, Azerbaijan)", TUBA-AR, 13 (Journal of the Turkish Academy of Science): 230-244.

Mehriban ALLAHQULUYEVA
Azərbaycan Turizm və Menecment Universiteti, müəllim
mehriban.allahguluyeva@atmu.edu.az

NAXÇIVAN REGİONUNUN TƏBİƏT ABİDƏLƏRİ TURİZM POTENSİALI KİMİ

NATURAL MONUMENTS OF NAKHCHIVAN REGION AS TOURISM POTENTIAL

ПАМЯТНИКИ ПРИРОДЫ НАХИЧЕВАНСКОГО РЕГИОНА КАК ТУРИСТИЧЕСКИЙ ПОТЕНЦИАЛ

Xülasə: Naxçıvan regionu təbiət abidələrinin zənginliyi ilə fərqlənən turizm bölgəsidir. Təbiət abidələrindən Narbənd, İlandağ, Gəmiqaya, Pəzməri şəlaləsi, Batabat yaylağı, Əshabi-Kəhf bə başqa tarixi abidələr bölgənin turizm inkişafında mühüm rol oynayır.
Açar sözlər *:* Naxçıvan regionu, turizm, dağ, tarixi abidə

Abstract: Nakhchivan region is a tourist region rich in natural monuments. Of the natural monuments, Narband, Ilandagh, Gamigaya, Pazmari waterfall, Batabat plateau, Ashabi-Kahf and other historical monuments play an important role in the development of tourism in the region.
Keywords*:* Nakhchivan region, tourism, mountains, historical monument

Абстракт: Нахчыванская область является туристическим регионом, богатым природными памятниками. Из памятников природы важную роль в развитии туризма в регионе играют Нарбанд, Иландаг, Гамигая, водопад Пазмари, плато Батабат, Ашаби-Кахф и другие исторические памятники.
Ключевые слова: Нахчыванская область, туризм, горы, исторический памятник

Naxçıvan diyarı təbiət abidələrinin zənginliyi ilə diqqəti cəlb edir və qədim tarixə malik mədəniyyət abidələri turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada qədim dövrlərin yadigarı olan təbiət abidələri - əsrlərdən bəri qorunub saxlanılan, yaşı 800 ildən artıq olan Şərq çinarı, narbənd, tut ağacları Naxçıvan diyarının analoqu olmayan *zəngin* turizm potensialıdır.

Rəsmi mənbələrdə Naxçıvanda 7 təbiət abidəsinin olduğu göstərilir. Əslində isə onların sayı daha çoxdur. Naxçıvan elə bir bölgədir ki, təbiət abidələrinin olduğu yerlərin əksəriyyətində eyni zamanda tarixi abidələrə də rast gəlmək olur. Təbiət abidələrindən idman, speloturizm, dağ turizmi növlərinin inkişafı üçün geniş istifadə etmək olar.

Nadir bitkilərdən hesab olunan **Narbənd** özü maraqlı təbiət hadisəsidir. Özünün fauna və florası ilə zəngin olan muxtar respublikamızda nadir bitkilər, ağaclar çoxdur. Nadir ağaclar silsiləsinə aid edilən narbənd daha uzunömürlülər siyahısına daxildir. 300-350 il, hətta bundan da artıq yaşaya bilən narbənd yayın qızmar istisinə, quraqlığa, borana, güclü küləyə, çovğuna, 40-45 dərəcə şaxtaya dözümlüdür. Çətirinin böyüklüyünə, budaqlarının sıxlığına, gözəl görkəminə görə narbəndi əvəz edən ikinci ağac çətin ki, tapılsın.

Narbənd ağacı barədə akademik Həsən Əliyev hələ 1982-ci ildə çap etdirdiyi "Həyəcan təbili" kitabında yazmışdır: "Bəzək ağaclarından narbənd, demək olar ki, tamamilə məhv olmuşdur. Bu bəzək ağacına SSRİ ərazisində yalnız Naxçıvan Muxtar Respublikasında rast gəlirdik. 40-50 il bundan əvvəl Naxçıvan əyalətində hər bağın ortasında kölgəlik üçün yalnız bu ağaclar görünürdü. Onun sıx yarpaqları nəinki günəşin şüalarını buraxmır, hətta çox vaxt yağışı da keçirmir.

Regionun ən hündür zirvəli dağı sayılan **İlandağ** (2412 metr) da təbiət abidəsi hesab olunur. İlandağ (Haçadağ) kitabəsi Müasir Naxçıvan Muxtar Respublikası ərazisində Urartuların iki mixi yazısı, biri yaşayış yerindən 75 km cənub-şərqdə, İlandağda, digəri Fərhad evi adlanan Orta əsr karvansarasının

yaxınlığında tapılmışdır. Şahbuz rayonunun Biçənək kəndindən şərqdə, Batabat yaylağında arxeoloji abidədir. Fərhad evinin olduğu qayanın girişinin sağında qaya üzərində uzun saçlı kişi başı, solunda qadın rəsmi həkk olunmuşdur. Naxçıvan şəhərindən Fərhad evinə bir mənzil karvan yolu var. Batabat yaylağında Fərhad evi adı ilə tanınan dayanacaq məntəqəsi yaradılmışdı. Orta əsrlərdə Naxçıvan-Batabat yolunda gediş-gəliş artdığından Fərhad evindən bir qədər şimalda iri karvansara tikilmişdi. Yerli əhali bunu Şah Abbas karvansarası adlandırır. Tədqiqatlar Fərhad evi abidələrinin e. ə. I minilliyin sonlarına və eramızın əvəllərinə aid olduğunu söyləməyə imkan verir. Fərhad evi kitabəsi tamamilə dağılmışdır. Fərhad evi ilə bağlı xalq arasında müxtəlif rəvayətlər yayılmışdır. İlandağ kitabəsi adlana kitabə Culfa rayonunun Xoşkeşin kəndi yaxınlığında aşkar edilmiş və mixi kitabənin mətni S.Qaşqay tərəfindən tərcümə edilmişdir. 4 otaqdan ibarət Fərhad evi buradan keçən karvan yollarına xidmət etmiş və müvəqqəti sığınacaq kimi istifadə olunmuşdur. Turizm sektorunun inkişafı üçün tarixi-mədəni irs də əsas şərtdir. Naxçıvanın qədim mədəniyyətlərin kəsişmə nöqtəsi olduğunu sübut edən eramızdan əvvəl I minilliyin sonlarına və eramızın əvvəllərinə aid olan Fərhad evi digər tarixi abidələrdən unikallığı ilə seçilir və diqqəti cəlb edir. Təsəvvür edin, sanki böyük bir qayanın içərisi oyulub və ayrı-ayrı salonlara ayrılıb. Fərhad evinə daxil olarkən bu möcüzənin təsirindən uzun müddət çıxa bilmirsən.

Ordubad rayonu ərazisində, Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə dağ, Zəngəzur silsiləsinin suayırıcında zirvə olan **Gəmiqaya**nın hündürlüyü 3725 metrdir. Sıldırım yamaclı, konusvarı formaya malik olan dağ qədim vulkanik süxurlardan təşkil olunmuşdur. Qədim dünyanın müqəddəs panteon-larından sayılan Gəmiqaya özünün əzəmətli, fantastik görünü-şü ilə insanı heyrətə gətirir. Burada e. ə. 3-1-ci minilliklərə aid minə yaxın qayaüstü rəsm - piktoqramlar (qədim yazılar) var. Ordubadda **Göygöl** deyilən ərazidə nadir təbiət hadisəsini müşahidə etmək mümkündür. Eyni zamanda müşahidə edilən dörd fəsil insanda fərqli duyğular yaradır.

Pəzməri şəlaləsi Ordubad rayonunda, Zəngəzur dağ silsiləsinin Ayıçınqılı aşırımından 3707 metr hündürlükdən başlayan eyniadlı çayın üzərində yerləşir. Pəzməri çayının qolu olan Ayıçınqılı çayının Vənəndçaya töküldüyü yerin yaxınlığında, dəniz səviyyəsindən 2161 metr hündürlükdə gur şəlalə yaranır. Pəzməri kəndindən 4-5 kilometr aralıda yerləşən bu ecazkar təbiət abidəsini görmək üçün Naxçıvanın bütün bölgələrindən buraya çoxlu turist gəlir. Hərçənd şəlalənin yanına enmək heç də asan deyil və hər adama nəsib olmur. Şəlaləyə iki yerdən - həm dağların zirvəsi ilə, həm də dərələrlə yol gedir.

Naxçıvanın daha bir möhtəşəm təbiət abidəsi Şahbuz Dövlət Təbiət Qoruğunun ərazisində yerləşir. Qoruğun əsas torpaq sahələri dəniz səviyyəsindən 2200-2400 m hündürlükdəki dağlıq sahələrdə yerləşir. Qoruğun su ehtiyatları əsasən atmosfer çöküntüləri hesabına formalaşan Batabat mineral bulaqlarından ibarətdir. Bu mineral bulaqlar Naxçıvan şəhərindən 65 km məsafədə, dəniz səviyyəsindən 2445 metr yüksəklikdə yerləşir. 2100-2200 metr mütləq yüksəkliyə malik bu sahələrdə torf və torflu torpaqlar yayılmışdır. Elə möhtəşəm təbiət abidəsini də Batabat gölü üzərində əmələ gəlmiş bu torf qatı yaradır. Qalınlığı 2 metrə çatan bu qat geniş sahəni əhatə edir və kiçik ada təsiri bağışlayır. El arasında bu kütləni "Üzən ada" adlandırırlar. Küləyin təsiri ilə "ada" davamlı olaraq gölün üzərində hərəkət edir. Üzən ada Sfaqnum mamırlarından və onun üzərində bitən ot örtüklərindən formalaşıb. Küləyin istiqamətindən asılı olaraq ada öz yerini dəyişir, bu da adama xüsusi ləzzət verir. Göldə yaşayan qiymətli qızıl və gümüşü ilişkən balıq növü bu ərazidə balıq ovu idmanının da yaradılmasına imkan verməklə, gələcəkdə turistlər üçün maraq kəsb edə bilər. Ada göldəki suyun tam axıdılmasına mane olduğundan, burada balıqlar qışda da qala bilir. Torfun altındakı münbit şərait hesabına çoxalan külli miqdarda onurğasızlar balıqların bol qidasını təmin edir. Ərazi dərman bitkiləri ilə zəngin olduğundan, həm də təmiz hava hesabına burada gələcəkdə turist bazası və filoterapiya mərkəzinin yaranması üçün perspektiv vardır.

Dillər əzbəri olan **Batabat yaylağı** Şahbuz rayonunun ərazisində, Kiçik Qafqaz dağlarında yerləşir. Burada, əsasən, dağ, göl və dağ-çəmən landşaftı inkişaf edib. Batabata üz tutan qonaqlara, turistlərə burada fəaliyyət göstərən Şahbuz Dövlət Təbiət Qoruğunda mühafizə olunan zəngin bitkilər, nadir və nəsli kəsilməkdə olan heyvan və quş növləri haqqında ətraflı məlumat verilir. Elə bunun nəticəsidir ki, son dövrlər Naxçıvana tədqiqat məqsədilə gələn turistlərin də sayı kifayət qədərdir.

Batabat yaylağını dəniz səviyyəsindən, təqribən, 3100-3200 metr hündürlüyü olan "Qonaqgörməz", "Səbətkeçməz", "Təkəli", "Əyriqar", "Çaldağ" adı ilə tanınan dağlar əhatə edir. Təbiətin gözəl guşələrindən biri olan Batabat yaylağı gül-çiçəkli çəmənlikləri, saf və təmiz dağ havası, meşələri, Zorbulaq, Durnalıbulaq, Uzunbulaq kimi şirin suları və "Narzan" tipli Batabat mineral suları ilə məşhurdur. Batabat yaylağının təbiəti, onun saf havası ağciyər, ürək, əsəb və bir sıra xəstəliklər üçün çox faydalıdır. Batabat gölünün mənzərəsini, "Üzən ada"nı seyr etmək isə insana başqa bir zövq verir.Batabat yaylağına gedən yolun sağında Ağbulaq İstirahət Mərkəzi kimi modern bir məkan yerləşir. Ölkəmizdə müasir kənd turizminin ilk nümunələrindən olan bu mərkəzə təşkil olunan turizm turlarının üzvləri də Batabata ekskursiya etmək, hərtərəfli tanış olmaq imkanı qazanırlar.

Naxçıvan muxtar respublikasının təbiət abidələrinə maraq həmişə böyük olub. Turistlərin ən çox maraq göstərdikləri yer isə Batabat gölündəki "Üzən ada"dır. Hər il yüzlərlə turist, o cümlədən İran və Türkiyədən insanlar Batabat ərazisində dincəlməyə gəlir.

Əcnəbi qonaqlar Naxçıvanın təbiət abidələrinə, Duzdağa, dini turizm ünvanı kimi tanınan, əslində elə iki möhtəşəm təbiət abidəsi - İlandağ ilə Nəhəcir dağları arasında yerləşən təbii mağaradakı Əshabi-Kəhf ziyarətgahına böyük maraq göstərirlər. Bu potensialdan səmərəli istifadə etmək məqsədilə mühüm işlər görülmüş, şəhər və rayonlarda milli və müasir memarlığın nailiyyətlərini özündə cəmləşdirən istirahət parkları istifadəyə verilmiş, müasir tələblərə cavab verən mehmanxanalar tikilmiş, yeni abidələr ucaldılmış, tarixi yaddaşı əks etdirən qədim memarlıq abidələri bərpa və konservasiya edilərək əvvəlki görkəmlərinə qaytarılmışdır.

Ədəbiyyat

1. Naxçıvan tarixi. Üç cilddə I cild, Naxçıvan:Əcəmi, 2013, 452 s.
2. *Əliyev Həsən* Əlirza oğlu, *Həyəcan təbili*. Bakı-2002. ISBN. 175 s.
3. https://nakhchivan.preslib.az/az_d9.html
4. https://medeniyyet.az/page/news/5397/Naxcivan-ve-dini-turizm.html

Aygün MƏMMƏDOVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
aygun-mamedova-1999@ mail.ru

TARİXİ ƏHƏMİYYƏTLİ MƏŞHUR ŞƏKİ KARVANSARAYLARI

FAMOUS SHEKI CARAVANSERAIS OF HISTORICAL SIGNIFICANCE

ИЗВЕСТНЫЕ ШЕКИНСКИЕ КАРАВАН-САРАИ ИСТОРИЧЕСКОГО ЗНАЧЕНИЯ

Xülasə: Bu məqalədə tarixi baxımından Şəki şəhərində yerləşən karvansaraylardan bəhs edilir. Həmçinin Şəki karvnsaraylarının digər şəhərlərdə yerləşən karvansaraylardan fərqli olduğu haqqında melumat verir. Eyni zamanda hansı memarlıq üslubuna aid edildiyini və hansı dövrə aid edildiyi, karvansayların planı haqqında melumatlar öz əksini tapır. Bu məqalədə karvansarayların ticari əlaqələrdə ki böyük rolunan bəhs edilir. Məqalədə qədim zamanlardan bəri kərvansarayların turizmdə mühüm rolu olmuşdur.

Açar sözlər: memarlıq abidəsiş, planlaşdırm, karvansaray, tarixi memarlıq.

Abstract: This article talks about the caravanserai in the city of Sheki from a historical point of view. He also informs about the fact that Sheki caravanserais are different from caravanserais in other cities. Information about the organization of the same architectural style and the period of the organization, the plan of the caravansary is reflected. This article discusses the great role of caravanserais in trade. In the article, since ancient times, caravanserais have played an important role in tourism.

Keywords: architectural monument, planning, caravanserai, historical architecture.

Абстракт:В данной статье рассказывается о караван-сарае в городе Шеки с исторической точки зрения. Он также сообщает о том, что Шекинские караван-сараи отличаются от караван-сараев в других городах. Отражены сведения об организации того же архитектурного стиля и периода организации, план караван-сарая. В данной статье рассматривается большая роль караван-сараев в торговле. В статье издревле караван-сараи играли важную роль в туризме.

Ключевые слова: памятник архитектуры, планировка, караван-сарай, историческая архитектура.

TARİXİ ƏHƏMİYYƏTLİ MƏŞHUR ŞƏKİ KARVANSARAYLARI

Karvansaraylar həm turizm həm də tarixi əhəmiyyətli memarlıq abidələridir. Karvansaraylar çox vaxt ticarət yollarında inşa edilirdi. Böyük İpək Yolu üzərində yerləşən Azərbaycan tarixən geniş ticarət əlaqələrinə malik olub. Ölkənin qədim karvan yolları üzərində yerləşməsi, iqlimi ərazidə ticarətin əlverişli olması və coğrafi mövqeyi geniş səviyyədə təşəkkülünə təkan verirdi. İqtisadi əlaqələrin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edən karvan yolları üzərində tacirlərin rahatlığı üçün hamamlar, kəhrizlər, məscidlərlə yanaşı, karvansaralar da inşa olunurdu**.** [1]İlk karvansaraylar Azərbaycan ərazisində təxminənən e.ə. IV-III minillikdə, yəni 5-6 min il əvvəl inşa edilib. Eramızdan əvvəl V əsrdə yaşamış yunan tarixçisi Herodot Əhəmənilər imperiyasının tərkibində yaşayan 70 xalq və tayfanın adını çəkir. İran hökmdarı imperiyanın idarə olunmasını asanlaşdırmaq məqsədilə hərəkət üçün rahat yolların yaradılmasına və onların təhlükəsizliyinin təmin olunmasına xüsusi diqqət yetirirdi. Tarixi mənbələrə görə əsas ticarət yollarında bir günlük yol məsafəsində karvansaralar və gözətçi dəstələri üçün məntəqələr tikilirdi.[1,s. 10-12]

[1] Академия наук Азербайджанской ССР. Зодчество Азербайджана XII-XV вв. и его место в архитектуре Переднего Востока. Baku: Наука, Главная редакция восточной литературы. 1966. 279.

Orta əsrlərdə Azərbaycan Şərqlə Qərbin müxtəlif ölkələri ilə ticarət edirdi. Neft, duz, ipək, yun, mis qablar və xalçalar müxtəlif ölkələrə ixrac olunurdu. Həmin dövrlərdə ölkəyə gələn tacirlər karvanlarının təhlükəsizliyi, onların ölkədə qala bilmələri üçün müxtəlif bölgələrdə karvansaralar tikilirdi. Əsrlər boyu böyük şəhərlərdə, o cümlədən də Böyük İpək Yolu üzərindəki karvansaralar bugünkü mehmanxana funksiyasını daşıyıb. XVIII-XIX əsrlərdə şəhərdə inşa edilmiş karvansara binaların təkcə karvanların və səyyahların qalması üçün deyil, həm də müxtəlif ticarət əməliyyatlarının aparılması üçün də nəzərdə tutulurdu.

Şəki şəhəri də karvan yolları üzərində yerləşdiyi üçün burada karvansaraylar inşa edilib. Şəki karvansarayları da hələ qədim dövrlərdən xeyli məşhur olub. Məlumatlara görə, bir vaxtlar Şəkidə 6 karvansaray fəaliyyət göstərib. Ümumilikdə 5000 nəfər qonağı qəbul edib yüksək səviyyədə xidmət göstərən bu karvansaraylar illər, əsrlər ötdükcə ya öz fəaliyyətini dayandırmalı olub, ya da iş funksiyasını dəyişdirərək başqa məqsədlər üçün istifadə olunub. XVIII-XIX əsrlərdə Şəkidə olan 5 böyük karvansaradan dövrümüzə qədər yalnız ikisi Yuxarı Karvansara və Aşağı Karvansara gəlib çatmışdır. [2, s.1-2]

Karvansay;n tikintisi zamanı uzaq ölkələrdən gələn tacirlərin rahatlığı, özünün və malının təhlükəsizliyi üçün hər şey nəzərə alınmışdır. Darvazalar qonaqpərvərliklə yolçuların və tacirlərin üzünə açılsa da, bağlandıqda alınmaz bir qalaya çevrilir.

Yuxarı Karvansara Şəki şəhərinin Mirzə Fətəli Axundov küçəsində yerləşir. Bu karvansarayın inşa edilməsi təxminən XVIII-XIX əsrlər aid edilir. Azərbaycanın ən qədim sənətkarlıq, ipəkçilik və ticarət şəhəri olan Şəki karvan yolları vasitəsilə digər xanlıqların və bir çox xarici ölkələrin ticarət mərkəzlərini özündə birləşdirirdi. Şəki xanlıq dövründə inşa edilib. Əlbəttə ki, belə bir təbii-coğrafi və strateji şəraitə malik şəhərdə karvansaraların olmaması mümkün deyildir. Bütün Zaqafqaziyada məşhur olan Yuxarı Karvansara XVIII–XIX əsrlərdə öz böyüklüyünə görə ticarət ücün əlverişliydi.

Yerli ustalar tərəfindən tikilmişdir. Yuxarı Karvansarayı üslub cəhətininən Aran memarlığ məktəbinə aidir. Karvansarayın ümumi sahəsi 6000 kvadratmetr.Şəki üçün səcyəvi olan olan kərpic və çay daşının birlikdə işlədilməsi karvansaraya xüsusi kolorit verir.

Tikili relyefə uyğun içəri üzdən isə 8 metr hündürlükdə, küçəyə baxan hissədə 14 metr olaraq inşa edilib. Yuxarı Karvansarayın iki giriş darvazası var və zirzəmisi mövcudur. Karvansarayda 300 dən çox otaq var. Bu karvansaray üç mərtəbədən ibərətdir:zirzəmidə tacirlər öz mallarını saxlayar, birinci mərtəbədə ticarət ilə məşqul olurdular və ikinci mərtəbədə yaşayış üçün nəzərdə tutlmuşdur.

Karvansarayın çarhovuzlu geniş həyətindən ikinci mərtəbəyə müxtəlif səmtlərdən aparan daş pilləkənlər ilk olaraq bir labirint təsiri bağışlasa da bu yolları məhəccərli dəhlizlərə qovuşduraraq sonda bütün giriş-çıxışları asanlaşdırır. Bunlar zahiri effektin bir qədər də harmonik görüntüsü üçündür. Birinci mərtəbədəki otaqların alt qatı kəsmə zirzəmilərdən ibarətdir.

Darvazaların içəri hissəsinin tavanı kərpicdən tağlı günbəzlərdir. Yaxın Şərqdə ən böyük kərpic tağlı günbəzlərdən biri sayılan əsas girişin zəngin bəzənmiş tağı relyefin çox mailliyi üzündən binanın küncündə, üçüncü mərtəbə səviyyəsində inşa edilmişdir. Sadə həyəti, tağbəndlərlə örtülü eyni ölçülü hücrələri, həyət eyvanları, hovuz və onları əhatə edən yaşıllıq karvansaranın ümumi kompozisiyasını tamamlayır.[2]

1988-ci ildən Yuxarı Karvansaray turistlər, şəhər qonaqları və yerli sakinlər üçün otel kompleksi kimi istifadə olunur. Kompleksin ərazisində 100 yerlik milli mətbəx restoranı fəaliyyət göstərir. Beynəlxalq standartlara uyğun oteldə lüks nömrələr də var.

Qonaqlar (xüsusilə tacirlər) bu zirzəmilərdə aldıqları və ya satacaqları mallarını saxlayıblar. İndi karvansaray-mehmanxana kompleksi adlanan bu bina Şəkiyə gələnlərin ən çox maraq göstərdikləri yerlərdən biridir. Yuxarıda qeyd etdiyim kimi ikimərtəbəli karvansaray binasının bərpası zamanı onun memarlıq üslubunun ilkin komponentləri bütünlüklə qorunmuşdur. 38 nömrəlik karvansarayın 12

[2] SHEKININ MEDENI-TARIXI ABIDELERI Yuxarı Karvansara".2017-11-07 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2014-08-17.

nömrəsi lüks, qalanları isə yarımlüks otaqlardır. Hər bir nömrə holl, yataq otaqları və vanna otaqlarından ibarətdir. Burada ən isti yay günlərində də kondisionerə ehtiyac olmur.

2019- cu ildə Yuxarı Karvansaray və Aşağı Karvansay UNESCO Ümumdünya İrsi sihasına daxil edilmişdir.

Aşağı Karvansaray - Şəki şəhərinin Mirzə Fətəli Axundov küçəsində yerləşir. Şəki karvansaraları da digərləri kimi karvanların və səyyahların dayanması üçün ayrılmış, özünün funksional xüsusiyyətinə uyğun tikilmişdir. Ancaq bu karvansaralardan da yolüstü karvansaralardan fərqli olaraq istirahət otaqları ilə yanaşı müxtəlif ticarət əməliyyatları aparmaq, mübadilə müqavilələri bağlamaq üçün xüsusi otaqlar da inşa edilmişdir.

XVIII əsrə aid olan hər iki abidə yerli ustalar tərəfindən tikilmişdir. Bu abidələr həm tikiliş həm də şərait baxımından çox rahat və gözəl olub, iri miqyaslı sövdələşmələrin, alış-verişlərin aparılması üçün əlverişli şəraitə sahib olmuşdur.

Aşağı Karvansay tarixi abidəsinin XVI-XVIII əsrlərə aid olunmağı da iddia olunur. Hal-hazırda tikilinin təxminən 35-40% itirilmişdir [3, s. 35-40]. Buradakı karvansaralar plan quruluşuna, böyük ölçülərinə, istirahət və ticarət üçün rahatlığına görə Şəki memarlığını xarakterizə edir.

Özünün ümumi sahəsinə görə Yuxarı Karvansayradan bir qədər böyük olan Aşağı Karvansaray küçəyə baxan hissədə 12 metr, şərq və qərb tərəfdə isə 10 metr hündürlükdədir. Bina düzbucaqlı formasındadır, uzunluğu 85 m, eni isə 55 m-ə çatır.

8000 kvadratmetrlik bir ərazini əhatə edən Aşağı Karvansaranın 242 otağı və dörd giriş darvazası vardır. Bu karvansara da həmçinin şəkili sənətkarlarin özünəməxsus memarlıq üslubu özündə əks etdirir.

Cənub-şərq hissədə üç, həyət tərəfdə isə iki mərtəbəli olan karvansaranın baş fasadı çaya baxır. Bu isə binaya sakitlik və fəravət bəxş edir.

Karvansarayın fasadı horizontal bölümlərlə səciyyələnir, onlar divar müstəvisini tağlı pəncərələrlə tərtib olunmuş üç yarusa ayırır, pəncərələrin tağları şəklinə görə bir qədər fərqlənir. Tağlı eyvan aşırmaları ilə dövrəyə alınmış heyətin mərkəzində hovuz yerləşir.

Karvansarayın tikintisi zamanı uzaq ölkələrdən gələn tacirlərin rahatlığı, özünün və malının təhlükəsizliyi üçün hər şey nəzərə alınmışdır. Darvazalar qonaqpərvərliklə yolçuların və tacirlərin üzünə açılsa da, bağlandıqda alınmaz bir qalaya çevrilir. Bu isə bir daha Şəki sənətkarlarının nə qədər yüksək dünyagörüşünə, əvəzsiz zövqə, müqayisəsiz memarlıq üslubuna, maddi və mənəvi dəyərlərə malik olduqlarını təsdiqləyir. Yamyaşıl yaşıllığı və tağ formasında düzəldilmiş eyni eyvanları ilə diqqəti cəlb edir.[3, s.4-16]

Təəssüflər olsun ki, belə bir tarixi memarlıq abidəsi uzun müddət istifadə edilmədiyindən və baxımsız qaldığından qəzalı vəziyyətə düşüb. 2010-cu ilin yanvar ayında Aşağı Karvansarayda təmir-bərpa işlərinə başlanılıb. Binanın 5197 kvadratmetrlik dam örtüyü yenidən bərpa edilib, kirəmitlə örtülüb. İkitaylı 4 darvaza, 170 pəncərə, 128 qapı yenilənib, 30 tağbənd qurulub, istinad divarları hörülüb, otaqlardan zirzəmilərə qapılar açılıb.

EL&EN" layihə şirkəti tərəfindən Aşağı Karvansarada 4 ulduzlu mehmanxananın yerləşdirilməsi üçün onun uyğunlaşdırılması vəzifəsini yerinə yetirmişdir.

Ədəbiyyat

1. Bu gün. Sheki. Net". 2018-02-01 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2014-08-18.
2. SHEKININ MEDENI-TARIXI ABIDELERI Yuxarı Karvansara".2017-11-07 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2014-08-17.
3. "Yuxarı Karvansaray. GoMap. ONLAYN NAVİQATOR". 2016-03-04 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2014-08-18.
4. Академия наук Азербайджанской ССР. Известия Академии наук Азербайджанской ССР. Серия литературы языка и искусства. Baku: Издательство Академии наук Азербайджанской ССР. 1983. 119.

5. Академия наук Азербайджанской ССР. Зодчество Азербайджана XII-XV вв. и его место в архитектуре Переднего Востока. Baku: Наука, Главная редакция восточной литературы. 1966. 279.
6. Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. Москва: Наука, Главная редакция восточной литературы.
7. Shusha State Historical & Architectural Reserve". 4 October 2010 tarixində
8. http://www.baki-xeber.com/layihe/36885.html

Aynur AĞAZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
aghazada.aynur.2101@atmu.edu.az

PANDEMİYADAN (COVID-19) ƏVVƏL AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN MÖVCUD VƏZİYYƏTİ

THE CURRENT SITUATION OF TOURISM IN THE REPUBLIC OF AZERBAIJAN BEFORE THE PANDEMİC (COVID-19)

СОСТОЯНИЕ ТУРИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ ДО ПАНДЕМИИ (COVID-19)

Xülasə:Dünyada sürətlə yayılan koronavirus infeksiyasının mənfi təsirləri,Azərbaycanın inkişaf yolunda olduqca əmin addımlarla irəliləyən sahələrindən biri turizmdən də təsirsiz ötüşməmişdir. Məqalədə iqtisadiyyatın aparıcı sahələrindən olan turizmin pandemiyadan öncəki və koronavirus infeksiyasının yayıldığı dövrdəki mövcud vəziyyəti müqayisəli şəkildə təhlil olunmuş,eyni zamanda postpandemiya dövründə turizmin yenidən əvvəlki vəziyyətinə qaytarılması istiqamətində mümkün ola biləcək iş və tədbirlərin həyata keçirilməsi də qeyd edilmişdir.

Açar sözlər:turizm,pandemiya,inkişaf,Azərbaycan,böhran vəziyyəti,turist

Abstract:The negative effects of the rapidly spreading coronavirus infection in the world have not left tourism, one of the sectors of Azerbaijan that is progressing very confidently on the road to development, without being affected. In the article, the current situation of tourism, which is one of the leading sectors of the economy, before the pandemic and during the spread of the corona virus infection was analyzed in a comparative manner, at the same time, possible work and measures to restore tourism to its previous state in the post-pandemic period were also mentioned.

Keywords: tourism, pandemic, development, Azerbaijan, crisis situation, tourist

Абстракт: Негативные последствия быстро распространяющейся в мире коронавирусной инфекции не обошли стороной и туризм, одну из отраслей Азербайджана, которая очень уверенно идет по пути развития. В статье в сравнительном порядке проанализировано современное состояние туризма, являющегося одной из ведущих отраслей экономики, до начала пандемии и в период распространения короновирусной инфекции, вместе с тем возможные работы и меры по восстановление туризма до прежнего состояния в постпандемический период.

Ключевые слова: туризм, пандемия, развитие, Азербайджан, кризисная ситуация, турист

2019-cu ilin dekabr ayında Çində aşkarlanan COVID-19 koronavirus pandemiyasının 2020-ci ilin fevralında qeydə alınan ilk hal ilə Azərbaycanda yayıldığı təsdiq olundu.Qeyri-iqtisadi hadisə olan pandemiya (COVID-19) istər ölkəmizin,istərsə də dünya iqtisadiyyatının dərin böhran vəziyyəti ilə üzləşməsinə səbəb oldu.Bu vəziyyət təkcə iqtisadi sferada yox, həyatın digər sahələrində də öz zərərlərini təzahür etdirdi.Pandemiya insanların psixoloji durumlarının gərginləşməsinə,onların sağlamlıq durumlarının təhdid qarşısında qalmasına, yaşayış və rifah səviyyələrinin aşağı düşməsinə səbəbiyyət verdi. Pandemiya (COVID-19) risk menecment konsepsiyası ilə bağlı bu vaxta qədərki nəzəriyyələrə ciddi zərbə vurdu.Hesablana və nəzərə alına bilməyən bu hal risklərin idarə edilməsi ilə bağlı yeni yanaşmalara ehtiyacın olduğunu sərt şəkildə vurğuladı.

Turizm dünya iqtisadiyyatının pandemiyadan (COVID-19) ən çox ziyan çəkən sahəsi oldu.Son zamanlarda sürətlə inkişaf edən turizm ölkələrin iqtisadiyyatında və əhalinin yaşayışında mühüm rol

oynayır.Turizm yalnız ölkə əhalisinin səyahət etməsi ilə məhdudlaşmır.Bu sahə işsizlik kimi çətin sosial-iqtisadi problemin öhdəsindən gəlir,ölkələrin büdcələrinin formalaşmasına yardım edir.

Koronavirus pandemiyasından öncəki dövrlərdə dünyada səyahət edən turistlərin sayı 1,4 milyondan artıq idi. Bu isə turizm sənayesinin vacib uğurudur.Dünya ölkələrində olduğu kimi Azərbaycanda da bu göstəricilər qeyd olunan dövr ərzində yüksək artım tempinə malik olmuşdur. Pandemiyadan (COVID-19) əvvəl turizm sektorunun ÜDM-də payı 2,9 %, bu sahədə çalışanların sayı 25 min nəfərə bərabər olub. Pandemiya turizmin ÜDM-də payını 3 dəfədən çox aşağı saldı[7]. Azərbaycanda turizmin inkişafını şərtləndirən başlıca amillər olaraq bunları göstərə bilərik:

-Azərbaycanın dünya ölkələri arasında tanınması nəticəsində,respublikaya gələn xarici turistlərin sayının artması;

-ölkəyə səyahət edən turistlərin mövsümi axınının tənzimlənməsi istiqamətində işlər görülməsi;

-turizm sferasında sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün gənc kadrların cəlb edilməsi;

-turizmin inkişafı üçün yerli və xarici investisiyaların cəlb edilməsi;

-daxili turizmin inkişafı məqsədilə regionlarda olan turizm potensialının səmərəli istifadəsi;

-rəqabətədavamlı və yeni turizm məhsullarının yaradılması;

-ölkənin turizm məhsullarını dünya bazarına çıxartması;

-turizm sahəsində fəaliyyət göstərən kadrların ixtisaslaşdırılması;

-Azərbaycanın turizm sahəsində müsbət imicinin formalaşdırılması.

Zəngin tarixə, mədəni və təbii irsə malik olan Azərbaycan dünyanın hər bir yerindən turistləri cəlb edir. Füsunkar təbiət, mineral və müalicəvi su qaynaqları, dünyada yeganə müalicə nefti olan – naftalan, nadir qədim memarlıq abidələri, özünəməxsus mədəniyyət, bənzərsiz milli mətbəx və bir çox digər amillər Azərbaycanda turizmin bütün növlərinin: işgüzar, idman, müalicəvi, tanışlıq, ovçuluq, ekzotik, çimərlik, qastronomik turizmin inkişafı üçün əlverişli şərait yaradır. Ölkənin iqlimi həm yay, həm də qış istirahətinin təşkili üçün uyğun şəraitə malikdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası təsdiq edilmişdi. Konsepsiyada qeyri-neft sektorunun, başlıca olaraq turizmin inkişafına xüsusi diqqət yetirilməsi əsas strateji məsələlərdən biri kimi qoyulmuşdur.Konsepsiyada "qeyri-neft sektorunun inkişafına xidmət edən və müasir tələblərə cavab verən istehsal, sosial və bazar infrastrukturu şəbəkəsi yaradılacağı, təsərrüfatçılığın və idarəçiliyin mütərəqqi formalarından istifadənin genişləndiriləcəyi,turizm infrastrukturunun təkmilləşdiriləcəyi, beynəlxalq standartlara cavab verən turizm xidmət sahələrinin dairəsinin genişləndiriləcəyi, bu sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi və ÜDM-də xüsusi çəkisinin artırılması istiqamətində tədbirlər görüləcəyi qeyd olunmuşdu.

Azərbaycanda rəqabətədavamlı turizmin təşkil edilməsi üçün mümkün potensial var.Azərbaycanın mədəniyyətini,qədim tarixini,adət-ənənələrini təbliğ etməyin ən yaxşı yolu onun turizminin inkişaf etdirilməsidir. Prezident İlham Əliyevin Mədəniyyət və Turizm Nazirliyinin yaradlması ilə bağlı 30 yanvar 2006-cı il tarixli Fərmanı dövlətin idarəetmə sistemindəki köklü islahatlardan biri olub mədəniyyət və turizm sahələrinin idarə edilməsinin təkmilləşdirilməsi ilə əlaqədar çox mühüm bir qərar idi. Bu Fərmandan sonra Respublikanın mədəniyyət və turizm sahələri inkişafda yeni mərhələyə addım atdı. Zəngin mədəni irs nümunələrinin düzgün təbliği nəticəsində Azərbaycanı dünya ölkələri arasında turistlərin marağını cəlb edən ölkə kimi mövqeləşdirdi.

Pandemiyaya (COVİD-19) qədər olan dövrdə respublikada turizmin inkişafı istiqamətində əhəmiyyətli işlər görüldü, dərin islahatlar həyata keçirildi. Azərbaycan turizminin inkişaf etdirilməsində dünya ölkələrinin təcrübəsinə xüsusi diqqət yetirildi və ölkəmizdə də tətbiq olundu. Teatr və kino sahəsinin inkişafı ilə bağlı dövlət proqramları, təkmilləşdirmə ilə bağlı həyata keçirilən layihələr qısa zamanda turizmin inkişafına öz müsbət təsirini göstərmişdir. Prezidentin müvafiq sərəncamları ilə paytaxtda və bölgələrimizdə olan teatr binaları əsaslı şəkildə təmir-bərpa olunmuş, bəziləri yeni bina ilə əvəzlənmişdir. Paytaxtda və bölgələrdə müasir şəraitə malik yeni teatrlar və kino mərkəzləri istifadəyə verildi.

Beynəlxalq təşkilatlarla, xüsusilə UNESCO ilə qurulan etibarlı əməkdaşlıq əlaqələri mədəni irsimizin dünya səviyyəsində tanınmasına şərait yaratmışdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın mədəniyyət və incəsənətimizin təbliği sahəsində müstəsna xidmətlərinin xüsusi qeyd edilməsi vacibdir. Mədəniyyətimizin yorulmaz himayədarı olan Mehriban xanımın 2004-cü ildə UNESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasına təkan vermişdir. Mehriban Əliyevanın təşəbbüsü ilə Qobustanın qədim qayaüstü rəsmləri, şifahi ənənəli Azərbaycan musiqi mədəniyyətinin vacib tərkib hissəsi olan aşıq sənəti,milli və tarixi bayramımız-Novruz bayramı, Azərbaycan xalq tətbiqi sənətinin qollarından biri olan xalçaçılıq sənətimiz, tar ifaçılığı, çövkən milli oyunu, kələğayı sənəti, Lahıc misgərlik sənəti, ölkəmizin təşəbbüsü ilə Azərbaycan, Türkiyə, İran, Qazaxıstan və Qırğızıstan tərəfindən birgə təqdim edilən lavaş (katırma, jupka, yufka)-nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti UNESCO-nun müvafiq siyahılarına salınaraq ümumbəşəri irs statusu qazanmışdır. Bu irs nümunələrimizlə bağlı fayllar hörmətli Mehriban xanımın dəstəyi, Mədəniyyət və Turizm Nazirliyi və digər əlaqədar qurumların birgə əməkdaşlığı ilə hazırlanmışdır.

Dünya üzrə turizm sahəsində mənfi tendensiyalar başlamamışdan əvvəl Azərbaycanda turizm sənayesinin inkişafını şərtləndirən çox mühüm addımlar atılmışdır."Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası, 2011-ci ilin Prezident tərəfindən Azərbaycanda "Turizm ili" elan edilməsi dövlətin bu sahəyə diqqətini sübut edən faktlardır. Son illərdə Qusar rayonu ərazisində dövlət dəstəyi ilə Şahdağ Turizm Mərkəzinin, eləcə də Qəbələdə Tufandağ Qış-Yay Turizm Kompleksinin yaradılması ölkənin qış turizminin inkişafına böyük töhfələr vermişdir. Bu turizm mərkəzlərinin yaradılması ilə həm də ölkəmizdə turizmin mövsümiliyi aradan qalxmışdır.

Ölkəmizdə yalnız 2020-ci ildə regional turizm pandemiya ilə əlaqədar olaraq minimum fəaliyyət səviyyəsinə enmişdir. Halbuki, pandemiyaya qədər olan son 5 ildə regional turizm sahəsi davamlı olaraq inkişaf etmiş və postneft dövründə dinamik inkişaf edən qeyri-neft sahələrindən biri kimi xarakterizə olunmuşdur. Ümumilikdə, ölkəmizdə turizm sektoruna dövlət dəstəyi mexanizmlərinin və alətlərinin olması da regional turizimin yeni çeşidlərinin formalaşdırılmasına, xidmətin yüksəldilməsinə, heyətin peşəkarlığının artırılmasına, ən ucqar regionlarda belə infrastrukturun güclənməsinə öz təsirini müsbət mənada göstərə bilmişdir. Ölkə Prezidentinin 16 mart 2016-cı il tarixli "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə 2020-ci ilə qədər strateji baxış formalaşdırılmış, 2025-ci ilə qədər və ondan sonrakı dövrü əhatə edən uzunmüddətli hədəflər müəyyənləşdirilmişdi[1].

Azərbaycanda regional turizmə kompleks halında baxılması və onun fərqli xüsusiyyətlərindən istifadə edərək, hər regionun özünəməxsusluğundan çıxış etməklə, həmin regionda turizmin potensial inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi vacibdir.Turizm ehtiyatlarından istifadənin uzunmüddətliyi onun orijinallığından, yerləşdiyi ərazinin coğrafi mühitindən və ona yönəldilən kapitalla birbaşa əlaqəli olur. Regional turizmin ərazi planlaşdırması və onun idarəedilməsi yanaşmalarına baxarkən, regional turizmin ən böyük problemlərindən birinin turizm ehtiyatlarından qaynaqlandığını görmək mümkündür. Turizm ehtiyatları deyərkən nəzərdə tutulan, onların istifadə oluna bilməsi və ya istifadə olunması cəhətdən intensiv, ekstensiv, az mənimsənilən və ya heç mənimsənilməyən torpaq və ərazi qruplarına bölündüyünün nəzərə alınmasıdır. Regional turizmin elmi aspektində nəzəri olaraq bu ərazilərin hamısına eyni baxmaq, hamısı üçün ümumiləşdirmə vermək düzgün yanaşma kimi qəbul olunmazdır. Ümumiyyətlə, turizm ehtiyatlarından səmərəli istifadə həm iqtisadi, həm sosial tərəfdən vacibdir və regional turizmin inkişaf konsepsiyasına uyğun olmalıdır. Pandemiya (COVİD-19) baş verənə qədər respublikamızın regionlarında turizm sahəsinin inkişafı naminə müstəqillik əldə olunandan bu yana bir neçə dövlət proqramı hazırlanıb həyata keçirilmişdir. Regionlarda turizm sahəsinin canlanması, bir çox xarici ökələrdən gələn ölkəmizin regionlarına üz tutan turistlərin sayının çoxalması pandemiyanın geniş vüslət alması səbəbiylə tənəzzülə uğradı. Regional turizmin inkişafı xüsusi ilə də postpandemiya dövründə regional turizmin inkişafı istiqamətində bir sıra işlər həyata keçirilməlidir:

-Bölgələrimizin turizm imkanlarını beynəlxalq səviyyədə tanıtmaq və xarici investorları bu sahəyə cəlb etmək;

-Regionlarda nəqliyyat sistemini, telekommunikasiya xətlərini, infrasturukturu yaxşılaşdırmaq;

-Regionlarda turizm sahəsinə investisiya qoyan sahibkarlara güzəştlər tətbiq etmək və bir sıra imtiyazlar vermək;

-Dünya təcrübəsinə əsaslanaraq investisiya cəlb olunmasının üsullarını öyrənmək və regional turizmin inkişafı istiqamətində tətbiq etmək.

Azərbaycanın hər bir bölgəsi özünəməxsus gözəlliyə və turizm əhəmiyyətli resurslara malik olsada, ölkə ərazisində ehtiyatlarının müxtəlifliyi, inkişaf səviyyəsi və perspektivliyinə görə seçilən əsas turizm bölgələri vardır.

Bakı-Abşeron turizm bölgəsi. Azərbaycan Respublikasının şərqində, Xəzər dənizi sahilində yerləşir və əlverişli coğrafi mövqeyə malikdir. Balneoloji iqlimə malik Bakı-Abşeron turizm bölgəsinə daxildir. Bakıdan qərb, şimal-qərb, şimal və cənub marşrutları üzrə turist səyahətləri təşkil edilir. Bölgə dərketmə, müalicə-sağlamlıq, idman, işgüzar turizm növləri üzrə ixtisaslaşmışdır. Xəzərin Bilgəh, Nardaran, Pirşağı, Buzovna, Zuğulba, Novxanı sahillərindəki qumlu çimərliklər turizmin inkişafı baxımından əlverişlidir. Balneoloji iqlimə malik bölgədə «Gənclik" Beynəlxalq turizm Mərkəzi, "Neptun" turist bazası və sanatoriya-kurort mərkəzləri (Bilgəh, Mərdəkan, Buzovna) fəaliyyət göstərir. Bakıda İçərişəhərin tarixi-memarlıq abidələrindən olan Buxara və Multani karvansaralarından müasir dövrdə turist obyektləri kimi istifadə olunur. Bakı Əyləncə Mərkəzi, "Akva-park" "Lunapark" "Lido" istirahət və əyləncə mərkəzlərində turistlərə yüksək xidmət göstərilir. Dərketmə turizminin mərkəzi olan Bakıda gəlmə və getmə turizmi inkişaf etdirilir. Bakı şəhərində 150-dən artıq mehmanxana və mehmanxana tipli müəssisələr fəaliyyət göstərir. Bakıda İçərişəhər kompleksi (Sirvanşahlar sarayı, Qız qalası, qədim məscidlər, karvansara və b.), Bibi-Heybət məscidı "Atəşgah" məbədi, Xəzəryanı müdafiə qurğuları, qalalar, karvansaralar və ovdanlar kompleksi (Mərdəkan qalası və qüllələri, Nardaran və Ramana qalaları) və b. maraqlı tarixi abidələrdir. Şəhərdən 70 km cənubda Qobustan Dövlət Tarix-Bədii Qoruğu, Altıağac Milli Parkı, Abşeron Milli Parkı, "Cənnət bağı" istirahət zonası (Xızı) yerləşir. Bakının cənub-qərbində "Şıx" kurort kompleksi fəaliyyət göstərir. Turistlər Bakıdan 4 istiqamətdə: respublikanın qərb, şimal-qərb, şimal və cənub bölgələrinə səyahətə çıxırlar. Müasir Olimpiya (Bakı, Maştağa, Hövsan) və digər idman kompleksləri idman turizminin inkişafına imkan yaradır.

YUNESKO-nun Umumdünya irsi siyahısına Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə salınmış İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisindəki 10 dünya və 27 ölkə əhəmiyyətli abidə, həmçinin şəhər ətrafında yerləşən tarixi memarlıq abidələrindən Bibi-Heybət məscidi, "Atəşgah" məbədi, Xəzəryanı müdafiə qurğuları, karvansaralar və ovdanlar kompleksi (Mərdəkan qalası və qüllələri. Nardaran və Ramana qalaları). Ən böyük mehmanxanaları: "Hyyat Regensy", "Grand Hotel Europa", "Radisson SAS Rlaza Hotel", "Park Hyyat Hotel", "Excelsior Hotel Baku", "Buta palace", "Hilton" və s. Bakıda 120 mehmanxana və digər mehmanxana tipli müəssisə fəaliyyət göstərir.

Turizmin təbliği məqsədilə Azərbaycan, rus, ingilis dillərində müxtəlif elmi-kütləvi ədəbiyyat, fotoalbomlar, bələdçi kitabçaları, buklet, prospekt, atlas və xəritə-sxemlər ("Azərbaycan", "Азербайджан", "Welcome to Azerbaijan", "Azərbaycan olduğu kimi", "Bakı", "Böyük İpək Yolu", "Azərbaycan turizm regionları", "Azər baycan tarix və arxitektura abidələri", "Bakının otelləri", "Bakının əyləncə mərkəzləri və restoranları" və s.) nəşr edilmişdir. "Turizm yenilikləri" qəzeti, "Azerbaijan review" jurnalı buraxılır.

Quba-Xaçmaz turizm bölgəsi. Azərbaycanın Şimal-şərq hissəsində yerləşən Quba-Xaçmaz, böyük inkişaf perspektivi olan istirahət-turizm bölgələrindən biridir. Bu bölgənin əlverişli nəqliyyat yolları, mənzərə gözəllikləri, dağlıq hissəsi, Xəzər dənizin YalamaNabran, Giləzi-Zarat sahillərində termal mərkəzləri, Qalaaltı, Xaltan və başqa mineral bulaqlar, istirahət və müalicəvi önəmi artıran özəlliklərdəndir.Xüsusilə 1970-ci ildən bəri Dəvəçi bölgəsindəki 350 nəfərlik Qalaaltı mineral suyu Qərbi Ukraynadakı Naftusiya suyu ilə eyni müalicəvi özəlliyə sahibdir. Ayrıca Xəzər dənizinə və dəmiryol xəttinə yaxınlığı, dəniz səviyyəsindən 500 metr yüksəkliktə yerləşməsi, son dərəcə gözəl və

yaşıl peyzajı, tərəvəzçilik, bağçılıq və heyvandarlığın inkişaf etdiyi bölgələrinin iç-içə olması, təmiz və sağlıq verici havası, Qalaaltının qısa zamanda sağlıq və 30 istirahət mərkəzi olaraq tanınmasına yol açmışdır. Yaz aylarında fəftə sonları, yalnız Bakı və Sumqayıtdan gələnlərin sayı 2000-ə çatır. Bütün bir il ərzində gələn ziyarıtçi sayı 100.000-ə yaxındır.

Одним из важных качеств хорошего работника является внимательность. Необходимо уделять внимание каждому проходящему гостю здороваясь с ними, спрашивая как проходит их проживание в гостинице, во время отъезда приглашать их снова посетить отель, предложить помощь, заметив, что гость хочет что-то спросить. Нельзя оставлять без внимания ожидающего гостя в лобби или ресторане отеля, закрывать глаза на нечистые полы или посуду, не замечать, что гость ищет консьержа. Все эти маленькие детали говорят о внимательности персонала к постояльцам. Также к невнимательности можно отнести то, когда официанты подают блюдо забыв принести ножи, вилки или соль и перец; когда горничные убрав номер, забывают опустошить мусорную корзину; когда вовремя не проверяются запасы продуктов со стороны персонала;

Персонал в гостинице должен чувствовать ответственность за свою работу: приходить вовремя без опозданий, соблюдать стандарты и следить за качеством выполняемой работы, не забывать про ежедневные обязанности и ответственности, соблюдать чистоту на рабочем месте и поддерживать личную гигиену, уметь бережно обращаться с оборудованием, не только принимать заказы гостей, но и выполнять их. Если гость позвонив просит ежедневно приносить ему в комнату 2 дополнительных полотенца и убрать банные средства из комнаты из-за аллергии, а персонал приносит всего лишь одно полотенце и убирает банные средства, то это говорит лишь о невнимательности и выявляет безответственность у персонала. Данные факты оставляют отрицательное впечатление в целом обо всем отеле и способны повлиять на выбор отеля гостем во время следующего визита, Таким образом, из-за мелочей отель может потерять постоянных гостей.

Каждый единичный случай работы с клиентом является в своем роде уникальным, поэтому индустрии нужны люди, которые могут пойти на трудности и справиться с ними и определенное время и место, которые могут предсказать сложные ситуации задолго до того, как они станут реальными проблемами. В этом особую роль играют управляющие отелем и его модели управления. Эффективная система управления должна опираться на методы управления, охватывающие все аспекты деятельности гостиницы, отвечающие требованиям абсолютной прозрачности для управления и контроля, способствуя повышению доходности и прибыльности предприятия, расширению услуг и совершенствованию качества обслуживания. Эффективный менеджмент должен оптимизировать использование всех ресурсов в управлении гостиницей, функционально разграничивать место каждого департамента в системе управления и способствовать повышению эффективности их взаимодействия.

Литература

1. Друкер Питер Ф. Задачи менеджмента в XXI веке. – Издательский дом «Вильямс», Москва – Санкт – Петербург – Киев, 2004. – [с. 40].
2. Жуков И.М. Проблемы и тенденции управления персоналом в организациях гостиничного бизнеса города Москвы // Теоретическая и прикладная экономика. 2013 [с.67 – 83]
3. Лойко О.Т. Туризм и гостиничное хозяйство. Томск., 2005, [с – 134].

4. Роглев Х.И.Основи готельного менеджменту. Навчальний посібник. Кондор, 2005, [с – 73].
5. Тощенко Ж.Т. Социология. Учебник, 3-е изд.-М.: ЮНИТИ, 2005.[с. 140-141]

Aysel GÖYYUSUBOVA
Azərbaycan Turizm və Menecment Universiteti,
magistrant
ayselgoyyusubova@gmail.com

DÖVLƏTİN MİLLİ MARAQLARININ TƏMİN OLUNMASINDA MULTİKULTURALİZM FAKTORU

FACTOR OF MULTICULTURALISM IN ENSURING THE NATIONAL INTERESTS OF THE STATE

ФАКТОР МУЛЬТИКУЛЬТУРАЛИЗМА В ОБЕСПЕЧЕНИИ НАЦИОНАЛЬНЫХ ИНТЕРЕСОВ ГОСУДАРСТВА

Xülasə: Bu məqalədə multikulturalizmin dövlət siyasətində və dövətin milli maraqlarının təmin olunmasında rolu qeyd olunmuşdur. Həmçinin multikulturalizmin milli təhlükəsizlik konsepsiyası kimi əhəmiyyətinə diqqət yetirilmişdir.Bununla belə Azərbaycanin multikulturalizm modeli kimi dünyaya tanıdılması və inkişaf etdirilməsi yolunda həyata keçirilən fəaliyyətlərindən bəhs edilir.
Azərbaycanın multikultural təhlükəsizliyinin təhlili göstərir ki, onun prinsiplərinin uğurla tətbiqi, bir tərəfdən, ölkənin potensialını daha çox üzə çıxarır, digər tərəfdən, ölkənin beynəlxalq imici əlavə müsbət cəhətlərlə zənginləşir. Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarının xarici iştirakçıları tərəfindən dəfələrlə vurğulanıb. Dünya getdikcə daha çox əmin olur ki, multikulturalizmin alternativi yoxdur. Dünyada, Ukraynada, regionumuzda baş verən hadisələr bu nəzəriyyənin doğruluğunu, sülhün və təhlükəsizliyin qorunmasının zəruriliyini təsdiqləyir. Müasir dünyada gedən proseslər bir daha təsdiqləyir ki, multikultural təhlükəsizlik sosial, siyasi və beynəlxalq təhlükəsizliklə üzvi şəkildə bağlıdır. Multikultural təhlükəsizlik – milli təhlükəsizliyin təminatçısı və multikultural təhlükəsizliyi təmin edən əsas amil – vahid dövlətdə yaşayan müxtəlif milli-dini və xüsusi qruplar tərəfindən birgə yaşayış prinsiplərinin qorunub saxlanılması və inkişafı.

Açar sözlər: dövlətin milli maraqları, milli təhlükəsizlik,multikulturalizm,multikultural təhlükəsizlik,dünya siyasəti,dəyərlər,tolerantlıq

Абстракт: В данной статье упоминается роль мультикультурализма в государственной политике и обеспечении национальных интересов государства, а также обращается внимание на значение мультикультурализма как концепции национальной безопасности. Кроме того, были отмечены мероприятия, проводимые для популяризации и развития Азербайджана как мультикультурной модели в мире.
Анализ мультикультуральной безопасности Азербайджана показывает, что удачное применение ее принципов с одной стороны, все больше раскрывает потенциал страны, с другой стороны обогащается международный имидж страны дополнительными позитивными штрихами, что было не раз подчёркнуто иностранными участниками состоявшихся в Баку Всемирных форумов по межкультурному диалогу. Мир все больше убеждается, что мультикультурализму альтернативы нет. События, происходящие в мире, в Украине, да и в нашем регионе подтверждают правильность данной теории, необходимость в сохранении мира и безопасности. Процессы в сегодняшнем мире еще раз подтверждают, что мультикультуральная безопасность органически связана с социальной, политической и международной безопасностью. Мультикультуральная безопасность – гарант национальной безопасности и основным фактором обеспечивающий мультикультуральную безопасность – сохранение и развитие принципов

совместного проживания различными национально-религиозными и специальными группами, проживающими в едином государстве.

Ключевые слова: национальные интересы государства, национальная безопасность, мультикультурализм, поликультурная безопасность, мировая политика, ценности, толерантность.

Abstract: In this article, the role of multiculturalism in state policy and the provision of the national interests of the state is mentioned, and attention is drawn to the importance of multiculturalism as a concept of national security. In addition, the activities carried out for the promotion and development of Azerbaijan as a multicultural model to the world were mentioned.

An analysis of the multicultural security of Azerbaijan shows that the successful application of its principles, on the one hand, increasingly reveals the potential of the country, on the other hand, the international image of the country is enriched with additional positive touches, which was repeatedly emphasized by foreign participants in the World Forums on Intercultural Dialogue held in Baku. The world is becoming more and more convinced that there is no alternative to multiculturalism. The events taking place in the world, in Ukraine, and in our region confirm the correctness of this theory, the need to maintain peace and security. The processes in today's world once again confirm that multicultural security is organically linked to social, political and international security. Multicultural security – the guarantor of national security and the main factor ensuring multicultural security – the preservation and development of the principles of cohabitation by various national-religious and special groups living in a single state.

Keywords: national interests of the state, national security, multiculturalism, multicultural security, world politics, values, tolerance.

Doğrudur, multikulturalizm və tolerantlıq terminləri lüğətimizdə yenidir. Lakin dünyada termin kimi nəzər saldıqda məlum olur ki, bu bizim həyat tərzimizdir. Yəni, multikulturalizm, dini və milli tolerantlıq Azərbaycan xalqının həyat tərzidir. Multikulturalizm özü milli təhlükəsizliyin əsas komponentlərindən biridir.Multikuluralism milli təhlükəsizliyin təminatında xüsusi rol oynayır.Baxmayaraq ki,Azərbaycan nə qədər qədim dövlətçilik ənənələrinə sahib olsada bugün Azərbyacanda bir çox müxtəlif dinlərə,mədəniyyətə,irqə mənsub insanlar bərabər hüqu-qa sahibdir.Azərbaycan dünyanın sabit,təhlükəsiz ölkələrindən biridir. Beləki, bunun üçün dünyada baş verən proseslərə,hadisələrə nəzər salmaq kifayətdir.Nəzər salsaq görərik ki,dünyanın bir çox ölkələrində daxili çəkişmələrin yaşandığı, kütləvi etiraz aksiyalarının, müxtəlif dini birləşmələrin üstün imtiyazlar tələb etdiyi bir dövrdə Azərbaycanı istər turistlər, istərsə də yerli əhali üçün ən təhlükəsiz ölkələrdən biri kimi heasb etmək olar[6, s. 8].

Bəs necə oldu ki,yenicə müstəqillik qazanan bir dövlət qısa za-man ərzində dünyanın multikulturalizm modelinə çevrildi?

Əhalisinin böyük əksəriyyəti müəlmanlardan ibarət olan Azərbaycanda, müxtəlif dinlərə,inanclara mənsub olan insanların- ibadətlərini dövlətin və digər dinlərin əleyhinə olmaya-caq şəkildə istədikləri formada yerinə yetirmələrinə imkan yaradılmışdır.Azərbaycan həm öz tarixi ənənələri ilə, həm də müasir dövrün tələbləri ilə uyğunlaşdı.Bu isə daxili sabitliyin və multikulturalizmin yaranmaasında və inkişaf etdirilməsində atılan ən böyük addımlardan biri hesab olunur. Azərbaycanın dövlət müstəqilliyindən sonra Ulu ondər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan yeni bir dövrə ayaq basdı.Heydər Əliyev bir çox islahatlar həyata keçirdi.. 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası ölkəmizdə yaşayan bütün azsaylı xalqların və dinlərin nümayəndələrinin hüquqlarını, vicdan azadlığını təsbit etdi.[1, N°152,C.10]

Ulu öndər Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir". Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrini bu gün müstəqil

Azərbaycanın hər bir sahəsində-siyasətdə, iqtisadi sferada, təhsildə, mədəni-mənəvi müstəvidə, bir sözlə, bütün sahələrdə görmək mümkündür[4, s.15].

Mədəniyyət güclü ideyadır – bu, daim dəyişən dünyaya uyğunlaşan davamlı bir prosesdir. Bu, həyatımızın demək olar ki, hər tərəfinə təsir edən bir şeydir. Mədəniyyət həm də insanların şəxsiyyətini formalaşdıran əsas qüvvədir. Bu, insanlara cəmiyyətə necə uyğunlaşdıqlarını anlamağa kömək edir və onlara aidiyyət hissini araşdırmaq imkanı verir. Mədəniyyətin ən mühüm cəhəti onun insanların davranışlarına təsiridir. Qloballaşmaya görə indi mədəniyyətlər əvvəlkindən daha çox bir-birinə qarışıb. Müxtəlif mədəniyyətlərdən olan insanların bir-biri ilə qarşılıqlı əlaqədə olduğu bir cəmiyyətin daha yaradıcı və yenilikçi olacağına inanılır. Multikulturalizm həm də dünyanı daha yaxşı başa düşmək, heç bir mədəni məhdudiyyət olmadan seçim etmək və ya özünü ifadə etmək azadlığına malik olmaq deməkdir.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlətimizin inkişafı kursu ötən 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə həyata keçirilib. Dünyada baş verən siyasi və iqtisadi təlatümlərə, qlobal böhranlara baxmayaraq, ölkəmizdə sabitlik və intensiv inkişaf təmin edilib, bir sözlə, ötən dövr Azərbaycan üçün uğurlu olub. Bu uğurlar, nailiyyətlər təkcə ölkənin daxilindən yox, həm də xaricdən də aydın görünməkdədir. Azərbaycan açıq ölkədir, iqtisadiyyatına kifayət qədər xarici investisiya yatırılıb. Bu gün Azərbaycan beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib.Azərbaycanın Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən Azərbaycan multikulturalizmidir siyasətində qeyd etdiyi kimi "Multikulturalizmin alternativi yoxdur. Əlbəttə, bizə məlumdur ki, bununla bağlı müxtəlif fikir və baxışlar var. Bəziləri multikulturalizmin iflasa uğradığını iddia edirlər, ancaq müsbət nümunələr var. Bizim üçün multikulturalizm dövlət siyasətidir və bizim həyat tərzimizdir".

Qloballaşan dünyada mədəniyyətlərarası və dinlərarası dialoq problemi, habelə multikulturalizmlə əlaqədar məsələlər xüsusi yer tutur. Belə bir tarixi dönəmdə dünyanın 140-dan çox ölkəsinin təmsil olunduğu BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna Bakının ev sahibliyi etməsi təsadüfi deyil. Çünki tolerantlığın məkanı, multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir. 2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərar qəbul edildi. Ötən ilin iyul ayında Prezident İlham Əliyev Forumun Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzaladı[3].

Multikulturalizm hamı tərəfindən tanınan, müxtəlif mədəniyyətlərə tolerant münasibətə əsaslanan dinc, yanaşı yaşama prinsipidir. Multikulturalizmin xarakterik xüsusiyyəti tolerantlıq, dözümlülükdür. Ölkəmiz isə tolerantlığın məkanıdır. "Azərbaycan xalqı özlüyündə,təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir", deyən Ulu Öndər Heydər Əliyev bizim cəmiyyət olaraq bəşəri dəyərlərə münasibətimizin ən orijinal və aydın izahını verib, Azərbaycanı milliyyətindən və dinindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrinin doğma vətəni adlandırıb. Azərbaycan üçün fərqli baxışlara, adətlərə, vərdişlərə tolerant mövqe bəsləmək əlbəttə ki, təbiidir. Çünki, tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı,ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınır və müxtəlif xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə dözümlü münasibət azərbaycanlıların mentalitetinə xasdır. Bütün tarixi dövrlərdə Azərbaycan ərazisində etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşıb, milli, dini və irqi zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb.Qeyd etməliyik ki, Prezident İlham Əliyevin Azərbaycanda multikultural münasibətlərin inkişafı yönündə atdığı addımlar davamlı xarakter daşıyır. Cənab Prezidentin imzaladığı Sərəncama əsasən 2016-cı ilin Azərbaycanda "Multikultiralizm ili" elan edilməsi dövlətimizin nə qədər tolerant, dözümlülük prinsipləri

əsasında idarə edildiyini bir daha sübut edir.Dini tolerantlıq və dözümlülük Azərbaycanın malik olduğu zənginliklərdir".[7, s.6]

Ulu öndər Heydər Əliyev başda olmaqla respublika hökuməti dinlərarası dialoq təşəbbüsünü nəzərə çatdıraraq, 2002-ci il mayın 23-də Roma Papası II İohannPavelin ölkəmizə səfərini təşkil etmişdi. Papanın səfəri böyük əks-səda doğurmuşdu.Azərbaycanlıların yüksək dini dözümlülüyü haqqında daha bir nümunə, Roma Patriarxı I Varfolomey də 2003-cü ildə ölkəmizə səfər edərkən deyib: "Burada dini dözümlülüyün səviyyəsindən məmnun qaldım. Azərbaycanda hər kəs öz arzusuna görə dininə etiqad edə və ayinlərini keçirə bilər".Prezident İlham Əliyevin fərmanı ilə 2014-cü il may ayının 15-də isə hələlik dünyada yeganə olan Bakı Beynəlxalq Multikurturalizm Mərkəzi yaradılmışdır. Azərbaycan ölkədə multikurturalizm mühitinin qorunması məqsədilə bir sıra nüfuzlu beynəlxalq qurumlarla – BMT, ATƏT, İƏT və Avropa ittifaqı ilə əməkdaşlığı da genişləndirməkdədir.2008-ci ilin dekabr ayında Bakıda Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin konfransı keçirilmişdir. Bu mötəbər tədbirdə dünyanın 48 ölkəsinin, o cümlədən 10 islam dövlətinin, 8 beynəlxalq təşkilatın, bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər. Azərbaycan tərəfinin təşəbbüsü ilə ilk dəfə olaraq, "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyənnaməsi" qəbul edilmiş, sivilizasiyalar arasında dialoqun əldə oliunması və inkişafına yönəldilən "Bakı prosesi"nin təməli qoyulmuşdur. 2015-ci il yanvar ayının 30-da isə Nyu-Yorkda – BMT mənzil-qərargahında "Bakı prosesi" və 3-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təqdimat mərasimi keçirilmişdir. "Tarixi hadisə" adlandırılan həmin mərasimdə "Bakı prosesi"nin və forumun mühüm missiyası – dünyada sülh və əməkdaşlığın qorunması, qarşılıqlı faydalı dialoqun yaradılması prinsiplərinə xidmət edəcəyi xüsusi vurğulanmış, Azərbaycanın qlobal təşəbbüsü və dialoq yaratma təcrübəsi yüksək qiymətləndirilmişdir. Azərbaycan şiə və sünni müsəlmanların eyni məsciddə birlikdə namaz qıldığı çox az ölkələrdən biridir. Və yəqin ki, bir xristian olaraq müsəlman ölkəsində olarkən azərbaycanlı ailə tərəfindən nahara dəvət oluna biləcəyiniz nadir yerlərdən biridir. Bunu, bir çox digər xoş təcrübələrlə birlikdə,burada insanların sizi qucaq açıb, həm də haradan gəldiyinizdən asılı olmayaraq, ürəkləri açıq qarşıladığını söyləməklə ümumiləşdirmək olar. Bir əcnəbi olaraq, məhz bu kimi epizodlar sizə Azərbaycan multikulturalizmin özünəməxsus tərzdə nə qədər real olduğunu anlamağa kömək edir.Ancaq yerli olaraq bu, bizim həyat tərzimizə çevrilir.

Əksəriyyəti müsəlman olan Azərbaycan Respublikası həm də böyük xristian icmasına ev sahibliyi edir və zaman keçdikcə yəhudilər üçün təhlükəsiz yerdən daha çoxunu təmsil edir. Rəqəmlərə görə, əhalinin 96%-dən çoxu müsəlman, təxminən 2-3%-i xristian, 1%-dən azı isə yəhudidir.İbadət yerləri baxımından Azərbaycanda 13 kilsə var ki, onlardan 11-i 1991-ci ildə Sovet İttifaqı dağıldıqdan sonra tikilib. Həmçinin 7 sinaqoq, 2000-dən çox məscid var.Qeyd etmək lazımdır ki, Azərbaycanda ilk kilsələrdən biri müsəlman xeyriyyəçisinin maliyyə dəstəyi ilə tikilmişdir. 1909-cu ildə məşhur azərbaycanlı neft milyonçusu Hacı Zeynalabdin Tağıyev pulunun bir hissəsini ölkənin paytaxtı Bakıda o dövrdə yaşayan müxtəlif dini qruplar arasında dostluğu təşviq etmək üçün bu kilsənin tikintisinə yatırıb.

Azərbaycan Respublikası 1918-ci ildə ölkədə dünyəvi demokratiya qurulduqdan sonra İslam dünyasında ilk demokratik respublika olub, burada vətəndaşlar mənşəyindən və etiqadından asılı olmayaraq bərabərdir. Həmçinin tarix boyu gender bərabərliyinin dəstəkləndiyi, qadınlara səsvermə hüququ verən ilk müsəlman ölkəsi və hətta qızlar üçün məktəblər tikərək onların təhsilinə dəstək verən bir cəmiyyətdir.Digər tərəfdən, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət siyasəti də müxtəlif etnik və dini qruplar arasında sülh şəraitində birgəyaşayışın dəstəklənməsi və təşviqinə yönəldilməyə başladı.Digər tərəfdən Azərbaycan Konstitusiyasında da hər bir dinin qanun qarşısında bərabər olduğu (maddə 18), dövlət irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq hər kəsin bərabərliyinə və hüquq və azadlıqlara hörmət edilməsinə təminat verir. Və ya etnik mənşə (maddə 25) və hər kəsin istənilən inancı seçmək və dinə münasibətini ifadə etmək azadlığı vardır (maddə 48) [4, s.15].

Rəsmi mənbələr bildirirlər ki, Azərbaycanda son 25 ildə dini və etnik zəmində cinayətlər demək olar ki, yoxdur.2010- cu ildən Azərbaycan da hər il bəşəriyyətin ən aktual problemlərini müzakirə etməkdə maraqlı olan dünyanın siyasi, elmi və mədəni elitasının toplanma yeri kimi düşünülmüş Bakı

Beynəlxalq Humanitar Forumunu təşkil edir. Hazırda dünyanın bir sıra universitetlərində "Azərbaycanda multikulturalizm" mövzusunda kurslar tədris olunur və bu mövzu ətrafında ölkə daxilində və ya xaricdə bir çox digər tədbirlər təşkil olunur.Azərbaycanda tolerantlıqdan danışarkən Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ müharibəsini xatırlatmadan bu təhlili bitirə bilmərik. Burada iki məsələni vurğulamaq lazımdır. Birincisi, müharibə ərazi nöqteyi-nəzərindən Azərbaycana məxsus olan, lakin daha çox etnik ermənilərin məskunlaşdığı, müstəqillik əldə etməyə çalışan Dağlıq Qarabağda yaşayan ermənilər kimi yaranıb. Bu müharibə çox vaxt etnik münaqişə adlandırılsa da, beləliklə etnik deyil, ərazi köklərinə malikdir. İkincisi, münaqişəyə baxmayaraq, bu gün də Azərbaycanda Dağlıq Qarabağ bölgəsindən kənarda, heç kimin maneəsi olmadan 30 minə yaxın erməni yaşayır və bu, etnik mənsubiyyətin heç vaxt mübahisəyə səbəb olmadığını göstərir.

Bütün bunlara baxmayaraq bizə sərhəd olan İran İslam Respublikasını ölkəmizlə müqayisə edərkən Azərbaycanda multikulturalizmin nə qədər inkişaf etdiyini və multikulturalismin milli təhlükəsizlik konsepsiyası kimi dövlət siyasətində əhəmiyyətini daha da aydın başa düşürük.Bugün İranda baş qaldıran kütləvi etiraz aksiyaları,daxili çəkişmələr,gender bərabərliyinin ciddi şəkildə pozulduğu baş verən son hadisələr zamanı bir daha öz əksini tapdi.İran İslam Respublikası kimi adlansa da erməni terrorçularını dəstəkləməsi elə məhz dini dəyərlərə hörmətsizlik kimi qiymətləndirilir.Çünki 30 il müddətində ermənilər Azərbaycana məxsus olan islam abidələrini, məscidləri təhqir edib, talayıb, dağıdıblar". Cümə məscidi işğal zamanı qismən dağıdılıb.Məscid Ağdam şəhərində tam dağıdılmayan tək tikilidir, burada mal-qara və donuzlar saxlanıb və divarı qraffiti ilə vandalizasiya edilib.Ermənilər aşkar şəkildə əxlaqsızlıq nümayiş etdirərək, Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlayıb.Lakin bütün bunlara baxmayaraq İran İslam Respublikasında Ermənistan baş nazirinin quran ayəsi ilə qarşılanmağını necə başa düşmək olar? Ermənistanın çirkin əməllərini qınamaq,ona nota vermək əvəzində onlarla əməkdaşlıq fəaliyyəti bir daha İran və Azərbaycanın dövlət siyasətlərinin nə qədər fərqli olduğunu sübut etdi.Güclü Azərbaycan İranı qorxudur, çünki İran əhalisinin demək olar ki, yarısı Azərbaycan türklərindən, o cümlədən Ali Rəhbər Ayətullah Əli Xameneidən ibarətdir. Azərbaycan güclənərsə,İran-Azərbaycan türklərinin Tehrandan Bakıya üz tutma ehtimalı yüksəkdir.İranda Azərbyacan əsilli etnik azlığın sıxışdırılması və huquq və azadlıqlarının mudafiə olunmaması burada multikultural dəyərlərin iflasa uğradığını dünyaya sübut etmişdir.

Ədəbiyyat

1. Bakı xəbər.-2022-26avqust.-N°152.-C.10.
2. Kauff, M., Asbrock, F., Thörner, S., & Wagner, U. (2013). Side effects of multiculturalism: The interaction effect of a multicultural ideology and authoritarianism on prejudice and diversity beliefs. Personality and Social Psychology Bulletin, 39(3), 305-3202.
3. Multiculturalism.preslib az
4. Səs.-2022.-20 avqust.-№149.-S.15.
5. Levin, S., Matthews, M., Guimind, S., Sidanius, J., Pratto, F., Kteily, N., & Dover, T. (2012). Assimilation, multiculturalism, and colorblindness: Mediated and moderated relationships between social dominance orientation and prejudice. Journal of Experimental and Social Psychology, 48(1), 207-212.
6. Xalq qəzeti. – 2022.- 29 sentyabr. - № 211. – S. 8
7. Yeni Azərbaycan. – 2022. – 9 avqust. - № 140. – s. 6

Hicran BABAŞOVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
babashova.hijran.2101@atmu.edu.az

"AĞILLI ŞƏHƏR" ANLAYIŞI VƏ ONUN ƏSAS XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

"SMART CITY" CONCEPT AND ITS MAIN CHARACTERISTICS

ПОНЯТИЕ "УМНЫЙ ГОРОД" И ЕГО ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ

Xülasə: Məqalədə "Ağıllı şəhər" anlayışı və onun sosial-iqtisadi əhəmiyyətindən bəhs edilmişdir. "Ağıllı şəhər"lərin təməl strukturu olan şəhər texnologiyalarının hər biri ayrı-ayrılıqda təhlil olunmuşdur. Tədqiqatla "ağıllı şəhərlər"in əsas xarakterik əlamətləri və onların göstəriciləri müəyyənləşdirilmişdir.

Açar sözlər: ağıllı şəhər, ağıllı hökümət, ağıllı iqtisadiyyat, ağıllı nəqliyyat, ağıllı ətraf mühit, ağıllı cəmiyyət,ağıllı həyat.

Abstract: The article considers the concept of "Smart City" and its socio-economic significance, separately analyzes each of the urban technologies that are the supporting structure of smart cities. As a result of research, the main characteristics of smart cities and their indicators are defined.

Keywords: smart city, smart government, smart economy, smart mobility, smart environment, smart society, smart living.

Абстракт: В статье рассматривается понятие "умный город" и его социально-экономическое значение. Каждая из городских технологий, являющихся фундаментальной структурой умных городов, была проанализирована в отдельности. Исследованием определены основные характерные признаки умных городов и их индикаторы.

Ключевые слова: умный город,умное правительство, умная экономика, умный транспорт, умная окружающая среда, умное общество, умная жизнь.

Giriş

İngiliscə "smart city" olaraq bilinən və dilimizə "ağıllı şəhər" kimi tərcümə olunan bu anlayış konseptual olaraq idarəetmə, təşkilati və texnoloji yenilikləri, qeyri-texniki və institusional şəhər problemlərinə yönələn və müasir şəhər üçün tələb olunan bütün lazımi innovasiyaları əhatə edir. Texnoloji innovasiyalar istifadə edilən texnologiyaları təkmilləşdirməyə və texnoloji alətlərdən daha effektiv istifadəyə şərait yaradır. İdarətmə və təşkilati innovasiyalar isə texniki vasitələrdən və şəraitdən səmərəli formada istifadənin təmin olunmasında fəal rol oynamaqdadır.

Qloballaşma prosesi müddətində gündəmə gələn "ağıllı şəhər" anlayışı şəhərlər arasında rəqabəti getdikcə artırmaqdadır. Belə ki, iqtisadi cəhətdən şəhərlərdə yaşayış səviyyəsinin yüksəldilməsinə çalışan dövlət qurumları bu istiqamətdə verdikləri dəstəklərlə rəqabət üstünlüyü yaradırlar [3, s.56-81].

Əsas hissə

"Ağıllı şəhər"lərin təməl strukturunu şəhər texnologiyaları təşkil etməkdədir. Şəhərlərin real vaxt rejimində qiymətləndirilməsi və təhlilində virtual reallıq, coğrafi informasiya sistemləri və simulyasiya texnologiyaları əhəmiyyətli paya malikdirlər. Keçmişdən fərqli olaraq günümüzdə "ağıllı" şəhərlərin

kompüter, aparat və internet infrastrukturu ilə qiymətləndirilməsinə başlanılmışdır. Bu konteksdə mobil cihazlar, rəqəmsal platformalar, əşyaların interneti, böyük datalar, açıq datalar, bulud texnologiyaları və başqa bu kimi texnologiyalar şəhərlərin "ağıllı" adlandırılması və "ağıllılıq" səviyyəsinin ölçülməsi üçün əsasdır. Şəhər texnologiyaları bəzən köhnəni əvəz edir, bəzən yeni düşüncələri formalaşdırır, bəzən də mövcud olanları zənginləşdirə bilir. Həmin şəhər texnologiyalarının aşağıdakı kimi ümumiləşdirilməsi mümkündür:

Mobil qurğular: Planşetlər, fərdi kompüterlər, "ağıllı telefonlar", smart sayğaclar və internet mərkəzləri kimi cihaz və platformalar vətəndaşların "ağıllı şəhər" xidmətlərindən istifadə etməsi üçün çox böyük əhəmiyyət kəsb etməkdədir. İstifadəçilərin seçimlərini əks etdirən və onların müxtəlif şəxsi məlumatlarını daşıyan bu kimi mobil qurğular məkana əsaslanan və məzmunu zənginləşdirilmiş xidmətlər ilə "ağıllı şəhər" həllərinə çıxış mövzusunda xüsusi çəkiyə sahibdirlər.

Rəqəmsal platformalar: Nəqliyyat, iş, sığınacaq və içməli suyun təhlükəsiz formada paylanması bir çox şəhərlərin təcili həllini tələb edən əsas problemlərindəndir. Yeni nəsil infrastrukturları elektrikləndirmə, avtomatlaşdırma və rəqəmsallaşmaya diqqət yetirməklə bu kimi problemlərin həlli üçün yollar axtarmaqdadır. Bu səbəbdən də rəqəmsal platformalar praktiki və ucuz həllər təqdim edən, tələb və təklif məsələlərinin qarşılanmasına və iştirakının artırılmasına imkan verən virtual kanallar olaraq qiymətləndirilməkdədir.

Əşyaların interneti: "Ağıllı şəhər" alətlərinin əhatə etdiyi şəhər elementlərinin inteqrasiya olunmuş sensorlara malik "ağıllı maşınlar"a çevrilməsi və bir-biri ilə əlaqə yaradaraq məlumatların toplanılması və paylaşılması əşyaların interneti kimi qəbul edilməkdədir. Başqa sözlə, "Əşyaların interneti" dedikdə, sensor və simsiz internet bağlantısının əşyalarda istifadə olunmasıdır. Əşyaların internetinin sahədə tətbiq edilməsi örnəklərindən biri şəhərlərdə nəqliyyat xətlərində maşından maşına (M2M) bağlı sistemlərin istifadə edilməsi ilə daha "ağıllı nəqliyyat" sisteminin formalaşdırılmasıdır [1, s. 3-5].

Böyük data: İnternet mühitində e-ticarət, mesajlaşma, məkan paylaşımı, mobil tətbiqlər, sensor qurğular və digərləri ilə edilən hər cür qarşılıqlı əlaqə ilə istifadəçilər hər zaman fərqində və ya fərqində olmadan yüksək həcmdə data istehsal edə bilirlər. Bu o deməkdir ki, sürətlə yenilənən texnologiya vasitəsilə hər kəs, hər şey, hər bir qarşılıqlı əlaqə rəqəmsal mühitdə müəyyən bir iz buraxmaqdadır. Şəbəkə sensorları, "ağıllı obyektlər", cihazlar, veb və sosial media kimi müasir informasiya və kommunikasiya texnologiyaları tərəfindən qeydə alınan, yadda saxlanılan, tənzimlənən və tənzimlənməyən hər şey böyük datanı formalaşdırır. Bu böyük datanın saxlanılması və işlənilməsi "ağıllı şəhər" platformasının mühüm sütununu təşkil edir. Böyük datalar şəhərlərin necə işlənməsi mövzusunda təcrübələri zənginləşdirərək, effektiv şəhər idarə olunmasında əvəzolunmaz bir resurs rolunu oynamaqdadır. "Ağıllı sistemlər"in "ağıllı həllər" tapmasının yolu hər gün minlərlə sensordan toplanan "Böyük data"nın "ağıllı proseslər" vasitəsilə şəhər xalqına və idarəçilərinə əlavə dəyərli məlumatlar verməkdən ibarətdir.

Açıq data: Hər kəs tərəfindən sərbəst və pulsuz şəkildə istifadə edilən, heç bir müəlliflik hüququ, patent və ya başqa nəzarət mexanizmlərinə tabe olmayan datalar "açıq data" kimi bilinməkdədir. Hər kəsin istifadə haqqının olması istər dövlət, istərsə də özəl sektorda rəqabəti və edilən işlərin keyfiyyətini artırır.

Bulut hesablama texnologiyası: Günümüzdə insanlar tərəfindən müxtəlif çeşiddə və müxtəlif böyüklükdə informasiya istehsal edilməkdədir. Həmin informasiyaların saxlanılması məsələsi gün keçdikcə öz aktuallığını daha da artırmaqdadır. Bu problemlərin həlli kimi ortaya çıxmış bulud texnologiyası internet üzərindən əldə edilən proqram təminatı, məlumatın saxlanılması xidməti və emal prosesləri kimi məsələləri əhatələyir. Bulut texnologiyası fikrinin təməlləri hələ 1950-ci illərdə

atılmışdır. Bütün bu əməliyyatlar üçün rəqəmsal şəbəkə vasitəsilə çox serverli əlaqəni həyata keçirmək kifayətdir. Müasir dövrümüzdə ən aşağı tutumlu cihazlarla belə istənilən məkandan hər cür şəxsi və başqa məlumatlara daxil olmaq mümkündür. Bütün bu əməliyyatlar üçün rəqəmsal şəbəkə vasitəsilə çoxserverli əlaqənin həyata keçirilməsi kifayətdir. Hazırda bulud hesablama texnologiyalarına data toplanılması proseslərinə naqilsiz və rasional effektiv həll yolu kimi baxılmaqdadır [4, s. 228-241].

"Ağıllı şəhərlər" memarlıq görünüşünə, coğrafiyasına, əhalisinin tərkibinə və başqa xüsusiyyətlərinə görə fərqlənsə belə, onları birləşdirən, onlara xas olan bir sıra xüsusiyyətlər mövcuddur. Vahid kompleks kimi qiymətləndirilən "ağıllı şəhərlər"in xüsusiyyətlərinin araşdırılmasında müxtəlif tədqiqatçılar bir sıra yanaşmalardan istifadə etmişdirlər. "Ağıllı şəhərlər"in strukturuna bağlı olaraq bəzi tədqiqatçılar tərəfindən standart, indeks, memarlıq və yetkin qiymətləndirmə tədqiqatları aparılmış və fərqli yanaşmalar formalaşdırılmışdır. Aşağıdakı cədvəldə "ağıllı şəhərlər"in xarakterin əlamətləri və onların əsas göstəriciləri qeyd edilmişdir.

"Ağıllı şəhərlər"in əsas xarakterik əlamətləri və onların əsas göstəriciləri

Cədvəldən məlum olur ki, "ağıllı şəhərlər"in "ağıllı nəqliyyat", "ağıllı həyat", "ağıllı hökümət", "ağıllı ətraf mühit", "ağıllı iqtisadiyyat", "ağıllı insanlar" kimi başlıca xarakterik əlamətləri mövcuddur. Bunların hər birini ayrı-ayrılıqda qısa şəkildə izah etməkdə fayda var.

"Ağıllı nəqliyyat" velosipeddən istifadəni və piyada yürüşləri dəstəkləyir. Tıxacın qarşısını almaqla, velosipedçilər və piyadalar üçün uyğun olan ərazilər ayırır. Nəqliyyat vasitələrinin avtomatlaşdırılması və sürücüsüz avtomobillər ağıllı nəqliyyat sistemlərinin gələcək planlarının içərisindədir. Bu sahədəki inkişafa misal kimi "Google ağıllı avtomobilləri" örnək göstərə bilərik. Bunlarla yanaşı, karbon istehlakının sıfıra endirilməsi və elektrikli avtobuslara keçid üçün xüsusi strategiyalar hazırlanır.

Xarakterik əlamətləri	Əsas indikatorları
"Ağıllı nəqliyyat (Smart mobility)"	İctimai nəqliyyat sistemi, İKT infrastrukturu, milli və qlobal əlçatanlıq
"Ağıllı həyat (Smart living)"	Səhiyyə xidməti, təhlükəsizlik və sosial təminat, mənzil təminatı
"Ağıllı hökümət (Smart government)"	İKT və elektron hökümət, şəffaf idarəetmə və açıq məlumat bazası, birgə qərar qəbuletmə
"Ağıllı ətraf mühit (Smart environment)"	Ekoloji davamlılıq, çirklənmə dərəcəsinin izlənilməsi, enerji resurslarının idarə olunması
"Ağıllı iqtisadiyyat (Smart economy)"	Sahibkarlıq və innovasiya, iqtisadi canlanma və planlama, məhsuldarlıq
"Ağıllı insanlar (Smart people)"	Sosial və mədəni plüralizm, yaradıcılıq, təhsil sistemi və obyektləri

"Ağıllı həyat" "ağıllı şəhər"in formalaşması üçün lazımi olan altı komponentdən biridir. Bir çox nəzəriyyəçilər "ağıllı həyat" komponentini digər beş komponentinin nəticəsi kimi qiymətləndirirlər. Əgər bir şəhər "ağıllı nəqliyyat", "ağıllı hökümət", "ağıllı iqtisadiyyat", "ağıllı ətraf mühit", "ağıllı insan" prinsipləri ilə inkişaf edirsə, həmin şəhərdə "ağıllı həyat" prinsipləri də formalaşacaqdır.

Hər bir meqapolis, metropolis və ya kiçik şəhərlərin özünəməxsus unikal xüsusiyyətləri vardır. Bu, onların unikal mədəniyyətinə və ekoloji sistemlərinə əsaslanır. Şəhərlərdə "ağıllı həyat" standartları hazırlanarkən, ilkin növbədə həmin şəhərin xarakterik xüsusiyyətlərinə nəzər salmaq gərəklidir. Şəhərlərin sosial-mədəni mühiti bir-birilərindən fərqləndiyinə görə "ağıllı həyat" standartları da hər bir şəhərdə xüsusi olmalıdır. "Ağıllı həyat" standartları insanların dini, sosial, mədəni xüsusiyyətlərinə uyğun şəkildə inşa edilməlidir. Ümumilikdə, "ağıllı həyat" prinsipləri şəhər mərkəzlərinin 7/24 canlı izlənilməsi, yerli tarixin və mədəniyyətin qorunub saxlanılmasını, uşaqlar, gənclər, qadınlar və qocalar üçün ideal yaşayış mühitinin təminatına önəm verir.

"Ağıllı hökumət" idarəetmə orqanlarında təkmil qərarların qəbul edilməsi, planlaşdırılmanın asanlaşdırılması və dəstəklənməsi üçün texnologiya və innovasiyalardan istifadə kimi qəbul edilir. Bu, çox zaman demokratik proseslərin təkmilləşdirilməsi və dövlət qurumlarında xidmət keyfiyyətinin yüksəldilməsində vacibliyini göstərir. "Ağıllı hökümət" informasiya və kommunikasiya texnologiyalarına əsaslanan yeni idarəetmə üsuludur. Vətəndaşa fokuslanan, datalara əsaslanan və performansa yönələn yeni innovativ hökümət modeli hesab edilir. "Ağıllı hökümət" dövlət qurumlarının və təşkilatlarının üzləşdiyi maliyyə, ekoloji və başqa problemlərin həlli üçün innovativ siyasət yürüdərək yeni biznes modellərindən və texnologiyalardan istifadəyə üstünlük verir.

"Ağıllı ətraf mühit"in əsas xüsusiyyətlərinə bioloji müxtəlifliyin qorunması, suya qənaət, su ehtiyatlarının mühafizəsi, fəlakət risklərini azaltmaq üçün texniki sistemlərdən istifadə olunması və enerji səmərəliliyi daxildir. Ekoloji şəhər və ya eko-şəhər konsepsiyası isə ətraf mühit problemlərini prioritetləşdirən müasir bələdiyyə konsepsiyalarından biridir. Ümumi götürdükdə, eko-şəhər konsepsiyası şəhəri ekoloji əsaslarla təbiətə uyğun şəkildə yenidən dizayn edilməsini və abadlaşdırılmasını planlaşdırır. Eko-şəhərdə əsas hədəf "ağıllı şəhərlər"də olduğu kimi yaşana bilən və dayanıqlı şəhərlər yarada bilməkdir. Bu konsepsiyaya görə, təbiət insanların müdaxilə etmədiyi şərtlər altında öz tarazlığını qoruyub saxlamaq qabiliyyətindədir. Bu tarazlıq isə şəhərlərin həddindən artıq yüklənməsi və təbiətə təsir göstərməklə yeni məskunlaşma yerlərinin salınması ilə sarsılır. Konsepsiyanın əsas məğzi də məhz bu sarsılmanın qarşısının alınması üçün təbiətlə birlikdə inkişaf edən yaşayış sahələrinin formalaşdırılmasından ibarətdir. Bu nöqtəyi-nəzərdən eko-şəhər layihələrinin bəzi hədəfləri aşağıdakı qaydada sıralana bilər:

- Şəhərlərin ətraf mühitə olan təsirinin azaldılması;
- Bərpa olunan enerji mənbələrindən yararlanılması;
- Təkrar emal edilməsi mümkün olan mal və məhsullardan istifadə edilməsi;
- "Ekoloji iz"in minimuma endirilməsi:

Dünyada bir çox ölkədə eko-şəhər konsepsiyası çərçivəsində strategiyalar hazırlanaraq həyata keçirilməkdədir. Şəhərlərin ekoloji baxımdan "ağıllı" idarə olunması üçün bələdiyyələr müxtəlif üsullardan yararlanmaqdadır. Dünyanın yaşıl şəhərlərindən biri kimi dəyərləndirilən Kopenhagen (Danimarka) karbon qazının azaldılması məqsədi ilə bir çox şəhərlərə nümunə olacaq addımlar atmışdır. Məişət tullantılarının çeşitlənməsi, ictimai nəqliyyatda velosipedə üstünlüyün verilməsi, enerjiyə qənaət edən həyat tərzinə keçidi ilə Kopenhagen nümunəvi şəhərlərdən biridir.

"Ağıllı iqtisadiyyat" texnoloji yeniliklərə, resurs səmərəliliyinə, davamlılığa və yüksək sosial rifaha əsaslanan iqtisadiyyatdır. Belə iqtisadiyyat vətəndaşların həyat keyfiyyətlərinin yaxşılaşdırılması məqsədi ilə innovasiyaları, yeni sahibkarlıq təşəbbüslərini qəbul edərək məhsuldarlığı və rəqabət qabiliyyətini artırmaq gücündədir. Başqa sözlə, "ağıllı iqtisadiyyat" bir şəhərin mikro və makro ölçülər ilə iqtisadi qazanc və xərc fəaliyyətlərinin "ağıllı sənaye" çərçivəsində idarə olunmasıdır. O hər sahədə artan isteklak amilləri qarşısında mövcud resurslardan lazımi şəkildə faydalanaraq istifadə etməyi, istehlakın artırılması və həyat keyfiyyətinin yüksəldilməsi üçün müvafiq tədbirlərin hazırlanmasını

hədəfləyir. Burada rəqabət qabiliyyəti, brend dəyəri və paylanma iqtisadiyyatı qabaqcıl anlayışlardır [2, s.1-28].

"Ağıllı şəhər"lərin "*ağıllı insanları"* cəmiyyətin başlıca ehtiyaclarına uyğun şəkildə müvafiq planlamaları nəzərdə tutan makroiqtisadi və sosial modellərə əsaslanır. O, müasir sənayenin daha "yaşıl" və "insan dostu" olmasını tələb etməkdədir. Həmçinin, vətəndaşların şəhər həyatı və xidmətlərin göstərilməsi ilə əlaqəli qərarların qəbulunda onların fəal iştirakını təmin edir. Şəxsi məlumatların toplanılmasında və paylaşılmasında məxfilik haqlarının qorunmasında maraqlıdır.

"Ağıllı insan" cəmiyyətin əsas iştirakçısı olub toplum halında "ağıllı cəmiyyət"i formalaşdırır. "Ağıllı insan" dedikdə, şüurlu, təşəbbüskarlığı və yaradıcılığı yüksək, həyatı boyunca öyrənən, İKT-ni həyatına daxil etmiş, sosial kapitalın əsas elementi və şəhər həyatının mərkəz nöqtəsi olan bir fərd kimi başa düşülür. "Ağıllı insanlar" müəyyən bir düşüncəyə və xarakterə malik olurlar. "Ağıllı insanlar" peşəkar olaraq etdikləri bütün işləri mükəmməl yerinə yetirirlər. Yüksək insani inkişaf indeksinə malik bu şəxslər ömrü boyunca öyrənməyi və e-təhsil modellərindən faydalanmağı üstün tuturlar. Onlar açıq fikirli, kosmopolit, bütün mədəniyyətlərə və dəyərlərə hörmət edən olurlar. "Ağıllı insanlar" sağlam həyat tərzi sürməklə bərabər, şəhərlərin dayanıqlı inkişafında aktiv iştirak edirlər [5].

Nəticə

Aparılmış tədqiqat nəticəsində məlum olur ki, hökümətlər şəhərlərin qlobal miqyasda bir-biriləri ilə qarşılıqlı rəqabət aparmasını, şəhər sakinlərinin sosial rifahının yüksəldilməsini davamlı şəkildə təmin etmək üçün daim yeni texnologiyaların və innovativ yanaşmaların tətbiqinə ehtiyac duyurlar. Hökümətlər "ağıllı şəhər" konsepsiyalarından istifadə etməklə şəhərlərin mövcud və gələcək problemlərini sistematik, çevik və davamlı şəkildə müəyyənləşdirmək və onları qabaqlamaq üçün çalışırlar. Eyni zamanda, şəhərlərdəki təşkilati strukturlar arasında qarşılıqlı əlaqəni təmin etməklə inteqrasiya olunmuş, bütünləşmiş xidmət göstərilməsini və innovasiya potansialını üzə çıxarmağı hədəfləyirlər.

"Ağıllı şəhər" konsepsiyaları təşkilati dəyişikliklərlə birlikdə texnologiya və məlumatların innovativ istifadəsinin başlıca məsələlərini həll edir ki, bu da gələcəkdə şəhərlər üçün müxtəlif dinamik şəhər baxışlarını daha səmərəli, effektiv və davamlı şəkildə təqdim etməyə kömək edir. Bütün bu sadalananlar qlobal miqyasda, rəqabətli mühit daxilində geriyə qalmamaq və eyni zamanda, öz vətəndaşlarının rahatlığının təminatı üçün "ağıllı şəhər" konsepsiyalarından istifadəni dövlətlər üçün zəruri edir.

Ədəbiyyat

1. Batal. M.S. Nesnelerin interneti (IOT) tabanlı akıllı şehir teknolojileri ve en iyi uygulamalar. Uluslarası Sunhıll Üniversitesi. İstanbul: 2017, 3-5 səh.
2. Giffinger., Fertner R., Kramar C., Klasek H., Milanovic R.P., Meijers N. Smart cities- ranking of European medium-sized cities. Vienna University of Technology. Vienna: 2007, 1-28 p.
3. Kaygısız Ü., Aydın S.Z. Yönetişimde yeni bir ufuk olarak akıllı kentler. Mehmet Akif Ersoy Üniversitesi. Sosyal Bilimler Enstitüsü Dergisi. Burdur: 2017, 56-81 səh.
4. Örselli E., Akbay C. Teknoloji ve kent yaşamında dönüşüm: Akıllı kentler. Uluslararası Yönetim Akademisi Dergisi. Türkiyə: 2019, 228-241 səh.
5. https://www.akillisehirler.gov.tr - "2020-2023 Ulusal Akıllı Şehirler Stratejisi ve Eylem Planı" portalı.

Fidan ƏHMƏDZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti,
magistrant
fidanehmedzade99@gmail.com

MEHMANXANALARIN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ KADRLARIN KVALİFİKASİYANIN VƏ YENİ PROQRAMLARIN TƏTBİQ EDİLMƏSİ TEXNOLOGİYALARI

TECHNOLOGIES OF PERSONNEL QUALIFICATION AND APPLICATION OF NEW PROGRAMS IN IMPROVING THE QUALITY OF HOTELS

ТЕХНОЛОГИИ КВАЛИФИКАЦИИ ПЕРСОНАЛА И ПРИМЕНЕНИЕ НОВЫХ ПРОГРАММ В ПОВЫШЕНИИ КАЧЕСТВА ГОСТИНИЦ

Xülasə: Məqalə mehmanxanaların keyfiyyətinin yüksəldirilməsində kadrların kvalifikasiyasının və yeni proqramların tətbiq edilməsinə həsr olunmuşdur. Mehmanxanalarda istehsal fəaliyyətində bazar tələbləri nəzərə alınmaqla məhsulların istehsalı, işlərin görülməsi və xidmətlər göstərilməsi prosesində işçilərlə işləyən personallar arasındakı qarşılıqlı əlaqənin məzmunu, metodu və ardıcıllığı mühim məsələ olaraq götürülür. Bu baxımdan keyfiyyətli xidməti təmin etmək məqsədilə kvalifikasiyanın tətbiq olunması qonaqpərvərlik sənayesində vacib amil olaraq götürülür.
Açar sözlər: kvalifikasiya, personal, idarəetmə, texnologiya, metod.

Abstract: The article is devoted to the promotion of staff qualification and new programs in improving the quality of hotels. In the production activities of hotels, in the process of producing products, doing business and providing services, the content, method and order of the interaction between the employee and the staff are considered as an important issue, taking into account the market requirements. In this context, qualification practice is seen as an important factor in the accommodation sector in order to provide quality service.
Keywords: qualification, personnel, management, technology, method

Резюме: Статья посвящена повышению квалификации персонала и новым программам повышения качества гостиниц. В производственной деятельности гостиниц, в процессе производства продукции, ведения бизнеса и оказания услуг содержание, способ и порядок взаимодействия работника и персонала рассматриваются как важный вопрос с учетом требований рынка. В этом контексте квалификационная практика рассматривается как важный фактор в сфере размещения для предоставления качественных услуг.
Ключевые слова: квалификация, кадры, управление, технология, метод

Məqsəd. İlk olaraq qarşıya qoyulan əsas məqsəd və vəzifə qonaqpərvəlik sənayesində bütün peşələr üzrə *kvalifikasiyanın tətbiq edilməsi məhz otelçilik sahəsində keyfiyyətin yüksəldilməsinə təmin ediləcək ən vacib addımlardan biri olmaqla yanaşı, həm də yeni innovasiya baxımından texnologiya olaraq qəbul edilə bilər.*

Ölkəmizdə potensial turistlərin cəlb olunması, mehmanxanalarda keyfiyyətli xidməti təmin etmək məqsədilə yeni perspektivlərin tətbiq olunması ən vacib qarşıya qoyulan prorietlərdən biridir. Bunları nəzərə alaraq ilk öncə ölkə ərazisinə gələn turistlərin məqsədlərinə uyğun olaraq xidmətlərin təklifi vacibdir. Təbii ki, artıq texnologiya dövründə yaşadığımızdan qonaqlar sürətli xidmətləri üstün tutduğundan yeni innovasiyaların təmin edilməsi qaçılmazdır, həm paytaxda, həm də regionlarda. Dövlət

Statistika komitəsinin verdiyi məlumatlara əsasən Azərbaycana gəlmiş əcnəbi turistlərin səfərinin məqsədi bu şəkildə əks edilmişdir:

- Müalicə məqsədilə -1,8%
- Dini ziarət-0,2%
- Qohumları, dostlara baş çəkmək-21,8%
- İşgüzar məqsədlər 42,6%
- İstirahət, əyləncə məqsədilə-28,7%
- Digər məqsədlı-4,9%

Verilən faizlərdən aydın şəkildə görmək mümkündür ki, daha çox üstünlük işgüzar məqsədlə gələn turistlər tutmaqdadır. Bununla bağlı olaraq mehmanxanalarda yeni məhsullar, innovasialar tətbiq etmək onların və həmçinin digər turistlərin loyallığın artmasına, eyni zamanda inkişaf istiqamətində müsbət nəticələr əldə etmiş olarıq. Azərbaycanda qonaqpərvərlik sənayesinin dayanaqlı inkişafını təmin etmək, gələcək perspektivlərinin reallaşdırılması üçün ilk öncə ölkəmizin, regionlarımızın müsbət imicinin formalaşdırılması, adət-ənənələrimizin təşviq edilməsi, həm yerli, həm xarici turistlərin cəlb olunmasında informasiya vasitələrinin genişləndirilməsi, beynəlxalq səviyyədə uğurlu marketinq strategiyasının tətbiqi, konfrans və sərgilərin keçirilməsi, xarici əməkdaşlıqların gücləndirilməsi, milli və beynəlxalq standartların qaydalı olaraq tətbiqini həyata keçirmək və nəzarəti gücləndirmək ən mühim məqsədlər olaraq qarşıya qoyulmalıdır.

Üsul. *Personalların* müvafiq *kvalifikasiyaya və* standartlara uyğun olaraq qiymətləndirilməsi və onların rəsmi olaraq təsdiqetmə prosesindən keçməsi öz işlərində olan peşəkarlığının yoxlanması nəticəsində, müxləlif proqram və təlimlərdə iştirak etməsi ixtisaslaşmağa vadar etməklə yanaşı, mehmanxanalarda qonaqlara göstərilən xidmətin keyfiyyətinə müsbət rol oynayacaqdır. Bununla bağlı olaraq qonaqpərvərlik sənayesində şöbələr üzrə bütün işçilərin menecerlər, ofisianlar, qənnaçılar, barmen, aşpazlar və s. bu prosesdən keçməsi qaçılmazdır. Nəzərə alsaq ki, hər il minlərlə tələbə bu sahə üzrə təhsillərini bitirərək, iş yerlərinə müraciət edirlər və onların işlə təmin etmək və işləyən personalların *kvalifikasiyanın keçirilməsi bu sahə üzrə nə dərəcədə uyğun olması gələcəkdə yaranacaq problemlərin qarşısını alacaqdır. İlk öncə peşə təhsillərinin qiymətləndirilməsi həyata keçirilməli, daha sonra qiymətləndirmə sonunda bu kvalifikasiyadan keçməyən şəxslər peşə hazırlığı təlimlərinə qoşulmalıdır. Əks halda əgər bu təlimlərə qoşulmayan gələcək işçilərə sertifikatların verilməməsi və öz ixtisası üzrə işlə təmin olunmasının qarşısını almaq lazımdır.*

Bununla bağlı olaraq 2021-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən peşə və kvalifikasiya standartlarının reyestri istifadəyə verilib. Reyestrdə Nazirliyin ötən il hazırladığı 300 standart əhatə olunub. Bu standartlar əsas məqsədi işçinin müvafiq peşə və ixtisas üzrə yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan minimum tələblərin məcmusundan ibarətdir. Əsas qarşıya qoyulan vəzifə bazarın tələbini öyrənmək və bu istiqamətdə həmin şəxslərə təlimlərin keçirilməsi, yeni üsul və innovasiaların tətbiqini tətbiq etməkdir [3].

DAİR Hotellər və Restoranlar Assosiasiyası 2011-ci ildən etibarən qonaqpərvərlik və turizm sahələrində peşə təhsili təklif edən AHEC Azərbaycan Qonaqpərvərlik Tədris Mərkəzi vasitəsilə ölkədə peşə standartları, peşə sahəsində sertifikatlaşma, peşə ixtisasının verilməsi və ixtisas artırma istiqamətlərində fəaliyyət göstərməkdədir. Burada əsasən F&B, Housekeeping və Front office üç istiqamətdə qənnaçı, şirniyyatçı, barmen, xadimə peşələri üzrə təlim proqramı tətbiq edilməkdədir. Keçirdiyim anket sorğusunda Samir Dübəndidən əldə etdiyim məlumatlara əsasən Samir müəllim bildirmişdir ki, ınnovasiya baxımından ölkəmizdə tətbiq olunan yeganə tədris metodikası məhz bu təlim proqramında həyata keçirilir. Təlim proqramı- DUO tədqiqatçının sosial, təhsil baxımından inkişafı təmin etmək məqsədilə bu istiqamətdə tədqiqat proseslərinin həyata keçirməkdir. Bu təlim proqramının keçirilməsində əsas məqsəd ölkəmizdə təhsil və işçi arasında bir körpü yaratmaqdır, hansı ki, bu gələcəkdə aparılacaq kvalifikasiya proseslərində əsas rol oynamaqdadır. Assosiasiyanın 300-dən çox şirkətlə əməkdaşlığı vardır. Təlimlər bu sahədə peşəkar olan mütəxəssislər tərəfindən keçirilir və həmçinin onlara ölkə xaricində mübadilə proqramında iştirak etmək şansıda yaradılır.

Təlim proqramı peşə ixtisasından asılı olaraq 2 ay və ya 1 ay yarım keçirilir, qruplarda əsasən iştirakçıların sayı 16-22 nəfər olaraq təşkil edir, materiallar iştirakçılara elektron olaraq göndərilir, və onlara dərs prosesində keçirilən materiallar təqdimat formasında təqdim edilir, bu da artıq yeni üsulların tətbiq olunması deməkdir. Proqramın birinci hissəsində qonaqpərvərlik sahəsindəki standartlar, bu sahənin ümumi anlayışları onlara ötürülür, daha sonra onların ixtisas bilikləri təlim proqramı sonunda test, yazılı və ya şifahi olaraq qiymətləndirilir. Həmçinin məsləhət saatları təşkil edilir və uğurla bitirən şəxslər sertifikatla təmin edilir. Samir Dübəndinin bildirdi ki, təlimin sonunda iştirakçıların 70% işlə təmin edilir, və bu günə qədər təlim proqramına 600-dən çox iştirakçı qatılmışdır, bu da 60% məşğullun təmin edilməsi deməkdir.

The tomb consists of underground and surface parts. Along with the great architectural richness of the monument, it shows the ancient history of Azerbaijan, its great statehood, high-level culture and great architectural school.

A lot of work has been done in the Autonomous Republic over the decades to improve infrastructure, recreation parks and fountain-monument complexes reflecting the achievements of national and modern architecture have been put into operation in cities and regions, and hotels meeting modern requirements have been built. Also, "Duz-Dag" and "Badamli" physiotherapy hospitals and "Daridag" arsenal water treatment hospital, which have no analogues in the world, have been reconstructed at the level of modern requirements.

The foundation of “Duz-Dag” sanatorium was laid on December 21, 2006 in Babek district of Nakhchivan Autonomous Republic. President of Azerbaijan Ilham Aliyev attended the ceremony. Gamigaya built a six-storey building in a short time. In parallel with the construction, a drinking water line was laid from the Nakhchivanchay valley to the sanatorium building. The natural salt cave, where thousands of patients are cured every year, has an infrastructure suitable for modern students.

The Duz-Dag sanatorium complex, which was opened in June 2008 with a grand opening ceremony, has all the conditions for examination, treatment and recreation. President Ilham Aliyev and President of Turkey Recep Tayyip Erdogan attended the opening of the Duz-Dag physiotherapy center and got acquainted with the conditions created there. The heads of state praised the conditions created in the complex. Duz-Dag physiotherapy center is located at an altitude of 1173 m above sea level. The sanatorium building consists of 7 floors with a basement. Normal conditions have been created for 287 people in 165 rooms located in the new health facility.

The expansion of cross-border trade and easy access to Iran and Turkey are among the factors expanding Nakhchivan's tourism ties. The rising standard of living of the population encourages businessmen to engage in wider and more attractive forms of business. In this regard, international tourism can become an area that can benefit the people of the region in the future.

It is possible to develop tourism in Nakhchivan in many directions. We can hope for the future development of ecotourism, health tourism, religious tourism, rural and green tourism in the AR.

Various international events are also organized in Nakhchivan. The international conference on “Tourism, Development and Prospects” held in Nakhchivan in November 2006 was a successful step towards the development of the tourism sector in the Autonomous Republic and gave impetus to the development of new projects. Representatives of tourism companies, including delegations from Turkey and the Islamic Republic of Iran, attended the event, which took place in the building of the Nakhchivan City Executive Power. Heads of Erzurum and Igdir culture and tourism departments, including local representatives. Speeches were made at the international conference on tourism opportunities of the Nakhchivan Autonomous Republic, and issues of mutual interest were discussed.

On May 20-22, 2008, an international conference on "Religious and health tourism: organization of spiritual and physical recreation" was held in Nakhchivan under the chairmanship of the V Islamic

Conference of Ministers of Tourism. Along with various regions of Azerbaijan, the event was attended by representatives of Turkey, Iran, Kazakhstan, Jordan, Egypt, Gabon, Morocco and other countries. The main purpose of the conference was to exchange experiences on the importance of religious tourism and pilgrimage in the Islamic world, the essence of religion and health, its effective management for tourism purposes, as well as mutual discussions on state support for religious and health tourism for sustainable development. As a result of the conference, the development of infrastructure for religious and health tourism, expansion of propaganda tools, creation of a database on religion and health tourism in the Islamic world, organization of mutual info tours, human resource development, attraction of public and private investments in religious and health tourism projects, etc. recommendations were particularly noted.

Thus, the fact that the Nakhchivan tourist region has both a wonderful nature and an ancient history has led to the expansion of its tourism potential. As a result of intensive tectonic processes, avalanches and landslides have accelerated, resulting in miraculous lakes. Known as the "floating island", Batabat, Bloody Lake is considered a potential resource for ecotourism. Also, mineral-rich springs and salt caves in the Nakhchivan tourist region create favorable conditions for the development of health tourism. In order to develop this area, the world's first Salt Hotel was built in the region

Literature context:

1. Soltanova H.B. Tourism and its deelopment in the Republic of Azerbaijan, 2015
2. H. H. Religious-historical monuments, shrines, seyids, saints of Azerbaijan. Baku, “Nasir” publishing house, 2005, 524p.
3. http://imp.nakhchivan.az/en/index.php/pages/2014-03-12-16-14-51
4. http://turizm.nakhchivan.az/index.php/template/2015-12-29-06-33-39/2-undzatezhorised/35-tarikhi-m-d-ni-turizm

Günel HƏBİBOVA
Azərbaycan Turizm və Menecment Universiteti, müəllim
gunel.aliyeva@atmu.edu.az

HISTORICAL PERSONALITIES OF NAKHCHIVAN REGION

NAXÇIVAN REGİONUNUN TARİXİ ŞƏXSİYYƏTLƏRİ

ИСТОРИЧЕСКИЕ ЛИЧНОСТИ НАХИЧЕВАНСКОГО КРАЯ

Xülasə: Naxçıvan Əcəmi Naxçıvani, Nəsirəddin Tusi, Hinduşah Naxçıvani, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Heydər Əliyev, Yusif Məmmədəliyev, İlham Əliyev kimi zəngin tarixi şəxsiyyətlər diyarıdır. Onlar Naxçıvan regionunun tarixini yazan, zənginləşdirən, inkişafında xüsusi rol oynayan şəxsiyyətlərdir.
Açar sözlər: tarixi şəxsiyyət, diyar, elm, inkişaf, siyasi hadisə

Abstract: Nakhchivan is a prosperous land of historical figures such as Ajami Nakhchivani, Nasreddin Tusi, Hindushah Nakhchivani, Jalil Mammadguluzade, Huseyn Javid, Heydar Aliyev, Yusif Mammadaliyev, Ilham Aliyev. They are people who wrote, enriched the history of the Nakhchivan region and played a special role in its development.
Keywords: historical personality, land, science, development, political event

Абстракт: Нахчыван – процветающая земля таких исторических деятелей, как Аджами Нахчивани, Насреддин Туси, Хиндушах Нахчивани, Джалил Мамедгулузаде, Гусейн Джавид, Гейдар Алиев, Юсиф Мамедалиев, Ильхам Алиев. Это люди, написавшие, обогатившие историю Нахчыванского края и сыгравшие особую роль в его развитии.
Ключевые слова: историческая личность, земля, наука, развитие, политическое событие

Naxçıvan regionu Azərbaycana tabe Muxtar Respublikadır. O həmişə öz xüsusiyyətləri ilə seçilir. Naxçıvan regionu qədim tarixə, zəngin mədəniyyətə malikdir. Bu region sürətli inkişafı ilə seçilir. Naxçıvan böyük şəhərdir. Əhalisinin çoxluğuna, hündür yerdə yerləşdiyinə görə digər regionlardan fərqlənir. Bu regionda çoxlu saraylar, qalalar, məscidlər, qəsrlər və mədrəsələr var. Bunların da hamısının öz tarixi, keçmişi var. Şəhərətrafı özünün füsunkar gözəlliyi, bağları və yaşıllığı ilə seçilir. Araz çayı şəhərin içindən axır. Özünəməxsus memarlığı ilə fərqlənən Naxçıvanın Əcəmi Əbubəkr oğlu Naxçıvani kimi görkəmli memarı olmuşdur. Bu memar XII əsrin 20-ci illəri - XII əsrin sonu dövründə yaşamışdır. Dahi şəxsiyyət Azərbaycanın böyük memarı olmaqla yanaşı, Naxçıvan memarlıq məktəbinin banisi olmuşdur. Orta əsr Azərbaycan memarlığına öz töhfələrini vermiş, Yaxın Şərq memarlığına da güclü təsir göstərmişdir. Şərqin böyük dühaları ona "Şeyxül-mühəndis" (mühəndislərin başçısı) fəxri adı vermişdi. [8; 22]. Əcəminin yaradıcılığına biz ən çox Naxçıvan şəhərində təsadüf edirik. Əcəmi əsasən də Eldənizlər dövründə Naxçıvanın mədəniyyət mərkəzinə çevrilməsində geniş abadlıq və tikinti işləri aparmışdır. Onun ilk yaratdığı tikinti abidəsi Yusif Küseyir oğlu türbəsidir. Bu türbə "Atababa günbəzi" adı ilə də tanınır. Bu türbənin əsası 1162-ci ildə qoyulmuşdur. Sənətkarın digər bir şah əsəri isə 1186-cı ildə Naxçıvanın qərb hissəsində ucaldılmış Möminə xatun türbəsidir. Türbə Məhəmməd Cahan Pəhləvanın anası Möminə xatunun şərəfinə tikilmişdir, onguşəlidir. Bu abidə misilsiz sənət nümunəsi kimi qiymətləndirilir. Əcəminin yaratdığı misilsiz sənət nümunələrindən biri də baştağdan-portaldan ibarətdir. Bu tikili Möminə xatun türbəsi də daxil olmaqla, böyük bir memarlıq kompleksinin giriş hissəsidir. Naxçıvanda yerləşən Cümə məscidi, "Darülmülk" – Eldənizlər sarayı və "Dövlətxana" – hökumət binası da Əcəminin adı ilə bağlıdır. Bu abidələrdən əlavə tədqiqatçılar söyləyir ki, Naxçıvanda yerləşən bir çox abidə və binalar da onun adı ilə bağlıdır. Bu tarixi şəxsiyyət həm də Gülüstan türbəsi,

Bərdə və Səlmas türbələri, Qarabağlar türbəsi də daxil olmaqla, Əcəmi ənənələrinin yaradıcısıdır. Hətta Gəncədə Nizami məzarı üstündə də şəxsiyyətin irsindən, onun üslbundan istifadə edilib. Bakıda Naxçıvanın heykəlinin kürsü hissəsində, Şuşadakı Vaqif türbəsində, Naxçıvan şəhərindəki Hüseyn Cavid məqbərəsində Əcəminin memarlıq irsinin təsiri aydın hiss olunur. [9; 25]. Avstraliyalı sənətşünas Ernest Dits Sinanın yaradıcılığını yüksək şəkildə qiymətləndirmiş, Naxçıvana səfəri zamanı Əcəmi memarlıq məktəbi ilə yaxından tanış olmuşdur. Əcəmi yaradıcılığı Azərbaycan intibahının əvəzolunmaz təzahürüdür. Sənətkarın abidələrindəki orijinallıq, incəlik, zəriflik, bəzəklərinin oynaqlığı ilə xüsusi sənətkarlıq təfəkkürünün məhsuludur. Onun əsərlərində bədiiliklə riyazi fikrin vəhdəti öz əksini tapır. Hər il böyük sənətkarın doğum günü xüsusi qeyd olunur.

Bir məkanın tarixini yazan, onun tarixini zənginləşdirən, inkişafında xüsusi rol oynayan şəxsiyyətlər olur. Bu şəxsiyyətlər hər bir tarixi məkanı öz sözü, elmi, apardığı arxeoloji qazıntıları ilə aşkar edib ortaya çıxaran insanlardır. Naxçıvanı tarixi şəxsiyyətlərsiz təsəvvür etmək qeyri-mümkündür. Naxçıvanda görkəmli dövlət xadimlərinə rast gəlmək mümkündür. Bunlardan biri də əslən naxçıvanlı olan Azərbaycanın tanınmış alimi, dünya şöhrətli Nəsirəddin Tusidir. Nəsirəddin Tusi Məhəmməd ibn Məhəmməd ibn Həsən dahi Azərbaycan alimi, filosofu, ictimai-siyasi xadimidir. O, ilk təhsilini atasından və dayısından alaraq Xorasanda davam etdirmişdir. Tusi burada müxtəlif elm sahələrini dərindən mənimsəmişdir. Marağa rəsədxanası onun adı ilə bağlıdır. Bu rəsədxana elm və mədəniyyətin inkişafında misilsiz rol oynamışdır. Bu elm ocağında müxtəlif xalqların nümayəndələri toplaşaraq çalışmışdılar. Mədrəsədə o dövrün bütün bilik sahələri elmi, dini təlimləri öyrənilirdi. Orada 400-mindən çox kitab mövcud idi. Tusi Bağdada səfəri zamanı vəfat etmiş, Kazımeyn şəhərində dəfn edilmişdir. Şəxsiyyətin yolunu onun üç oğlu davam etdirmişdir. Həmin oğlanları Naxçıvanın ərazisində elm və mədəniyyətin inkişafında əvəzsiz rol oynayıb. Nəsirəddin Tusi ilahiyyat, fəlsəfə, siyasət və etikaya dair əsərlərin yaradıcısı olmuşdur. Onun "Əxlaqi-Nasiri" əsərində hamsının vəhdəti öz əksini tapmışdır. Bu əsər insanlığın kamillik əsəri kimi qiymətləndirilir. Əsərdə insanın cəmiyyətdə rolu onun hikməti, mənəviyyatı dərindən öyrənilir. Şəxsiyyət musiqiyə dair traktatların, poeziya nəzəriyyəsinin və fəlsəfi şeirlərin də müəllifidir. Onun dünyagörüşü, habelə ilahiyyata dair fikirləri, təkcə keçmişdə deyil, bu gün də insanların maraq dairəsindədir. Tusinin "Zic-Elxani" əsərində yer kürəsi, planetlərin hərəkəti, astronomik və coğrafi cədvəllərə də təsadüf edilir. Cədvəl London və Oksford kimi şəhərlərdə ərəb və latın dillərinə tərcümə edilərək çap edilmişdir. Nəsirəddin Tusi biologiya, botanika,zoologiya, psixologiya, mineralogiya kimi elmlərə öz töhfəsini vermişdir. Nəsirəddin Tusini "bəşər ustadı" kimi qiymətləndirmişdilər. Şəxsiyyətin 800 illik yubileyi dünya miqyasında qeyd edilmişdir.

Səncər ibn Abdulla ən-Naxçıvaninin oğlu Hinduşah Naxçıvani, nəvəsi Məhəmməd ibn Hinduşah Naxçıvani, nəticəsi Kəmaləddin ibn Məhəmməd Naxçıvani Azərbaycanın elm tarixində layiqli yer tutublar. [2; 32]. Hinduşah Naxçıvani ensiklopedik biliyə malik alim və dövlət xadimi kimi tanınmışdır. Onun oğlu da atasının yolunu uğurla davam etdirmişdir. Onlardan bizə iki böyük əsər qalmışdır. Həmin əsərlər Azərbaycanın mədəniyyətinin inkişafına töhfələr vermişdir.

Nəcməddin Naxçıvani filosof, alim, mütəfəkkir Həsən Naxçıvani, həkim, Kəmaləddin Naxçıvani, məşhur vəkil Qəvaməddin Naxçıvani və başqaları da Azərbaycanın elm və mədəniyyət tarixində dərin iz qoyublar. [7; 33]. Bu ərəfədə yəni XIII-XIV əsrlərdə Memar Əcəmi məktəbi də Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvaninin, Camaləddin Naxçıvaninin sənət əsərlərində öz əksini tapmışdır. Bərdə türbəsi, Qarabağlar türbəsi və Xanəgah türbəsi həmin müəlliflərin adı ilə bağlıdır.

Azərbaycanda baş verən siyasi hadisələr Naxçıvan Muxtar Respublikasına təsir etmişdir. Türkmənçay, Gülüstan müqavilələri, daha sonra Xanlıqlar dövrü Naxçıvanın tarixində dərin iz qoymuşdur. Darkənd körpüsü, Cümə məscidi, Nehrəm imamzadəsi, Xan evi, Sədərək məscidi və Ehsan xanın sarayı və başqa tarixi abidələr bu dövrün məhsuludur.

1947-ci ildə Oktyabr çevrilişindən sonra Naxçıvanın tarixində ən ağır dövr kimi yadda qaldı. Azərbaycanın bütün ərazilərinə olduğu kimi, bura da kütləvi ermənilərin axını baş verdi. Naxçıvana köçürülən ermənilər çalışırdılar ki, etnik tərkibi qəsdən dəyişsinlər. Lakin Naxçıvanın türk-müsəlman əhalisi bu qəddar siyasətə qarşı mübarizə aparırdı. Onlar ermənilərin Vətən torpaqlarında

möhkəmlənməsinə yol vermirdilər. Bu qanlı faciələrə, yəni ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlara əslən Naxçıvandan olan M.S.Ordubadinin "Qanlı illər" kitabında təsadüf etmək olar. Burada həmin hadisələr konkret faktlarla göstərilmişdir.

Bu dövrdə Rus ordusunun tərkibində zabit, nüfuzlu naxçıvanlılar da iştirak edirdi. Onlardan biri Cəmşid Cəfərqulu oğlu Naxçıvanskidir. O Ukraynada hərbi məktəbi bitirmişdir. Birinci Dünya müharibəsində 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdur. Bundan əlavə 2-ci, 3-cü, 4-cü dərəcəli "Anna" ordenləri ilə təltif olunmuşdur. , Azərbaycanın müstəqilliyi uğrunda inamla vuruşan şəxsiyyətlərdən biri kimi qiymətləndirilmiş, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri olaraq yüksək ixtisaslı hərbi kadrları hazırlamışdır. Buna baxmayaraq, o həm də elmi fəaliyyət ilə məşğul olmuşdur. Əlağa Şıxlinskinin Azərbaycan dilində nəşr etdiyi "Hərbi bilik" jurnalının redaktorlarından biri olmuşdur. O, Ali Hərbi-Siyasi Akademiyaya oxumağa göndərilmişdir. Burada daha sonra 3 il müəllim kimi fəaliyyət göstərmişdir. 30-cu illərdə Naxçıvanski də represiya qurbanına məruz qalmışdır. Sovet Respublikası dağıldıqdan sonra isə Cəmşid Naxçıvanskinin təmiz adı şəxsiyyətə geri qaytarılmışdır.

Naxçıvan diyarı əvvəlki zamanlarda olduğu kimi, XIX-XX yüz ilin əvvəllərində də Azərbaycan mədəniyyətinin inkişafında əvəzsiz rol oynamışdır. Bu dövrdə "Əxtər", "Tərbiyə" kimi yeni məktəblər açılmışdır. Bu məktəblərin açılmasında M.T.Sidqinin əvəzsiz xidmətləri olmuşdur. O, ilk dünyəvi qız məktəbini təşkil etmişdir.

Bundan əlavə, Azərbaycanın elm, mədəniyyət və tarixinin inkişafında Məhəmmədağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Hüseyn Cavid, Bəhruz Kəngərli, Kazım Ziya, Yusif Məmmədəliyev, İslam Səfərli, Hüseyn Razi, Zəroş Həmzəyeva, Məmməd Araz, Hüseyn İbrahimov kimi naxçıvanlı şəxsiyyətlər böyük rol oynamışlar.

Mollanəsrəddinçilər ədəbi məktəbinin banisi olan, Azərbaycanın qüdrətli yazıçısı, publisist və ictimai xadimi Cəlil Məmmədquluzadədir. Onun əsərləri nəinki Azərbaycan ədəbiyyatına, dünya bədii mədəniyyətinə də təsir göstərmişdir. Cəlil Məmmədquluzadə bədii yaradıcılığa XIX əsrin 80-ci illərində başlamış, daha sonra nasir, dramaturq və publisist kimi məşhurlaşmışdır. Onun əsərlərində yüksək insani fikirlər, humanist idealar təbliğ olunur. "Poçt qutusu", "Danabaş kəndinin əhvalatları", "Dana baş kəndinin məktəbi" həmin əsərlər sırasına daxildir. Yazıçı yaşadığı mühiti xüsusi incəliklə qələmə alaraq dövrünün hadisələrini qiymətləndirmişdir. Əfsuslar olsun ki, yazıçının yaratdığı Xudayar bəy, Novruzəli, Məhəmmədhəsən əmi kimi obrazlar hələ də öz aktuallığını qoruyub saxlayır. Onun "Saqqallı uşaq", "Quzu", "Konsulun arvadı" əsərləri o dövrkü cəmiyyətin müxtəlif sosial problemləri realistcəsinə əks olunmuşdur. Cəlil Məmmədquluzadənin bədii irsinin mühüm bir hissəsini dram əsərləri təşkil edir. Bunlara "Ölülər", "Kamança", "Anamın kitabı", "Danabaş kəndinin məktəbi", "Dəli yığıncağı" kimi əsərləri daxildir. Bu əsərlərində dramaturq avamlığa və nadanlığa qarşı satirik gülüşdən istifadə etmişdir. Cəlil Məmmədquluzadə irsinin böyük bir hissəsini "Millət", "Necə qan ağlamasın?", "Sizi deyib gəlmişəm" məqalə və felyetonlar təşkil edir. "Molla Nəsrəddin" jurnalı Azərbaycanın ictimai-siyasi tarixində mühüm rol oynamışdır. Burada dil, din, vətən, millət və gen kimi mövzular işlənilmişdir. Buna görə də Cəlil Məmmədquluzadəni "böyük demokrat" adlandırırdılar. Onun yaradıcılığı humanist-bəşəri məzmunu və bədii keyfiyyətləri baxımından bu gün də aktualdır.

Naxçıvanda sadəcə olaraq elm sahəsi yox, həm də incəsənət sahəsi inkişaf edirdi. 1886-cı ildə Naxçıvanda teatr binasının əsası qoyulmuşdur. Bu B.Kəngərlinin adı ilə bağlıdır. Onun yaradıcılığı nəticəsində Azərbaycanda portret, mənzərə janrları və realist dəzgah boyakarlığı inkişaf etmişdir.

XIX-XX əsrin əvvəllərində Naxçıvanda zərgərlik, toxuculuq, xalçaçılıq və başqa xalq yaradıcılığı sahələri inkişaf etmişdir.

1918-ci ilin mayın 28-də Azərbaycan öz müstəqilliyinə qovuşdu. Buna baxmayaraq, erməni şovinizmi yenə də öz çirkin planlarından əl çəkmirdilər. Onlar Naxçıvanı, Zəngəzuru, Qarabağı işğal etmək istəyirdi. Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvana xüsusi diqqət ayırmağa çalışırdı. Lakin ingilislər 1919-cu ildə Naxçıvanı tutdular. Bu ingilislər isə ermənilərə rəğbət bəsləyirdi. Lakin Araz Türk Cümhuriyyəti düşmənlərə qarşı birləşərək Naxçıvanı xilas etdilər. Beləliklə, Naxçıvanı erməni

işğalından qorumaq mümkün olmuşdu. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı. Bunun nəticəsində Sovet Rusiyası Azərbaycanın bütün torpaqlarını işğal etdi. Əlbəttə ki, bu Naxçıvandan da yan keçmədi. 1924-cü ilin 9 fevralında Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yarandı. Naxçıvanın Azərbaycandan qoparılmasına yönəlmiş siyasət boşa çıxdı. Bu ərəfədə Naxçıvanın tarixində misilsiz rol oynayan hadisə baş verdi. 1923-cü ilin may ayının 10-da nəinki Naxçıvanın, Azərbaycanın dahi dövlət xadimi Heydər Əliyev dünyaya göz açdı. Heydər Əliyev Naxçıvanın Azərbaycana bəxş etdiyi dahi şəxsiyyətlər sırasında xüsusi rol oynayır.

Əliyev Heydər Əlirza oğlu elə bir zamanda hakimiyyətə gəldi ki, xalqın böyük bir liderə ehtiyacı var idi. O, xalqın dayağına çevrildi. Azərbaycanın qurtuluş mübarizəsinin rəmzi oldu. O, əvvəlcə təhsilini Naxçıvanda, Leninqradda, daha sonra isə Bakıda tamamlamışdır. Heydər Əliyev 1964-cü ildən etibarən məsul vəzifələrdə çalışmağa başlamışdır. 1964-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə təyin olunmuşdur. O, bu Komitədə işlədiyi müddət ərzində strukturların hər birini azərbaycanlılaşdırmağa çalışmışdır. Bunun uğrunda misilsiz xidmətlər göstərmişdir. Heydər Əliyev 1969-cu ildə AKP MK-nın birinci katibi, MK-nın büro üzvü seçilmişdir. Bununla da şəxsiyyətin Azərbaycana rəhbərliyinin birinci dövrü başlamışdır. Bu müddət ərzində Heydər Əliyev xalq təsərrüfatı, quruculuq işlərində intizamla çalışmış, Respublikanın iqtisadi-siyasi həyatında məruzə və çıxışlarında hər zaman toxunmuşdur. Xalqının inkişafı uğrunda bir sıra proqramlar tərtib etmişdir. O, Sovet İttifaqı Komunist Partiyasının qurultaylarında çıxış etmişdir. Bu çıxışları zamanı xalqının mənafeyini hər zaman göz önündə saxlamışdır. SSRİ-də Konstitusiyanın hazırlanmasında fəal iştirak etmişdir. Heydər Əliyev 1977-ci ildə qəbul olunmuş Kontitusiyada Azərbaycan dilini SSR-in dölət dili olması haqqında maddənin qəbul olunmasına nail olmuşdur. O, Azərbaycana rəhbərlik etdiyi ilk illərdən mükəmməl iqtisadi inkişafa şərait yaratmış, təsərrüfat sahələrinin səmərələliyi bərpa edilmiş, yeni-yeni sahələrin inkişafına, genişləndirilməsinə şərait yaratmışdır. Nəticədə, Azərbaycanın iqtisadi potensialı gücləndirilmişdir. Onun Azərbaycana rəhbərlik etdiyi birinci dövrdən etibarən bütün sahələrdə müstəqilliyə doğru böyük dönüş başlamışdır. O, Moskva dövründə də hakimiyyətdə olduğu müddət ərzində həmişə xalqının taleyini düşünmüş, Respublikanın dünyada tanıdılması üçün əlindən gələni əsirgəməmişdir. Bu müddət ərzində Heydər Əliyev 4 dəfə Lenin ordeni, Qırmızı ulduz ordeni, 2 dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş və çoxlu medallarla təltif edilmişdir.

Heydər Əliyev Baş katib M.S.Qorbaçovun yeritdiyi səhv siyasətə qarşı çıxaraq tutduğu vəzifələrdən imtina etmişdir. 1990-cı ilin 20 Yanvar hadisəsi zamanı səhhətinin ağır olmağına baxmayaraq, Azərbaycan xalqına qarşı törədilmiş bu qanlı hadisəni qətiyyətlə pisləmiş, Azərbaycan xalqının ümidi olmuşdur. Heydər Əliyev Qarabağdakı hadisələrə qarşı etiraz əlaməti olaraq 1991-ci ildə Sov. İKP sıralarını tərk etmişdir. O, xalqını xilas etmək uğrunda Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis qurultayını keçirmişdir. Naxçıvanda hakimiyyətdə olduğu müddət ərzində Türkiyə və İranla əlaqələrin yaradılmasına və gücləndirilməsinə səy göstərmişdir. O, vətənin çətin dövründə vətəndaşlıq borcunu layiqincə yerinə yetirməyə çalışmış, Azərbaycanda baş vermiş hadisələri obyektiv təhlil etmiş, siyasi və iqtisadi böhranın səbəblərini araşdırmış, onların aradan qaldırılması uğrunda bir sıra metodlar həyata keçirmişdir. Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasından rus sovet qoşun hissələri çıxarılmış, 20 Yanvar hadisələrinə siyasi qiymət verilmiş, xalqın inamını sarsılmağa qoymamış və müstəqilliyə ümid yaratmışdır.

1993-cü ildə Respublikada baş vermiş böhran nəticəsində Azərbaycan xalqı Heydər Əliyevi hakimiyyətə gətirilməsi üçün və ozamankı dövlət başçıları Heydər Əliyevi hakimiyyətə dəvət etməyə məcbur olub. 1993-cü ilin iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin Sədri seçildi. Bu gün Azərbaycan xalqının tarixinə Qurtuluş günü kimi daxil oldu və bununla da Heydər Əliyevin hakimiyyətinin ikinci dövrü başladı. İyunun 24-də o, Azərbaycan Respublikasının Prezidenti seçildi. Oktyabrın 10-da andiçmə mərasimi zamanı Heydər Əliyev xalqının daim yanında olacağına, ümidlərini doğruldacağına söz verdi. Heydər Əliyevin sayəsində Azərbaycanda dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Onun hakimiyyəti dövründə azərbaycançılıq, türkçülük, dövlətçilik, ədalət, müstəqillik,

dünyəvilik kimi mənəvi dəyərlərin əsası qoyuldu. O, təkcə dövlətin daxili siyasətinə yox, həm də xarici siyasətinə, beynəlxalq arenada tanıdılması uğrunda cəsarətli addımlar ataraq çıxışlar etmişdir. Onun sayəsində 1994-cü ildə Ermənistan-Azərbaycan arasında ilk sülh müqaviləsi imzalanmışdır. Daha sonra isə 1994-cü ilin sentyabrında Bakıda "Əsrin müqaviləsi" adını almış neft müqaviləsi imzalanmışdır. Bu müqavilələr çox mühüm siyasi məna daşıyırdı. Bunlar nəticəsində Azərbaycan beynəlxalq sferada tanınmış və möhkəmlənmişdir. "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin inşa olunması da yuxarıda qeyd olunan müqavilələr kimi mühüm əhəmiyyət kəsb edir. Heydər Əliyevin təşəbbüsü ilə Böyük İpək Yolunun bərpasına yönəlmiş beynəlxalq proqram həyata keçirmişdir. Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldovanın daxil olduğu GUÖAM yaradılmışdır. Bu birliyin nəticəsində böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsinə nail olmuşdur. Heydər Əliyev təşkilatın ilk sədri seçilmişdir. O, hakimiyyətdə olduğu müddət ərzində bazar iqtisadiyyatının inkişafına özəlləşdirmə proqramının hazırlanmasına, aqrar islahatların həyata keçirilməsinə, pul vahidimizin alıcılıq qabiliyyətinin sabit saxlanılmasına şərait yaradılmışdır.

Heydər Əliyev "İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 1998-ci il 22 fevral tarixli fərmanı Azərbaycan Respublikasının dünyaya və Avropaya inteqrasiya prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratmışdır. O, 1996-cı ildə Avropa Şurasına xüsusi qonaq kimi dəvət almış, 2001-ci ildə onun tam hüquqlu üzvünə çevrilmişdir. Azərbaycan ərazisinin 20 faizdən çoxunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalını dünya miqyasında ictimaiyyətə çatdırmağa çalışmışdır. Onun xarici siyasətinin arxasında sülh, beynəlxalq hüquq normalarına hörmət, sərhədlərin bütövlüyünə və toxunulmazlığına əməkdaşlıq prinsipləri təşkil edir. Heydər Əliyev 1992-ci ildə baş verən hadisələri, xalqının başına gətirilmiş acı həqiqətləri dünya miqyasına çatdırmağa çalışmışdır. O, Azərbaycanda bir sıra şəxsiyyətlərin yubileylərinin keçirilməsinə, Naxçıvan ensiklopediyasının nəşr olunmasına, 2001-ci ildə imzaladığı fərman nəticəsində latın qrafikasına keçirilməsinə dövlət dilinin tədbiqi işinin təkmilləşdirilməsinə, elmin, mədəniyyətin, təhsilin inkişafına daim diqqət, qayğı göstərmişdir. Heydər Əliyev öz əsərlərində çıxış və məruzələrində Azərbaycan Xalq Cümhuriyyətinin rolunu yüksək qiymətləndirmiş, müstəqil Azərbaycan Respublikasının həmin Cümhuriyyətin varisi olduğunu dəfələrlə qeyd etmişdir. Hətta 2003-cü ildə imzaladığı sərəncama əsasən Cümhuriyyətin 85-ci ildönümü münasibəti ilə abidənin ucaldılması haqqında əmr vermişdir.

Ümumdünya tarixinin nadir şəxsiyyətlərindən biri olan Heydər Əliyevin əbədiyyətə qovuşduğu gün nəinki Azərbaycan xalqının, bütün türk-islam dünyası və mütərəqqi bəşəriyyətin tarixinə ən ağır hüzn günü kimi daxil oldu. [8; 80]. Dahi şəxsiyyət milyonlarla azərbaycanlını – doğma xalqını birləşdirərək qovuşdu. Dünyanın bir çox ölkələrində şəxsiyyətin şərəfinə abidələr ucaldıldı, xiyabanlar, parklar, küçələr salındı. Heydər Əliyev Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur. Onun məzarı xalqının müqəddəs ziyarətgahına çevrilmişdir. Onun şərəfinə "Heydər Əliyev" ordeni təsis edilmişdir.

Əslən Naxçıvandan olan Yusif Məmmədəliyev böyük kimyaçı, akademik idi. Məmmədəliyev Yusif Heydər oğlu yüksək oktanlı benzin kəşf etmişdir. Hətta bu benzin sovet aviasiyasının faşist ordusu üzərində qələbə çalmasına kömək etmişdir. O, təhsilini Gəncədə, İrəvanda, iki il Lomonosov adına MDU-da, daha sonra isə Bakıda davam etdirmişdir. Onun əsas elmi işləri neft və neft qazları ilə bağlı olmuşdur. Şəxsiyyət neftin çıxarılmasını onun tərkibini və ondan qiymətli məhsullar alınması yollarını göstərmişdir. O, həmçinin Naftalan neftinin tərkibinin öyrənilməsində mühüm işlər görmüşdür. Yusif Məmmədəliyevin 200-dən çox elmi əsəri, 6 monoqrafiyası mövcuddur. O, ABŞ, Macarıstan, İtaliya, Polşa və başqa xarici ölkələrdə təşkil olunmuş beynəkxalq konfranslarda çıxış etmişdir, bununla yanaşı, yüksək ixtisaslı elmi kadrların hazırlanmasında böyük xidməti olmuşdur. Şəxsiyyət Lenin ordeni, "Şərəf nişanı", Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif olunmuşdur. Ordubad şəhərində Yusif Məmmədəliyevin ev muzeyi açılmış, büstü qoyulmuş, Bakıda küçəyə adı verilmişdir və heykəli ucaldılmışdır. 2005-ci ildə onun 100 illik yubileyi təntənə ilə qeyd edilmişdir.

Naxçıvanın dahi, əvəzolunmaz, Azərbaycan ədəbiyyatında xüsusi rolu olan şəxsiyyətlərindən biri də Hüseyn Caviddir. O, milli romantik şeirin və mənzum faciənin banisidir. Hüseyn Cavid ilk təhsilini Naxçıvan şəhərində almış, ərəb-fars dillərini öyrənmiş, ədəbiyyata dair dərin biliklər əldə etmişdir. O,

1903-cü ildən yaradıcılığa başlamışdır. Hüseyn Cavid poeziyası romantik şeirlər və poemalardan ibarətdir. O, yaradıcılığının ilk dövründə eşqi tərənnüm edən şeirlər yazmış, daha sonra isə ölkədə baş verən hadisələrə müraciət etmişdir. Şəxsiyyətin şeirlərinə nəzər yetirdikdə hüzn öz əksini tapır. Onun lirik qəhrəmanı filosof xarakterli aşiqdir. Cavid şeirlərinin gözəlliyi istifadə etdiyi bədii təsvir və ifadə vasitələrindən aslıdır.

Hər gülşənə vardım,çiçəklər güldü,
Sevdalı bülbüllər salama gəldi...
Susmuş kamançalar ilhama gəldi – [9; 408].

Kimi misralar yuxarıda söylədiyimiz fikirlərin nümunəsidir. Onun başdan-başa monoloqlardan ibarət "Uyuyur", "Məzlumlar üçün", "Sevinmə, gülmə, quzum" şeirləri vardır. Cavidin lirikasında dialoqlara da təsadüf etmək mümkündür. "Öksüz Ənvər", "Qız məktəbində", "Çiçək sevgisi" şeirləri buna nümunədir. Hüseyn Cavid lirik-romantik və ya romantik-fəlsəfi poemaların da müəllifidir. Onun qəhrəmanları real həyatdan alınmış bədii obrazlardır. Məsələn, "Azər" poemasındakı Azər obrazı Cavidin özünün prototipidir. Onun poemaları Azərbaycan ədəbiyyatının inkişafında böyük rol oynamışdır. Lakin Hüseyn Cavidi ədəbiyyatımızda daha çox məşhurlaşdıran dramatik əsərləri olmuşdur. "Ana", " Maral", "Şeyx Sənan", "Şeyda", "Uçurum" kimi dram əsərlərini müəllifidir. Onun yaradıcılığında "Peyğəmbər" və "Topal Teymur" kimi dram və tarixi məzmun daşıyan əsərləri də var. "Peyğəmbər" dramı səhnə üçün nəzərdə tutulmamışdır. Şəxsiyyəti məşhurlaşdıran əsas əsəri "İblis"dir. Bu dram əsəri özünün orijinallığı, ictimai-siyasi proseslərə münasibəti, fəlsəfi düşüncələri ilə seçilir. Əfsuslar olsun ki, Hüseyn Cavid də represiya qurbanı olmuşdur. Burjua yazıçısı kimi günahlandırılan şəxsiyyət 8 illik həbs cəzasına məhkum edilmiş, Sibirə sürgün edilmiş və həbsdə ikən vəfat etmişdir. 1956-cı ildə Hüseyn Cavidə təmiz adı qaytarılmışdır. Azərbaycanın dahi şəxsiyyəti olan Heydər Əliyevin təşəbbüsü ilə Cavidin cənazəsi 1982-ci ildə Sibirdən Naxçıvana gətirilmiş və burada torpağa tapşırılmışdır. Yaradıcının anadan olmasının 100 illiyi münasibəti ilə Bakıda heykəli, Naxçıvanda türbəsi ucaldılmış, ev-muzeyləri təşkil edilmişdir.

Ümumimilli liderimiz Heydər Əliyev siyasətini bü gün də uğurla davam etdirən 2003-cü ildə hakimiyyətə gələn Əliyev İlham Heydər oğludur. O, nəinki Naxçıvanın, Azərbaycanın tarixinə adını qızıl hərflərlə yazdıran şəxsiyyətdir. İlham Əliyev 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidentidir. O, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmiş, orada elmi-pedoqoji fəaliyyətinə başlamışdır. O, Azərbaycan dövlət müstəqilliyinin qorunmasında atasının ən yaxın silahdaşı olmuşdur. İlham Əliyev neft strategiyasının hazırlanmasında və dünya miqyasına çatdırılmasında, bu mövzuda müxtəlif layihələrin işlənilib hazırlanmasında diplomatik tapşırıqların yerinə yetirilməsində xüsusi rol oynamışdır. O, xüsusi ilə neft-qaz yataqlarının dünyaya açılmasından dolayı dünyanın qabaqcıl şirkətləri ilə müqavilələr imzalamışdır. İmzalanmış bu müqavilələr nəticəsində Azərbaycanda 30 mindən artıq iş yeri fəaliyyət göstərmişdir.

İlham Əliyev həmçinin görkəmli partiya xadimidir. O, Yeni Azərbaycan Partiyasının (YAP) lideridir. Şəxsiyyət bu vəzifənin də öhdəsindən layiqincə gələrək Azərbaycanda bir çox quruculuq işlərinə imza atmışdır.

İlham Əliyevin gənclər siyasətinin həyata keçirilməsində də əvəzsiz xidmətləri olmuşdur. O, 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunmuşdur. Şəxsiyyət qısa bir zaman ərzində Azərbaycan idmanını yüksək səviyəyə qaldırmış, dünyada parlaq uğurlara imza atmasına şərait yaratmışdır. O, sağlam gənclik yetişdirmək uğrunda sağlam bədən prinsipi ilə çıxış etmişdir. Onun təşəbbüsü nəticəsində təkcə Bakıda deyil, eyni zamanda Naxçıvan, Quba, Şəki, Lənləran, Gəncə və Şamaxı kimi şəhərlərdə də idman kompleksləri tikilib istifadəyə verilmişdir. Bu da İlham Əliyevin gənclər siyasətinin ən böyük uğuru kimi qiymətləndirilir.

O, həmçinin atası kimi Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması uğrunda da mübarizə aparmışdır. 2004-2021-ci illərdə Azərbaycan dilinin təkmilləşdirilməsi və inkişafına dair bir çox sərəncamlar, qətnamələr qəbul etmişdir. Milli Ensiklopodiyanın nəşrinə şəxsən

özü rəhbərlik etmişdir. O, elmlə məşğul olan tələbə, magistr və doktorantların daha yaxşı şəraitdə çalışmasına və inkişafına şərait yaratmışdır. İlham Əliyev "Heydər Əliyev" ordeninə layiq görülmüşdür.

Ulu öndər Heydər Əliyev kimi Prezident İlham Əliyev də iqtisadi cəhətdən Azərbaycanın inkişafına şərait yaratmışdır. Məsələn, Ordubad SES-in tikintisi, qaz təchizatı sisteminin yenidən qurulması bunlara daxildir.

O, hər zaman xalqının yanında olmuş, onun problemlərini öyrənmiş və onlara xüsusi qayğı ilə yanaşmışdır. Xalqının səsini həmişə dünya miqyasında duyulmasına şərait yaratmışdır. Bunun üçün Dağlıq Qarabağ problemini Avropa Şurasında dəfələrlə dilə gətirmiş, həmin münaqişəyə düzgün siyasi qiymət vermiş, onun həlli yolunda mühüm addımlar atmışdır və nəhayət illərlə uğrunda mübarizə apardığı Dağlıq Qarabağ probleminin 2020-ci ildə həllinə mail olmuşdur. Bununla da əzəli Azərbaycan torpaqlarını xalqına qaytararaq Azərbaycanın bütövlüyü prinsipinə nail olmuşdur. İlham Əliyevin əldə etdiyi bu qalibiyyət onun adını tarixi şəxsiyyətlər sırasına qızıl hərflərlə yazdırmışdır.

Naxçıvanın tanınmış şəxsiyyətlərindən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan Vasif Talıbovdur. Talıbov Vasif Yusif oğlu Naxçıvan Dövlət Pedoqoji İnstitutunun, bununla yanaşı, Bakı Dövlət Universitetinin hüquq fakultəsini bitirmişdir. O, əvvəlcə əmək fəaliyyətinə Şərur rayonunda başlamışdır. Vasif Talıbov Heydər Əliyev tərəfindən əsası qoyulmuş Yeni Azərbaycan Partiyasının formalaşmasında fəal iştirak etmişdir. O, çalışdığı müddət ərzində Muxtar Respublika üçün həyati əhəmiyyət kəsb edən, ərazinin bütövlüyünün qorunması və möhkənləndirilməsi uğrunda bir sıra problemləri uğurla həll etmişdir. Vasif Talıbov təkcə Naxçıvanın daxilində yox, həm də onun xaricində baş verən münasibətlərə də fikir bildirmişdir. Bunun üçün Türkiyə və İranla çoxsaylı müqavilələr imzalamışdır. Bu müqavilələr nəticəsində Naxçıvanın ticarəti, iqtisadi əlaqələri, təhsil və mədəniyyəti daha da inkişaf etmişdir. Nəticədə Naxçıvanda güclü iqtisadiyyatın yaradılmasına səbəbiyyət vermişdir. Muxtar Respublikanın təkcə mərkəzində deyil, həm də şəhər və kəndlərində təhsilin inkişafı ilə əlaqədar olaraq məktəb və yeni təhsil ocaqlarının tikilməsinə və istifadəsinə şərait yaratmışdır. Naxçıvanın təkcə elm sahəsinə yox, həm də memarlıq abidələrinin əsəslı təmir və bərpa olunmasına xidmət göstərmişdir. Məsələn, H.Cavidin, C.Məmmədquluzadənin, M.S.Ordubadinin ev-muzeylərinin yenidən qurulmasına imkan vermişdir. Bunula yanaşı, Naxçıvan Vasif Talıbovun rəhbərliyi ilə keçirilən beynəlxalq simpoziumlarda fəal iştirak etmişdir. Bu simpoziumlarda Naxçıvanın tarixi və mədəniyyəti yüksək səviyyədə beynəlxalq arenaya təqdim edilmişdir. Qədim Naxçıvanın Azərbaycan xalqına məxsus olduğunu sübut edən Gəmiqaya etnoqrafik abidəsinin öyrənilməsində Vasif Talıbov xüsusi sərəncam imzalamışdır. Naxçıvan Ensilopodiyasının yeni iki cildlik nəşri də onun adı ilə bağlıdır. Şəxsiyyətin apardığı uğurlu işlər nəticəsində hazırda Naxçıvan Muxtar Respublikası Azərbaycanın sürətlə inkişaf edən regionuna çevrilmişdir.

Naxçıvan bütün tarixi zamanlarda Azərbaycanın ayrılmaz tərkib hissəsi olaraq onun taleyini yaşamış və yaşamaqda da davam edir. Məhz Naxçıvanda həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində ermənilər mənfur niyyətlərini burada reallaşdıra bilməmişlər. Naxçıvanın tarixi şəxsiyyətlərinə nəzər yetirdikdə aydın olurki, Naxçıvan hər zaman Azərbaycana məxsus olmuşdur, onun ayrılmaz tərkib hissəsi və ən qədim mədəniyyət mərkəzidir. Azərbaycan torpağı olan Naxçıvan yuxarıda qeyd etdiyimiz tarixi şəxsiyyətlər sayəsində Azərbaycan Respublikasının tərkibində dünyaya uğurla inteqrasiya olunan bölgədir.

Ədəbiyyat

1. 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2007, səh. 52 (şəkilli).
2. 2007-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan,"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2008, səh. 28 (şəkilli).
3. 2008-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan,"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2009, səh. 34 (şəkilli).

4. 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan,"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2010, səh. 38 (şəkilli).
5. 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan,"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2011, səh. 96 (şəkilli).
6. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (ARMDA). f379, siyahı 3, iş 5901, vv. 1-4.
7. Əliyev V. Qədim Naxçıvan. Bakı, 1979; yenə onun, Naxçıvan şəhərinin yaranması tarixi və onun tədqiqi problemi // Naxçıvan tarixinin səhifələri, səh. 51-54
8. İ.Hacıyev. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər).-Naxçıvan,"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, səh. 252
9. Məmməd Cəfər. Hüseyn Cavid. Bakı, 1960.
10. https://nakhchivan.preslib.az/az_b4.html
11. http://www.nakhchivan.az/portal-1/index-2.htm

Aysel QULİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti, müəllim
aysel.guliyeva@atmu.edu.az

NAXÇIVAN REGİONUNUN TARİXİ-MƏDƏNİ TURİZM EHTİYATLARI

HİSTORİCAL AND CULTURAL TOURİSM RESOURCES OF NAKHCHİVAN REGİON

ИСТОРИКО-КУЛЬТУРНЫЕ ТУРИСТИЧЕСКИЕ РЕСУРСЫ НАХИЧЕВАНИ

Xülasə: Naxçıvan regionu təbiət və tarixi abidələr baxımından zəngin olan turizm bölgəsidir. Tarixi abidələrdən Naxçıvanqala abidəsi, Mömінə xatun, Qarabağlar Memarlıq Kompleksi, Əlincə qalası, "Əshabi-Kəhf", Nuh türbəsi və başqa ziyarətgahlar turizmin inkişafında mühüm rol oynayır.
Açar sözlər: tarixi abidələr, qalalar, ziyarətgahlar, turizm obyektləri

Abstract: Nakhchivan region is a tourist region rich in natural and historical monuments. Among the historical monuments Nakhchivangala monument, Momina Khatun, Karabakh Architectural Complex, Alinja fortress, Ashabi-Kahf, Noah's tomb and other shrines play an important role in the development of tourism.
Keywords: historical monuments, castles, shrines, tourism objects

Абстракт: Нахчыванская область является туристическим регионом, богатым природными и историческими памятниками. Среди исторических памятников важную роль в развитии туризма играют памятник Нахчывангала, Момина-Хатун, Карабахский Архитектурный Комплекс, крепость Алинджа, Ашаби-Кахф, гробница Ноя и другие святыни.
Ключевые слова: исторические памятники, замки, святыни, туристические объекты

Naxçıvan iqtisadi-coğrafi bölgəsinə Ordubad, Culfa, Şahbuz, Naxçıvan, Şərur, Kəngərli və Sədərək rayonları daxildir. Naxçıvan şəhəri — Azərbaycanın Naxçıvan Muxtar Respublikasının inzibati mərkəzidir. Naxçıvan Muxtar Respublikası Azərbaycanın cənub-qərbində, Naxçıvançayın sağ sahilində, dəniz səviyyəsindən 1000 m yüksəklikdə yerləşir. Bakıdan 560 kilometrlik məsafədədir.

Naxçıvan sözünün mənşəyini mütəxəssislər bir neçə cür yozmuşlar. Xalq etimalogiyasına görə Naxçıvan "Nəqşi-cahan" — dünyanın bəzəyi deməkdir. Xalq arasında ən çox yayılmış əfsanəyə görə, Naxçıvan Nuh peyğəmbər ilə əlaqəlidir. Xalqını dünya tufanından xilas edən Nuhun gəmisi burada sahilə çıxmış və ona görə bura Nuh çıxan ərazi hesab edilir. Yerli sakinlər Naxçıvanın yerində yaşayış məskəninin yaranmasını Böyük Daşqından sonra xilas olmuş Nuh peyğəmbər haqqında rəvayətlə bağlayırlar. Əfsanəyə görə, Nuhun gəmisi quruya yan almazdan öncə üç dəfə Kiçik Qafqazın dağ zirvələrinə toxunmuş və onlardan biri — Ağrıdağ iki yerə ayrılmışdır: Böyük Ağrıdağ və Kiçik Ağrıdağ.

Gəminin toxunduğu o biri sualtı dağ zirvələri isə Qapıcıq, İlandağ və Alagöz olub. Yerli sakinlər arasında dolaşan bu əfsanəyə görə, Nuh daşqın çəkildikdən sonra burada xeyli yaşamış və bu torpaqda vəfat etmişdir. Bu əfsanə xalq arasında o qədər geniş yayılmışdır ki, hətta məşhur rəssam Bəhruz Kəngərli "Nuhun qəbri" adlı rəsm əsəri də yaratmışdır.

Naxçıvanın adının çəkildiyi ən erkən yazılı qaynaq - Ptolomeyin (II yüzil) əsərləridir. O, Naxçıvanın adını "Naxsuana" şəklində göstərib. Orta yüzillərin ərəb qaynaqlarında şəhərin adı "Nəşava" kimi göstərilib, amma Məhəmməd Naxçıvani, Həmdullah Qəzvini, Katib Çələbi və Evliya Çələbi və b. kimi məşhur orta əsr müəlliflərinin əsərlərində şəhərin adı böyük hörmətlə "Nəqşi-Cahan" ("Dünyanın Bəzəyi") adlandırılır.

Müasir Naxçıvan qədim Azərbaycanın və bütün türk dünyasının çiçəklənən bir guşəsidir. Ərazinin 30 faizindən çoxu dəniz səviyyəsindən 600-1000 metr yüksəkdə yerləşir və özünün sağlam

iqlimi, müalicəvi mədən suları və zəngin dərman bitkiləri ilə diqqəti cəlb edir. Region mərmər, daş duz, əhəng, gips yataqları ilə zəngindir. Həmçinin ərazidə 250-dən çox mineral və müalicəvi əhəmiyyətli su mənbələrinin (Sirab, Badamlı, Vayxır, Nəhəcir, Qızılcir) mövcudluğu muxtar respublikada turizmin inkişafı üçün geniş imkanlar yaradır.

Təbii sərvətləri kimi, strateji əhəmiyyətinə görə də işğalçılar üçün həmişə cəlbedici olan bu ərazi həmsərhəd dövlətlərin tez-tez baş verən basqınlarına məruz qalmış, nəticədə şəhər bir neçə dəfə dağıdılmışdır. Bütün zamanlarda Naxçıvan bu bölgədə yaranmış dövlət qurumlarının — Sacilər, Salarilər, eləcə də Eldənizlər sülaləsinin idarə etdiyi Azərbaycan Atabəylər dövlətinin əsas şəhərlərindən biri sayılmışdır.

Hər bir xalqın qədimliyini sübut edən onun mədəniyyətidir, tarixi abidələridir. Bu baxımdan Naxçıvan dünyanın ən qədim mərkəzlərindən biri hesab edilir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi də onun zəngin tarixə və mədəniyyətə malik olmasından qaynaqlanır. Bu ərazilərdə Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi təşəkkül tapmışdır. Şəhərin tarixi minilliklərə gedib çıxır: arxeoloqlar burada eramızdan öncə II və I minilliklərə aid çoxlu maddi mədəniyyət əşyaları tapmışlar. Naxçıvan tarixinin min illərlə ölçülməsi və onun qədimiliyi, ərazidə dünya memarlığının incisi hesab oluna biləcək tarixi memarlıq abidələrinin və zəngin mədəni irsin mövcud olması xarici turistlərdə böyük maraq oyadır. Bu ərazi özündə tarixin olduqca əhəmiyyətli izlərini-maddi-mədəni irsi qoruyub saxlamaqdadır. 1200-dən çox olan abidələrdən 57-si dünya, 495-i ölkə, 665-i isə yerli əhəmiyyətlidir. Dünya əhəmiyyətli abidələrdən 3-ü Sədərək, 16-sı Şərur, 9-u Kəngərli, 5-i Babək, 6-sı Şahbuz, 7-si Culfa, 4-ü Ordubad rayonlarının, 7-si isə Naxçıvan şəhərinin payına düşür. Onlardan 49-u arxeoloji, 1-i monumental, 7-si memarlıq abidəsidir. Dünya tarixinin bir parçası olan abidələr beynəlxalq ekspedisiyaları da bu qədim diyara cəlb edir

Fransız səyyahları Pyer Şarden və Dübua de Monper, ingilis səyyahı Porter buranı qədim memarlıq abidələrinin saxlanmış olduğu gözəl bir şəhər kimi təqdim etmişlər. Bu qədim diyarda hər addımda ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, qayaüstü rəsmlərə, daş qoç heykəllərinə, türbələrə, bir sözlə, nadir maddi-mədəniyyət nümunələrinə rast gəlmək mümkündür. Burada qədim dövrlərin yadigarı olan təbiət və tarixi abidələr - Möminə xatun, Qarabağlar Memarlıq Kompleksi, Yusif Küseyir oğlu, Gülüstan türbələri, əsrlərdən bəri qorunub saxlanılan, yaşı 800 ildən artıq olan Şərq çinarı, nalbənd, tut ağacları və tarixi yaddaşı özündə əks etdirən qədim insanların ilk məskunlaşdığı yaşayış yeri - Gəmiqaya, Kilit mağarası, bu yerlərin əzəmətinin, məğlubedilməzliyinin simvolu olan Əlincə Qalası, möhtəşəmliyi ilə seçilən İlandağ, misilsiz təbiət abidələri olan Babək qalası, haqqında müqəddəs Qurani-Kərimdə bəhs edilən "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, abidələrlə zəngin olan "Ordubad" Tarix-Memarlıq Qoruğu, 5000 ildən çox yaşı olan Naxçıvan şəhər mədəniyyəti, qədim tikililər, qalalar, xalq sənətkarlarının günümüzə qədər qorunub saxlanılmış sənətkarlıq nümunələri və s. sənət əsərləri Naxçıvan diyarının analoqu olmayan turizm potensialıdır.

Naxçıvandakı qazma, Əshabi-Kəhf və Kilit mağaraları Daş dövrü mədəniyyətinin qalıqlarını yaşatmaqdadır. E.ə. III minilliyin sonu II minilliyin əvvəllərində Naxçıvan ərazisində Oğlanqala, Çalxanqala, Çovurqala kimi qala şəhər mədəniyyətləri yaranıb. Gəmiqaya qayaüstü rəsmləri e.ə. IV-I minilliklərdə xalqımızın bədii təfəkkürünü, adət-ənənələrini, estetik-fəlsəfi baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli təsvirlər qalereyasıdır.

Nuh peyğəmbərin məzarüstü türbəsi, Möminə Xatın və Yusif Küseyir oğlu türbələri, Naxçıvanqala abidəsi, Qarabağlar, "Xanəgah" Abidə Kompleksi, adı Nuh peyğəmbərin gəmisi ilə əlaqələndirilən Gəmiqaya ərazisindəki qayaüstü rəsmlər, əfsanəvi Haçadağ, Buraya Naxçıvan diyarının zəngin folklorunu, musiqi və təsviri sənətini, ədəbiyyatını və s. əlavə etsək, tarixi-mədəni turizmin inkişaf etdirilməsi üçün necə böyük imkanlara malik olduğunu aydın görmək olar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən 700-ə yaxını dünya və ölkə əhəmiyyətli abidə olmaqla, ümumilikdə 1200-dən çox daşınmaz tarix və mədəniyyət abidəsi qeydə alınmışdır.

Daşınar tarix-mədəniyyət abidələrinin qorunub saxlanıldığı muzeylər turistlər üçün böyük maraq kəsb edir. Naxçıvan Muxtar Respublikasında 30 muzey və 1 Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir.

Turizm bölgəsi ilə əlaqədar bir sıra əfsanələrə və rəvayətlərə rast gəlinir. Bu kimi mifoloji fikirlərin yaranması isə bölgənin tanıtımında, turistlərin cəlb olunmasında əhəmiyyətlidir. Ərazidə Bakı şəhərində olduğu kimi qayaüstü rəsmlərə də rast gəlmək olar.

Gəmiqaya rəsmləri – Kiçik Qafqazın Ordubad dağlarında, Qapıcıq dağının cənub və şərq yamaclarındakı Nəbi yurdunda, Qaranquş yaylaqlarında olan qayaüstü təsvirlərdir. Gəmiqayanın adı Nuh əfsanəsi ilə bağlıdır. Şiş qayalıq zirvəsi daim qarla, ağ buludlarla örtülü olan bu dağ uzaqdan mavi səma fonunda, bir növ ümmana baş vurub üzən nəhəng gəmiyə bənzəyir. Burada e.ə. III-I minilliklərə aid qayaüstü rəsmlər, piktoqramlar var. Arxeoloqlar Qaranquş yaylağında qayaüstü rəsmlərin həkk olunduğu ərazidə Azərbaycan türklərinin ulu babalarına aid yurd yerlərinin qalıqlarını aşkara çıxarmışlar. Alp çəmənlikləri ilə zəngin olan Gəmiqaya-Qaranquş yaylağı Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri idi. Sonralar isə buralar Araz sahilində, eləcə də Naxçıvançay, Əlincəçay, Gilançay vadilərində yaşamış tayfaların yaylaq yerləri olmuşdur. Elə həmin dövrlərdən buradakı qayalar üzərində insan və müxtəlif heyvan rəsmləri və s. təsvirlər həkk edilmişdir.

Gəmiqaya təsvirlərinin və oradakı qədim yurd yerlərinin azı 5-6 min il yaşı var. Gəmiqaya rəsmləri 1968-ci ildən öyrənilir.

Naxçıvanqala – Naxçıvan şəhərinin cənub-şərqində olan bu arxeoloji abidə elmi ədəbiyyatda Yəzdəgird qalası, xalq arasında Köhnəqala, Torpaqqala adları ilə tanınır. Qalanın tikilmə tarixi dəqiq bəlli deyil. Qala XVIII əsrə kimi fəaliyyətdə olmuşdur. Plana əsasən qala 2 hissədən – kiçik qala (Narınqala) və böyük qaladan ibarətdir. Böyükqala Narınqalaya nisbətən daha çox dağıntıya məruz qalmışdır.

Narınqalanın cənub-qərbdə 300 nəfərin gizlənə biləcəyi yeraltı sığınacaq-mağara var. Onun havalandırılması və işıqlandırılması üçün yuxarıdan oyuq açılmışdır. Mağaradan qalanın şərqinə tərəf gedən gizli yol, çox güman ki, Naxçıvançaya çıxır. Qalanın özünəməxsus səciyyəvi xüsusiyətlərindən biri də qalanın Böyükqala və Narınqala hissələri arasında eni 22.5m olan dar dəhliz formasında həll edilmiş çıxış yolunun "tələ"nin təşkilindən ibarətdir. Öz qeri-adiliyi ilə qalanın xeyli dağıdılmasına baxmayraq salamat qalmış qala divarlarının və bürclərinin hissələri diqqəti cəlb edir.

2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanmış, tarixi ərazidə yenidənqurma və bərpa işləri aparılmış, Naxçıvanqalanın əvvəlki görkəmi özünə qaytarılmışdır.

Əlincəqala – "Naxçıvanın əyilməzlik simvolu" dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən Əlincə qalası möhtəşəmliyi ilə diqqəti cəlb edir. İlk növbədə qeyd olunmalıdır ki, Naxçıvandakı abidələrin içərisində qalaların özünəməxsus yeri var. Muxtar respublika qala tipli yaşayış yerləri ilə zəngin diyardır. Bu ərazidə qalaların çoxluğunun başlıca səbəbi Naxçıvanın əlverişli coğrafi mövqeyinin, zəngin təbii sərvətlərinin, şəhər mədəniyyətinin və inkişaf etmiş sənətkarlığının yadelli işğalçıların diqqətini cəlb etməsidir. Mübariz xalqın daş yaddaşı sayılan Əlincəqala da yadellilərə qarşı uzun illər sinə gərən, onlara qarşı mübarizə aparan xalqın sığınacaq, müdafiə məkanı olub.Yenilməzlik, mübarizlik simvolu olan Əlincə Qala çox möhtəşəm görünüşə sahibdir. Culfa rayonunda, Əlincəçayın sağ sahilində və eyniadlı dağın zirvəsindədir. Qədim mənbələrdə "Erincaq", "Erincik", "Alancik", "Alınca", "Alancuq" və s. kimi qeyd olunur. Qalanın adını tədqiqatçılar qədim türk dilində "düzənlik" mənasında işlənən "alan" sözü ilə bağlayırlar. Bu, qalanın yerləşdiyi sahənin kiçik meydançaya bənzəməsi ilə əlaqədardır. Xalq etimologiyasına görə isə, qalanın adı "Əlincək", yəni "əlini çək" kimi yozulur. Bu da qalanın alınmazlığı, məğlubedilməzliyi ilə bağlıdır. Tarixi qaynaqlara əsaslanan bəzi tədqiqatçılar qalanı təqribən 2 min il bundan əvvələ aid edirlər. "Kitabi-Dədə Qorqud" dastanında Əlincəqala möhkəm istehkam kimi təsvir olunur.

Naxçıvan turizm bölgəsində bir sıra qalaların olduğunu nəzərə alsaq, bu istiqamətdə turların təşkili mümkündür. Həmçinin bu yerlərdə yaşamış bir sıra şəxsiyyətlərin qəbirləri mövcuddur ki, bu da turistlərin marağına səbəb ola bilər.

Əincəçay xanəgahı – Culfa rayonunun Xanəgah kəndində, Əincəçayın sahilində orta əsrlərə aid memarlıq kompleksi və el arasında Şeyx Xorasan adı ilə məşhur olan kompleksdən zəmanəmizədək türbə, məscid və bəzi tikililərin qalıqları gəlib çatmışdır. Türbənin içərisindəki qəbrin üzərində kitabə olmadığı üçün orada kimin dəfn olunduğu məlum deyildir. Yerli əhalinin fikrincə, hürufilik təliminin banisi F.Nəimi 1394-cü ildə Əlincədə faciəli şəkildə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini gətirib burada dəfn etmişlər.

Dünya təcrübəsində tarixi mədəniyyət və dini abidələr həm də turizmin inkişafına təsir göstərən, ölkənin turistlər üçün cəlbedici olmasını şərtləndirən mühüm amillərdən biri hesab olunur. Muxtar respublikamız dini ziyarətgahlarla da zəngindir. Burada 140-a yaxın ziyarətgah mövcuddur. Muxtar respublika ərazisində mövcud olan dini obyektlərdən ən mühümü isə müqəddəs Qurani Kərimin «Əl-Kəhf» surəsində haqqında bəhs edilən **Əshabi-Kəhf ziyarətgahıdır**. Əshabi-Kəhf Naxçıvan şəhərindən təqribən 13 km aralı, 1665 m hündürlükdə, İlandağ ilə Nəhəcir dağı arasında təbii mağarada ziyarətgahdır. Ərəb dilində «mağara sahibləri» deməkdir. Qurani-Kərimdə qeyd edilir ki, bütpərəst hökmdarın təqib etdiyi 7 gənc mağarada gizlənmiş, orada 330 illik yuxuya getmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tapşırığı ilə Əshabi-Kəhfdə abadlıq, bərpa işləri aparılmış, zəvvarlar üçün rahatlıq yaradılmış, 13 km məsafədə rahat yol salınmış, məscid tikilmiş, kitabə qoyulmuşdur

2004-cü ildən "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi adı altında fəaliyyət göstərən ziyarətgahda ziyarətçilər üçün hər cür şərait yaradılmışdır. Hər il buraya on minlərlə insan ziyarətə gəlir.

Bəşəriyyətin əsas sivilizasiya mərkəzlərindən olan Naxçıvan həm də Nuh peyğəmbərin yurdudur. Bu qədim diyara ayaq basan hər kəsi hər şeydən əvvəl tarixilik valeh edir. Necə deyərlər, hər daşında tarix yatır.

Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsi də turistlərin ən çox ziyarət etdikləri abidələrdən biridir. **Nuh türbəsi** – Naxçıvan şəhərinin cənub tərəfində Köhnəqala adlanan ərazidə VIII-XII əsrlərə aid memarlıq abidəsidir. Məzarın hazırki görkəmi VIII yüzillikdə bərpa eidlmişdir. İndiki vəziyyətdə məzar yerdən qalxan, çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarındn ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, ortadan daş dirəklə möhkəmləndirilmiş, sərdabə tipindədir. Rəvayətə görə, həmin dirəyin altında Nuhun cənazəsi yerləşir.

Nuhun türbəsinin Naxçıvanda olması ilə bağlı İ.Şopen, Dyubua-de Monpere, K.A.Nikitin və digər tədqiqatçılar məlumat vermişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 2006-cı il 28 iyun tarixli sərəncamı əsasında 2007-2008-ci illərdə qədim abidə tarixi mənbələr nəzərə alınmaqla yenidən bərpa olunmuş, ərazidə geniş abadlıq və yenidənqurma işləri aparılmışdır.

Bununla yanaşı, Naxçıvan şəhərində İmamzadə Kompleksi, Şərur rayonunun Xanlıqlar kəndində Parçı İmamzadəsi və Tənənəm kəndində Piri-Süleyman piri, Kəngərli rayonunun Qarabağlar kəndində Asnı piri, Ordubad rayonunun Nüsnüs kəndində Nüsnüs piri, Culfa rayonunun Camaldın kəndində Ərməmməd piri və Xanəgah kəndində eyniadlı abidə kompleksi, eləcə də digər dini abidələri istər yerli vətəndaşlar, istərsə də xarici turistlər istədikləri vaxt ziyarət edə bilərlər.

Naxçıvan şəhərinin cənub-şərq hissəsində yerləşən memarlıq abidəsi - **İmamzadə kompleksi** XVI-XVIII əsrlərdə formalaşmışdır. 3 binadan ibarətdir. Memarlıq kompleksi 2004-cü ildə əsaslı şəkildə təmir olunaraq yenidən bərpa edilmişdir.

Zaviyə-Mədrəsə binası – Ərəbə guşə, künc, bucaq mənasını verən zaviyə sufi təriqətlərinə mənsub məskənlərin adlarından biridir. Xanəgahlar kimi burada da ayrı-ayrı təriqətlərə mənsub dərvişlər yaşamış və ətraflarına müridlər toplayaraq öz ideyalarını yaymışlar. Özünəməxsus kompozisiyası onun XVII-XVIII əsrlərin zəngin inşaat ənənələrinin məhsulu olduğunu göstərir.

XX əsrdə binadan klub, pionerlər evi, dini idarə və s. məqsədlər üçün istifadə olunmuşdur. 2007-ci ilədək Naxçıvan Muxtar Respublikası Qadınlar Məclisi burada yerləşmişdir. 2008-ci ildə əsaslı təmir və bərpa olmuşdur.

Ümumiyyətlə, sufi təriqəti bir sıra dünya ölkələrində geniş marağa səbəb olur. Bu istiqamətdə turist marşrutlarının yaradılması maraq doğurar. Bakıdan başlayacaqbu turizm marşrutunun Nəiminin qəbrinin ziyarəti ilə bitməsi və bir sıra tarixi amillərin gələnlərə izah olunması insanlar üçün cəlbedici olardı. Naxçıvan turizm bölgəsinin abidələrinə diqqət yetirdikdə bu istiqamətdə kifayət qədər obyektlər olduğunun şahidi oluruq.

Naxçıvan-Came məscidi XVIII əsrə aid edilir. Sovet hakimiyyəti illərində Naxçıvan şəhərində fəaliyyət göstərən yeganə məscid olmuşdur. 2007-2008-ci illərdə məsciddə əsaslı bərpa işləri aparılmışdır.

Qarabağlar türbəsi – Kəngərli rayonunun Qarabağlar kəndində orta əsrlərə aid tarixi-memarlıq abidəsidir. Buradakı qoşa minarənin XII əsrin sonu XIII əsrin əvvəlllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştağ isə XIV əsrə aiddir.

Qarabağlar türbəsi ilə Bərdə türbəsinin oxşarlığına və hər ikisinin XIV əsrin əvvəllərində tikilməsinə əsasən bu abidələrin eyni memarlıq məktəbinə aid olduğu, hətta Bərdə türbəsinin müəllifi Əhməd Əyyub oğlu Hafiz Naxçıvani tərəfindən inşa edildiyi ehtimal edilir.

Yusif ibn Küseyir türbəsi – Naxçıvan şəhərindəki bu memarlıq abidəsi xalq arasında Atababa türbəsi və ya Atababa günbəzi adı ilə də adlanır. 8 əsrdən çox yaşı olan türbə XX əsrin ortalarında bərpa edilmişdir. Memarı Əcəmi hesab olunur. Abidə yeraltı sərdabədən və yerüstü qülləvari hissədən ibarətdir.

Möminə Xatun türbəsi – Dünya memarlıq incilərindən olan Mömünə Xatun türbəsinin YUNESKO-nun dünya mədəni irs siyahısına salınması təşəbbüsü heç də təsadüfi deyil. Əcəmi Naxçıvaninin şah əsəri olan Mömünə Xatun Şərqdə qadına hörmət və ehtiram əlaməti olaraq ucaldılmış ilk möhtəşəm abidədir. Digər tərəfdən abidə öz memarlıq quruluşu və 9 əsrdir ki, zamana meydan oxuyaraq günümüzə qədər gəlib çatması ilə tamaşaçılarını heyran edir. Tarixdən də məlumdur ki, 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilmişdir. Memarı Əcəmi Əbu Bəkr oğlu Naxçıvani Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Möminə xatının qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri təqvimin 582-ci ilində başa çatdırmışdır. Elin yaddaşında "Atabəy günbəzi" adı ilə qalmışdır. Məşhur sənətşünas, akademik M.V.Alpatov Möminə xatın türbəsi haqqında yazır: "Belə yüksək memarlıq forması duyğusuna, kompozisiyasının belə klassik kamilliyinə və mükəmməl işlənməsinə bu zamanlar Orta Avropada təsadüf etmək mümkün deyildir. Naxçıvan türbəsindən klassik şərq ədəbiyyatının ən yaxşı əsərləri Firdovsinin "Şahnamə" və yaxud Nizaminin "Leyli və Məcnun" poemasında olduğu kimi insanpərvərlik nəfəsi gəlir".

Türbə yeraltı və yerüstü hissələrdən ibarətdir. Abidə əzəmətli memarlıq zənginliyi ilə yanaşı, Azərbaycanın qədim tarixini, möhtəşəm dövlətçiliyini, yüksək səviyyəli mədəniyyətini, böyük memarlıq məktəbinə malik olduğunu göstərir.

Naxçıvan-Xan sarayı – Naxçıvan şəhərində XVIII əsrə aid tarixi memarlıq abidəsi olan Şərq memarlıq üslubunda tikilmişdir. XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olmuş sarayı XVIII əsrin sonunda axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərli tikdirmişdir. 1998-ci ildən Naxçıvan Xalça Muzeyi kimi fəaliyyət göstərir.

Qeysəriyyə - XVII əsr memarlıq abidəsi olan Qeysəriyyə Ordubad şəhərindədir. Böyük günbəzdən və ona bitişik 8 kiçik günbəzdən ibarətdir. [1] İlk vaxtlar örtülü ticarət mərkəzi kimi nəzərdə tutulmuşdu. Sonralar pəhləvanların güləşdiyi yer kimi xalq arasında Zorxana adı ilə tanınmışdır.

Hüseyn Cavid məqbərəsi – şairin qəbri üzərində ucaldılmış möhtəşəm memarlıq-xatirə kompleksidir. H.Əliyevin təşəbbüsü ilə tikilən, Əcəmi Naxçıvani memarlıq üslubunun təsiri aydın hiss edilən bu məqbərə üst və aşağı sərdabə hissələrindən ibarətdir.

Abidənin layihəsinin müəllifi Azərbaycan Respublikasının "əməkdar memarı" Rasim Əliyev, heykəltəraşı xalq rəssamı Ömər Eldarovdur. Məqbərə Türkiyə Respublikasının "Star" inşaat şirkəti

tərəfindən tikilmişdir. Abidənin açılışı H.Cavidin 114 illiyi münasibətilə 1996-cı il oktyabrın 29-da olmuşdur. Məqbərənin arxa hissəsində H.Cavidin ev mueyi yerləşir.

Naxçıvan Muxtar Respublikasında mövcud olan dini və milli xüsusiyyətləri özündə əks etdirən tarixi abidələr, rəngarəng təbiət mənzərələri, təmiz iqlim, mineral sular və onlar əsasında yaradılmış sanatoriya tipli müalicə mərkəzləri burada ekoturizmlə yanaşı, etnik və inanc turizminin də inkişafına geniş imkanlar verir.

Naxçıvan Muxtar Respublikasının turizm potensialı, buraya gələnləri daha çox maraqlandıran amillər nəzərə alınaraq turist marşrutları hazırlanır. Bunlara misal olaraq Naxçıvan şəhər turu, Naxçıvan-Xanəgah (Əlincə qala da daxil olmaqla), Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat, Həsən Əliyev adına Zəngəzur Milli Parkına bir neçə istiqamətdən turist marşrutları işlənib hazırlanmışdır.

Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu bu bölgədə yerləşir. Bu günədək akademik Həsən Əliyev adına Ordubad Milli Parkına 8 istiqamət üzrə, muxtar respublikanın digər bölgələrinə 5 istiqamət üzrə turist marşrutları hazırlanmışdır. Son illər muxtar respublikada infrastruktur quruculuğu üzrə aparılan məqsədyönlü tədbirlər, o cümlədən yeni turizm obyektlərinin istifadəyə verilməsi turizmin inkişafına yeni imkanlar açmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə qəbul olunmuş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" isə bu sahədə lazımi fəaliyyətin həyata keçirilməsinə imkan verir.

Ədəbiyyat

5. Azərbaycan: ekoturizm potensialı II Bakı. Şərq-Qərb, 2012
6. Həsənoğlu H. Azərbaycanın dini-tarixi abidələri, ziyarətgahları, seyidləri,övliyaları. Bakı, "Nasir" nəşriyyatı, 2005, 524s.
7. https://nakhchivan.preslib.az/az_d9.html
8. https://medeniyyet.az/page/news/5397/Naxcivan-ve-dini-turizm.html
9. http://turizm.nakhchivan.az/index.php/template/2015-12-29-06-33-39/2-undzatezhorised/35-tarikhi-m-d-ni-turizm

Nübar HƏSƏNOVA
Aəzrbaycan Turizm və Menecment Universiteti, doktorant
nubar2017@list.ru

DÜNYA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİNDƏ DİSTANT TƏHSİLİN YERİ VƏ ROLU

МЕСТО И РОЛЬ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ В УПРАВЛЕНИИ МИРОВЫМИ ОБРАЗОВАТЕЛЬНЫМИ УЧРЕЖДЕНИЯМИ

THE PLACE AND ROLE OF DISTANCE EDUCATION IN THE MANAGEMENT OF WORLD EDUCATIONAL INSTITUTIONS

Xülasə: Ötən əsrin ən vacib nailiyyəti olan distant təhsil bəşər həyatının və fəaliyyətinin bütün sahələrinə, o cümlədən, təhsilə də öz təsirini göstərməkdədir. Belə ki, distant təhsil şəraitində təhsildə də çox ciddi dəyişikliklər baş vermişdir. Təhsilin keyfiyyət və səmərəsinin yüksəldilməsində çox vacib amil kimi yeni informasiya və kommunikasiya texnologiyaları zəminində yeni forma və metodlardan geniş istifadə olunmasına başlanılmışdır. Onlardan biri də distant təhsil sistemidir. Hal-hazırda dünyada təhsilin müasir forması olan bu sistemə meyl xeyli güclənmişdir. Əgər 1980-cı ildə təhsildə yeni informasiya və kommunikasiya texnologiyalarından 200 ali məktəbdə istifadə olunurdusa, son illərdə onların sayı milyonlarladır. Distant təhsil, dünyanın bütün dövlət və ölkələrini əhatə etmişdir. Tədqiqatlara əsasən, distant təhsil sistemindən ən çox Qərbi Avropa və Amerika təhsil müəssisələrində istifadə olunmaqdadır. ABŞ-da təhsil sistemində bir milyona yaxın adam distant təlim yolu ilə təhsil allır. Hələ 90-cı illərin əvvəlində ABŞ-ın Milli Texnologiya Universiteti distant təhsil yolu ilə 1300 nəfərdən çox magistr hazırlamışdır. Universitetlərin bir çoxunda yaşlıların təlimində distant təhsil texnologiyalarından istifadə olunurdu. Distant təhsil sistemində televiziya və kompyuterdən istifadə geniş yayılmışdı. Yüz milyondan çox öyrənən bu yolla təhsil almışdı.

Açar sözlər: idarəetmə, inkişaf, distant təhsil, informasiya texnologiyaları

Абстракт:Дистанционное образование, являющееся важнейшим достижением прошлого века, оказывает влияние на все сферы жизни и деятельности человека, в том числе и на образование. Итак, произошли очень серьезные изменения в образовании в условиях дистанционного обучения. В качестве очень важного фактора повышения качества и эффективности образования широко используются новые формы и методы на основе новых информационно-коммуникационных технологий. Одним из них является система дистанционного обучения. В настоящее время в мире сильно усилилась тенденция к этой системе, которая является современной формой образования. Если в 1980 г. новые информационные и коммуникационные технологии использовались в обучении в 200 вузах, то в последние годы их число исчисляется миллионами. Дистанционное образование охватило все государства и страны мира. Согласно исследованиям, система дистанционного обучения в основном используется в западноевропейских и американских учебных заведениях. В системе образования США около миллиона человек обучаются дистанционно. В начале 90-х годов в Национальном технологическом университете США посредством дистанционного обучения было подготовлено более 1300 магистров. Дистанционные технологии обучения применялись при обучении старшеклассников во многих вузах. Использование телевидения и компьютеров было широко распространено в системе дистанционного образования. Таким образом получили образование более ста миллионов учащихся.

Ключевые слова: управление, развитие, дистанционное образование, информационные

технологии.

Abstract: Distance education, which is the most important achievement of the last century, has an impact on all areas of human life and activity, including education. So, there have been very serious changes in education in distance education conditions. As a very important factor in improving the quality and effectiveness of education, new forms and methods have been widely used on the basis of new information and communication technologies. One of them is the distance education system. At present, the trend towards this system, which is a modern form of education, has greatly increased in the world. If in 1980 new information and communication technologies were used in education in 200 higher schools, in recent years their number is in the millions. Distance education has covered all states and countries of the world. According to researches, the distance education system is mostly used in Western European and American educational institutions. In the US education system, about one million people are studying through distance learning. At the beginning of the 90s, the National University of Technology of the USA trained more than 1300 masters through distance education. Distance learning technologies were used in the training of seniors in many universities. The use of television and computers was widespread in the distance education system. More than a hundred million learners were educated in this way.

Keywords: management, development, distance education, information technologies

Amerikada 15 ildən çoxdur ki, distant təlim Unıversiteti fəaliyyət göstərməkdədir. 1982-ci ildə yaşlılar üçün qiyabi ali təhsil müəssisəsi yaradılmış, bu Universitetdə distant təhsildən geniş şəkildə istifadə edilməkdədir. Fransada Dövlət təhsil Mərkəzi dünyanın 150 ölkəsindən 30 min nəfərin distant təlimdən inkişafını təmin edir.

Almaniya Federativ Respublikasında Xaqen Açıq Universiteti distant təlimdən istifadə etməklə qiyabi yolla təhsil almağa və ixtisasartırmağa xidmət etməkdədir. Tyubingen şəhərindəki MT İnstitutu radio, televizor və kompüterdən istifadə etməklə təhsil almaq proqramları hazırlamaqdadır. Proqramların hazırlanmasında 3000 müəllim iştirak edir.

Türkiyədə distant təlimə hələ ötən əsrin 70-ci illərinin ortalarından başlanmışdı. 1974-cü ildən uzaq rayonların əhalisinin təhsil almasına kömək məqsədini güdən Açıq Universitet fəaliyyət göstərməkdədir. Universitet dinləyicilər üçün radio və teletədris proqramları hazırlayır, axşam və bazar günlərində isə yay kursları təşkil edir. Universitetdə 110 mindən çox dinləyici əhatə olunmuşdur.

İsveçdə Universitet Baltika regionunun 50-dən çox ali təhsil müəssisəsinin distant təlim istiqamətindəki səylərini birləşdirmişdir.Finlandiyada hələ 70-ci illərdən 10 universitet nəzdində MT mərkəzləri yaradılmışdır. Burada 20-dən çox universitetin nəzdində 30 mindən çox tələbəsi olan yay universitetləri fəaliyyət göstərir.

Avstriyada, İsveçrədə də belə təhsil müəssisələri fəaliyyət göstərməkdədir. Hətta, Avropanın cırtdan ölkələrindən olan Andorrada da MT sistemi proqramı mövcuddur.

Distant təlim sistemi Çində, Hindistanda, İranda, Cənubi Koreyada, Cənubi Afrikada, Tailanda və b. ölkələrdə də yayılmaqdadır.

Avropa və Şimali Amerikada, habelə yuxarıda sözügedən ölkələrlə müqayisədə əhalisinin təhsil səviyyəsinin və təhsil prosesinin texniki təminatının aşağı olduğu Yaxın Şərq və Mərkəzi Amerika ölkələrində distant təlim zəif inkişaf etmişdir.

Yaponiyada MT həlı ötən əsrin 70-cı illərinin əvvəlindən başlanmışdır, o zamandan Yaponiyada «Universitet efirdə» fəaliyyət göstərir. Burada bir neçə humanitar və təbiət yönümlü fakültələr mövcuddur. Dinləyicilərin əsas hissəsi Universitetdə beş il təhsil aldıqdan sonra imtahanları müvəffəqiyyətlə verib bakalavr diplomu alırlar.

Rusiyada distant təlimdən sovet məkanında hələ 60-ci illərin ortalarından etibarən qiyabi təhsil sistemində, xüsusən mütəxəssislər idelogiya üzrə hazırlayan partiya maarifində geniş istifadə olunmuşdu.

O zamanlar radio və televiziya vasitəsi ilə humanitar elmləri, xüsusən SSRİ tarixini, onun nəzəriyyə və praktikasını öyrənənlər üçün mütəmadi sikl mühazirələr oxunur və söhbətlər aparılırdı. Rusiyanın ali və ümumtəhsil sistemlərində isə distant təlim XX əsrin 80-cı illərinin əvvəlindən genişlənməyə başlanmışdir. ABŞ, Böyük Almaniya, Britaniya, Kanada, İsveç, Avstriya, Rusiya və b. ölkələrin nümayəndələrinin iştirakı ilə Moskvada distant təlim üzrə beynəlxalq konfranslar keçirilmişdir. Bu, Rusiyada MT inkişafında mühüm rol oynadı. Habelə, Moskva Dövlət Universiteti tərəfindən distant təlim üzrə keçirilən Ümumrusiya konfransı da mühüm rol oynadı və MT-in elmi səviyyəsini bir qədər də artırdı. Artıq, əsrin sonlarında Rusiyada yüzdən çox distant təlim müəssisələri, şöbələri və mərkəzləri fəaliyyət göstərirdi. Ali təhsilin bu formasından Moskva Dövlət Universitetində, Moskva Dövlət Elektronika və Riyaziyyat, Aviasiya, İqtisadiyyat, İnformasiya və Statistika Universitetlərində, Çelyabinski Dövlət Texniki Universitetində, Samara Dövlət Aviasiya Universitetində geniş istifadə olunmaqdadır. Sankt-Peterburq Dövlət Texniki Universiteti «Rusiya Universitetləri» proqramı çərçivəsində Böyük Britaniya, Fransa, İspaniya, İtaliya, İsveçrə, Polşa və b. Universitetlərin beynəlxalq seminarlarında və telekonfranslarında iştirak etmişdir. Rusiya distant təlimdən istifadə problemləri üzrə Finlandiya və Almaniya ilə sıx əməkdaşlıq yaratmış, xüsusi Rusiya - Finlandiya və Rusiya-Almaniya teleakademiyaları təşkil edilmişdir. Rusiyada yaradılmış qeyri-hökümət təhsil müəssisəsi orta və ali peşə məktəblərində distant təlim texnologiyalarının uğurla tətbiq edir.

Distant təhsil ali təhsil müəssisələrində də geniş yayılmışdır. MT texnologiyalarının istifadəsini tələb edən xüsusi təlim sistemi - SOC (Servicemembers Opportunity Coileges) təsis edilmişdir. O, milyondan artıq Ali təhsil müəssisəsi ilə əməkdaşlıq etmişdirdir.

Mövcud materiallardan məlum olur ki, SOC Karneqi korporasiyasının, əlavə təhsil almağa dəstək verən Fondun, ABŞ Təhsil Nazirliyinin maliyyə köməyi ilə Amerika dövlət ali məktəblərinin (AASCU) və Amerika ictimai kolleclər (AACC) Assosasiyalarının səyləri sayəsində yaradılmışdır. Hazırda hərbi xidmətçilər, habelə onların ailə üzvləri SOC-a daxil olan müxtəlif ali məktəblərin proqramları ilə təhsil alırlar. Bu proqramlar Müdafiə Nazirliyi, hərbi hissələr, akademik assosasiyalar və agentliklər tərəfindən dəstəklənir və uğurla tənzim olunur. Artıq, bu yolla ABŞ-da və digər ölkələrdə minlərlə adam müxtəlif yönümlü sertifikatlar, elmi dərəcə vs elmi adlar almışlar [2, s.71].

Distant təlim İsveç silahlı qüvvələri sistemində də güclü dəstək almış və inkişaf etmişdir. İsveç Müdafiə Nazirliyi keçən əsrin 90-cı illərinin əvvəlində hərbi sistemdə distant təlim texnologiyasından istifadə barədə qərar qəbul etmişdi. Qərarda komanda heyəti arasında və təhsil xidməti sistemində distant təlim ideyalarını təbliğ və tətbiq etmək məsələləri irəli sürülmüşdü. Bunun nəticəsində müşavirə və konferanslarda MT barədə məlumatların yayılması, distant təlim üzrə texnologiyaların istehsalı və bu problemə aid materialların nəşr olunmasına nail olunmuşdu. Şimali Avropa ölkələrində MT üzrə təcrübə mübadiləsi keçirilmiş və onu tətbiq edən kompaniya və tədris müəssisələrinə bir sıra tanışlıq səfərləri keçirilmişdi.

MT üzrə ixtisaslı kadrların hazırlanmasında diqqətdən kənarda qalmamışdır. Bu məqsədlə Müdafiə Nazirliyi tərəfindən 2 illik kurslar təşkil edilmiş, yeni informasiya texnologiyası ilə təchiz olunmuş 4 təhsil mərkəzi yaradılmışdı. Distant təlimi həyata keçirmək məqsədi ilə İsveçdə mülki və hərbi strukturlar arasında qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək məqsədilə Orta İsveç Universitetinin, İsveç Kənd Təsərrüfatı Universitetinin və Müasir Texnoloji Hərbi İnstitutunun qüvvələrini birləşdirən konsorsium yaradılmışdır. Artıq 2002-ci il üçün hərbi hissələrin şəxsi heyətinin distant təlim ilə əhatə olunması başa çatmışdı. Distant təlimdə tədris olunan fənlərin sayı artırılmışdır: iqtisadiyyat, iqtisadi nəzəriyyə, dillərlə yanaşı, onların sırasına mühəndislik, tarix, riyaziyyat kimi fənlər də daxil edilmişdir. Zaman-zaman digər təlim formalarının distant təlim ilə əvəz edilməsi nəzərdə tutulmuşdur.

Rusiya Federasiyasının Silahlı Qüvvələrində də MT geniş yayılmaqdadır. Bu sahədə iş hələ 1992-cü ildən etibarən başlamışdır. Burada kompüter texnologiyasından və sputnik telekommunikasiyasından daha çox istifadə olunur. Bu işdə Hərbi Universitet, Hərbi-Mühəndis Akademiyası, Hərbi Strateji Raket Qoşunları Akademiyası, hərbi NHM Akademiyası, Kosmik hərbi-mühəndis Akademiyası, Hərbi Dəniz Akademiyası, Mixaylov Artilleriya Akademiyası. Arxa və Nəqliyyat Akademiyası, Hərbi Rabitə

Akademiyası fəal iştirak etmişdilər.

Təhsilin bu forması İranda da inkişaf etməyə başlamışdır. Bunu ölkədə virtual universitetlərin yaradılması nümunəsində görmək olar.

İranda virtual universitetlərin yaradılmasının məqsədi İran milli universitetlərinin mədəniyyəti və dili inkişaf etdirməkdir. Virtual universitet məhvə doğru gedən dili yenidən canlarıdırmaq məqsədilə yaradılmışdır. İqtisadi cəhətdən də virtual universitetlər İranın siyasi və mədəni mövqeyinin gücləndirilməsinə səbəb olmuşdur [4, s.66].

İranda bu təlim üsulunun yaradılması və möhkəmlənməsi üçün ilk addım internet əlaqəsi sahəsində olan əsas çətinliyinin həll olunması məsələsidir. İnternet əlaqəsi virtual universitetin əlifbasıdır. İran İslam Respublikasında hələlik aşağı təbəqədən olan tələbələr üçün bu mümkün deyil. Ona gökə ki, İranda internet əlaqələrindən istifadə xərcləri nisbətən yüksəkdir. Halbuki digər ölkələrdə internet əlaqələrinin həm keyfiyyət və həm də kəmiyyəti daha yaxşıdır.

Rabitə informasiya xətləri kimi istifadə olunan telefon xətləri dünya rabitə vasitələrindən yüksək sürətilə müqayisə olunmazdır. İrandan xaricdə tələbələrə xidmət sahəsində də müəyyən rabitə problemi həll olunmamış qalır. Ölkələrin çoxu əlaqə üçün kabeldən istifadə yüksək səviyyədə olduğu halda, İranda xidmət göstərənlər çox zəif fəaliyyət nümayiş etdirir və hakerlər qarşısında çox zərər görürlər. Bu yaxınlarda xeyirxah bir haker İran saytlarının bir hissəsini zəif olduğuna görə bir neçə saatlıq işdən ayırmışdı.

Beləliklə, XX əsrin sonu XXI əsrin əvvəlləri üçün dünyanın bir çox ölkələrinin təohsil sistemində virtual, distant təlim şəbəkəsi yayılmağa başlamışdır. 1998-ci ildə YUNESKO tərəfindən "Ali təhsilin dünyəvi Bəyənnaməsi"nin qəbul ediliməsi bu sahədə irəliyə doğru atılmış mühüm bir addım idi. Bəyənnamədə XXI əsr təhsilinin - virtual, distant təlim sisteminin genişləndirilməsi xətti müəyyən olunmuşdu. Ümumən, ikinci minilliyin sonu - üçüncü minilliyin əvvəllərində Britaniya Açıq Universitetində 500 min, İspaniya Milli Distant təhsili universitetində 124 min, Almaniya Xaqen Quyabi universitetində 50 min tələbə təhsil almışdı. Əksinə, zəif inkişaf etmiş ölkələrdə, o cümlədən, Yaxın Şərq, Mərkəzi Amerika, Afrika ölkələrində distant təlim zəif inkişaf etmişdir. Bəzilərində hətta yox dərəcəsindədir.

Müasir ali məktəbdə təhsilin əyani, axşam (əyani, qiyabi), qiyabi və eksternat formalarından istifadə olunur. Elmi texniki tərəqqi zəminində yeni geniş informasiya texnologiyasının kompyuterin və telekommunikasiya texnologiyalarının meydana çıxdığı indiki şəraitdə məsafədan təlim də bu sıraya daxil edildi. Burada təlim prosesinin əsasını təhsil alanın məqsədə yönəldilmiş və nəzarət olunan müstəqil işi təşkil edir. Belə ki, tələbə, fərdi cədvəlinə müvafiq olaraq özünə münasib yerdə, razılaşdırılmış imkan daxilində xüsusi təlim vasitələrilə: telefon, faks və adi elektron poçtla, habelə əyani yolla müəllimlərlə əlaqə yaratmaqla təhsil alır.

Təcrübə göstərir ki, distant təlimin ən çox qiyabi, eksternat, əyani-qiyabi (axşam) və fasiləsiz təhsil sistemlərində tətbiq edilməsi çox münasib və önəmlidir.

İndi artıq distant təlim təhsilin formalarından biri kimi hüquqi status qazanmışdır. Məhz bu təlimin həyata keçirilməsi sayəsində təhsildən kənarda qalmaq vəziyyəti tükənmiş, yoxsulluq, coğrafi və ya müvəqqəti təcrid edilmə, sosial müdafiəsizlik, imkansızlıq, istehsalatla və şəxsi işlərlə məşğul olmaq səbəbləri üzündən təhsil almaq imkanlarından məhrum olmaq halları aradan qalxmış oldu.

Bununla da təhsildə zəruri sayılan humanistlik və fasiləsizlik prinsiplərinin həyata keçirilməsi üçün əlverişli şərait yarandı.

Mövcud gerçəkliyə və aparılan tədqiqat materiallarına əsasən aşağıdakı şəraitlərdə distant təlimdən istifadə etmək zərurətə çevrilir:

- təhsil almaq istəyənlərin ali təhsil ocaqlarından çox uzaqda yaşaması;
- təhsilli mütəxəssislərin ixtisasını artırmaq və ya ikinci təhsil almaq istəyinin olması;
- ali məktəblərə daxil olmağa hazırlaşması;
- ənənəvi təhsil sistemində ali məktəblərə girmək imkanlarının məhdud olduğu;
- silahlı qüvvələrdə həqiqi xidmətdə olunduğu;

- sağlamlığı ilə əlaqədar əyani təhsil almaq imkanlarının məhdudluğu;
- məhkumluq şəraitinin reallığı;
- müəyyən olunmuş proqramı qısa müddətdə mənimsəmək qabiliyyəti;
- əlavə biliklər əldə etmək, paralel olaraq ikinci təhsil almaq səylərinin göstərildiyi;
- xaricdə təhsil almaq istəkləri;
- xüsusi təhsil proqramlarının yerinə yetirmək istəyinin olması və s.

Dünyada bu qəbildən milyonlarla insan mövcuddur. Məhz virtual və distant təlim belələrinin təhsil almasına imkan verir.

İndı hər il Asiyada əhalinin təxminən 15 milyon nəfəri müharibə, xəstəlik, qəzalar və düzgün qidalanmamaq və işsizlik ucbatından əlilliyə düçar olur, həyat və təhsil üçün lazım olan bacarıqları əldə edə bilmirlər. Bu işdə elektron təhsilin imkanları böyükdür.

Bu baxımdan, gənclər xüsusən diqqət mərkəzindədirlər. Gənclər peşəkar iş təliminə ehtiyac duyurlar. Fərdi öyrənmədə onların ilişməsi istehsal, iqtisadiyyat xidmətində yerləşməsinə səbəb olur. Elektron öyrənmə bu imkanı yaradır.

Dünyanın bəzi regionlarında qadınlar və qızlar özlərini təlim və tərbiyədən kənarda hiss edirlər. Virtual, distant təlim hər an iqtisadi, ictimai və mədəni maneələrlə rastlaşan qadın və qızlar üçün də yeni imkanlar yaradır.

Mühacirlər və qaçqınlar da bu təhsil sistemindən bəhrələnə bilərlər. Hal-hazırda dünya əhalisinin 125 milyon nəfəri öz ölkələrindən kənarda yaşayır. Onlar ictimai-siyasi və iqtisadi məqsədlərə çatmaq üçün səylər göstərirlər. Deməli, bu insanların dil öyrətməyə öz peşə bacarıqlarını proqramlaşdırmağa ehtiyacları vardır. Bu təbii ehtiyacı təmin etmək üçün müasir təlim və tərbiyə sistemlərinin demək olar ki, əksəriyyəti lazımi hazırlığa malik deyillər. Üstəlik, dağıdılmış məktəblər, zəif əməkdaşlıq, pis təhsil, qeyri-peşəkar və kifayət qədər savadı olmayan müəllimlərin nəzarəti altında aparılan təlim, qeyri-münasib dərs proqramları, milli dil və mədəniyyətlərə əhəmiyyət verilməməsi və irqi ayrı-seçkilik halları da vəziyyətli xeyli ağırlaşdırır. Belə bir şərait təbii ki, istedadlı şagirdlərin üzə çıxarılmasına imkan vermir [7, s.82].

Bu gün bütün dünyada daha yeni təlim texnologiyaları tətbiqi əsaslı bilik almağa marağı artırmışdır. Bu, hələlik inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən universitetlərdə hayata keçirilir. Qabaqcıl məktəblər virtual öyrənmədə daha böyük uğurlar əldə etmişlər. Bu müəssisələrin təcrübələri və uğurları bir daha yeni təlim texnologiyalarının müsbət təsirini sübuta yetirir.

Müasir elmi-texniki tərəqqinin sayəsində informasiyanın səviyyəsi çox sürətlə yəni, 4-5 ildən bir 2 dəfə artır. Məsələn, bir tələbə üçün XXI əsrin əvvəllərinə əldə oluna bilən informasiyanın həcmi 2050-ci ildə bir tələbənin əldə edə biləcəyi informasiyanın yüzdə birindən də az olacaqdır. Odur ki, haqlı olaraq XXI əsri informasiya əsri adlandırırlar. Bu sahədə istifadə olunan göstəricilərdən biri insan biliyindən bir sahənin elmi nailiyyətlərinin ən azı 50 faizi öz etibarını itirdiyi zaman müddətindən asılı olmayaraq informasiya insan ömrünün göstəricisidir. Aparılmış yoxlamalara əsasən insan biliyinin bəzi sahələrində informasiyanın yarım ömrü təxminən 6 ilə çatmışdır. Bu şəraildə keçilən dərslər ənənəvi üsullarla müasir biliyin təsviredicisi olan dəyişikliklərə sürətlə uyğunlaşa bilməzlər. Halbuki elektron öyrənmə fəzası bu əsrin xüsusiyyətləri ilə tamamilə uyğunlaşa biləcək qüvvəyə malikdir.

Müasir cəmiyyətdə səmərəli fəaliyyət üçün vətəndaşların inkişaf etmiş təlim və tərbiyəyə ehtiyacları vardır. Öyrənmə fəaliyyətlərinin quruluşu və məzmunu uşaqları, gəncləri və böyükləri bilik, bacarıqlar, dəyərlər, qarşılaşma tərzi və s. əldə etməyə hazırlamalıdır. Bununla yanaşı, onları ictimai həyatlarında əməkdaşlıq və məsuliyyət hiss etmək üçün qüvvətli etməlidir. Təlim və tərbiyə ətraf mühitdə baş verən dəyişikliklərə uyğunlaşmaq üçün onlara kömək etməli, öyrənməni, fərdi ehtiyaclarına və şəxsi maraqlarına uyğun şəkildə davam etdirə bilmələrinə yardım etməlidir. Bir sözlə, öyrənmə prosesində bütün vətəndaşları toplamaq üçün hər bir strategiyanın daim texnologiyadan istifadəyə ehtiyacı vardır. Deməli, texnologiyasız vətəndaşları daimi öyrənməyə cəlb etmək olmaz [1, s.36].

Müasir cəmiyyətin açar xüsusiyyətlərindən biri odur ki, bilik, informasiya və fikir mübadiləsini şəbəkələrdən istifadə etməklə ali səviyyəyə çatdırır və şəbəkələr cəmiyyətlərin insan fəaliyyətlərinin

qurulmasında mühüm rol oynayır. Deməli, daha asan əlaqə, biliyin əldə olunması, gündəlik bacarıqlar, təlim və tərbəyə üçün internetin nüfuzu davam edəcəkdir.

Virtual, distant təlim dünyada hələ də qalmaqda olan savadsızlığın ləğv olunması üçün də mühüm şərtdir.

İnformasiya texnologiyalarının sürətlə inkişafına baxmayaraq, bəzi ölkələrdə əhalinin müəyyən hissəsinin hələ də oxumaq və yazmaq üçün savad almaq imkanı yoxdur. Hesablamalara görə, hazırda dünyada 880 milyon yaşlı insan oxumaq və yazmağı bacarmır. Yaşı 6 yaşdan 11 yaşa qədər olan 113 milyon uşaq təhsil almaqdan məhrumdur. Dünya ölkələrinin əksəriyyəti savadsız vətəndaşların sayını azaltmaq üçün xüsusi komitələr yaratmışlar. Yeni texniki vasitələr, xüsusən radio və televiziya savadsızlığın ləğvində mühüm rol oynayırlar.

Ən sadə hallardan biri işsizlərlə əlaqəcə virtual fəzanın istifadə olunmasıdır. Təcrübə göstərir ki, fəhlələr üçün onlayn mənbələrindən istifadə yaxşı nəticələr göstərir. Bu yolla işçilər işlərində texnologiyalardan istifadə bacarığı əldə edirlər.

Qeyd edilmiş bütün bu zəruri məsələləri öyrənmədə münasib elmi, texniki və məntiqi bazaya malik virtual, distant təlimdən istifadə etməklə həll etmək olar [5, s.90].

Deyilənlər göstərir ki, distant təlim, təhsilin digər formalarından daha üstün və səmərəlidir. Virtual məsafədə təlim müəllim və tələbələr qarşısında müəyyən xüsusi tələblər qoyurlar, müəllim və tələbəni daha çox və gərgin işləməyə sövq edirlər. Məlumdur ki, distant təlim öz səciyyəvi cəhətlərinə və təşkilinə görə əyani və axşam (indi Azərbaycanda bu təhsil forması yoxdur) formalarına nisbətən daha çox qiyabi və eksternat təhsilə uyğundur. Qiyabi təhsil müstəqilliyinolması, tədrisin xüsusi qrafiklə aprılması, yeni informasiya vasitələrindən istifadə də müəllimlə lazımi vaxtda əlaqə saxlanılması imkanı müstəqil iş üçün ixtisaslaşdırılmış tədris vasitələrinin dediklərimizi təsdiq edir. Deməli, qiyabi təhsilin müvəffəqiyyəti üçün distant təlim çox önəmli və yararlıdır.

Bu sahədə Azərbaycanda da zəngin təcrübə toplanmışdır. Belə ki, sovet hakimiyyəti şəraitində yaşamları 70 il ərzində Azərbaycanda da təhsilin qiyabi formasından geniş istifadə olunmuşdur. Mütəxəssislərin üçdə birindən çoxu qiyabi yolla təhsil almışdır. Hətta Azərbaycanda onlarla qiyabi təhsil müəssisələri fəaliyyət gostərmiş, təhsil ocaqlarında qiyabiçilərə xidmət edən fakültələr, şöbələr, kafedralar, bölmələr və s. mövcud olmuşdur. Lakin son dövrlərdə təhsilin bu formasına maraq çox azalmışdır. Bu, hər şeydən əvvəl qiyabi təhsilin əyani təhsilə nisbətən keyfiyyətinin aşağı düşməsi ilə əlaqədardır. İndi qiyabiçilərin yaşadıqları uzaq məkanlardan təhsil aldıqları yerlərə gəlib-getməsi bazar iqtisadiyyatı və rəqabəti şəraitində bir sıra çətinliklərlə müşayət olunur. Heç bir sahibkarın öz qiyabiçi əməkdaşlarının dörd və ya beş il ərzində 40-50 gün işdən aralanmasına imkan verməz. Distant təhsil bu boşluğu doldura bilər. Tələbə sessiya arası dövrdə yeni informasiya texnologiyası sistemi (elektron poçt, audio, videokonferensiya və s.) vasitəsi ilə müəllimlə əlaqə saxlayıb, müstəqil çalışa bilər. Təbii ki, dövrün tələblərinə uyğun modernləşdirilmiş (yeniləşdirilmiş); tədris planının çevikləşdirilməsi, tələbələrə öyrənmək üçün fənləri seçmək və hazır olduğu vaxt imtahan vermək imkanlarının yaradılması, onların sessiyaarası vaxtı müxtəlif texniki vasitələrlə əlaqə imkanlarından istifadə etməsi fikrimizcə distant təlimə tam uyğun gəlir [4, s.102].

Əyani təhsilə gəldikdə, burada da çox elementlər, o cümlədən, tələbələrin müstəqil işi, onların təhsilinin fərdi plan əsasında təşkili də distant təlimdə üstünlük təşkil edə bilər. Yeni informasiya və kommunikasiya texnologiyası sisteminin tətbiqi bu formalardan istifadəni daha da genişləndirməyə imkan verir. Kompyuterlərdən və telekommunikasiyalardan istifadə, fənlərin öyrənilməsində çevik qrafika (plana) keçilməsi, fənlərin modul düzülüşünün və öyrənilməsinin təşkili və başqa didaktik, təşkilati tədbirlərin həyata keçirilməsi ənənəvi təlimdən fərqlənəndəyişdirilmiş, yeniləşdirilmiş əyani təhsil formasının alınmasına gətirib çıxarmışdır.

Keçirilən sorğuların nəticələri göstərir ki, hələ də ən keyfiyyətli, eyni zamanda ən çox xərc tələb edən əyani təhsilə nisbətdə, iqtisadi cəhətdən ən qənaətcil təhsil forması distant təlimdir.

Müasir təhsil prosesində təlimin müxtəlif formalarının (əyani, qiyabi, eksternat) elementlərindən istifadə, xüsusən yeni informasiya və kommunikasiya texnologiyası sistemi zəminində distant təlim

üsullarının tətbiqi tədricən təlimin mövcud formalarının məzmun və mahiyyətini dəyişdirir. Bunların nəticəsində də yeni, müxtəlif təhsil formaları elementlərinin culğalaşması əsasında yeni, daha səmərəli təhsil forması - təlim forması təşəkkül tapıb formalaşır. Mütəxəssislər tərəfindən o, təhsilin XXI əsr forması kimi mənalandırılır. Tədqiqatçılar tərəfindən bu forma təhsildə ən ideal forma adlandırılır. Rusiya tədqiqatçılarından N.S.Şemina yazır ki, distant təlimi ədalətli olaraq XXI əsrin təhsil sistemi adlanırırlar. Biz onu dünyada və ölkəmizdə gedən qlobal islahatların magistral istiqamətlərindən biri kimi qiymətləndiririk [6, s.49].

İran İslam və Azərbaycan Respublikalarının bir sıra ali təhsil müəssisələrində keçirdiyimiz sosial sorğuların nəticələri də bunu təsdiq edir. Sorğuda iştirak edənlərinəksəriyyəti distant təlimi çox böyük gələcəyi olan təhsil forması kimi mənalandırılmışlar. Ona ən çox ali məktəb rəhbərləri, xüsusən tələbələr tərafdar çıxmışlar. Müəllimlər isə orta mövqe nümayiş etdirmişlər.

Bütün bünları təhlil etmək əsasında distant təlimin ali təhsil sistemindəki yeri, mövqeyi aşağıdakı qənaətə gəlməyə imkan verir. Distant təlim:

- yaşayış yerini tərk etmədən və istehsalatdan ayrılmadan təhsil almağa imkan verin;
- vətən və dünya təhsil ehtiyatlarından bəhrələnmək üçün geniş yol açılmasını təmin edir;
- müxtəlif həyatı vəzifələri həll etmək üçün təhsil almaq imkanı yaradır;
- öz təhsilini səmərəli təşkil etməsinə və təhsil almaq üçün bütünlazımi vasitələri əldə etmək imkanı verir;
- şəxsi imkanlarına və tələblərinə müvafiq olaraq, təhsilini kəsmək və ya davam etdirmək şəraiti yaradır;
- yaş məhdudiyyətləri olmadan təhsil almaq imkanlarının çevrəsini genişləndirilir:
- təhsil ehtiyatlarına geniş yolun açılması hesabına təlimin xərclərini aşağı salır;
- təhsil müəssisələrinin təqdim etdiyi uyğunlaşdırılmış fənlər hesabına nadir təhsil proqramlarının formalaşdırılmasına imkan verir,
- cəmiyyətin təhsil potensialının səviyyəsinin və təhsilin keyfiyyətinin yüksəldilməsinə imkan yaradır;
- ölkənin yüksək ixtisaslı kadrlara tələbatının ödənilməsinə təminat yaradır;
- əhalinin sosial və peşə mobilliyini yüksəldir;
- ölkənin əldə etdiyi təhsil potensialının qorunub saxlanılmasına və artırılmasına kömək edir;
- ölkədə vahid təhsil məkanının qorunmasını və inkişafını təmin edir.

Distant təhsil sistemi açıq təhsil növüdür. Burada bütün arzu edənlər təhsil ala bilərlər. Onlar ali təhsilin bu pilləsində bakalavr, magistr, diplomlu mütəxəssis dərəcəsi, diplomdan sonrakı fəlsəfə doktoru, elmlər doktoru dərəcələri almaq üçün proqramları, əlavə təhsil almaq proqramlarını yerinə yetirə bilərlər.

Ədəbiyyat

1. Azərbaycan 2020-Gələcəyə baxış inkişaf konsepsiyası" Bakı,2012
2. Cabbarov R. Təhsil müəssisələrinin idarə edilməsi məsələləri. 2 hissədə. Bakı "müəllim" 2009, 200 s.
3. Əliyev P., Əhmədov H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. B: Təhsil, 2006, 176 s.
4. Əlizadə H., Qasımova L., Əliyev B. Məktəbdə tərbiyə işinin metodikası. B: BDU nəşriyyatı, 1990, 214 s.
5. R.H.Məmmədzadə, İdarəetmə mədəniyyəti Bakı, 1999
6. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı, 2008, 238 səh.
7. Təhsilin idarə olunmasının əsasları. Bakı, "mütərcim" 2010, 475 səh.

Nəzrin ƏMRAHOVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
nazrinamrahova1@gmail.com

FORMATION OF CULTURAL TOURISM IN LACHIN-KALBAJAR REGION

LAÇIN-KƏLBƏCƏR REGİONUNDA MƏDƏNİ TURİZMİN FƏALİYYƏTİ

ФОРМИРОВАНИЕ КУЛЬТУРНОГО ТУРИЗМА В ЛАЧИН-КАЛЬБАДЖАРСКОМ РЕГИОНЕ

Abstract: Azerbaijan has ancient history and thanks to this history, our country has colourful cultural heritage. Cultural heritage including monuments, carpets, music, national cuisine in all regions, especially, Karabakh attracts tourist and this leads to the development of cultural tourism in Azerbaijan. Lachin-Kalbajar regions are one of the regions that have a great cultural tourism potential. In this article the condition of cultural monuments in Lachin-Kalbajar regions was analysed and recommendations for the formation and the development of cultural tourism were given.

Key words: cultural tourism, cultural monuments, Karabakh, Lachin-Kalbajar, formation of cultural tourism

Abstract: Азербайджан имеет древнюю историю, и благодаря этой истории наша страна имеет яркое культурное наследие. Культурное наследие, включая памятники, ковры, музыку, национальную кухню во всех регионах, особенно в Карабахе, привлекает туристов, что ведет к развитию культурного туризма в Азербайджане. Лачин-Кельбаджарский район является одним из регионов, обладающих большим культурно-туристическим потенциалом. В данной статье проанализировано состояние памятников культуры в Лачин-Кельбаджарском районе и даны рекомендации по формированию и развитию культурно-познавательного туризма.

Ключевые слова: культурный туризм, памятники культуры, Карабах, Лачин-Кельбаджар, формирование культурного туризма.

Xülasə: Azərbaycan qədim tarixə malikdir və bu tarix sayəsində ölkəmiz rəngarəng mədəni irsə malikdir. Bütün bölgələrdə, xüsusən də Qarabağda olan abidələr, xalçalar, musiqi, milli mətbəx turistləri cəlb edir və bu, Azərbaycanda mədəni turizmin inkişafına səbəb olur. Laçın-Kəlbəcər rayonları böyük mədəni turizm potensialına malik bölgələrdəndir. Bu məqalədə Laçın-Kəlbəcər bölgələrindəki mədəniyyət abidələrinin vəziyyəti təhlil edilmiş, mədəni turizmin formalaşması və inkişafı üçün tövsiyələr verilmişdir.

Açar sözlər: mədəni turizm, mədəniyyət abidələri, Qarabağ, Laçın-Kəlbəcər, mədəni turizmin formalaşması

Introduction

Today, the tourism industry is a well-formed mechanism and one of the largest, most profitable and most dynamic sectors of the economy in the modern world. Currently, tourism is seen as an area that stimulates the local economy, increases the welfare of the country's population and affects the quality and level of life. Therefore, creating a positive image of a specific region in the tourism market is of particular importance. In this context, cultural tourism is of great importance, as it should serve the ideals of tolerance, acceptance and proper understanding of the diversity of world cultures as a whole. Cultural tourism can be considered as the original and initial form of tourism regarding its roots in the Grand Tour originated in the 16th century in Britain. However, defining this concept is more challenging; this complex concept may have different and individual meanings for different people. In general, cultural

tourism can be explained as travel with the aim of understanding and familiarizing with the way of life and history of a certain place, accompanied by a number of cultural factors that can be presented in the context of tourism including food, entertainment, architecture, drink, handicrafts and manufactured goods or any element that reflects the characteristics of the lifestyle in a particular destination. Cultural tourism should be defined in 3 aspects: art tourism, heritage tourism and place-specific tourism. Art tourism, which is generally the simplest form of culture to be commodified for art and artistic products and performance-related tourism, for example, theatres, ballets, concert festivals, museums and opera performances. Heritage tourism includes protected buildings, preserved cityscapes and morphological patterns, as well as places associated with historical events and personalities. Place-specific tourism means that culture can be defined as the shared values, attitudes and thus behaviors of a social group. [6]. In terms of cultural tourism, Greece, India, Japan, Italy, etc. is among the best destinations. [9].

Cultural relations are carried out within the framework of a number of intercultural projects of UNESCO and the World Tourism Organization. Among them are large long-term interregional projects on the creation of cultural-historical routes such as the "Great Silk Road". The development of cultural tourism is impossible without cultural heritage, as it implies the use of the country's historical and cultural potential. One of the most important conditions for the development of cultural tourism is the enrichment of cultural heritage objects to a certain extent. Another condition is to draw attention to this heritage by organizing it correctly and creatively. Therefore, the most important goal of the cultural policy is not only the creation of a positive image of the region, but also the formation of a stable and careful attitude to the objects of cultural heritage. The main goal of cultural tourism is to get to know the country's architecture, art, music, theater, folklore, traditions, customs, people's lifestyle and style - the country's culture and history. Cultural tourism itself, in its turn, makes a great contribution to the enrichment of cultural heritage, creates conditions for the preservation and flourishing of traditional arts, culture and folklore.[8].

Cultural Tourism in Azerbaijan

Cultural tourism in Azerbaijan is an irresistible blend of East and West, traditions and modernity, urban bustle and unchanged village life. Each region offers its own uniqueness on Azeri culture, while the country as a whole, a Muslim island largely surrounded by Christian nations, provides cultural experiences that cannot be found elsewhere in the Caucasus. Azerbaijan cultural tourism involves diversity, daring adventures and delicately preserved history in a country located at the junction of Europe and Asia.

Baku combines Soviet-era buildings and modern glass constructions, historical UNESCO sites of Maiden Tower and Shirvanshah Palace with seaside boulevards, culturally significant religious sites. While Gobustan shows the history of Azerbaijani people, Zoroastrian Ateshgah Temple, Red Village, the largest settlement of Mountain Jews displays religions, lifestyle of other ethnic minorities settled in Azerbaijan.[10].

In general, Azerbaijan has a lot of unique and ancient monuments that show its history to the tourists. For example, Albanian churches in Sheki, Gakh, Gadabay, Kalbajar regions have survived to our time. The church in Kish village of Sheki district is considered one of the main centers of Albanian churches, which was built in BC. It dates back to the II century. Near the temple there are various ceramic plates, pots and places of pilgrimage. The temple was restored in the 19th century and is currently preserved as a historical-architectural monument. Ancient settlements are also widespread in the country: Azikh and Taglar caves, which are ancient human settlements, can be shown as an example. The mentioned caves are located in the territory of Fuzuli region. The stone tools found here are estimated to be 1.2 million years old. In the Azikh cave, lower jaw(mandibular) bone belonging to the ancient person and remains of fire were also found, which proves that the cave is one of the oldest human settlements. [2, p430-433].

Historical and architectural monuments of the Islamic era can also be found in Azerbaijan. The main part of them consists of mosques, mausoleums and madrasahs. The most famous of them is the Muhammad

ibn Abubakir mosque, built in 1078 in the Old City. The minarets of the mosque combine the local architectural style as well as the Arabic culture. In addition to all these monuments, Momina Khatun Tomb in Nakhchivan, Juma Mosque, Sheki Khan Palace, etc. can be an example for famous monuments in Azerbaijan.[2].

A heavenly place of Azerbaijan, Karabakh, is also rich in historical and cultural monuments. There are architectural and archaeological monuments of world importance in the region. As for the current fate of the Karabakh monuments, the disruptive activity, conflict and war caused by Armenia at the end of the 20th century endangered the fate of the tangible cultural monuments in the Karabakh region of Azerbaijan. It was not allowed to move museum exhibits and libraries. Azikh cave, one of the cradles of the great ancestors of mankind, turned into a military ammunition storehouse of Armenians. Islamic monuments were destroyed and erased from the earth. Albanian Christian monuments were completely falsified. Ongoing vandalism has destroyed many of the historical monuments that Azerbaijan has preserved for centuries. They destroyed historical monuments and museums. Today, all of them are in need of restoration. [4].

Beside historical monuments, there are a lot of museums in Azerbaijan that are evidence of our country's ancient history. While the Azerbaijan History Museum exhibits historical clothes, dishes, jewels, etc. belong to Bronze Age, Middle Ages, etc., The Azerbaijan Carpet Museum displays unique carpets, objects of folk art and decorative and applied art. Furthermore, it should also be noted, Azerbaijan, especially, Karabakh is the cradle of music, Mugham (national music of Azerbaijan). Tourist can see and get information about our traditional musical instruments, such as zurna, saz, as well as rare instruments and antique mechanisms for reproducing sound, the authors' notes of works, personal belongings of musicians and composers in The Azerbaijan State Museum of Musical Culture.[4].

Cultural Tourism in Lachin-Kalbajar Regions

Lachin

Lachin district is located in the south-west of the Republic of Azerbaijan, in a mountainous area. It borders Kalbajar to the north, Khojaly, Shusha and Khojavand to the east, Gubadli districts to the south, and the Republic of Armenia to the west. Writer Taghi Shahbazi chose the location of the city of Lachin and gave it this name himself. Lachin district was founded in 1924. The date of establishment as a district is August 8, 1930.[14].The territory is 1.84 thousand km2, the population is 79.2 thousand (01.01.2021) people. [11]. Lachin district has 1 city (Lachin), 1 settlement (Kaygi), 125 villages.The distance between Lachin region and Baku is 414 kilometers.

When you say Lachin, a beautiful sight comes to life in front of the eyes of a person who sees it once. In the lower part of the district, at the foot of the Zangezur mountain, there are Artyz, Salag and Markiz mountains, far away from each other, the Khustun, Kepaz, Kechaldag ridges, and the Pirdavan, Gajaran, Kigin mountains can be seen beyond them. The peak of the Zangezur mountains is 3906 meters above sea level in some places and is always covered with snow. Here there are forests of red ironwood(parrotia), which is considered the rarest tree in the world, many mineral waters, cobalt, uranium, mercury, gold, iron, marble deposits of various colors, many medicinal plants, etc.

Before the occupation by the Armenians on May 18, 1992, Lachin was an area that had about 200 historical cultural and architectural monuments, dozens of barrows, castle-type monuments that were useful from the point of view of archeology, a large number of tomb stones, stelae, horse, ram figures, plot stones. [14]. Some of these monuments have great significance:

Agoghlan monastery (9th century, Kosalar village) was registered as an architectural monument of national importance by the decision No. 132 of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated August 2, 2001. Armenians illegally made changes in the architectural structure and interior of Aghoglan monastery, defaced the wall inscriptions, completely erased several stone inscriptions on the walls of the monument, as well as a large number of ornaments and symbols belonging to the Albanian period, and changed the shapes of many of them to make them unrecognizable. they dropped. Two tombs stand side by side in a large cemetery near Cicimli(Jijimli) village of Lachin region. The oldest among

them is the tomb known as the Malik Ajdar tomb by the local people, which is visited as a pir. Scientists attribute the monument to the 13th-14th century due to the construction technique of the tombs located in the nearby areas.

Two tombs stand side by side in a large cemetery near Cicimli (Jijimli) village of Lachin region. The oldest among them is the tomb known as the Malik Ajdar tomb by the local people, which is visited as a "pir" (religious place. Scientists attribute the monument to the 13th-14th century due to the construction technique of the tombs located in the nearby areas.

Hamza Soltan Palace was registered as an architectural monument of local importance by Resolution No. 132 of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated August 2, 2001. Eastern architectural traditions were widely used in the construction of the palace, which was probably built in the 18th century. The palace, whose ceilings are attached to thick side walls, is two-story and has a large number of auxiliary rooms and sofa rooms. Although the palace used to form a large complex, only one palace building has survived to our time. After the occupation of the region, the name of the village was changed, and the Hamza Soltan palace was renovated and put into use as a guest house.[5].

Kalbajar

Kalbajar region borders the Republic of Armenia in the west, Dashkasan, Khanlar (Goy-Gol), Goranboy in the north, Tartar in the northeast, Aghdam, Khojaly in the east, and Lachin in the south. There is one city, one city-type settlement (Istisu), and 145 villages in the district with an area of 3054 km. On August 8, 1930, Kalbajar received the status of an administrative district.

The population of Kalbajar region was 94.7 thousand (01.01.2021).[11]. 87 percent of the population of Kalbajar are Azerbaijanis, and 2 percent are Russians, Kurds from Iran and other nationalities.

The origin of the toponym "Kalbajar" means "fort on the river" in the ancient Turkish language.The surface is mountainous (Murovdag, Shahdag, Eastern Sevan (Goyche), Vardenis, Mikhtöken, part of the Karabakh ridge and Karabakh plateau).The city of Kalbajar is located about 450 km west of Baku, on the edge of the Barda - Istisu (Kalbajar) highway, on the banks of the Tartar (river), on steep cliffs.

The territory of Kalbajar district, which is the paradise of Azerbaijan, can be called a flower garden. Kalbajar region is a museum of nature, with more than 30,000 springs, visitors at every spring, at all times of the year. V. Avix said about Kalbajar: "Whoever has not seen along the Tartarchay valley, only he can be fascinated by the beauty of Switzerland". [12].

Kalbajar has more than fifty historical and religious monuments that have ancient history. One of them is Ganjasar monastery. Although it is written as Khazinadag temple in scientific literature, the monument known as Ganjasar is located in Vangli village of Kalbajar district, on the left bank of Khachinchay. The temple is a 13th century Christian Albanian monastery and was the religious and cultural center of Caucasian Albania until the 19th century. The seat of the Albanian Catholic Church, this church has played an important role in the history of Albania. Ganjasar Monastery stands out from other Albanian monuments due to the perfection and complexity of its design. It is known that this monument was built by Hasan Jalal Davla in 1216-1238. The Ganjasar church was built on the basis of Christian architectural traditions of Azerbaijan. The environment of the Seljuks and especially the Elkhans had a great influence on the construction and architectural solution of this valuable monument.

Ganjasar monastery is an architectural monument of world importance.

The Khudaveng monastery complex is an ancient Albanian temple complex located in the territory of Vang village in Kalbajar region. The complex includes a total of nine buildings. Five of them are main buildings, and others are auxiliary and service buildings. Not all of the monuments included in the complex have reached our time in good condition, the older ones are relatively destroyed. The length of the monument is 16.2 meters, and the width is 5.8 meters. This monastery complex is also a monument of world importance.

Lekh Castle is located in the territory of Ganlikand village of Kalbajar region. The castle, built on a high mountain peak, was built for defense purposes in the 13th-14th centuries.

Lex Castle is also remarkable for its strength. It is very interesting that the name of this castle somehow expresses its appearance. That is, the word Lex means "camel's neck", and those who have seen the fort can confirm that this fort, built on the caravan route, contains exactly that shape. There are 3-5 meter deep wells carved out of the rock at the top of the Lech fortress. According to scientists, the inhabitants of the castle stored water and food for themselves in those wells. Prior to the occupation, i.e. until the period when the Armenians took Kalbajar under their control, experts who conducted scientific work here, as well as local residents, report based on their observations that large oak trees grew in those wells later.

It should be mentioned here that there are two large caves in front of the stream called Laf River, on which the Lech castle is located. Those caves were also found and identified during research. According to archaeologists, these caves, which are quite cool in summer and hot in winter, were the residences of the castle's inhabitants. The castle is a monument of local importance.[5].

Kalbajar region was occupied by Armenians on April 2, 1993. During the occupation of Kalbajar, more than 54 thousand inhabitants of the region were forcibly displaced, almost every historical monument was destroyed.

In general, for nearly 30 years, Armenia did not comply with the norms of international law, committed grave crimes against humanity and destroyed the cultural, historical and religious architectural heritage of Karabakh and surrounding areas. Artifacts were stolen from cultural monuments. On the eve of the war, it was not even possible to record the monuments. It was not allowed to move museum exhibits and libraries. Ongoing vandalism has destroyed many of the historical monuments that Azerbaijan has preserved for centuries. Armenians started to “armenianize” monuments by changing their names and designs.[1, p10-18].

Conclusion and Recommendations

Lachin-Kalbajar regions are rich in various types of monuments including monasteries, tombs, castles, etc. All of them are vivid evidence of Azerbaijan’s ancient and rich cultural history. As for the current fate of these monuments, the destructive activity, conflict and war caused by Armenia at the end of the 20th century endangered the fate of the tangible cultural monuments in Lachin-Kalbajar region of Azerbaijan.

After liberation of Lachin(01.12.2020) and Kalbajar(25.11.2020) Azerbaijani government started to implement several measures in order to recover and develop cultural tourism in these areas by restoring monuments, opening new museums that display Armenian vandalism. The occupied Karabakh museums were mentioned in the Decree on the improvement of museum work in Azerbaijan, signed by the President of the Republic of Azerbaijan Ilham Aliyev in 2007, and the requirements arising from this document were also applied to those museums.

In addition to the Karabakh museums that continue to operate in various places, the main mission of the Virtual Karabakh History Museum, established in 2015, is to popularize history, collect exhibits that are kept in various museums and reflect the history and cultural heritage of Karabakh, and promote Karabakh culture and Karabakh history among the younger generation. was to do. In the creation of the virtual museum, a total of 32 museum objects related to Karabakh preserved in the museums of Azerbaijan and the world were used. All these facts prove that the Karabakh museums are operating within the limits of their existing capabilities, even at the time when there was an occupation factor in the development of museum work in Azerbaijan. According to the Decree, Lachin and Kalbajar History-Ethnography Museums will also operate.

Azerbaijan was represented by the "Karabakh is Azerbaijan" stand at "MUSIAD Expo 2020", which started on November 18, 2020 in Istanbul, Turkey. The economic and investment potential of the occupied territories of Azerbaijan was demonstrated. The purpose of our country's participation in the materials is to inform Turkey and foreign investors about the wealth, mineral resources, tourism potential

and cultural heritage of the regions liberated from occupation, to support the large-scale construction and restoration works carried out by the state of Azerbaijan in these areas, business was to attract foreign investors to its establishment.

At the same time, on November 23-24, 2020, the Azerbaijan Tourism Bureau (ATB) participated in the "Gulf Travel Show" exhibition held in Dubai. Karabakh and its tourism potential were introduced in the International exhibition. [3,p35-40].

One culture house will be created in each of Lachin and Kalbajar regions. This is slightly more than 10% of the total number of cultural houses operating in those regions before the conflict. Cultural houses will be built on the basis of projects of the same type, but in each case adapted to local conditions.

Besides these measures, there are also some steps should be taken:

1. Historical monuments should be re-registered in areas cleared of mines, and their importance should be investigated.

2. Work should be planned and recovery conditions should be created through recovery teams.

3. Historical monuments should be promoted in a comparative way with their previous state (if they are in the archive), and their current state.

4. International experts should be invited to these processes and comprehensive activities should be carried out.

5. Gastronomic and music festivals, events should be held in order to promote these regions' cuisine and music, especially our national Mughams.

As a result, the plan of projects and measures implemented for the development of Karabakh will have a great impact on both the economic development of this region and the establishment of peace and cooperation relations in this area in the near future.

References

1. Gurbanov, R. "Armenian Terror: religious and historical monuments of Azerbaijan", Baku,2018 p 10-18.

2. Bilalov, B.Ə.: Gülalıyev.Ç.G.TURİZMİN ƏSASLARI, Baku, 2015, p 430-433

3. Eyvazova, Y. Tarix və mədəniyyət abidələrinin mühafizəsi, Bakı,2021, p 35-40

4. https://azerbaijantour.com/azerbaijan-museums

5. http://heritage.gov.az/az

6. https://iicbe.org/upload/8607DIR1216411.pdf

7. https://modern.az/az/news/76031/bir-daha-qarabag-muzeyleri-haqqında

8. https://news.az/az/news/20170705095527707-Medeni-turizm-Azerbaycanda-kreativ-iqtisadiyyatin-aparici-inkishafi-kimi-

9. https://wander-lush.org/cultural-trips-tourism-destinations/

10.https://www.advantour.com/azerbaijan/tourism/cultural-tourism.htm

11.https://www.stat.gov.az/

12. https://www.virtualkarabakh.az/az/new-item/16/98/kelbecer.html

13. https://www.virtualkarabakh.az/az/post-item/25/39/qarabag-abideleri.html

14. https://www.virtualkarabakh.az/az/post-item/27/100/lachin.html

Rəqsanə HACIYEVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
reqsanehaciyeva99@gmail.com

AZIX DAŞ DÖVRÜ ABİDƏSİNİN ARXEOLOGİYA ELMİNDƏ YERİ VƏ ROLU

МЕСТО И РОЛЬ АЗЫХСКОГО ПАМЯТНИКА КАМЕННОГО ВЕКА В АРХЕОЛОГИИ

THE PLACE AND ROLE OF AZIKH STONE AGE MONUMENT IN ARCHEOLOGY

Xülasə : Azıx mağarısı Arxeologiya elminin öyrənilməsində, arxeoloji materialların tədqiq olunmasında əsas rol oynayan arxeoloji abidədir. Abidənin tədqiqi nəticəsində Qədim daş dövrünün zəngin materialları üzə çıxarılmışdır. Abidədən tapılmış materiallar keçmiş tarixin öyrənilməsi baxımından unikaldır. Azıx özündə tarixin ən qədim izlərini saxlayır. Onun dünyada tanıdılması və tədqiqi tarix və mədəniyyət baxımından ən vacib məsələlərdən biridir.
Açar sözlər : Azıx mağarası, daş dövrü, arxeoloji abidə

Abstract: Azikh Cave is an archaeological monument that plays a key role in the study of archeology and the study of archaeological materials. As a result of the study of the monument, rich materials of the ancient stone age were discovered. The materials found in the monument are unique from the point of view of studying the history of the past. Azikh keeps ancient traces of history. Its introduction and study in the world is one of the most important issues from the point of view of history and culture.
Keywords: Azikh cave, stone age, archaeological monument

Абстракт: Азыхская пещера – археологический памятник, играющий ключевую роль в изучении археологии и изучении археологических материалов. В результате изучения памятника были обнаружены богатые материалы древнекаменного века. Найденные из памятника материалы уникальны с точки зрения изучения истории прошлого. Азых хранит древнейшие следы истории. Его внедрение и изучение в мире является одним из важнейших вопросов с точки зрения истории и культуры.
Ключевые слова: Азыхская пещера, каменный век, археологический памятник.

Tarix hər kəsin maraqlandığı nadir elmlərdəndir və bu və ya digər dərəcədə hamı, istər alim, istərsə də elmdən uzaq insanların maraq dairəsindədir , lakin onların hamısını bir şey birləşdirir - keçmişini bilmək istəyi. . Məqaləmizdə tarixin ən qədim dövründən, daha doğrusu, insanın formalaşması və inkişafı prosesinin yeni başladığı tarixdən əvvəlki Azərbaycandan bəhs edəcəyik. 1960-cı il elm tarixinə insanın və onun maddi mədəniyyətinin mənşəyi və təkamülü haqqında biliklərə töhfə verən il, tarixdən əvvəlki Azərbaycanda ən mühüm kəşf ili kimi daxil olmuşdur. Əslində, 1960-cı ildə Məmmədəliya Hüseynov tərəfindən Azıx mağarasında paleolit dövrünə aid abidənin tapılması Azərbaycanda paleolit dövrünün yeddi il bundan əvvəl başlanmış məqsədyönlü tədqiqinin məntiqi nəticəsi idi. 1918–1953-cü illərdə Azərbaycan Respublikası ərazisində aparılan arxeoloji kəşfiyyat və qazıntı işləri zamanı ölkə ərazisinin qədim keçmişinə aid yüzlərlə maddi mədəniyyət abidələri qeydə alınmışdır. Lakin həmin abidələr içərisində Daş dövrünə aid heç bir arxeoloji abidə qeydə alınmamışdır.Hətta 1881-ci ildə Tiflis şəhərində keçirilən V Arxeoloji Qurultayda Zaqafqaziya və o cümlədən Azərbaycan ərazisində ibtidai insan düşərgələri olmadığı haqqında qərar çıxarılmışdır [1. s. 28].

1950-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan SSR Elmlər Akademiyası Azərbaycan ərazisində Daş dövrü abidələrinin öyrənilməsi üçün xüsusi plan hazırlamışdır. Bu plana uyğun olaraq,

1953-cü ildə Daş dövrü üzrə görkəmli alim S.N.Zamyatnin SSRİ Elmlər Akademiyası Arxeologiya İnstitutu tərəfindən Bakıya dəvət olunmuşdur. 1953-cü ilin payızında Azərbaycan Elmlər Akademiyasında Paleolit dövrü üzrə ilk dəfə olaraq arxeoloji kəşfiyyat işlərinə başlanmışdır. S.Zamyatninlə birlikdə M.Hüseynov 1953-cü il noyabrın 1-dən 30-dək Azərbaycanın Şamaxı, Mərəzə və Qazax rayonları ərazisində arxeoloji kəşfiyyat işləri aparmışlar.1953-cü ilin payızında Damcılı düşərgəsində aparılan arxeoloji kəşfiyyat işləri zamanı tapılmış arxeoloji və paleontoloji tapıntılar burada Daş dövrü insanlarının məskunlaşmasını söyləməyə imkan vermişdir [1, s.20].

Azərbaycan Respublikası ərazisində Daş dövrü düşərgələrini müəyyən etmək məqsədilə 1956-cı ildə Elmlər Akademiyasının Tarix muzeyində M. M. Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası təşkil olundu. 1956–1958-ci illərdə Məmmədəli Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Qazax rayonu ərazisində olan Damcılı mağara düşərgəsində arxeoloji qazıntı işləri apardı.

1958-ci ilin yay fəslində M.M.Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Qazax rayonu ərazisində kəşfiyyat işləri aparmışdır. Aparılan arxeoloji kəşfiyyat işləri zamanı Daş dövrünə aid yeni bir düşərgə qeydə alınmışdır. Mağara düşərgəsi Qazax rayonunun Daşsalahlı kəndi yaxınlığında olduğu üçün ona Daşsalahlı mağarası adı verilmişdir. Aparılan arxeoloji qazıntılar zamanı Daşsalahlı mağara düşərgəsindən tapılmış daş məmulatının texniki və tipoloji xüsusiyyətlərinə əsasən onların orta Paleolit dövründə hazırlandıqlarını söyləmək olmuşdur [1, s.15]

1958-ci ilin iyul ayında SSRİ EA-nın Qafqaz arxeoloji ekspedisiyası qısamüddətli kəşfiyyat işləri zamanı rayonun Yuxarı Salahlı kəndi yaxınlığında Mustye mədəniyyətinə aid açıq düşərgə qeydə almış və oradan əmək alətləri tapmışdı.

1960-cı ilin iyun-iyul aylarında Məmmədəli Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Qarabağ ərazisində kəşfiyyat işləri aparmışdır. Kəşfiyyat işləri Qarabağın Quruçay və Köndələnçay vadilərində və ona yaxın ərazilərdə aparılmışdır.Aparılan arxeoloji kəşfiyyat işləri zamanı Quruçayın sol sahilində Azıx və Tağlar düşərgələri qeydə alınmışdır.

Azıx təkcə yataqlarında müxtəlif dövrlərə aid ən azı üç Paleolit sənayesinin izlərinin qorunub saxlanmasına görə deyil, həm də ərazinin hərtərəfli tədqiqi yeni axtarışlara və kəşflərə təkan verən fərziyyələrə əsas verdiyinə görə unikal əraziyə çevrilmişdir.

Abidənin unikallığı və elmi əhəmiyyəti nəzərə alınaraq Azərbaycan Nazirlər Sovetinin 21 aprel 1969-cu il tarixli 158 nömrəli qərarı ilə "Azıx mağara zonası >> Azərbaycan Elmlər Akademiyasının qoruğu elan edilmişdir. Ərazinin tədqiqinə arxeoloqlarla yanaşı, digər elmi sahələrin mütəxəssisləri, məsələn, geoloqlar, geomorfoloqlar, paleocoğrafiyaçılar, paleontoloqlar, antropoloqlar, palinoloqlar və s.cəlb olunub. Azıx mağarasında M.M.-nin rəhbərlik etdiyi arxeoloqlar qrupu tədqiqatlara başlayıb. Hüseynovun başçılıq etdiyi ekspedisiya 14,5 metr çöküntü qazıb, orada 10 lay aşkar edilib. Onlardan 10 metri I təbəqəyə düşür. Bu laylar 1960-cı ildən 1973-cü ilə kimi 13 il ərzində qazılmışdır. Onlardan ən maraqlısı mustye və Aşel mədəniyyətlərinə aid arxeoloji materialları ehtiva edən III, V və VI təbəqələrdir.Qalan 4,5 metrdə isə çınqıl mədəniyyətinin (Olduvay) qorunub saxlandığı dörd mədəni təbəqə VII, VIII, IX və X müəyyən edilmişdir. 1979-cu ildə aşağı təbəqələrdən olan Azıx materialları ilə "klassik" Olduvay arasında yerli fərqlərə əsaslanaraq M.M. Hüseynov yeni mədəniyyəti - Quruçay adlandırıb.

Yeni mədəniyyəti müəyyən etmək üçün meyarlardan biri M.M. Hüseynov Gigantolitlər » . Belə ki, Hüseynov ilk dəfə olaraq elmi dövriyyəyə "Quruçay mədəniyyəti" ifadəsini və "iki əlli chopper-giqantolit" terminini - Quruçayın mədəniyyət əmələ gətirən formasını daxil etmişdir. Onilliklər sonra iki əlli çopper-giantolitlər təkcə Azərbaycanda 2012-ci ildə Azıxdan 300 km şimalda aşkar edilmiş yeni Qaraca paleolit yerində deyil, həmçinin Azıxdan çox-çox kənarda da erkən paleolit dövrünə aid ərazilərdə aşkar edilmişdir. . Dağıstanın ilk paleolit yerlərində də çəkisi 4-4,5 kq olan iri alətlər tapılmışdır ki, bu da iki əlli çopper- giqantolitlər kimi tanınmağa başlamışdır . Azıx mədəni təbəqələrinin

yaşını müəyyən etmək üçün paleomaqnit tədqiqatları aparılıb, ilk dəfə mağara yataqlarına və çuxurlara tətbiq edilib.

Məlum olub ki, çöküntülərin əsas hissəsi (I-VI təbəqələr) müasir maqnit epoxasında - Brunhesdə formalaşıb, yerin maqnit sahəsinin sonuncu inversiyasının 780 min il əvvəl baş verdiyi məlum olub. illər öncə . Beləliklə, VI təbəqənin altında yatan VII-X aşağı təbəqələr əvvəlki maqnit epoxasında - Matuyamada əmələ gəlmişdir və buna görə də onların yaşı 780 min ildən yuxarıdır.

Müxtəlif hesablamalara görə, Azıxın ən qədim təbəqələrinin yaşı 1,2-2,5 milyon il arasında hesablanmışdır. Baxmayaraq ki, Afrikada o vaxta qədər paleolit dövrünə aid abidələr artıq aşkar edilmişdi və yaşı təxminən 2 milyon il idi. Azıxın aşağı təbəqələrindən tapılan tapıntıların insanın ən qədim daş alətləri kimi tanınmasına aparan yol asan olmadı. Bir sıra aparıcı sovet ekspertləri tərəfindən M.Hüseynovun iddialrnın tam təkzibindən tutmuş beynəlxalq səviyyədə tanınmayadək bu heç də asan olmadı. VII-X təbəqələrinin tapıntılarının beynəlxalq səviyyədə tanınması istiqamətində ilk addım 1978-ci ildə Tbilisidə "Təbii mühit və tarixdən əvvəlki cəmiyyətlər arasında qarşılıqlı əlaqənin dinamikası" mövzusunda Sovet-Fransa çöl seminarının işi zamanı atılmışdır. Bu mağara uzaqda olduğuna görə görüş iştirakçılarının marşrutuna daxil edilməyib, lakin Tbilisidəki bu abidəyə ayrıca görüş ayrılıb burada ilk dəfə beynəlxalq səviyyədə baxış bucağı M.M. Hüseynova. Xüsusilə, fransız arxeoloqları A. de Lumley və J. Kombier [15 s. 26] Azıx mağarası yataqlarının 1975-ci ildə başlanmış kompleks tədqiqatları ərazinin məskunlaşma dövrünün xronoloji çərçivəsini müəyyən etməyə imkan verir. Azxa yataqlarında mağara məskəninin üç epizoduna uyğun gələn müxtəlif dövrlərə aid üç paleolit mədəniyyəti qeydə alınmışdır.

Azıx paleolit düşərgəsi Qarabağın ən mənzərəli və səfalı guşəsində, Tuğ çökəkliyində, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 m, çayın müasir yatağından 100–120 m yüksəklikdə, Xocavənddə yerləşir.

Azıx qədim insan düşərgəsində aparılan arxeoloji tədqiqat işlərində ilk vaxtlar ancaq Azərbaycan alimləri iştirak edirdilər. Lakin sonralar çoxtəbəqəli paleolit düşərgəsində aşkar olunmuş maddi mədəniyyət qalıqlarının zənginliyi, burada kompleks şəkildə arxeoloji qazıntı işlərinin aparılmasını gərəkliyini ortaya çıxardı. Ona görə də Azıx paleolit düşərgəsində arxeoloqlarla yanaşı, paleontoloqlar, paleogeoloqlar, paleogeomorfoloqlar, paleoantropoloqlar və digər elm sahələrinin mütəxəssisləri tədqiqat işləri aparmağa başladılar.

Azıxda elmi tədqiqatlar aparan M.M.Hüseynov, D.V.Hacıyev, Ə.V.Məmmədov, N.Ş.Şirinov, Ə.Q.Cəfərov, A.A.Veliçko, S.D.Əliyev, M.B.Süleymanov və başqa alimlərin fəaliyyəti nəticəsində Paleolit dövrünün ayrı-ayrı inkişaf mərhələlərinə aid zəngin elmi materiallar aşkar edilmişdir.

1960–1973-cü illəri əhatə edən I mərhələdə aparılan arxeoloji qazıntı işləri zamanı Azıx paleolit düşərgəsinin çöküntülərində 6 mədəni təbəqə qeydə alınmışdır. Düşərgənin I və II təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı Orta əsrlər, tunc və eneolit dövrlərinə aid maddi mədəniyyət qalıqları tapılmışdır.

Azıx paleolit düşərgəsinin III təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı orta Paleolit dövrünə aid daş məmulatı və fauna qalıqları tapılmışdır. Azıx mağarasının IV təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı maddi mədəniyyət nümunələri qeydə alınmamışdır. Ona görə də bu təbəqə lal təbəqə adlanır. Azıx paleolit düşərgəsinin V–VI təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı qədim, orta və son Aşel mədəniyyətinə aid zəngin maddi mədəniyyət qalıqları tapılmışdır.

1968-ci ilin iyun ayında Məmmədəli Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Azıx düşərgəsinin V təbəqəsinin III layında daş məmulatı və heyvan sümükləri ilə bərabər qədim insana məxsus alt çənə aşkar etmişdir.

Azıx düşərgəsindən tapılmış qədim insana məxsus olan alt çənənin elmi tədqiqi ilə professor Dəmir Hacıyev məşğul olmuşdur. D.V.Hacıyevin apardığı elmi tədqiqatlar zamanı çənənin ibtidai insana məxsus olması müəyyən edilmiş və tapıntıya Azıxantrop tipli ibtidai insan adı verilmişdir.

Çoxtəbəqəli Azıx paleolit düşərgəsində 1974–1985-ci illərdə M.M.Hüseynovun rəhbərliyi altında kompleks şəkildə II mərhələdə arxeoloji qazıntı işləri aparılmışdır.

Düşərgədə II mərhələdə aparılan arxeoloji tədqiqat işlərinin əsas xüsusiyyəti ondan ibarətdir ki, burada tədqiqat işləri VI təbəqədən aşağıda yerləşən çöküntülərdə aparılmış və 4 yeni arxeoloji təbəqə qeydə alınmışdır.

1974–1975-ci illərdə Azıx düşərgəsində yeni müəyyən olunmuş VII-VIII-IX və X təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı mühüm elmi əhəmiyyətə malik maddi mədəniyyət nümunələri tapılmışdır.

Maddi mədəniyyət qalıqları arasında əsas yeri çaydaşılarından hazırlanmış kobud çapma alətləri tutur. Daş məmulatı ilə birlikdə daşlaşmış heyvan sümükləri də qeydə alınmışdır. Aparılan kompleks elmi tədqiqatlar zamanı Azıx paleolit düşərgəsinin VII–X təbəqəsindən tapılmış daş məmulatının dünya arxeologiyasında oxşarı olmadığı və bunların tamamilə yeni bir arxeoloji mədəniyyətə məxsus olması müəyyən edilmiş və bu mədəniyyətə Quruçay arxeoloji mədəniyyəti adı verilmişdir.

Azıx paleolit düşərgəsinin VII–X təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı 212 ədəd daş məmulatı tapılmışdır. Daş məmulatının texniki və tipoloji xüsusiyyətlərinin elmi tədqiqi zamanı Quruçay arxeoloji mədəniyyətinin bir neçə inkişaf mərhələsi olması müəyyən edilmişdir.

Azərbaycanın daş dövrü düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqlarının bəşər sivilizasiyasının tarixini tədqiq etmək üçün əvəzsiz arxeoloji mənbələr olduğunu əsas tutan Fransa, İtaliya, İspaniya, Rusiya, Azərbaycan və Gürcüstan alimləri 2001-ci ildə Beynəlxalq İNTAS-2000 adlı proqram hazırlamışlar. Proqram 2001-ci ilin iyul ayında Fransanın Totavel şəhərində keçirilən beynəlxalq elmi konfransda təsdiq olunmuşdur.

Həmin proqrama uyğun olaraq Ə.Q.Cəfərov Fransanın İnsan Paleoantologiya İnstitutu və Avropa Arxeoloji Tədqiqatlar Mərkəzində Azərbayanın paleolit düşərgələrinin maddi mədəniyyət qalıqları haqqında elmi məruzələrlə çıxış etmişdir. Məruzələrə Azıx, Tağlar və digər paleolit düşərgələrinin arxeoloji və paleoantoloji tapıntıları şərh edilmiş, azıxantropun çənə sümüyünün qalığının isə Qafqaz və Yaxın Şərqdə ən qədim paleoantropoloji tapıntı olduğunu bildirmişdir.

2002-ci ildə sentyabrın 7-dən oktyabrın 1-dək Beynəlxalq İNTAS-2000 proqramına uyğun olaraq Avropa ölkələrindən 22 görkəmli alim başda professor Henri dö Lümley (fr. Henry de Lumley)olmaqla Bakıya gəlib çoxtəbəqəli Azıx, Tağlar, Qazma və digər düşərgələrdən tapılmış maddi mədəniyyət qalıqları ilə tanış olmuş və bu tapıntıların dünya arxeologiya, paleontologiya və paleoantropologiya elmləri üçün müstəsna elmi əhəmiyyəti olduğunu yekdilliklə qeyd olunmuşdur. 2001-ci ildən etibarən Azıx mağarasında İngiltərə, İspaniya, İrlandiya və Ermənistandan olan beynəlxalq tədqiqatçılar qrupu İspaniyanın Madrid şəhərində yerləşən Təbiət Elmləri Milli Muzeyinin əməkdaşı Yolanda Fernandez-Jalvo və Ermənistan Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitutunun əməkdaşı Levon Yepiskopyanın başçılığı altında tədqiqat işlərinin aparılmasına başlanmışdır. Bu tədqiqat işləri tanınmamış "Dağlıq Qarabağ Respublikası"nın himayəsi altında aparılmışdır.

Tədqiqatlar zamanı 300 min il yaşı olan Avropada ən qədim mağara ayısının sümüyü, daş əmək alətləri və istehsal tullantıları aşkarlanmışdır.Qazıntılar ildə bir ay olmaqla doqquz il davam etmiş və əldə edilmiş bütün maddi mədəniyyət nümunələri tədqiq olunmaq üçün Londona aparılmışdır. Tədqiqatların nəticəsi olaraq 2010-cu ildə Azıx mağarası haqqında məqalələr toplusu nəşr edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun altı cildlik "Azərbaycan Arxeologiyası" nəşrinin I cildində qeyd edilir ki, "Azərbaycan alimlərinin Azıx paleolit düşərgəsində apardıqları uzunmüddətli arxeoloji qazıntılar nəticəsində oradakı mədəni təbəqələrin 80%-i tədqiq olunmuşdur. Ona görə də hazırda orada nəinki qazıntı, eyni zamanda kəşfiyyat işləri aparmaq bəşəriyyətə qarşı ən böyük cinayət kimi qiymətləndirilməlidir. Bəlkə 100 ildən sonra yeni elmi tədqiqat metodu meydana çıxa bilər, onda Azıx düşərgəsinin çöküntülərindən nümunə götürüb istifadə oluna bilər. Ona görə də hazırda orada qazıntı işləri aparmaq bəşər sivilizasiyasına qarşı ən böyük

təxribat hesab olunmalıdır. İkincisi isə, Azıxda aparılan arxeoloji qazıntılar zamanı tapılmış 100 minlərlə maddi mədəniyyət qalıqları Bakıda saxlanılır və istənilən alim onlarla tanış ola bilər.

1960-cı ildən başlayaraq 1987-ci ilədək çoxtəbəqəli Azıx paleolit düşərgəsinin cənub giriş yolunda və birinci salonunda aparılan arxeoloji qazıntılar zamanı Azıx mağarasının çöküntülərində zəngin stratiqrafiyanın olması müəyyən edilmişdir. Azıx mağarası Qarabağın Quruçay dərəsində, çaydan 3 km aralıda olub, Quruçayın müasir yatağından 200–250 m yüksəklikdə yerləşir. Mağara Azıx və Salakətin kəndləri arasında olub, dəniz səviyyəsindən 950 m yüksəklikdə yerləşir. Azıx mağarası özünün böyüklüyünə görə Qafqazda ən möhtəşəm karst mağarasıdır. Mağara 5 salondan ibarət olub, uzunluğu 230 m, kiçik çıxış yolları və karst quyusu ilə birlikdə uzunluğu 600 m-ə bərabərdir.

Azıx mağarasında arxeoloji qazıntı işləri düşərgənin hər iki giriş yolunda aparılmışdır. Düşərgənin şimal tərəfdən giriş yolunda aparılan arxeoloji qazıntılar zamanı maddi mədəniyyət qalıqları qeydə alınmamışdır. Mağaranın şimal hissəsində çöküntünün ümumi qalınlığı 0,5 m-dən 1,2 m-ə qədər olmuşdur.

Çoxtəbəqəli Azıx paleolit düşərgəsinin cənub giriş yolunda və birinci salonunda aparılmış kompleks arxeoloji qazıntılar zamanı burada çöküntünün ümumi qalınlığı 14 m-ə bərabər olması müəyyən edilmişdir. Azıx paleolit düşərgəsinin cənub giriş yolunun 8-ci kv.m-dən başlayaraq 27-ci kv.m-ə qədər çöküntünün qalınlığının 13–14 m-ə bərabər olması qeydə alınmışdır.Lakin 17-ci kv.m-dən başlayaraq mağaranın içərisinə doğru getdikcə düşərgədə olan çöküntülərin qalınlığı azalmağa başlayır. Bu fakt 1973–1976-cı illərdə Azıx paleolit düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı qeydə alınmışdır.

M.M.Hüseynovun rəhbərliyi altında aparılan kompleks tədqiqatlar zamanı Azıx paleolit düşərgəsinin cənub giriş yolunda və birinci salonunda arxeoloji, paleontoloji tapıntıların sayı yüz minlərlədir. Bu sahədə çöküntünün stratiqrafik mənzərəsi olduqca zəngindir. Çoxtəbəqəli Azıx paleolit düşərgəsində 1960–1986-cı illərdə aparılan arxeoloji qazıntılar zamanı 10 təbəqə qeydə alınaraq tədqiq olunmuşdur. Yaxın Şərq və Qafqaz ərazisində ən zəngin stratiqrafiyaya malik Azıx paleolit düşərgəsində qeydə alınmış arxeoloji təbəqələrin ümumi qalınlığı 14 m-ə bərabərdir.

Azərbaycan ərazisində ilk insan məskənlərinin olmasının başlıca sübutu olan Azıx mağarası zəngin tarixi mirasdır. Burada tapılmış müxtəlif növ maddi qalıqlar və ən əsası aşkar olunmuş qadına aid alt çənə sümüyü bu abidənin bəşər tarixində özünəməxsus yerinin olmasını təsdiq edir Mağara 1960-cı ildə Məmmədəli Hüseynovun rəhbərliyi ilə AMEA-nın "Paleolit Arxeoloji Ekspedisiyası" tərəfindən aşkar olunmuşdur. Mağaranın kompleks tədqiqində D. Hacıyev, Ə. Məmmədov, N. Şirinov, Ə. Cəfərov, S. Əliyev, V. Hacıyev və digər alimlər də iştirak etmişlər.

Qədim daş dövrünün xüsusiyyətlərini özündə əks etdirən mağara, yerləşdiyi ərazinin imkanları baxımından həm vəhşi heyvanlardan qorunmaq həm də qida ehtiyyatı əldə etmək üçün unikal bir strateji mövqedə olmuşdur. Mağarada aparılan kompleks tədqiqatlar nəticəsində ilkin olaraq Quruçay (X-VII təbəqələr), Orta Aşel (V təbəqə), Qədim Mustye (III təbəqə) mədəniyyətlərinə aid qiymətli maddi mədəniyyət qalıqları tapılmışdır [6, s.1]. Aparılan kompleks tədqiqatlar zamanı müəyyən edilmişdir ki ilk ibtidai insanlar əvvəl Quruçay dərəsində məskunlaşmış, bir qədər vaxt keçdikdən sonra təbii coğrafi şəraitlə əlaqədar olaraq Azıx mağarasına köçüb burada yaşamağa başlamışlar (1, səh 61). Quruçay mədəniyyətinin sakinləri ayrı-ayrı dəstələr halında yaşamış və öz iqtisadi tələbatlarını təmin etmək üçün ovçuluq və yığıcılıqla məşğul olmuşlar. Quruçay mədəniyyəti dövründə havalar isti və savanna iqlim şəraitində olmuşdur və bununla əlaqədar olaraq isti iqlim şəraitində ilk insanlar Azıx mağarasında yaşamaq daha əlverişli olduğu üçün Quruçay sahillərindən düşərgəyə köçmüşlər (1, səh 61). Köçərkən isə özləri ilə bərabər çay daşları və köçənə qədərki dövrdə hazırlamış olduqları daşdan əmək alətlərini də gətirmişlər.

Məlum olduğu kimi Azıx mağarası Mədəni İrsimizin başlıca abidələrindəndir. Amma təbii ki, onun daha professional qorunması, tədqiqi və dünyaya tanıtdırılması üçün bu bəs etmir. Bu zaman da qarşımızda önəmli bir məsələ dayanır: Azıx daş dövrü arxeoloji abidəsinin Dünya mədəni irs siyahısına

daxil edilməsi. Bəs Azıx mağarasını Dünya Mədəni irs siyahısına daxil edəcək hansı üstünlüklər var? Bütün bunlara nəzər salaq. İlk öncə biz Dünya Mədəni irsi nədir, onun tələbləri nədir və Dünyanının mədəni irsi sayılan abidələr hansı kriteriyalara cavab verməlidir bunu dəqiq bilməliyik. Dünya Mədəniyyət Mirasları siyahısının yaradılmasında məqsəd, bütün insanlara məxsus olan dəyərlərin qorunmasında beynəlxalq əməkdaşlığı həyata keçirmək, hər bir ölkənin mədəni irsinə hörmət bəslənilməsində yardımçı olmaqdır. Bu siyahıya Azıx mağarasının daxil olunması istiqamətindən yanaşsaq, mağara mədəni irs siyahısına daxil olunma kriteriyalarının ikisinə cavab vermiş olduğunu görə bilərik

1. Aid olduğu dövrdən başlayaraq mədəniyyətin inkişafına müəyyən təsir göstərməlidir.

2. Digər abidələrdən köklü şəkildə fərqlənən dünya mədəniyyəti üçün əvəzolunmaz tarixi və mədəni önəm daşıyan abidə olmalıdır [6, s. 1].

Azıx düşərgəsində azıxantropun qalıqlarının tapılması Azərbaycan və dünya arxeologiyasında ölkəmizi həmçinin Qarabağı dünyanın qədim insanın yarandığı və formalaşdığı ərazilərdən biri kimi öyrənməyə imkan verən dünya əhəmiyyətli bir tapıntıdır. Quruçay mədəniyyəti dünyada mövcud heç bir mədəniyyətin oxşarı deyildir. O özü yeni bir mədəniyyətdir. Eyni zamanda mağarada aşkarlanmış nəsli kəsilmiş heyvanlardan qalmış sümüklərin tədqiqatı görmədiyimiz, dövrümüzdə olmayan canlıların fiziki quruluşunu öyrənmək baxımından əhəmiyyətli materiallara zəngindir. Həmçinin əmək alətlərinin qalıqları aradan qalxmış olan iqtisadi-ictimai münasibətlərin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir.

Azıx mağarasının Dünya Mədəni İrsinə daxil edilərək Azərbaycanın mədəni nümunəsi kimi tanıdılmasının digər mühüm səbəbi isə təbii ki mənfur qonşularımız baxımından da vacib məsələdir. Məlum olduğu kimi Azıx mağarası 30 ilə yaxın düşmən tapdağı altında qalan abidələrimiz sırasındadır. Və bu dövrdə də abidədə araşdırmalar aparılmışdır. Bu araşdırmalarda əsas məqsəd isə abidənin saxtalaşadırılaraq özününkiləşdirmək idi. Ermənilər vaxt aşırı olaraq burada tədqiqatlar aparır, həmçinin xarici nümayəndə heyəti çağıraraq buranı öz abidəsi kimi tədqiqinə çalışırdı. Tapılmış maddi qalıqlar isə dünyaya erməni abidəsi kimi tanıdılırdı. 30 il sonra - 2020-ci il Vətən müharibəsində qalib olan tərəf olaraq qarşımızda duran ən vacib məsələlərdən biri də məhz işğal altındakı maddi mədəniyyət abidələrimizi qorumaq idi. Azıx mağarası isə bu abidələrdən demək olar ən önəmlisi idi. İşğaldan azad edildiyi ilk vaxt burada 90-a yaxın plastik qutular tapılmışdı ki, bu qutularda erməni və digər ölkələrin alimlərinin apardıqları qanunsuz arxeoloji qazıntılar nəticəsinsə aşkara çıxarılmış maddi mədəniyyət qalıqları var idi [4, s. 3]. Həmçinin bu qutuların birində qanunsuz ekspedisiyanın çöl-tədqiqat sənədləri də aşkara çıxarılmışdı.

Bütün bunlar da sübut edir ki Azıx bir düşərgə, qədim yaşayış məşkəni olaraq maraq dairəsindədir, o keçmişin bir çox izini özündə daşıyır və elm aləminə böyük töhvə verə bilər. Bu baxımdan Azıxın qorunması , tədqiqi, öyrənilməsi bizim üçün, bütün dünya üçün maraqlı olmalıdır. O ilk yaşayış məskənlərindən biri olaraq bizim mədəni irsimiz, Dünyanın mədəni irsi olaraq tanıdılmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Arxeologiyası - I cild -Daş dövrü, Bakı -2008
2. Azərbaycan qəzeti – 31 avqust 2017 ci il nəşri-Məhəmməd Nərimanoğlu-“Dörd min illik bir tarix Füzulidə məhv edilib”
3. Əsədulla Cəfərov - Quruçay dərəsində - Bakı, 1990
4. Xalq qəzeti-25 noyabr 2020 ci il nəşri- Nəcəf Müseyiblinin müsahibəsi “Azıx mağarasına aid tapıntılar Bakıya gətirilib”
5. Məmmədəli Hüseynov- Azıx mağarası, Bakı-1981

İnternet resursları:

6. https://www.azerbaijan-news.az/view-152380/azerbaycanin-medeni-irsi-dunyada-taninir
7. https://az.wikipedia.org/wiki/%C3%9Cmumd%C3%BCnya_%C4%B0rsi

Xəyal KƏRİMOV
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
İamxeyalkerim@gmail.com

BAKI XANLARININ SARAY KOMPLEKSİ ƏRAZİSİNDƏ 2017-Cİ İLDƏ APARILAN ARXEOLOJİ QAZINTILAR

ARCHAEOLOGİCAL EXCAVATİONS CONDUCTED İN 2017 İN THE PALACE COMPLEX OF BAKU KHANS

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ, ПРОВЕДЕННЫЕ В 2017 ГОДУ В ДВОРЦОВОМ КОМПЛЕКСЕ БАКИНСКИХ ХАНОВ

Xülasə: Qədim dövrlərin öyrənilməsində arxeoloji qazıntı işləri mühüm əhəmiyyət kəsb edir. Müstəqilliyin əldə olunmasından sonra Azərbaycanda bu sahəyə xüsusi diqqət ayrılır. Xüsusilə Bakı şəhərinin qədim tarixinin öyrənilməsində İçərişəhər vacib rol oynayır. 2017-ci ildə İçərişəhərin Bakı Xanlarının saray kompleksi ərazisində arxeoloji qazıntılar aparılmışdır. Aşkar olunan maddi mədəniyyət nümunələrinin tarixi əhəmiyyəti üzə çıxarılmışdır. Tapıntılar ərazinin qədim insanlarının məişət həyatından və məşğuliyyətindən xəbər verir. Qazıntılar zamanı aşkar olunan abidələr bərpa edilmişdir. Bərpa işləri abidənin tarixi əhəmiyyəti nəzər alınaraq ən müasir texnologiyalar vasitəsilə həyata keçirilib.

Açar sözlər: İçərişəhər, Arxeoloji qazıntılar, Bakı xan sarayı, Arxeoloji tapıntılar, Qəbir abidələri, Qazıntı sahəsi

Abstract: Archaeological excavations are of great importance in the study of ancient times. After gaining independence, special attention is paid to this field in Azerbaijan. Icherisheher plays an important role especially in the study of the ancient history of Baku city. In 2017, archaeological excavations were conducted in the area of the palace complex of the Baku Khans of the Old City. The historical significance of the discovered material culture samples has been revealed. The finds tell about the domestic life and occupation of the ancient people of the area. The monuments discovered during excavations have been restored. Restoration works were carried out using the most modern technologies, taking into account the historical importance of the monument.

Keywords: Icherisheher, Archaeological excavations, Baku Khan Palace, Archaeological findings, Grave monuments, Excavation site

Абстракт: Большое значение в изучении древних времен имеют археологические раскопки. После обретения независимости в Азербайджане этой сфере уделяется особое внимание. Ичеришехер играет важную роль, особенно в изучении древней истории города Баку. В 2017 году проведены археологические раскопки в районе дворцового комплекса бакинских ханов Старого города. Выявлено историческое значение обнаруженных образцов материальной культуры. Находки рассказывают о быте и занятиях древних жителей местности. Памятники, обнаруженные при раскопках, восстановлены. Реставрационные работы проводились с использованием самых современных технологий с учетом исторической значимости памятника.

Ключевые слова; Ичеришехер, Археологические раскопки, Дворец Бакинского хана, Археологические находки, Надгробные памятники, Раскопки

Azərbaycan tarixinin öyrənilməsində İçərişəhərin müstəsna əhəmiyyəti vardır. Qədim tarixə malik olan İçərişəhərdə ilk insanların məskunlaşması tunc dövrünə təsadüf edir. Ərazisinin dəniz sahilində yerləşməsi, zəngin balıq, duz, neft ehtiyatlarının olması insanların burada məskunlaşması üçün

başlıca səbəb olmuşdur. İçərişəhərin antik dövrdə şəhər kimi formalaşması məlumdur. Eramızın I əsrində artıq kiçik liman şəhəri kimi tanınırdı. Şirvanşahlar dövlətinin paytaxtının bakı şəhərinə köçürülməsindən sonra İçərişəhər öz yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. XIX əsrin sonları XX əsrin əvvəllərində Bakıda neft sənayesinin sürətli inkişafı nəticəsində buranın əhalisi kəskin atmışdır [3].

Bütün bu faktlar İçərişəhərdə aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələri vasitəsilə üzə çıxarılmışdır. Tapıntıların fərqli üslublarda olması, hazırlanma materiallarının fərqliliyi, onların formaları, tapılan qəbir abidələri və s. nüanslar İçərişəhərin zəngin tarixindən xəbər verir.

XX əsrin əvvəllərindən İçərişəhərdə arxeoloji qazıntılar aparılmağa başlanılmışdır. Əsrin ortalarında tarixi əhəmiyyəti nəzərə alınaraq bərpa işləri aparılmışdır. Ümumilli lider Heydər Əliyev İçərişəhəri Azərbaycan xalqının əvəzsiz maddi mədəniyyət nümunəsi adlandırmışdır. Onun sərəncamına əsasən 10 avqust 1977-ci ildə İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu yaradılmışdır [1, s.20].

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 10 fevral 2005-ci ildə "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaradılması haqqında" sərəncam imzaladı. 16 may 2007-ci ildə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu idarəsinin əsasnaməsi təsdiq edilmişdi. İdarənin yaradılmasının əsas məqsədi İçərişəhərin tarixi əhəmiyyətinin qorunub saxlanması yönündə əhəmiyyətli işlərin təşkilini, aparılmasını və işlərə nəzarəti həyata keçirən unikal bir sistemin yaradılması idi. Abidələr üzərində aparılan bərpa işləri Avropanın aparıcı bərpa şirkətləri tərfindən yerli bərpaçılarla birlikdə ən müasir texnologiyalar vasitəsilə həyata keçirilmişdir.

İlk dəfə 2015-ci ildə arxeoloji qazıntılar nəticəsində İçərişəhərin Böyük Qala adlanan hissəsində XVII əsrə aid edilən hamam kompleksi aşkar edilmişdir. Bu hamamın günbəzi keçmişdə ruslar tərəfindən sökülmüş və içi torpaq və bir çox məişət tullantıları ilə doldurulmuşdur. Daha sonra burada rus hərbi komendantlığı yerləşmişdir. Bu arxeoloji qazıntılar 2017-ci ildə Bakı xanlarının saray kompleksində aparılırdı. Aparılan tədqiqatların zəruriliyi nəzərə alınaraq yaxın ətraf ərazilərdə də qazıntı işləri gedirdi. Bakı xanlarının saray kompleksinin öyrənilməsi və tədqiqatı bakı şəhərinin tarixi araşdırılmasında mühüm əhəmiyyət kəsb edirdi. Bununla yanaşı, tapıntılardan Azərbaycanda(xüsusən Bakı şəhərində) XVIII əsrin II yarısında cərəyan edən siyasi proseslərin və hadisələrin öyrənilməsində əhəmiyyətli dərəcədə istifadə oluna bilərdi. Bakı xanlığı 1747-1806-cı illəri əhatə edən bir dövr ərzində mövcud olmuş və rus işğalına qədərki bir dövrdə bir sıra siyasi proseslərin tərkibində olmuş, digər ölkələrlə və xanlıqlarla siyasi-iqtisadi əlaqələri olmuşdur[2, s.92].

Bakı xanlarının fəaliyyətlərini mühüm bir hissəsi kimi şəhərin abadlaşdırılması, tikinti işlərinin aparılması, şəhərin mühafizə sisteminin təşkili və gücləndirilməsi olmuşdur. Tikinti işlərinin ən əsas nümunələrindən biri kimi Xan sarayı kompleksini göstərmək olar. Müxtəlif dövrlərdə bərpa və restavrasiya işləri aparılmış olsa da, öz memarlıq xüsusiyyətləri bu günə qədər qorunub saxlanmışdır. Lakin buna baxmayaraq, tikilinin müəyyən hissələri bu günə qədər gəlib çıxa bilməmişdir. Bunu ərazidə aparılan arxeoloji qazıntı işləri nəticəsində üzə çıxan tapıntılar təsdiq edir. Qazıntı işləri bir-birindən aralı yerləşən 3 fərqli sahədə aparılmışdır [3, s.1].

I qazıntı sahəsi. Bu qazıntı sahəsi saray kompleksinin əsas qapısından sağ tərəfdə, divar yaxınlığında yerləşir. Qazıntı sahəsinin ölçüləri şimaldan-cənuba – 340 sm, şərqdən-qərbə - 685 sm təşkil edir.

Arxeoloji qazıntı işlərinin birinci mərhələsində yerin üst səviyyəsindən aşağı doğru 30-40 sm dərinliyində münbit torpaq örtüyü müşahidə olunurdu. Bu dərinlikdən aşağıdakı torpaq qatında müxtəlif tapıntılar aşkarlandı. Bura, əsasən, müxtəlif ölçülərdə olan daş və dəmir parçalar, məişət tullantıları aiddir. Qazıntıların bir metr dərinliyində, mərkəz hissədə divar aşkara çıxarıldı. Bu divarın qalınlığı 58-60 sm idi. Qazıntıların davamında bu divara paralel çəkilmiş su xəttinin qalıqları müəyyən olundu. Bu qazıntı qatından tapılan məmulatların əksər hissəsinin ötən əsrin 70-80-ci illərinə aid məişət tullantılarına aid olduğu güman olunur və bu tullantılar bura ərazini doldurub hamarlamaq məqsədi ilə tökülüb. Bu qatda təmizləmə işləri aparıldıqdan sonra daşdan tikilmiş su xətti aşkarlanıb, üzə çıxarıldı. Xətt 2 metr

dərinlikdə aşkarlanmış divarın şərq qurtaracağında idi. Bu divarın eni 58-60 sm, uzunluğu isə 360 sm olmuşdur. Keçmişdə bu su xətti divara paralel çəkilib, lakin sonradan tikinti forması dəyişib. Bura gələn suyun mənbəyini dəqiq müəyyən etmək müəyyən olmayıb, lakin bu yerdə hələ də suyun sızmasını müşahidə etmək olur.

Qərbdən şərqə doğru tikilmiş divar xırda və orta ölçülü but daşlardan hörülmüşdü. Tikinti məhlulu kimi isə bu əraziyə məxsus olan torpaq hazırlanan qum tərkibli gildən istifadə edilib. Bu hissədə qazıntıların dərinliyi 238 sm qədər aparıldı. Lakin uzun divarın hündürlüyü 40 sm-ə qədər qazıla bildi. Bundan sonra qazıntı aparmaq təhlükəli olduğu üçün işlər dayandırıldı. Burada təhlükə yaradan vəziyyət ondan ibarət idi ki, daşlar məhlulsuz və çox qarışıq halda yığılmışdı. Bununla yanaşı, Böyük qala küçəsinin qərb tərəfdəki divarı da eynilə qalaqlanmış daşlardan tikilmiş və bünövrəsi boşluqlar üzərində qurulmuşdu. Bu səbəbdən dağılma təhlükəsi olduqca yüksək idi [3, s2].

II qazıntı sahəsi. Bu qazıntı sahəsi giriş qapısından 25 metr aralıda, şərq tərəfdə, kompleksin mərkəz hissəsində yerləşir. Qazıntı sahəsi 400 sm en, 500 sm uzunluğa malikdir. Bu sahədə üst təbəqə aslaft qatından ibarət olub. Bundan sonra torpaq təbəqəsi üzə çıxıb və torpaq qatının 40-50 sm qazılmasından sonra tikinti qalıqları müəyyən edilmişdir. Üst qatda aşkarlanan tapıntılar məişət tullantıları və xırda saxsı qırıntılardan ibarət olub, XIX-XX əsrlərə aid edilir. Bu qazıntı sahəsinin qərbində, yerdən 40-50 sm dərinlikdə daş divar müəyyən olundu. Qazıntıların 150 sm dərinliyində şərq tərəfdə dağılmış təndir və divarın aşağı səviyyəsində 3 ayrı təndir aşkar olundu. Qazıntıların 320 sm dərinliyində müəyyən edildi ki, aşkar olunmuş bu daş tikinti otağın cənub hissəsindəki divarıdır. Aşkar olunmuş təndirlər döşəmə qatın üzərində hər biri eyni səviyyədə qurulmuşdur. Bu döşəmə qatı yerdən 240-250 sm aşağıda yerləşmişdir. Əlavə olaraq otağın mərkəzi hissəsində ortası deşik olan daşdan dairə aşkar edildi. Daşın səthinin cilalanması və keyfiyyətli hazırlanması xüsusi maraq doğurur. Dulus dəzgahının ayaqaltı hissəsinə bənzərliyi olduğuna görə, ehtimal olunur ki, bu daş dulus dəzgahının bir hissəsi olub. Aşakr olunmuş bu daşla təndirlərin eyni sahədən tapılması burada duluzçuluq emalatxanasının olmasını söyləməyə əsas verir. Digər bir diqqət yetirilməli olan hal budur ki, təndirlərin ölçüləri eynilik təşkil edir. Bu təndirlərin hər birinin hündürlüyü 35-42 sm, diametri isə 80 sm olmuşdur. Duluzçu dəzgahına gəldikdə isə mərkəz dəliyinin diametri 10 sm, diametri 25 sm, alt daşının qalınlığı isə 6 sm təşkil edir. Həmçinin daşın forması simmetrik vəziyyətdə olmuş və üst səthi uzun müddət istifadə edildiyindən cilalanmışdır. [3, s3]

Arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılan materiallar saxsı qab və onların hissələrindən ibarətdir. Sadecə qazıntının qərb tərəfində yerləşən təndirdə miniatür lüləli saxsı küpəcik tapılmışdır. Digər materialların əksəriyyəti isə XIV-XIX əsrlərə aid saxsı hissələrdir. Tapıntıların tərkibində daha erkən dövrlərə aid olan hissələr bura boşluqları doldurmaq üçün gətirilmiş torpağın tərkibində gəlmişdir. Bütün bunları nəzərə alaraq, səthdən 230-250 sm dərinliyə qədər olan hissədə aşkarlanan mədəni təbəqənin XVII-XVIII əsrlərə aid olduğunu söyləmək olar. Qeyd etdiyimiz kimi qazıntılar 320 sm qədər aparılmış amma bu səviyyədən hər hansı bir mədəni təbəqə qalıqları aşkar olunmamışdır. Sadecə 1 ədəd kənarı riflənmiş saxsı hissəsi tapıldı. Bu isə onun uzun müddət suda yuvarlandığına işarə edir. Bildiyimiz kimi, qala divarları şərq tərəfdən dəniz sahilinə daha yaxın olub. Dənizdə suyun səviyyəsinin azalmasından sonra quru səthə çevrilən bu ərazidə Xan sarayı inşa edilib.

III qazıntı sahəsi. Bu qazıntı sahəsi kompleksin həyətində, giriş qapısından 30 metrə qədər uzaqlıqda və cənub istiqamətdə yerləşir. Arxeoloji qazıntı sahəsinin ölşüləri 5m x 5m qədərdir. Yerin üst qatından 40-50 sm dərinlikdə ilk daş tikinti qalıqları üzə çıxmışdır. Digər sahələrdə olduğu kimi üst qatda məişət tullantıları, şüşə və daşdan olan tapıntılar aşkarlanmışdır. Qazıntıların mərkəz hissəsində tikintisində but daşlarından istifadə olunmuş tikinti qalıqları aşkarlanmışdır. Bu tikili quruluş xüsusiyyətinə görə ikimərkəzli radiusa və aşağı doğru mailli gedən tağlı dam örtüyünə malik idi. Qazıntıların gedişində ərazi məişət tullantılarından təmizləndi və aşağı doğru enən pilləkən müşahidə olundu. Bu pilləkən çoxsaylı irihəcmli daşlardan qurulmuşdur. Aşkarlanan tikilinin daxilində və ətrafında xeyli sayda dəmir, şüşə, daş materiallardan olan qalıqlar aşkarlandı. Bu qazıntı sahəsinin bir vaxtlar tədqiqat obyekti olduğu güman olunur. Tikintidə pilləkənlə qarşı-qarşıya yerləşən bir ədəd qapı,

sağ tərəfdəki divarda bir ədəd taxça, həmçinin eni 98 sm olmaqla bir ədəd qapı, sol hissədəki divarda eni 89 sm olan bir ədəd keçid qapısı üzə çıxarıldı. ərazi daş, torpaq tökülərək hamar vəziyyətə gətirilmişdir və üzərində bağ sahəsi yaradılmışdır. Bu tikili daha əvvəl 1986-cı ildə öyrənilmişdir. Arxeoloji işlər Bakı arxeoloji ekspedisiyasının rəhbəri arxeoloq F.İbrahimov tərəfindən aparılmışdır. Hesabatlardan F.İbrahimov bu tikilini ovdan kimi qeyd etmişdir [3, s.4].

Ədəbiyyat

1. Heydər Əliyev və Mədəni İrs, Bakı-2014, 272 səh.
2. İbrahimov.K.F. İçərişəhər tarixdə-Tarix İçərişəhərdə, 372 səh.
3. İbrahimov.K.F. 2017-ci ildə Bakı xanlarının saray kompleksi ərazisində aparılan arxeoloji qazıntıların hesabatları, 7 səh.
4. İcherisheher.gov.az/Bakı Xanlarının Evi kompleksi.

İlahə SƏMƏDOVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
samadova.ilaha.2101@atmu.edu.az

BEYNƏLXALQ TURİZM ƏLAQƏLƏRİNİN QURULMASINDA MİLLİ DƏYƏRLƏRİN ƏHƏMİYYƏTİ (İSMAYILLI TURİZM ZONASI TİMSALINDA)

THE İMPORTANCE OF NATİONAL VALUES İN THE ESTABLİSHMENT OF İNTERNATİONAL TOURİSM RELATİONS (İN THE EXAMPLE OF ISMAİLLİ TOURİSM ZONE)

ЗНАЧЕНИЕ НАЦИОНАЛЬНЫХ ЦЕННОСТЕЙ В НАЛАЖИВАНИИ МЕЖДУНАРОДНЫХ ТУРИСТИЧЕСКИХ СВЯЗЕЙ (НА ПРИМЕРЕ ИСМАИЛЛИНСКОЙ ТУРИСТИЧЕСКОЙ ЗОНЫ)

Xülasə: Bir ölkənin xarici siyasəti digər dövlətlərlə münasibətlərdə onun milli maraqlarını qorumaq və təşviq etmək üçün formalaşdırılır. Bu münasibətlər ikitərəfli və çoxtərəfli olaraq özünü göstərir. Bu, ölkənin ənənəvi dəyərlərinin və ümumi milli siyasətlərinin, istəklərinin birbaşa əksidir. Beləliklə, xarici siyasətlər dedikdə adətən milli hökumətlərin istifadə etdiyi strategiyalar, metodlar, təlimatlar, müqavilələr başa düşülür. Beynəlxalq aləmdə öz fəaliyyətlərini həyata keçirirlər. Müasir dövrdə hər bir dövlət digər xalqlarla diplomatik, iqtisadi, ticarət, təhsil, mədəni və siyasi əlaqələr qurur və bu da bir-biri ilə, eləcə də beynəlxalq təşkilatlar və beynəlxalq münasibətlərin qeyri-hökumət subyektləri ilə əlaqələrini saxlamağa təkan verir. Məhz bu məqalədə də beynəlxalq münasibətlər zamanı milli dəyərlərdən və bu dəyərlərin turizmə təsiri haqqında bəhs edilmişdir.

Açar sözlər: beynəlxalq münasibətlər , milli dəyər , siyasət , turizm , Azərbaycan, İsmayıllı etnik.

Abstract: A country's foreign policy is formed to protect and promote its national interests in relations with other states. These relations are bilateral and multilateral. This is a direct reflection of the country's traditional values and general national policies and aspirations. Thus, foreign policies usually mean the strategies, methods, guidelines, and agreements used by national governments. They carry out their activities in the international world. In the modern era, each state establishes diplomatic, economic, trade, educational, cultural and political relations with other nations, and this encourages maintaining relations with each other, as well as with international organizations and non-governmental subjects of international relations. It is in this article that the national values and the impact of these values on tourism were discussed during international relations.

Keywords: international relations, national value, politics, tourism, Azerbaijan, Ismailli, ethnic.

Абстракт: Внешняя политика страны формируется для защиты и продвижения своих национальных интересов в отношениях с другими государствами. Эти отношения бывают двусторонними и многосторонними. Это прямое отражение традиционных ценностей страны и общенациональной политики и устремлений. Таким образом, внешняя политика обычно означает стратегии, методы, руководящие принципы и соглашения, используемые национальными правительствами. Они осуществляют свою деятельность в международном мире. В современную эпоху каждое государство устанавливает дипломатические, экономические, торговые, образовательные, культурные и политические отношения с другими народами, что способствует

поддержанию отношений друг с другом, а также с международными организациями и негосударственными субъектами международных отношений. Именно в этой статье обсуждались национальные ценности и влияние этих ценностей на туризм в ходе международных отношений.

Ключевые слова: международные отношения, национальная ценность, политика, туризм, Азербайджан, исмаилитский этнос.

Giriş

Beynəlxalq aləmdə hər bir millət həmişə bir-birindən asılı olaraq yaşamışlar. Hər bir xalq ən yüksək inkişaf səviyyəsinə çatdıqdan sonra da öz maraqlarını həyata keçirmək üçün başqa millətlərdən müəyyən asılılıq yaratmalıdır. Heç bir xalq təcrid olunmuş vəziyyətdə qala bilməz. Beləliklə, xarici siyasətin qurulması müasir dövlətin zəruri fəaliyyətidir. Bu, şəraitdən irəli gəlir; Leninin qeyd etdiyi kimi, dövlət təcrid olunmuş bir ada deyil, iştirakdan qaçınılmaz olan dövlətlər cəmiyyətinin üzvüdür. Beləliklə, müasir dövrdə hər bir dövlət diplomatik, iqtisadi, ticarət, təhsil, mədəni və digər xalqlarla siyasi əlaqələri olan və bir-biri ilə, eləcə də beynəlxalq təşkilatlar və beynəlxalq münasibətlərin qeyri-hökumət subyektləri ilə əlaqələrini saxlamağa məcbur edir**.** Beləliklə, beynəlxalq Münasibətlər özəl, dövlət, hökumət, qeyri-hökumət və hökumətlərarası bu qarşılıqlı fəaliyyətlərə nəzarət edən dövlət və qurumların sərhədləri boyunca baş verən davranışları izah etməyə çalışır. Hoffmann müəyyən etmişdir ki, "İntizam beynəlxalq Münasibətlər xarici siyasətlərə və dünyanın bölündüyü əsas vahidlərin gücünə təsir edən amillər və fəaliyyətlərlə əlaqədardır"[1, səh.3].

Beynəlxalq arenada hər birinə məna və istiqamət verdiyinə görə ölkə xarici siyasətini formalaşdırır. Xarici siyasətin əsas məqsədi öz mənafeyinə nail olmaq və milli ideologiyanı qorumaqdır. Xarici Siyasət Prinsipləri:

Hər bir xalq öz xarici siyasətinin müəyyən məqsədlərini qoyur və buna görə də öz məqsədlərini həyata keçirmək üçün müəyyən aşağıdakı prinsipləri qəbul etmişdir[1,səh.4].

- ➢ Başqa ölkələrlə ərazi bütövlüyünün qorunması və siyasi müstəqilliyinin təmin edilməsi;
- ➢ Sosial-iqtisadi inkişafın sürətləndirilməsi və dünyada yerini möhkəmləndirilməsi.
- ➢ Milli dövlət öz fərdi gücünü artırmalıdır ki, xarici siyasətinin məqsədlərini təmin edə bilsin.
- ➢ Dövlətlərin xarici siyasətinin məqsədləri Beynəlxalq arenanın şərtlərindən ibarət olmalıdır ki, digər dövlətlərin tətbiq etdiyi gücün pozucu təsirləri dövlətə zərər verməsin.

Əsas hissə

Hər bir xalqın beynəlxalq mühitdə davranışı həmişə onun xarici siyasəti ilə şərtlənir. Xarici siyasətini formalaşdıran siyasətçilər daxili və xarici mühiti, onun milli dəyərlərini, digər xalqların xarici siyasət məqsəd və qərarlarını, xarici siyasətini və xarakterini nəzərə alırlar , o cümlədən beynəlxalq güc strukturunu da. Beynəlxalq münasibətlər zamanı ölkələrin milli dəyərləri də nəzərə alınmalıdır. Məhz milli dəyərlər bir ölkənin dünəndən bu günə olan tarixini beynəlxalq arenada sərgiləyir.

İlk olaraq məqalədə ölkəmizin beynəlxalq arenada , beynəlxalq münasibətlər zamanı milli dəyərlərindən bəhs edək. Hər bir millətin mənsub olduğu tarixi-ənənəvi keyfiyyətlərin, sahib olduğu əvəzolunmaz xüsusiyyət və varlıqların məcmusu olan milli-mənəvi dəyərlər millətin mənəviyyatını birbaşa təcəssüm etdirir və onun milli kimliyi kimi çıxış edir. Milli-mənəvi dəyərlər hər bir milləti tanıtmaq üçün kifayət qədər yetərli dəlillərdir. Bu baxımdan adət-ənənələr, xalq yaradıcılığı, ədəbiyyat, dil, din və s. mənəvi dəyərlər məcmusuna daxildir. Ulu öndərimiz Heydər Əliyev deyirdi: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalq yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Xalqımız malik olduğu min illərlə ölçülən tarixə müqabil zəngin, çoxcəhətli maddi və mənəvi dəyərlərə də sahibdir. Bu dəyərlərin başında dəyərlər dəyəri ana dili gəlir. Çünki adi qaydada düşünmək lazımdır: dilsiz cəmiyyət və insanlıq olmadığı kimi, ana dili olmadan millət də yoxdur. Əgər özümlülük, millilik söhbət mövzusudursa, ana dili olmadan bunlara malik olmaq olmaz. Millət vətənsiz ola bilər, dövlətsiz ola bilər, hətta dövləti olmadığı üçün digər zəruri dəyərlərə sahib olmaya bilər, amma ana dili olmadan var olmaq olmaz. Ana dili yoxdursa, o millət də yoxdur. Ancaq bunlar bir yana, bizim xöşbəxtliyimizi təmin edən, min illərlə xalqımıza yoldaşlıq edən, onu mövcudlaşdıran ana dilimiz şirindən şirin, axıcı, ötkün, bütün fikirləri ifadə etməyə hər cür qüdrətli, yad dillərə qarşı mübariz, dəmir qanunlarla möhkəmlənmiş və mühafizəli, yad dillərə uyuşmaz, əyilməz, qarışmazdır.

Artıq Azərbaycan milli-mənəvi dəyərləri ilə beynəlxalq aləmdə sivil bir ölkə kimi tanınır, müstəqil dövlətimizin dünyaya hərtərəfli inteqrasiyası gündən-günə sürətlənir. Bu prosesdə Azərbaycanın mənəvi dəyərlərinin qorunması və təbliği önəmli bir fəaliyyət olaraq aktuallığını artırır. Ümummilli liderin zəngin dövlətçilik ənənələrinin davamçısı olan Heydər Əliyev Fondu genişmiqyaslı fəaliyyəti ilə məhz bu prosesin ağırlığını öz üzərinə götürərək, xalqımızın yüksək mədəni dəyərlərinin, dövlətimizin humanizm prinsiplərinin beynəlxalq aləmə təqdimində fəal və önəmli rol oynayır. Bu istiqamətdə Azərbaycan-UNESCO(United Nations Educational, Scientific and Cultural Organization– Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu) münasibətlərinin inkişafında və onun genişlənməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın xidmətləri misilsizdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 1995-ci ildə yaradılan Azərbaycan Mədəniyyətinin Dostları Fondunun əsas məqsədi milli incəsənətimizin inkişafı, təbliği, xarici ölkələrdə daha geniş tanıdılması, Azərbaycan xalqının dünya mədəniyyətinə inteqrasiyası və yeni beynəlxalq əlaqələrin formalaşması məsələlərinin həyata keçirilməsindən ibarət olmuşdur. Fondun fəaliyyəti əsas 3 istiqaməti əhatə etmişdir: mədəni tədbirlər, xeyriyyə aksiyaları və naşirlik. Fond fəaliyyətinin ilk günlərindən festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil etməklə, ölkəmizin mədəni irsinin təbliğinin, milli və regional səviyyələrdə mühafizəsinin təmin olunması sahəsində böyük xidmətlər göstərmişdir.

Heydər Əliyev Fondu mədəniyyətlər arasında əməkdaşlıq və dialoq platformasının qurulmasında fəal iştirakı ilə dünya mədəniyyətində, eləcə də qlobal bəşəri dəyərlər sistemində, sülh və tolerantlıq prosesində də silinməz izlər qoymuşdur. Fondun təşəbbüsü ilə Luvr Muzeyində İslam incəsənəti bölməsi yaradılmış, Versal Sarayının parkında, Luvr Muzey Kompleksində, Berlin şəhər sarayında və digər Avropa şəhərlərində qədim tarixi binalar bərpa edilmişdir. Fond Vatikanda qədim əlyazmaların, eyni zamanda, Zevsin heykəlinin bərpası, o cümlədən "Sistina" zalında yenidənqurma işlərinin aparılması, Roma katakombalarının bərpası, eləcə də Romada Kapitoli Muzeyinin "Filosoflar zalı"nın təmiri layihələrini də uğurla həyata keçirib[2]. Qeyd etdiyimiz bu tədbirlər Azərbaycan xalqının bəşəri mədəni dəyərlərinə marağını, Azərbaycan dövlətinin sülhməramlı siyasətini, Heydər Əliyev Fondunun xoş məramını, bəşəri niyyətə yönəlik fəaliyyətini bütün dünyaya nümayiş etdirmişdir. Ölkəmizin məhs bu milli dəyərlərini benəlxalq arenda nümayiş etdirməsi ən əsası turizm sektorunun inkişafına təkan verir , həmin ölkələrdən ölkəmizə turist axını başlayır. Bu zaman artıq ölkəmizdə turizmin növləri genişlənərək prioritet istiqamət kimi inkişaf edir. Milli dəyərlərimizi dünyaya sərgilədiyimiz zaman gələn xarici turistlər də Azərbaycanın etnik mədəniyyətinə maraq salır və ölkəmizin Lahıc , Basqal , Xınalıq və digər kənd və qəsəbələri kimi etnik qruplardan və mədəniyyətlərdən ibarət olan turizm zonalarımıza üz tuturlar.

2013-cü ildə Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə dünya şöhrətli fotoqraf Reza Deqatinin ölkəmizdə dini tolerantlığı əks etdirən "Azərbaycan-tolerantlıq

məkanı" adlı foto-sərgisi bu baxımdan təsirli əks-səda doğurmuşdur. Belə tədbirlər xarici aləmə nümayiş etdirmişdir ki, Azərbaycan dünyanın ən tolerant ölkəsi kimi heç bir dini konfessiyaya fərq qoymadan yalnız bəşəri mədəniyyətə, sivil dəyərlərə qiymət verir[4].

Mədəni irsin qorunmasının Azərbaycan hökuməti üçün prioritet istiqamət olduğunu bildirən Mehriban xanım Əliyeva muğam, aşıq musiqisi, tar ifaçılığı, Novruz bayramının UNESCO-nun Qeyri-Maddi İrs Siyahısına daxil edildiyini xatırlatmış, Qız qalası, İçərişəhər, Şirvanşahlar sarayı və Qobustan Dövlət Tarix və Bədii Qoruğunun da UNESCO-nun Dünya İrs Siyahısına salındığını diqqətə çatdırmışdır. Azərbaycanın həm də UNESCO ilə mədəniyyətlərarası dialoq sahəsində əməkdaşlıq etdiyini bildirən birinci xanım qeyd etmişdir ki, bu gün beynəlxalq ictimaiyyət ölkəmizi yüksək dini və etnik dözümlülük sahibi, dialoqun mərkəzi kimi tanıyır. Əsrlər boyu müxtəlif dinlərin və etnik qrupların nümayəndələri Azərbaycanda sülh, harmoniya şəraitində yaşamışlar.

İsmayıllı rayonunun araşdırdığımız qədəri ilə etnik tərkibi də müxtəlifdir. Amma yerli əhalinin əksəriyyəti azərbaycanlıdır. Rayonun əhalisinin statistik məlumatlarını analiz edərək əldə etmişik ki, əhali tat , rus , ləzgi , qədim alban əsilli olan hapıtlar və çoxluq təşkil edən azərbaycanlılardan ibarətdir. Dildən-dilə yayılan hekayələrə görə hapıt dili deyə bir yerli dil mövcud idi ki , bu dildən hələ də İsmayıllı və Qubanın bir sıra yerlərində istifadə edərək yaşadırlar. Hapıt dili türk dilinə yaxın dildir , və bu qəbilədən olanlar xarakter və psixologiya cəhətdən də türklərə bənzəyirlər. Hapıtlar özlərini 7-ci əsrə qədər her adlandırırdılar. Ehtimallara görə isə bu xalq Azərbaycan və Gürcüstan sərhədində mövcud olmuş Hereti dövlətində yaşamışdır. Bu etnos qrup isə artıq 2 əsrdir ki , İsmayıllı rayonunda yaşayıb , öz adət-ənənələri ilə yanaşı , Azərbaycan mədəniyyətinin inkişafında da töhfələri vardır.

İsmayıllı rayonunda kəmiyyətcə üstün olan xalqlardan tatları qeyd etmək olar. Yerli əhalidən sorğu apardığımız zaman əldə etdiyimiz məlumatlara əsasən , tatlar əsasən dağlıq ərazidə yaşayırlar , buna misal olaraq Lahıc qəsəbəsini , Zərnava , Müdrü , Zarat və s. kəndləri demək olar. Tatların yaşadığı kəndlər sayı isə 20-yaxın bir saydır[6].

Ləzgilər isə rayonun İstisu , Qalacıq , Sumağallı kəndində məskunlaşmışlar. Qalacıq, İstisu, Sumağallı, Qurbanəfəndi, Vəng kəndlərində ləzgilərin folklor nümunələri qorunur. Ləzgilər də İsmayıllı rayonunda kəmiyyətcə ikinci mövqedə dayanır. Bu etnik amillər turizmin növlərindən sayılan etnik turizmin inkişafına təkan verir , o cümlədən bu turizm növü turistlərin fərqli azlıq qrupları ilə qarşılıqlı əlaqə vasitəsilə ekzotik mədəni təcrübə axtarışı və bu qrupların iqtisadi imkanlar yaratmaq üçün öz mədəniyyətlərinin aspektlərindən istifadə etmək istəyi ilə motivasiya olunur. Bu turizm növü turistlərə rayonun unikal mədəniyyətlərin , mənzərələrin və həyat tərzlərinin aspektləri ilə tanış olmaq şansı verir. O, dünyanın bir çox ölkələrində iqtisadi inkişaf və mədəni qorunma strategiyası kimi geniş şəkildə qəbul edilmiş və təbliğ edilmişdir, xüsusən belə bir çox azlıq qrupları əhalinin əksəriyyəti ilə müqayisədə nisbətən əlverişsiz vəziyyətdədir və onların mədəniyyəti onların ən güclü sərvətlərindən biri hesab edilə bilər.

Yuxarıda qeyd etdiyimiz məlumatlara əsasən , görərik ki , İsmayıllı ölkəmizin etnik müxtəliflik cəhətdən daha fərqli millətlərə malik olan rayonumuzdur. İsmayıllı rayonunun turizm potensialı qiymətləndirdiyimiz zaman rayonun əsas turizm guşələri hesab edilən Lahıc , Basqal qəsəbələrindən , Talıstan , İvanovka kimi kəndlərini vurğulamasaq olmaz. Bu yerlərin tarixi , yerli sakinləri , görkəmli şəxsləri , mədəniyyəti və digər bir sıra turizmə təsir edən amilləri məhz Azərbaycanı beynəlxalq arenada etnik xalqların milli dəyərlərinə verilən önəmi sərgiləyir. 2015-ci il tarixində Lahıcın misgərlik sənəti məhz dünyaca əhəmiyyətli olan təşkilat UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə siyahıya daxil edilmişdir [5].Lahıc sözün əsl mənasında Azərbaycanın misgərlik sənətinin krallığıdır. Lahıcda sənətkarlar tərəfindən hazırlanan əl işləri təkcə gələn turistlərin , ya da yerli əhalinin marağına səbəb olmur , o cümlədən bu dəyərli əl sənətləri Luvr muzeyində də nümayiş etdirilir. Berlində də ölkəmizin

bu gözəl guşəsinin sənətkarlarına aid olan qılınc , tüfəng və xənclər sərgi olunur. Lahıc misgərlik sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi ölkəmizin adət-ənənələrinin dünyaya tanıdılması , qorunması və ən əsası qəsəbənin sosial-iqtisadi inkişafına təkan vermişdir. Lahıcın misgərlik sənəti Orta Asiyada , Dağıstanda , Türkiyədə , Gürcüstanda və digər ölkələrdə yayılaraq bu ölkələrdən kolleksiya toplayan turistlərin axınına səbəb olmuşdur. Məhz bu turizm növü də dünyada artıq inkişaf etmişdir , hansı ki , bu turizm növü sərgi turizmi adlanır. Yerli əhalinin mədəniyyətini də , sənətkarlıq məhsullarını da Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğu həm ölkə səviyyəsində , həm də beynəlxalq səviyyədə sərgiləyir.

Araşdırdığım məlumatlara əsasən, təkcə bu il , xüsusilə də yay aylarında Lahıcı 78 mindən çox turist ziyarət edib. Və sənətkarlarla apardığımız sorğu nəticəsində bizə məlum oldu ki , misgərlik sənəti , xalçaçılıq , dəri üzərində işləmələr turistlər , ən çox da xarici turistlər üçün böyük marağa səbəb olur və bunları həvəslə alırlar. Lahıc Turizm İnformasiya Mərkəzindən aldığımız məlumatlar əsasında turistlərin mehmanxanalardan daha çox kənd evlərinə üstünlük verdiklərini bildik[5].

Etnoqraf alim Arif Mustafayevin qeyd etdiklərinə görə , Azərbaycanın əsas ipək toxuculuğu və kəlağayı mərkəzləri XIX əsrdə Şamaxı və onun ətraf kəndləri olmuşdur ki , bu kəndlərə də məhz Basqal və Mücü kəndləri aiddir. UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilən kəlağayımız da məhz bizim ölkəmizin milli-mədəni irsinin nümunəsi olaraq dünyaya təqdim edilmişdir. Yüzlərlə turistlər istər yerli, istərsə də xarici turistlər kəlağayının hazırlanma prosesini izləmək , hətta bu prosesdə iştirak üçün , xüsusi dövrlərə xas və hər birinin öz tarixi olan naxışları kəlağayı üzərinə işlənilməsi üçün səfər edirlər.

Nəticə

Yekun olaraq demək istərdim ki, hər hansı bir ərazinin və ya regionun turizm potensialını qiymətləndirərkən ilk olaraq təbii resurslar və amillərlə yanaşı həmin regionun milli dəyərlərinə , mədəniyyətinə də nəzər salınmalıdır. Təkcə belə milli dəyərlərə sahib olmaq kifayət deyil , həm də bu dəyərləri qorumaq, yaşatmaq və gələcək nəsillərə ötürmək xüsusilə əsasdır və vacibdir. Yeni nəsillər xalqımızın malik olduğu milli dəyərləri mənimsəmək üçün vətəndaşlıq vəzifəsini hiss etməli və konstitusiyamızda da yer alan vətəndaş vəzifələrinə əməl etməlidirlər. Bu hissi aşılamaq üçün də həm ölkə daxilində , həm də ölkə xaricində vətəndaşlarımızı maarifləndirməli , bu istiqamətdə islahatlar keçirməliyik.

Araşdırmanın nəticəsi və təklifi olaraq bunu da qeyd etmək olar ki, İsmayıllı bölgəsinə gələn yerli və xarici qonaqlar üçün turist təlimatlarının mövcudluğu ilə bağlı boşluğu doldurmaq lazımdır. Yuxarıda qeyd etdiyim bütün növ təbii resurslar və turizm ehtiyatları ilə bağlı müxtəlif maraqlı hədəflərə əsasən, yerli və milli televiziya, radio, qəzet və ictimai media də daxil olmaqla, müxtəlif kanallar vasitəsilə marketinq və təşviqat məqsədilə təlimatlar, broşuralar, xəritələr, videolar və sənədli filmlər kimi bir sıra turistik materialların həyata keçirilməsini təklif edərək daxili və xarici turistlər üçün bu füsünkar və Azərbaycanın əsrarəngiz regionlarından olan İsmayıllını daha da cəlbedici və turistlərin maraq dairəsi etmək mümkündür. Qeyd etdiyim təşviqat və təbliğat region və ya yerli səviyyədə deyil, ölkə səviyyəsində aparılmalı, İsmayıllı haqqında beynəlxalq ziyarətçilərə yönəldilmiş məlumatları artırılmalı və İsmayıllı haqqında tanıtım materiallarının Azərbaycanın bütün turizm informasiya ofislərində mövcud olmasını təmin etmək lazımdır. Bu təbliğat nəticəsində ölkəmizin nəinki İsmayıllı rayonu , digər rayon və şəhərlərimizin milli dəyərləri də beynəlxalq aləmdə tanınaraq , xarici turistlərin ölkəmizə səfər etmələrində maraq doğuracaq.

Son təklif olaraq bunu da qeyd edim ki , İsmayıllının Qalacıq kəndində milli dəyərlərimizi aşılayan "Ögey ana" filminin (1958) əsas hissələri çəkilmişdir. Məhz bu turizm zonasında turistləri kino turizminə cəlb edərək , filmin çəkildiyi ərazilərdə turistləri gəzdirərək daha da maarifləndirici

müzakirələr edilə bilər. Bu zaman gələn turistlər də rayon haqqında daha çox məlumatlara malik olacaq və daha xoş təəssüratlarla ayrılacaqdır.

Ədəbiyyat

1. The theoretical significance of foreign policy in international relations- an analyses-2020
2. Https://kaspi.az/az/milli-deyerlerimiz-milli-kimliyimizdir
3. https://xalqqazeti.com/az/news/39820
4. https://www.unesco.az/az/articles/intangible_cultural_heritage/copper-craftsmanship-lahij.
5. https://azertag.az/xeber/Lahica_78_minden_chox_turist_sefer_edib-2260103
6. http://ismayilli-ih.gov.az/az/page/10.html

Nərmin ABDULLAZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
abdullazada.narmin.2101@atmu.edu.az

AZƏRBAYCANIN BEYNƏLXALQ TURİZM ƏLAQƏLƏRİNİN QURULMASININ SOSİAL ƏHƏMİYYƏTİ

THE SOCİAL İMPORTANCE OF ESTABLİSHİNG AZERBAİJAN'S İNTERNATİONAL TOURİSM RELATİONS

СОЦИАЛЬНАЯ ЗНАЧИМОСТЬ УСТАНОВЛЕНИЯ МЕЖДУНАРОДНЫХ ТУРИСТИЧЕСКИХ СВЯЗЕЙ АЗЕРБАЙДЖАНА

Xülasə: Bu məqalədə turizm əlaqələrinin yaxşılaşdırılması ilə Azərbaycanın əldə edə biləcəyi çoxsaylı faydalar müzakirə edilir və ən əsası Azərbaycanın beynəlxalq turizm əlaqələrinin qurulmasının vacibliyi vurğulanır. Məqalədə, həmçinin , turizmin sosial mühitə və həyata təsirlərinin iqtisadiyyata təsiri qədər əhəmiyyət təşkil etdiyi və bu sahədə araşdırmalara ehtiyac olduğu, Azərbaycanın beynəlxalq yarmarkalarda, sərgilərdə iştirakının vacibliyi izah edilir və beynəlxalq turizm yarmarkalarından dünyanın hər yerindən turistləri cəlb etmək üçün bir vasitə kimi necə istifadə oluna biləcəyi müzakirə edilir. Azərbaycan lap əvvəldən istirahət və sağlamlıq üçün turizm məkanı olub. Gözəl təbiətin bolluğu və əhalisinin qonaqpərvərliyi onu Avropanın ən mühüm turizm yerlərindən birinə çevirir. Azərbaycanın yerinə yetirməli olduğu ən mühüm vəzifələrdən biri turizm məkanı kimi reputasiyasını artırmaqdır.Sonda Azərbaycanın beynəlxalq turizm əlaqələrinin qurulmasının əhəmiyyətindən və bu əlaqələrin qurulması üçün atılacaq addımlardan danışılır.

Açar sözlər: Azərbaycan, turist, beynəlxalq əlaqələr, sosial, turizm.

Abstract: This article discusses the numerous benefits that Azerbaijan can achieve by improving tourism relations and, most importantly, emphasizes the importance of establishing Azerbaijan's international tourism relations. The article also notes that the effects of tourism on the social environment and life are as significant as the effects on the economy and that there is a need for research in this area. Azerbaijan has been a tourist destination for recreation and health since the beginning. The abundance of beautiful nature and the hospitality of its people make it one of the most important tourist destinations in Europe. One of the essential tasks that Azerbaijan has to fulfill is to increase its reputation as a tourist destination. Finally, the importance of establishing Azerbaijan's international tourism relations and the steps to establish these relations are discussed.

Keywords: Azerbaijan, tourist, international relations, social, tourism.

Абстракт: В этой статье рассматриваются многочисленные преимущества, которые Азербайджан может получить за счет улучшения туристических отношений, и, что наиболее важно, подчеркивается важность установления международных туристических отношений Азербайджана. В статье также отмечается, что влияние туризма на социальную среду и жизнь столь же важно, как и влияние на экономику, и что в этой области необходимы исследования. Азербайджан изначалъно был туристическим направлением для отдыха и оздоровления. Обилие красивой природы и гостеприимство местных жителей делают его одним из самых важных туристических направлений в Европе.Одной из важнейших задач, которую предстоит выполнить Азербайджану, является повышение его репутации как туристического направления.В завершение обсуждается важность установления международных туристических связей Азербайджана и шаги, которые необходимо предпринять для налаживания этих отношений.

Ключевые слова: Азербайджан, турист, международные отношения, социальный, туризм.

Giriş

Beynəlxalq turizm beynəlxalq xidmət ticarətinin əsas və mühüm sahələrindən biri sayılır. Eyni zamanda beynəlxalq turizm ən sürətlə inkişaf edən, ən gəlirli biznes növlərindən biridir. Bu sahə külli miqdarda investisiya cəlb edir, əhalinin məşğulluğunun artırılmasını təmin edir və eyni zamanda ölkə büdcəsinə gəlir gətirir.

Qlobal turizm sistemi beynəlxalq otel şəbəkələrini, hava, su və yerüstü turist nəqliyyatını, o cümlədən yerləri əvvəlcədən sifariş etmək üçün kompüter sistemini birləşdirir. Son illərdə turizm dünyada ən sürətlə inkişaf edən iqtisadi sektor olaraq diqqəti cəlb edir. Bu sektor gəlir baxımından neft ixracından və avtomobil sektorundan geri qalmır. Turizm bir çox ölkələrin büdcələrinin formalaşmasında və ticarət balansının sabitləşməsində mühüm rol oynayır. Turizmin inkişafı iqtisadiyyatın hərəkətverici qüvvəsi rolunu oynayır və ölkələrdə ciddi işsizlik probleminin aradan qaldırılmasına stimul verir. Bu, ümumi daxili məhsulun (ÜDM) formalaşması və sosial-iqtisadi problemlərin həlli üçün əsasdır.

Azərbaycanda turizmin inkişafının əsasını təşkil edən mədəni irsi müxtəlif ölkələrdən çoxlu sayda turisti cəlb edən qiymətli mənbədir. Bu mədəni irs, Azərbaycan mədəni ənənəsinin, o cümlədən memarlıq və musiqinin əsas hissəsini təşkil edir. Bu ənənələr turizmin müxtəlif aspektlərinin, o cümlədən etnoqrafik turizmin inkişafı üçün əsas təşkil edir. Ənənəvi Azərbaycan mədəniyyəti, memarlığı və tarixi təcrübəsini müasir turizm xidmətləri ilə birləşdirən bu sektor, həm də ölkənin mədəni irsinin beynəlmiləlləşməsinə öz töhfəsini verir.

Turizmin sosial mühitə və həyata təsirinin iqtisadiyyata təsiri qədər vacib olduğu düşünülür və bu sahədə araşdırma aparılmalıdır. Bu məqalənin məqsədi beynəlxalq turizm əlaqələrinin qurulmasının Azərbaycan üçün sosial əhəmiyyətini öyrənməkdir. Son vaxtlara qədər turizmin ölkəmizdə ictimai quruluşa təsiri ilə bağlı ciddi araşdırılmaların aparılmaması, turizmin sosial tərəfinə məhəl qoyulmaması, problemə yalnız iqtisadi gəlir baxımından yanaşılması insanların turizmin həyatlarındakı önəminin yetəri qədər bilməmələrinin göstəricisidir. Bu məqalə beynəlxalq turizmin sosial təsirlərini araşdırır və ölkəmizin bu sahədəki mövqeyini müzakirə edir.

Azərbaycanın Beynəlxalq Turizm Əlaqələrinin Qurulması

Turizm həm də insan həyatı ilə əlaqəli bir hadisə kimi qəbul edilə bilər, eyni zamanda cəmiyyətdə dekommunizasiya edən insanların birgəyaşayışının müəyyən bir tərəfini təşkil edən bir sosial hadisədir.Səyahət və ziyarət zamanı qurulan münasibətlər nəticəsində cəmiyyətlər arasında müxtəlif təhsil, sosial və mədəni quruluşlarla qarşılıqlı əlaqə zamanla bilik, dekommunizasiya davranışı, adət-ənənələr və mədəni quruluşlarda dəyişikliklərə səbəb olur.

Bu gün dünya ictimai rəyində əhəmiyyəti gündən-günə artan turizm, insanların fiziki, sosial və psixoloji ehtiyaclarına birbaşa və ya dolayı yolla təsir edən vacib sektorlardan biridir. Ölkələrin turizmə maraq göstərməsinin əsas səbəblərindən biri iqtisadi olsa da, digər vacib səbəb sosial təminat səviyyəsinin yüksəlməsinə kömək etməsidir. Turizm, ümumiyyətlə, sahib olduğu dəyərlər baxımından sosial xarakter nümayiş etdirir. Bu xüsusiyyətə görə turizm iqtisadiyyat, biznes, siyasət, sosiologiya və s. elmin bir çox sahəsini maraqlandıran çoxşaxəli və mürəkkəb bir fenomen kimi istifadə olunur.

Azərbaycanda turizm müasir həyat tərzinin və mədəniyyətin mühüm hissəsidir və o, beynəlxalq turizm əlaqələrinin forması kimi inkişaf etdirilir. Müasir dünyamızda qlobal əhəmiyyət kəsb edən turizm sahəsi sosial və iqtisadi münasibətləri tənzimləyir, müxtəlif ölkələr və xalqlar arasında kommersiya maraqlarını, qarşılıqlı əlaqələri gücləndirir [5, s.93].

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra turizmin inkişafına dövlət səviyyəsində önəm verilmiş və ölkədə turizmin inkişafını təşkil edən dövlət strukturları yaradılmışdır. Turizmlə bağlı dövlət və kommersiya strukturlarının yaradılması, hüquqi sənədlərin qəbulu, beynəlxalq turizm əlaqələrinin qurulması üzrə atılan addımlar buna əyani sübutdur.

Dünya iqtisadiyyatına inteqrasiya, neft strategiyası və bir çox beynəlxalq layihələr üzrə aparıcı iqtisadi həlqəyə çevrilməsi respublikamızın, onun vətəndaşlarının və istehlakçılarının turizm

ehtiyaclarını dəyişmişdir. Azərbaycan Respublikasının inkişaf dinamikası qeyri-neft sektorunun inkişafına və respublikanın resursları ilə təminatına yönəlmiş strateji inkişaf layihələri ilə ölçülür. Bundan əlavə, "Böyük İpək Yolu"nun ölkə ərazisindən keçməsi ölkəmizin dünya ilə inteqrasiyasına təkan vermiş, bu yolun bərpası digər ölkələrin də beynəlxalq turizm bazarında iştirakına şərait yaratmışdır. Bu gün də Dünya Turizm Təşkilatı "Böyük İpək Yolu"nun bərpasına xüsusi önəm verir [3, s.2].


Həm daxili, həm də beynəlxalq turizm bütün dünyada insanların sülhə, qarşılıqlı anlaşmasına, səyahət zamanı öyrənmələri və mədəni səviyyələrini yüksəltmələrinə, həyat standartlarının bir-birinə daha yaxın olmasına zəmin yaradır. Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurası 110-cu sessiyasını 2019-cu ildə Bakıda keçirmişdir. Bu tədbirdə dünyanın 37 ölkəsindən, habelə bir çox beynəlxalq təşkilatdan turizm sektoru üzrə yüksək səviyyəli bir neçə nümayəndələr iştirak edib [6, s.71].

Azərbaycan müstəqilliyini əldə etdikdən qısa müddət sonra beynəlxalq aləmə hər sahədə inteqrasiya olundu, dünyanın mötəbər tədbirlərində iştirak etdi, bütün qapılarını dünyaya açdı və beynəlxalq səviyyədə bir çox mühüm tədbirlər üzrə ev sahibliyi etdi. Bu vəziyyət ilk növbədə ölkəmizdə işgüzar və mədəni turizmin inkişafına imkan yaratdı. Müasir dövrdə işgüzar turizm yüksək dinamizm, turizm idarəçiliyinin qloballaşması və ondan əldə edilən gəlir baxımından böyük əhəmiyyət kəsb etməkdədir. İşgüzar turizm - Ümumdünya Turizm Təşkilatı tərəfindən təşkil olunan konqreslərdə, elmi konqreslərdə və konfranslarda, sənaye seminar və iclaslarında, yarmarkalarda, sərgilərdə, zallarda iştirak etmək, danışıqlar aparmaq və müqavilələr bağlamaq məqsədi ilə edilən səfərlərdir. İşgüzar və mədəni turizmdə bir günlük səyahətlər, o cümlədən kiçik qruplarla biliklərin möhkəmləndirilməsi turları və mədəniyyət abidələrinə istirahət səfərləri təşkil edilir. Bu kontekstdə mədəniyyət abidələrinin mühafizəsi və bu ərazilərə turist axınının idarə olunması üçün səmərəli tədbirlərin həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir.

İqtisadiyyatın mühüm sahəsi olan turizmin rəqabət qabiliyyətinə görə Azərbaycan 148 ölkə arasında 39-cu yerdədir. Ümumdünya Səyahət və Turizm Şurasının hesabatında Azərbaycan 2010-2016-cı illər arasında turizmin ən sürətlə inkişaf edən 10 ölkə sırasında yer alıb. Tətbiq olunan siyasətə uyğun olaraq son vaxtlar stimullaşdırıcı tədbirlər nəticəsində beynəlxalq idman yarışları və tədbirləri təşkil olunur. İllər ərzində Azərbaycana ümumilikdə turist axını artıb və turizm sənayesini daha gəlirli sahəyə çevirib [3, s.2].

Azərbaycanın beynəlxalq turizm əlaqələrinin təşkilində investisiya axını mühüm yer tutur [4, s.69]. Azərbaycanda turizmin davamlı inkişafında dövlət daxili və xarici investisiyaların cəlb edilməsinin marağını artırmalıdır. Belə ki, turizm sektoruna qoyulan investisiyaların sayında böyük azalma var. Demək olar ki, 2013-2021-ci illər üzrə turizm sektorunda azalma 2015-ci ildən başlayıb [2]. Nəticədə, 2020-ci ildə koronavirus pandemiyasından sonra 2014-cü illə müqayisədə 28 dəfə azalma olduğunu Qrafik 1-dən aydın görə bilərik. Bu səbəbdən də Azərbaycanın beynəlxalq turizm əlaqələrinin genişləndirilməsində turizmlə bağlı investisiyaların artırılması lazımdır.

Qrafik 1: 2013-2021-ci illər ərzində turizm sahəsinə qoyulan investisiyaların ümumi həcmi, (milyon manatla)




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2022, https://stat.gov.az/source/tourism/

2019-cu il qlobal COVID-19 pandemiyasından əvvəl Azərbaycana gələn turistlərin sayında rekord il olduğu halda, yanvar-oktyabr aylarında ölkəmizə gələnlərin sayı eyni dövrlə müqayisədə 10,9 faiz, yəni 264 min nəfər artıb təqribən 2,7 milyon olub. Həmin il Azərbaycana gələn əcnəbilərin sayı 3 milyondan çox idi. Son illər ölkədə turizm sektoru təxminən 3,3 dəfə artıb, ölkənin bu sahədə potensialı xeyli artıb.

Bakıda və ölkəmizin ayrı-ayrı bölgələrində biznes, əyləncə, sağlamlıq və idman turizminin inkişafı istiqamətində irimiqyaslı layihələr həyata keçirilir. Ölkə başçısı 2016-cı ilin oktyabr ayından əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə maksimum üç saat müddətində elektron vizaların verilməsi haqqında sərəncam imzalayıb və həmin vaxtdan isə "ASAN viza" adlı sistem uğurla fəaliyyət göstərir [7].

Qrafik 2-də isə xarici ölkələrə səyahət üçün vətəndaşlarımıza satılmış turizm yollayışlarının ümumi dəyəri göstərilmişdir. Qrafikə əsasən, 2016-ci ildən etibarən artan dəyərin, pandemiyadan sonra azaldığı müşahidə olunur. Belə ki, 2019-cu ildə Azərbaycan vətəndaşlarına satılan turizm yollayışları 50771,4 min manat olduğu halda, 2020-ci ildə 12 dəfə azalaraq ümumi 4162,4 min manata bərabər olmuşdur.

Qrafik 2: Xarici ölkələrə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm yollayışlarının ölkə üzrə dəyəri (min manatla)



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2022, https://stat.gov.az/source/tourism/

Ölkədə qonaqların olması yerli əhalinin həyat tərzinə təsir göstərir.Ziyarətçilərin onlara qarşı davranışları və ev sahibi ölkənin vətəndaşları ilə qurduqları şəxsi münasibətlər çox vaxt yerli əhalinin həyat tərzinə və münasibətlərinə təsir göstərir. Bu, qonaqlar ilə şəxsi münasibətləri olan otel və restoran işçilərinin davranışlarında xüsusilə nəzərə çarpır. Turistlər və turistləri qəbul edən yerli əhali arasında ünsiyyət və qarşılıqlı əlaqə nəticəsində yarana biləcək dekommunizasiyanın müsbət sosial təsirləri aşağıdakı kimi sadalana bilər:

1. Fərqli cəmiyyətlərdən olan insanlar bir-birləri ilə məlumat mübadiləsi aparır və mədəni quruluşlarını daha yaxşı tanıyırlar, ünsiyyət və dostluq nəticəsində dünya sülhünə töhfə verirlər;
2. Turist qəbul edən ölkələrin əhalisinin turistlərlə daha yaxından əlaqə qurmaq üçün daha çox oxumaq və araşdırmaq tələb etməsi nəticəsində onların təhsil və mədəni səviyyələri artır;
3. Sakinlərin müxtəlif mədəniyyətlərlə tanış olmaq, yeni dostlar qazanmaq və əraziyə gələn turistlərə kömək etmək məqsədi ilə xarici dilləri öyrənmək istəyi artır;
4. Mədəni dəyərlərin turizm tərəfindən pozulmaması üçün bu dəyərlərə sahib çıxmaq və onlara lazımi əhəmiyyət vermək səyləri artır;
5. Turizm yolu ilə kəndlərdə şəhərləşmə sürətlənir.

Müstəqillik əldə edildikdən sonra Azərbaycanda turizm sənayesinin inkişafı dövlət siyasətinin əsas məqsədlərindən birinə çevrilmişdir. Beynəlxalq aləmdə turizmə xüsusi diqqət yetirilir, ölkə iqtisadiyyatının stimullaşdırılması, müxtəlif turizm növlərinin inkişafı və müasir turizm infrastrukturunun yaradılması üçün strategiyalar hazırlanır.

Beləliklə, turizmin inkişafı asudə vaxtdan səmərəli istifadəyə, insanların əmək fəaliyyəti ilə məşğul olma qabiliyyətinin, təhsil və mədəni səviyyələrinin artmasına və ayrı-ayrı bölgələrin şəhərləşməsinin sürətlənməsinə səbəb olacaqdır.

Nəticə

Hazırda Azərbaycan dövlətinin əsas beynəlxalq turizm istiqaməti var. Qarabağ iqtisadi rayonunda çoxdan gözlənilən yeni hava limanının açılışı ilə hökumət öz turizm bazarını yaxşılaşdırmaq üçün strategiyalar həyata keçirir. Xarici turistlərlə yaxşı əlaqələr qurmaq üçün Azərbaycan iqtisadiyyatı və beynəlxalq əlaqələri baxımından arzu olunan nəticələrə ən yaxşı şəkildə necə cavab verə biləcəyini

araşdırmalıdır. Belə ki, ölkəmizin yerinə yetirməli olduğu vəzifələrdən biri turizm məkanı kimi reputasiyasını artırmaqdır. Bu işdə investisiyaların artılılması, marketinq üzrə tədbirlərin artırılması [1] və informasiya sistemlərindən geniş istifadə mühüm rol oynayacaq.

Bu nəticələrə nail olmaq üçün aşağıdakı sahələri inkişaf etdirmək lazımdır:

- Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatı (UNWTO), Ümumdünya Səyahət və Turizm Şurası (WTTC) və bu kimi turizmlə bağlı beynəlxalq təşkilatlarla əlaqələrin yaxşılaşdırılması;

- Yüksək keyfiyyətli marketinq, beynəlxalq turizm sərgilərində və konfranslarda iştirak üçün büdcənin artırılması;

- Aviaşirkətlər, turizm agentlikləri, mehmanxana şəbəkələri və tərəfdaşlarla əməkdaşlığın artırılması;

- Azərbaycanda beynəlxalq turizmin davamlı inkişafı üçün dövlət daxili və xarici investisiyaların cəlb edilməsində marağın artırılması;

- Ölkə, Mədəniyyət və Turizm Nazirliyi, otellər, restoranlar, görməli yerlər və festivallar haqqında hazır məlumatların dünya ictimaiyyətinə çatdırılmasına imkan verən sistemin tətbiqi;

- Bütün ölkələr arasında birbaşa uçuşların həyata keçirilməsi yolu ilə Azərbaycana uçuşların sayının artırılması;

- Bu sahəyə xarici investisiyaların cəlb edilməsi məqsədilə turizm agentlikləri ilə əməkdaşlığın artırılması.

Ölkəmizdə sosial turizm inkişafı məqsədilə də bir sıra tədbirlər həyata keçirilə bilər:

* İşçilərə illik ödənişli məzuniyyət, xəstəlik məzuniyyəti və tətil kimi müxtəlif imtiyazlar verməklə turizmlə məşğul olanların sayını artıra bilər;

* Müəyyən bir dövrdə ölkəmizdə nəqliyyat və otel xidmətləri üçün müxtəlif endirimlər və promosyonlar təşkil edə bilər;

* Ölkəmizdə bir çox dövlət qurumlarının sosial obyektlərinin və düşərgələrinin artırılması üzrə tədbirlər görülə bilər;

* Ölkəmizdə nəqliyyat infrastrukturunun bütün növlərinin sürətli inkişafı, qısa müddətdə və daha ucuz səyahət etmək imkanı yarada bilər.

Ədəbiyyat

18. Atakişiyeva L., "Azərbaycanda turizm marketinq fəaliyyətinin problemləri və xüsusiyyətləri", Turizm və qonaqpərvərlik tədqiqatları / Beynəlxalq jurnal, 2020, № 2-3, səh.49-54.
19. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2022, https://stat.gov.az/source/tourism/ (giriş tarixi: 01.11.2022).
20. Əliyeva M., (6 iyul, 2021), "Azərbaycanda turizm beynəlxalq əlaqələrin bir forması kimi inkişaf etdirilir", Respublika qəzeti, səh.2.
21. Əlizadə Ş., "Azərbaycanda maliyyə bazarlarının turizm sektorunun inkişafına təsiri", Turizm və qonaqpərvərlik tədqiqatları / Beynəlxalq jurnal, 2020, № 2-3, səh.55-71.
22. Xəlilzadə Ü., "Əhatə matrisi göstəriciləri əsasında Azərbaycanda Beynəlxalq turizm səviyyəsinin yüksəldilməsi", Əmək və sosial münasibətlər: Elmi-praktiki jurnal, 2021, cild 1, №15, səh. 93-105.
23. Kəmərov K., "Beynəlxalq turizm", Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ELMİ ƏSƏRLƏRİ, 2020, №28, səh.69-72.
24. https://asan.gov.az/media/news/ilham-eliyev-seki-asan-heyat-kompleksinin-acilisinda-istirak-edib (giriş tarixi: 01.11.2022).

Ülviyyə ƏZİMZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
azimzada.ulviyya.2101@atmu.edu.az

AZƏRBAYCANIN BEYNƏLXALQ TURİZM ƏLAQƏLƏRİNİN QURULMASINDA (MÖHKƏMLƏNMƏSİNDƏ) TURİZM- İNFORMASİYA MƏRKƏZLƏRİNİN FƏALİYYƏTİNİN İDARƏ OLUNMASI

MANAGING THE ACTIVITY OF TOURISM-INFORMATION CENTERS IN THE ESTABLISHMENT (STRENGTHENING) OF AZERBAIJAN'S INTERNATIONAL TOURISM RELATIONS

УПРАВЛЕНИЕ ДЕЯТЕЛЬНОСТЬЮ ИНФОРМАЦИОННО-ТУРИСТИЧЕСКИХ ЦЕНТРОВ В СОЗДАНИИ (УКРЕПЛЕНИИ) МЕЖДУНАРОДНЫХ ТУРИСТИЧЕСКИХ СВЯЗЕЙ

Xülasə: "Azərbaycanın beynəlxalq turizm əlaqlərinin qurulmasında (möhkəmlənməsində) turizm- informasiya mərkəzlərinin fəaliyyətinin idarə olunması" adlı məqalədə Azərbaycanın müstəqillik əldə etdikdən sonra, turizm sahəsində beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulmasında Dövlət Turizm Agentliyinin tabeliyində olan turizm-informasiya mərkəzlərinin fəaliyyətlərindən bəhs olunacaq. Turizm-informasiya mərkəzlərinin əsas məqsədi və vəzifələri, Covid-19 pandemiyasına qədərki dövr üçün, daha doğrusu 2018-ci ildə hazırlanmış gələcək dövrlərdə turizmin, ələxsus gəlmə turizmin inkişafını hədəfləyən strateji xarakter daşıyan beynəlxalq konsepsiya ("Hədəf bazarı, Seqmentlər, Səyahət səbəbləri, Səyahət müddəti" bölmələrindən ibarətdir), konsepsiyada yer alan ölkələrdən son 5 ildə- 2018, 2019, 2020, 2021 və 2022-ci illərdə Azərbaycana gələn turist sayları haqqında, Naxçıvan turizm-informasiya mərkəzinin turizmin inkişafı və beynəlxalq səviyyəli əməkdaşlıqların həyata keçirmək üçün gördüyü işlər, yeni əsası qoyulan Naftalan turizm-informasiya mərkəzi haqqında məlumat və son olaraq "Müasir İpək Yolu" turizm marşrutu layihəsinin və Şamaxı şəhərinin 2023-cü ilin Türk Dünyasının Turizm Paytaxtı kimi seçilməsi haqqında informasiyalar məqalədə öz əksini tapacaq.

Açar sözlər: Turizm, turizm-informasiya mərkəzləri, beynəlxalq əməkdaşlıq, hədəf bazarı, turizm paytaxtı.

Abstract: The article titled "Managing the activity of tourism-information centers in the establishment (strengthening) of Azerbaijan's international tourism relations" will talk about the activities of tourism information centers under the State Tourism Agency in the establishment of international cooperation relations in the field of tourism after the independence of Azerbaijan. The main purpose and tasks of tourism-information centers, for the period before the Covid-19 pandemic, more precisely, an international concept of a strategic nature aimed at the development of tourism, especially inbound tourism, developed in 2018 (it consists of the sections "Target market, Segments, Reasons for Travel, Duration of Travel"), about the number of tourists who came to Azerbaijan from the countries included in the concept in the last 5 years - 2018, 2019, 2020, 2021 and 2022, The work done by the Nakhchivan tourism-information center for the development of tourism and the implementation of international level cooperation, information about the newly founded Naftalan tourism-information center and finallyInformation about the "Modern Silk Road" tourism route project and the selection of the city of Shamakhi as the Tourism Capital of the Turkish World in 2023 will be reflected in the article.

Key words: Tourism, tourism-information centers, international cooperation, target market, tourism capital.

Резюме: В статье “Управление деятельностью информационно-туристических центров в создании (укреплении) международных туристических связей» речь идет о деятельности информационно-туристических центров, находящихся в составе Государственного Агентства по Туризму Азербайджана в сфере установлению международного сотрудничества в сфере туризма. В статье отражены такие вопросы, как основные цели и задачи информационно-туристических центров, международная концепция стратегического характера, направленная на развитие туризма, особенно въездного туризма на период до пандемии Covid-19, а точнее разработанная в 2018 году (состоит из разделов «Целевой рынок, Сегменты, Причины путешествий, Продолжительность путешествий»), данные о числе туристов из стран, включенных в концепцию, посетивших Азербайджан за последние 5 лет - 2018, 2019, 2020, 2021 и 2022 гг, работе, проделанной информационно-туристическим центром Нахчивана в сфере развития туризма и осуществления сотрудничества на международном уровне, о недавно созданном информационно-туристическом центре города Нафталан, и, наконец, информация о проекте туристического маршрута «Современный шелковый путь» и избрании города Шамахы туристической столицей Тюркского Мира в 2023 году.

Ключевые слова: туризм, информационно-туристические центра, международное сотрудничество, целевой рынок, туристическая Столица.

Azərbaycan Respublikasında postneft dövrünə keçid üçün inkişafına ən çox önəm verilən sahələrdən biri turizm sektorudur. Hazırkı dövrdə turizm sektoruna həm daxili, həm də xarici investisiyaları cəlb etmək, turizmin dayanıqlı inkişafına nail olmaq, turizm sahəsində beynəlxalq əməkdaşlıqların qurulmasında və beynəlxalq turizm əlaqələrinin idarə edilməsi əsas məsələlərdən biridir. Turizm sahəsində əməkdaşlığın aparıldığı ölkələrlə müxtəlif istiqamətlər üzrə müqavilə-hüquq bazasının inkişaf etdirilməsi məqsədilə dövlətlərarası və beynəlxalq təşkilatlarla sazişlər və müqavilələr bağlanılıb. Turizm sahəsi üzrə 1992-ci ildən bu günədək 27-i hökumətlərarası olmaqla 31 Saziş, 12 Anlaşma Memorandumu, 2020-2022-ci illər üçün turizm sahəsi üzrə 2 Əməkdaşlıq Proqramı imzalanıb. Sözügedən sənədlərin icrasının həyata keçirilməsi ilə bağlı tədbirlər proqramı hazırlanaraq təsdiq olunub, qarşı tərəflərlə görüşlər təşkil olunaraq əməkdaşlıq perspektivləri müzakirə edilib, habelə imzalanmış sənədlərin müddəa və şərtlərinə əsasən əməkdaşlıq tədbirləri həyata keçirilməyə başlanılıb [5].

Beynəlxalq əməkdaşlıqların qurulmasında Dövlət Turizm Agentliyinin tabeliyində fəaliyyət göstərən Turizm-informasiya mərkəzləri də öz növbəsində xüsusi paya sahibdir. Turizm-informasiya mərkəzi dedikdə, müxtəlif məqsədlər üçün səfər edən turistlərə, ziyarətçilərə məlumatlar verən ofislər, fiziki məkanlar, həmçinin müvafiq yerlərdəki turizm-informasiya mərkəzlərinin rəsmi vebsəhifələrini başa düşmək olar. Hal-hazırda ölkə ərazisində fəaliyyət göstərən 11 turizm-informasiya mərkəzi var. Bu mərkəzlər Bakı, Quba, Qəbələ, Xaçmaz, Zaqatala, Şamaxı, İsmayıllı, Gəncə, Bərdə, Lənkəran və Şəki şəhərlərində olmaqla, yerləşdikləri şəhərlərin adını daşımaqdadır. Əlavə olaraq yaxın zamanda- 8 oktyabr 2022-ci ildə isə Naftalan şəhərində də yeni turizm-informasiya mərkəzinin açılması ilə, ümumilikdə informasiya mərkəzlərinin sayı 12-yə çatmışdır [5;7] . Adı çəkilən turizm-informasiya mərkəzləri fəaliyyət göstərdikləri rayonlarla bərabər, həmin rayona yaxın olan ətraf ərazilərin də turizm potensialının önə çıxarılmasında və inkişafın təmin edilməsində müəyyən işlər görməkdədir.

Ümumilikdə, mövcud olan turizm-informasiya mərkəzlərinin əsas məqsədi Azərbaycanın turizm destinasiyalarının uzunmüddətli dövrdə dayanıqlı iqtisadi inkişafını təmin etmək, yönləndirmək, təşviq və idarə eməkdən ibarətdir. Turizm-informasiya mərkəzlərinin əsas vəzifələri isə aşağıdakılardır [2]:

-Turizm potensiallı əraziləri üzə çıxarmaq üçün tədqiqatlar aparmaq;

-Möcud turizm destinasiyalarının həm ölkə, həm də beynəlxalq səviyyədə turizm brendi kimi inkişafını təmin etmək üçün müəyyən tədbirlər planı hazırlamaq;

-Turizmin inkişafı üçün müxtəlif festivallar, tədbirlər təşkil etmək və həmçinin onların təşkilində aktiv iştirak etmək;

-Turizm məhsul və xidmətlərinin inkişafını dəstəkləmək;

-Turizm sənayesi üçün əlverişli investisiya mühitinin yaradılmasını dəstəkləmək;

-Destinasiyalar ilə əlaqəli məhsul brendləri yaratmaq məqsədilə yerli istehsalçıları dəstəkləmək və s.

Turizm-informasiya mərkəzləri fəaliyyətləri dövrlərində bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq etməkdədirlər. Belə ki, 2011-ci ilin 8-14 oktyabr tarixində Cənubi Koreyanın Kendju şəhərində keçirilən Birləşmiş Millətlər Dünya Turizm Təşkilatı (BMDTT) Baş Assambleyasının 19-cu sessiyasında Azərbaycan Turizm Assosiasiyası, Azərbaycan Turizm və Menecment Universiteti ilə yanaşı, Bakı Turizm İnformasiya Mərkəzi də ÜTT-yə qoşulmuş üzv (Affiliate Member) seçilib. Həmin dövrdən başlayaraq, Bakı Turizm İnformasiya Mərkəzi bu qurum ilə sıx əməkdaşlıq etməkdədir [9]. Əlavə etmək lazımdır ki, Bakı -turizm informasiya mərkəzinin "Heydər Əliyev" adına beynəlxalq hava limanında turizm ofisləri fəaliyyət gösrərir ki, bu da xarici ölkə vətəndaşlarının və əcnəbilərin ölkəmizə səfəri zamanı bilavasitə mərkəzdən məlumat almaları üçün düşünülmüş uğurlu addımdır [5;7].

Regionlarda fəaliyyət göstərən turizm informasiya mərkəzləri də ölkəmizin turizm sənayesinin inkişafına və təbliğinə öz töhfələrini verirlər. Hər il ənənəvi olaraq Bakı şəhərində keçirilən Azərbaycan Beynəlxalq "Turizm və səyahətlər" sərgisində ("AİTF") turizm informasiya mərkəzləri regional mədəniyyət və turizm idarələri və turizm sənayesi nümayəndələri ilə birlikdə müvafiq stenddə təmsil olunurlar [5;7;10]. Qeyd etmək lazımdır ki, 19-cu "Turizm və səyahətlər" sərgisinin 4-6 aprel 2023-cü il tarixlərində Bakı Ekspo Mərkəzində keçirilməsi də nəzərdə tutulur [10].

Turizm-informasiya mərkəzləri ilə Azərbaycan Turizm Bürosu 2018-ci ildə bazar araşdırmaları edərək gələcək dövrlər üçün konkret beynəlxalq hədəf bazarları konsepsiyasını, başqa sözlə desək, strategiyasını hazırlamışdır. Bu hədəf bazarlarına əsasən Rusiya, Hindistan, BƏƏ, Səudiyyə Ərəbistanı, Çin və Almaniya kimi ölkələr daxildir. Ətraflı olaraq, aşağıdakı cədvələ diqqət yetirək [1]:

Qeyd: Cədvəli təhlil etməmişdən öncə vurğulamaq lazımdır ki, Covid-19 pandemiyası səbəbindən bu planın nəticəsi verilən proqnoz və qoyulan hədəflə uyğun olmamışdır.

Hədəf bazarı	**Seqmentlər**	**Səyahət səbəbləri**	**Səyahət müddəti**
Rusiya	Uşaqlı ailələr/qohumlar	Şəhər turları; Mədəniyyət və istirahət	İyun-avqust ayları
	Gənclər	Şəhər turları; Təbiət və məcara	İyul-avqust ayları, Dekabr-yanvar ayları
	Fərdi turistlər	Səhiyyə və sağlamlıq; Mədəniyyət; Təbiət və məcara	May-avqust ayları, Dekabr- yanvar ayları
	Qida, içki və hotel turizminə fokuslu turistlər	Qastronomik turizm; Əyləncə və istirahət	İyun- avqust ayları
BƏƏ	Uşaqlı ailələr	İstirahət; Şəhər turları; Mədəniyyət	İyun-avqust ayları (dini bayram ərəfələri əsasən), BƏƏ Milli Gün həftəsi (2dekabr)
	Fərdi turistlər	Təbiət və məcara; İstirahət və əyləncə;	Oktyabr-mart ayları, İyun-avqust ayları (dini bayram ərəfələri əsasən), Dekabr-yanvar ayları

Səudiyyə Ərəbistanı	Gənc ailələr	Təbiət və məcara; İstirahət və əyləncə; Şoppinq turizmi	Aprel-may ayları, Oktyabr-noyabr ayları,
	Uşaqlı ailələr	Şəhər turları; Mədəniyyət və istirahət; İstirahət və əyləncə	İyun-avqust (dini bayram ərəfələri əsasən), Səudiyyə Milli Gün həftəsi (23 sentyabr), Oktyabr-mart ayları
	Evli/ subay turistlər	Təbiət və məcara; İstirahət və əyləncə; Şoppinq turizmi	Dekabr-yanvar ayları, İyun-avqust (dini bayram ərəfələri əsasən), Səudiyyə Milli Gün həftəsi (23 sentyabr),
Çin	Tam müstəqil turistlər	Çinin ölkədən çıxan bazarının 30%-i; Yaşlılar; Dil baryerinə görə tur bələdçilərinə ehtiyac duyanlar	Mart-aprel ayları, Sentyabr-oktyabr ayları
	Ailələr	Şəhər turları; Mədəniyyət və istirahət; İstirahət və əyləncə; Tarixi abidələrə səyahətlər	Yanvarın sonu- fevralın ortası(Çin Yeni ili), İyul-avqust ayları (yay tətili), Oktyabrın əvvəli
	Təhsil məqsədli gələnlər	Mədəniyyətlərarası təcrübə; Tələbə mübadilə proqramları; Uzun və qısa müddətli təhsil proqramları	Mart-iyun ayları, Sentyabr-dekabr, Sentyabr-iyun ayları, İyul-avqust ayları, Yanvar sonu-fevralın ortası
	Dəbdəbəli həyat tərzi yaşayanlar	Bahalı səyahət marşurutları; Əyləncə və istirahət	Mart- aprel ayları, Sentyabr-oktyabr ayları
	2000-ci illər nəsli	Çinin ölkədən çıxan bazarının 60%-i; Səyahətlərini özləri araşdırır; Turizm xidmətlərini əvvəlcədən özləri mobil vasiələrlə bronlaşdırırlar	Mart-aprel ayları, Sentyabr-oktyabr ayları, Oktyabrın əvvəli (milli bayram)
Hindistan	Uşaqlı ailələr	Şəhər turları; Mədəniyyət və istirahət; İstirahət və əyləncə	Aprel-may ayları
	Gənclər	Şəhər turları;	Oktyabr-noyabr ayları

		Təbiət və məcara	
	Fərdi səyahətçilər	Qastronomik turizm; Təbiət və məcara; İstirahət və əyləncə; Şoppinq turizmi	Aprel-may ayları, Oktyabr-noyabr ayları, Yanvar-mart ayları
Almaniya	Uşaqlı ailələr	Şəhər turları; Mədəniyyət; İstirahət və əyləncə	İyul-avqust ayları, Birlik Günü həftəsi(3 oktyabr)
	50 yaşdan yuxarı turistlər	Təbiət; Səhiyyə və sağlamlıq; Mədəniyyət və istirahət	İyul-avqust ayları, Dekabr- yanvar ayları
	Fərdi səyahətçilər	Qastronomik turizm; Təbiət və məcara; İstirahət və əyləncə	Dekabr-yanvar ayları, İyul-avqust ayları, Birlik Günü həftəsi(3 oktyabr)
	Düsseldorf, Dortmund və Essen sakinləri	Təbiət və məcara; Səhiyyə və sağlamlıq; Mədəniyyət və istirahət	İyun-avqust ayları, Dekabr-yanvar ayları

Mənbə: "Azərbaycanda Destinasiya İdarəetmə təşkilatlarının təsis edilməsi üçün Nümunəvi Biznes Planı və Təlimatlar" . Bakı-2018.

Cədvəldə adı çəkilən ölkələrdən- Rusiya Federasiyasından 2018-ci ildə 878.391, 2019-cu ildə 932.198, 2020-ci ildə 225.214, 2021-ci ildə 257.959, 2022-ci ilin noyabr ayınadək 363.288 nəfər turist; BƏƏ-dən 2018-ci ildə 93.835, 2019-cu ildə 68.289, 2020-ci ildə 7951, 2021-ci ildə 17.275, 2022-ci ilin noyabrınadək 29.324 nəfər urist; Səudiyyə Ərəbistanından 2018-ci ildə 72.935, 2019-cu ildə 106.994, 2020-ci ildə 11.945, 2021-ci ildə 8826, 2022-ci ilin noyabrınadək 90.378 nəfər turist; Çindən 2018-ci ildə 15.719, 2019-cu ildə 25.524, 2020-ci ildə 1532, 2021-ci ildə 1777, 2022-ci ilin noyabrınadək 2789 nəfər turist; Hindistandan 2018-ci ildə 39.013, 2019-cu ildə 65.058, 2020-ci ildə 12.769, 2021-ci ildə5695, 2022-ci ilin noyabrınadək 45.442 nəfər turist; Almaniyadan 2018-ci ildə 17.164, 2019-cu ildə 20.494, 2020-ci ildə 3529, 2021-ci ildə 5905, 2022-ci ilin noyabrınadək 12.160 nəfər turist ölkəmizə səfər etmişdir [4]. Görünür ki, hədəfdə nəzərdə tutulan ölkələrdən 2018-ci illə müqayisədə 2019-cu ildə gələn turist sayı yüksək olsa da (təkcə, BƏƏ-dən 2019-cu ildə gələn turist sayında azalma müşahidə olunur), pandemiya səbəbindən rəqəmlərdə kəskin düşüş, lakin 2022-ci ildə isə nisbətən artım mövcüddur. Pandemiyanın təsirini nəzərə almasaq, bu hədəf planın müsbət nəticələndiyi qənaətinə gəlmək olar.

Naxçıvan Turizm-informasiya mərkəzi öz növbəsində Naxçıvanda turizmin inkişafına nail olmaq və beynəlxalq səviyyəli əməkdaşlıqların həyata keçirmək üçün bir sıra stimullaşdırıcı işlər görməkdədir. Belə ki, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və Naxçıvan Turizm-informasiya mərkəzinin Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı 2020-2023-cü illər üzrə tədbirlər planı hazırlamışdır[8]:

-Xarici hava yolu şirkətlərinin uçuşlarının Azərbaycan Respublikasında bütün hava limanlarına, o cümlədən Naxçıvan Beynəlxalq Hava Limanına təşkil edilməsi ilə bağlı qanunvericiliyə təkliflərin verilməsinin təmin edilməsi;

-Birgə turizm əhəmiyyətli mədəni abidələrin UNESCO (Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu)-nun Ümumdünya İrsi siyahısına salınması üçün işlərə başlanılması və lazımi sənədlərin müraciət üçün ünvanlanması;

-UNESCO-nun Ümumdünya İrsinin ilkin siyahısına salınmış Ordubad Tarixi Şəhərinin nominasiya faylının hazırlanması perspektivinin nəzərdən keçirilməsi, həmçinin TÜRSAB (Türkiye Seyahat Acentaları Birliği) və İran İslam Respublikasının Hava Nəqliyyatı və Səyahət Agentlikləri Assosiasiyası ilə Naxçıvana turist göndərən və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən səyahət agentlikləri və turoperatorlarla görüşün təşkil edilməsi, hotellərin qiymətlərinin 6 ay əvvəl TÜRSAB və İran İslam Respublikasının Hava Nəqliyyatı və Səyahət Agentlikləri Assosiasiyasına təqdim edilməsinin təmin edilməsi;

-Xarici media nümayəndələri və bloqerlərin Naxçıvan Muxtar Respublikasına hər il ən azı bir səfərinin təşkil edilməsi;

- Xarici hava yolu şirkətlərinin uçuşlarının Azərbaycan Respublikasında bütün hava limanlarına, o cümlədən Naxçıvan Beynəlxalq Hava Limanına təşkil edilməsi ilə bağlı qanunvericiliyə təkliflərin verilməsinin təmin edilməsi;

- Turizm məhsulları hazırlanarkən beynəlxalq ekspert rəyinin nəzərə alınması;

-Naxçıvan Muxtar Respublikasının özünəməxsusluğunu əks etdirən festival konsepsiyasının işlənib hazırlanması və Naxçıvan Muxtar Respublikasında hər il festivalların təşkil edilməsi və b. [8]

Yeni açılmış Naftalan turizm-informasiya mərkəzinin əsas fəaliyyəti turistlərin məlumatlandırılması ilə yanaşı, yeni turizm məhsulların yaradılmasına dəstək göstərmək, mövcud xidmətləri inkişaf etdirmək, turizm dəyər zəncirinin iştirakçılarının fəaliyyətini təşviq etmək, yerli sakinlərin kiçik və orta biznesinə dəstək olmaq, regionda turizmin və dövlət-özəl əməkdaşlığının inkişafına töhfə verməkdir [5]. Əlavə olaraq mərkəz tərəfindən turistlərə yalnız Naftalan şəhəri deyil, həmçinin Qərb bölgəsi üzrə əyləncəli ekskursiya proqramlarının hazırlanması, istəyə uyğun olaraq hotellərdə yerləşmə, nəqliyyat və bələdçi xidməti ilə bağlı dəstək verilməsi, həmçinin veloturların təşkili xidmətləri göstəriləcək. Mərkəz şəhərdə fəaliyyət göstərən sanatoriya-kurort mərkəzləri, neft vannaları və duz otaqları, müalicə prosedurlarınıın inkişafı haqqında həm ölkə, həm də xarici ölkə vətəndaşlarına məlumatlar verir [5;7].

Beynəlxalq əhəmiyyəli digər bir layihə isə, 24 may 2022-ci ildə Şamaxı şəhərində Türk dövlətlərinin (Özbəkistan, Türkiyə, Qazaxıstan, Türkmənistan, Macarıstan) turizm rəsmiləri ilə Dövlət Turizm Agentliyinin təşkil etdiyi və turizm- informasiya mərkəzlərinin fəaliyyətində iştirak etdiyi "Müasir İpək Yolu" turizm marşrutu kimi müştərək turizm məhsullarının yaradılması istiqamətində işlərin intesivləşdirilməsi haqqında olan tədbirdir. Tədbirdə "Türk Dünyası Turizm Paytaxtı təşəbbüsü" ilə bağlı qaydaları təsdiq edilib və 2023-cü ilin Türk Dünyasının Turizm Paytaxtı Şamaxı şəhəri seçilmişdir [5;7].

Yuxarıda adı çəkilən müvafiq turizm-informasiya mərkəzləri və uyğun olaraq qeyd olunmuş işlərdən savayı bir sıra layihələrin reallaşmasında da xüsusi paya sahibdir. Beynəlxalq və daxili turizm bir-biri ilə sıx şəkildə əlaqəlidir. Daxili turizm beynəlxalq turizmin katalizatoru kimi çıxış edir və mərkəzlər ölkə daxili turizm infrastrukturunun inkişaf etdirmək, regionların turizm potensialının üzə çıxarılmasında, yerli əhalinin turizm sənayesi ilə tanış edib, yeni iş yerlərinin- məşğulluğun artmasına təsir göstərməklə birbaşa olmasa da, dolayı yolla beynəlxalq əlaqələrin idarə edilməsi üçün də stimullaşdırıcı xüsusiyyət daşımış olurlar. Əlavə olaraq, mərkəzlərin əməkdaşları xarici ölkələrdə fəaliyyət göstərən turizm şirkətləri ilə distant formada görüşlər keçirərək mərkəz Bakı və ətraf regionların həm turizm, həm də digər sahələri haqqında məlumat verirlər.

Təklif edirəm ki, yeni yaradılmış Naftalan turizm-informasiya mərkəzi Naftalanda mövcud müalicəvi xarakter daşıyan təbii neft yataqlarını və sanatoriya-kurort mərkəzlərini Azərbaycanın turizm

brendi kimi formalaşdıraraq və xarici turizm şirkətləri ilə əməkdaşlıqlar quraraq beynəlxalq turizm bazarına daxil edilməsində təsiredici rola sahib ola bilər. Belə ki, həmin neft məhsulları bir sıra dəri xəstəliklərinə, əzələ sistemi və oynaq ağrılarına, qan dövranın yaxşılaşdırılmasına və s. bu kimi problemlərin həllinə yardımçı olmaqla bərabər həmin neft məhsullarından kosmetoloji məhsulların hazırlanmasında da istifadə oluna bilər. Bu və bu kimi ehtiyatlar təkmilləşdirilərək reklam və piarı təşkil olunsa, Naftalana və nəticə etibarı ilə ölkəyə səfər edən və mərkəzə üz tutan turistlərin (həm daxili, həm beynəlxalq turizmin inkişafı) sayında yüksəlmə müşahidə olunacaqdır.

Ədəbiyyat

1. "Azərbaycanda Destinasiya İdarəetmə təşkilatlarının təsis edilməsi üçün Nümunəvi Biznes Planı və Təlimatlar" . Bakı-2018
2. "Lənkəran Turizm İnformasiya Mərkəzinin Əsasnaməsi". Lənkəran-2018
3. "Turizm İnformasiya Mərkəzlərinin Əsasnamələrinin yeni redaksiyada təsdiq edilməsi barədə" Əsasnamə. Bakı-2018
4. AR DSK-nın rəsmi internet səhifəsi: www.stat.gov.az
5. AR DTA-nın rəsmi internet səhifəsi: www.tourism.gov.az
6. AR Mədəniyyət Nazirliyinin rəsmi internet səhifəsi: https://culture.gov.az/
7. Azərbaycan Turizm Bürosunun rəsmi internet səhifəsi: https://www.tourismboard.az
8. Naxçıvan turizm-informasiya mərkəzinin rəsmi səhifəsi: http://www.turizm.nakhchivan.az/
9. https://az.trend.az/
10. https://aitf.az/az-register/

Namaz MİRZƏYEV
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
namazmirzeyev9@gmail.com

AZƏRBAYCANIN MƏDƏNİYYƏT SİYASƏTİ VƏ ONUN ƏHƏMİYYƏTİ
CULTURAL POLICY OF AZERBAIJAN AND ITS SIGNIFICANCE
КУЛЬТУРНАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА И ЕЕ ЗНАЧЕНИЕ

Xülasə: Azərbaycan mədəniyyətinin inkişafında əsaslı və ardıcıl hüquqi bazanın yaradılması mühüm elementdir. 1998-ci ildə prezident Heydər Əliyev Avropa Şurasının humanitar prinsiplərini və demokratik mədəniyyətin prioritetlərini əks etdirən "Mədəniyyət haqqında qanun"u təsdiq etdi. 2000-ci ildə Azərbaycan Mədəniyyət Nazirliyi "Avropada mədəniyyət siyasəti" layihəsində iştirak etmişdir. Prezident İlham Əliyevin Azərbaycan üçün müəyyən etdiyi yaradıcı modernləşmə kursu dövlət fəaliyyətinin bütün sahələrini əhatə edir. Son on ildə konkret inkişaf yollarını və perspektivlərini müəyyən edən çoxlu sayda qanunlar (mədəniyyətin idarə olunması ilə bağlı 100-dən çox qanun və fərman yalnız 2006-2008-ci illərdə prezident tərəfindən imzalanmışdır*) təsdiq edilmişdir. Mədəniyyət işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir.
Açar sözlər: Mədəniyyət, konsepsiya, multikulturalizm, qloballaşan, fond

Abstract: Creating a fundamental and coherent legal framework is an important element in the development of Azerbaijani culture. In 1998, President Heydar Aliyev approved the "Law on Culture" reflecting the humanitarian principles of the Council of Europe and the priorities of democratic culture. In 2000, the Ministry of Culture of Azerbaijan participated in the "Cultural policy in Europe" project. The creative modernization course defined by President Ilham Aliyev for Azerbaijan covers all areas of state activity. In the last ten years, a large number of laws have been approved (more than 100 laws and decrees on the management of culture were signed by the president in 2006-2008 alone*) that define specific development paths and perspectives. Important measures have been taken to improve the social protection of cultural workers.
Keywords: Culture, concept, multiculturalism, globalized, foundation

Абстракт: Создание фундаментальной и последовательной правовой базы является важным элементом развития азербайджанской культуры. В 1998 году Президент Гейдар Алиев утвердил «Закон о культуре», отражающий гуманитарные принципы Совета Европы и приоритеты демократической культуры. В 2000 году Министерство культуры Азербайджана приняло участие в проекте «Культурная политика в Европе». Курс на созидательную модернизацию, определенный Президентом Ильхамом Алиевым для Азербайджана, охватывает все сферы государственной деятельности. За последние десять лет принято большое количество законов (только в 2006-2008 годах* президентом было подписано более 100 законов и указов об управлении культурой), определяющих конкретные пути и перспективы развития. Приняты важные меры по улучшению социальной защиты работников культуры.
Ключевые слова: культура, концепция, мультикультурализм, глобализация, основа.

Etnik-mədəni müxtəliflik Azərbaycan cəmiyyətinin uzun müddət formalaşmış səciyyəvi xüsusiyyətidir və mədəniyyətin inkişaf strategiyasında nəzərə alınmışdır. 2012-ci ildə yeni "Mədəniyyət haqqında qanun" qəbul edilib. Onun əsas prinsiplərinə humanizm, demokratik yanaşma, bərabərlik, inteqrasiya, keyfiyyət, davamlılıq, dünyəvilik, istedadlı şəxslərin müdafiəsi, balanslaşdırılmış yanaşma və səmərəlilik daxildir. Yalnız iki ildən sonra milli adət-ənənələrin qorunması və təbliği, mədəniyyətə

resursların artırılması və beynəlxalq təşkilatlar vasitəsilə təbliği üçün həll yollarını özündə əks etdirən Azərbaycan Mədəniyyəti Konsepsiyası təsdiq olundu. Mədəniyyət və tarixi abidələrin mühafizəsi və bərpası məqsədi ilə bu sahədə 2014-2020-ci illər üçün Dövlət Proqramı hazırlanıb və rəsmi təsdiq edilib[3].

Qloballaşan dünyada mədəniyyətlərarası və dinlərarası dialoq problemi, o cümlədən multikulturalizmlə bağlı məsələlər xüsusi yer tutur. Dünyanın 140-dan çox ölkəsinin təmsil olunduğu Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna Bakının belə bir tarixi dövrdə ev sahibliyi etməsi təsadüfi deyil. Tolerantlıq və multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan kimi mədəniyyətlərarası dialoqun təşviqinə, mədəni müxtəlifliyin qorunmasına və sivilizasiyalararası qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin həyata keçirilməsi və mötəbər forumların təşkili sahəsində böyük təcrübəyə malikdir[1].

Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi haqqında qərar BMT Baş Assambleyasının 2014-cü il sentyabrın 26-da keçirilən 69-cu sessiyasında qəbul edilib. Prezident İlham Əliyev Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb. Ötən ilin iyununda Bakıda forum. "İnklüziv cəmiyyətlərdə birlikdə yaşamaq" Çağırış və Məqsəd" devizi altında keçirilən forumda bir sıra qonaqlar, o cümlədən BMT-yə üzv dövlətlərin dövlət və hökumət başçıları, xarici işlər nazirləri, siyasi liderlər, tərəfdaşlar iştirak ediblər.

Multikulturalizm hamı tərəfindən qəbul edilən və müxtəlif mədəniyyətlərə qarşı tolerant münasibətə əsaslanan dinc və birgəyaşayış prinsipidir. Multikulturalizmin xarakterik xüsusiyyətləri tolerantlıq və dözümlülükdür. Ölkəmiz tolerantlıq diyarıdır. "Azərbaycan xalqının özü də təbiətinə və xasiyyətinə görə yüksək tolerantlıq hissinə malikdir" deyən Heydər Əliyev bizim ümumbəşəri dəyərlərə, cəmiyyət olaraq münasibətimizin ən səmimi və aydın izahını vermişdir, Azərbaycanı xalqların vətəni adlandırmışdır. milliyyətindən və dinindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələri. Təbii ki, Azərbaycanın müxtəlif baxışlara, adət-ənənələrə qarşı tolerant mövqe nümayiş etdirməsi təbiidir, çünki tarixi İpək Yolu üzərində yerləşən, müxtəlif sivilizasiyaların qovuşduğu yer olan Azərbaycan milli-mədəni rəngarənglik mühitinin hökm sürdüyü bir diyar kimi tanınır. əsrlər boyu formalaşmış, müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşaması, müxtəlif millətlərin, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibət bəsləmək Azərbaycan mentalitetinin əsas xüsusiyyətidir. Azərbaycan ərazisində etnik və dini icmalar arasında yüksək tolerantlıq münasibəti tarixin bütün dövrlərində rəsmiləşmiş, milli, dini və irqi zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmamışdır[2].

Tarixi faktlardan göründüyü kimi, bu anlayışın uzun tarixi dövr ərzində mövcud olmasına baxmayaraq, "multikulturalizm" termini siyasi leksikona ötən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərində daxil olmuşdur. Bu termin vahid mədəni məkanı təsvir etmək üçün istifadə olunur və multikulturalizm mədəniyyətlərin assimilyasiya olmadan inteqrasiyasını təklif edir.

Həqiqət budur ki, ötən əsrdə bəzi Avropa ölkələrinin mühacir mədəniyyətləri ilə bağlı istifadə etdiyi bir strategiya kimi assimilyasiya bir sıra hallarda özünü doğrultmayıb və indi də belə maneələr mövcuddur. Məsələn, minarələrin tikilməsinə qoyulan qadağalar, müxtəlif geyim üslubları, dini simvollar, etnik xüsusiyyətlərə görə dövri təqiblər və s. Belə bir məqam görünür ki, bəzi Avropa ölkələri multikulturalizmin prinsiplərini rədd edib və bu gün hətta multikulturalizmin iflasa uğradığını qəbul edib bəyan edirlər. Müxtəlif cəzbedici adlarla həm regional, həm də qlobal miqyasda öz mədəniyyətinin hökmranlığını təmin etməyi hədəfləyən və başqa mədəniyyətlərin nümayəndələrini assimilyasiya obyekti kimi qəbul edən qüvvələr buna səbəb kimi mədəni vəziyyəti mürəkkəbləşdirirdi.

Belə bir dövrdə Prezident İlham Əliyevin "Ölkəmizdə multikulturalizm alternativsiz həyat tərzinə çevrilib" ifadəsi bu məfhumun qlobal əhəmiyyətini dərk etmək, multikulturalizmi konseptual olaraq gələcək inkişafın yeganə yolu kimi dərk etmək baxımından bütün məsələlərə işıq salır. bəşəriyyətin və Azərbaycanın. Prezident İlham Əliyevin Azərbaycanda multikultural münasibətlərin inkişafı istiqamətində atdığı addımlar davamlı xarakter daşıyır. Cənab Prezidentin imzaladığı Sərəncama əsasən

2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi dövlətimizin tolerantlıq prinsipi ilə idarə olunduğunu bir daha sübut edir.

Müasir dünyanın dini və milli qarşıdurmalarla, məzhəblərarası qarşıdurmalarla, dövlətlərarası etimadsızlıqla üzləşdiyi bir vaxtda Azərbaycanda milli həmrəyliyin və xalqlar arasında dostluğun mövcud olması şərəfdir. Multikultural ənənələrə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlər dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunmasına və sivilizasiyalararası qarşılıqlı münasibətlərin tənzimlənməsinə hər zaman dəstəyini davam etdirir [4].

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Cenevrədə təşkil etdiyi "Köçkünlüyün əsas səbəblərini anlamaq və həll etmək" mövzusunda növbəti 8-ci yüksək səviyyəli dialoq çoxtərəfli əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanlar yaratmışdır.

Azərbaycan Respublikası keçid dövrü adlanan tarixi mərhələdə hazırladığı Milli Məruzədə göstərilir ki, Mədəniyyət Nazirliyi mədəniyyət siyasətini son onilliklərdə əksər Avropa ölkələrinin qabaqcıl təcrübəsinə əsaslanaraq, bu ölkələrdə rəhbər tutulan əsas prinsiplər nəzərə alınaraq, ölkəmizin milli maraqlarına uyğun olubolmamadığı müəyyən edərək hazırlayır. Milli Məruzədə Azərbaycanın mədəniyyət siyasətinin üç əsas prioritet istiqamətləri müəyyənləşdirilmişdir:

- Mədəni və tarixi irsin qorunması (burada mədəniyyət təsisatlarının bütün infrastrukturu özündə əks etdirir);
- Yaradıcılığın himayə edilməsi;
- mədəniyyətin insan inkişafı amili kimi dərk edilməsi və qəbul olunmasının gücləndirilməsi.

Milli Məruzədə Hökümətin və Mədəniyyət Nazirliyinin göstərilən prioritetləri reallışdırmaq üçün yaradılan və bu işə cəlb olunan təsisatların məqsəd və fəaliyyət sahələri müəyyən olunur:

- Alternativ maliyyə mənbələrinin axtarışı;
- Mədəniyyət sahəsində inzibatçılığa dair treninqlər;
- Mədəni inkişaf strategiyalarının işlənib hazırlanması;
- Xeyriyyəçi mədəniyyət fondunun təsis edilməsi;
- Mədəniyyətin idarəolunmasında desentralizasiya və dekonsentralizasiyası;
- Qeyri-hökümət təşkilatları və digər vətənaş cəmiyyəti təşkilatları ilə partnyorluq əlaqələrinin qurulması;
- Gənclər siyasətinin işlənilməsi.

Qeyd edilməlidir ki, həmin dövrdə hazırlanan milli hesabatda qanunvericilik tədbirləri ilə yanaşı mədəni islahatların həyata keçirilməsində, yüksək nailiyyətlərin əldə edilməsində və onların dəstəklənməsində böyük əhəmiyyət maliyyələşmə məsələsinə verilir. Yuxarıda qeyd etdiyimiz kimi, keçid dövrünün böhranları Azərbaycanın milli məruzəsində də, xüsusilədə maliyyələşmə bölməsində öz əksini tapmışdır. Xüsusilə vurğulayaq ki, hesabatda maliyyələşmə məsələlərinə həsr olunmuş fəsildə 1997-ci ildən sonra əldə edilən məlumatlar əsasında hazırlanmışdır. Milli məruzəni hazırayan müəlliflər hesabatın özündə belə ölkəmizdə mədəniyyət siyasətinin modernləşdirilməsi yolunda olan əngəlləri vurğulayaraq, bu maneələri tarixi şəraitlə izah etməyə çalışırdılar. Misal üçün, hesabatı hazırlayan ekspert komandası Milli Mədəniyyət Fondunun fəaliyyətini təhlil edən zaman, onun iş istiqamət və prinsiplərini, xüsusilə bədii tədbirlər üçün təsadüfi və qeyri-sistematik maliyyə yardımının göstərdiyini müəyyən etsələr belə, bu fəaliyyətin mexanizmlərini aydanlışdırmağa müvəffəq olmamışlar[5].

Milli məruzədə göstərilir ki, mədəniyyət sahəsində xarici investisiyalar, maliyyə dəstəyi və birgə müəssisələr təşviq olunur. Kinematoqraflar İttifaqı ilə Britaniyanın özəl İTİL şirkətinin birgə fəaliyyəti buna misal gətirilir. Keçid dövründə Azərbaycanda həyata keçirilən səmərəli mədəniyyət siyasətinin nümunəsi kimi Azərbaycan Opera və Balet Teatrını dəstəkləmək üçün xarici neft şirkətlərinin, bankların və digər təşkilatların kapital qoyuluşu əsasında Operanı Himayə Fondu yaradılmasını göstəmək olar. Hesabatda bu cür nümunələrin geniş işıqlandırılması və mədəniyyət sferasının digər müəssisələrinə də tətbiq edilməsi tövsiyyə olunmuşdur. Qeyd edək ki, Milli Məruzəni hazırlayan işçi qrup SİAR – Sosial və Marketinq Tədqiqatları Mərkəzi tərəfindən aparılan həmin araşdırmaların nəticələrindən bəhrələnmişdir. Azərbaycanın mədəniyyət siyasəti üzrə xülasə Bonn mədəniyyət siyasəti və müqayisəli

tədqiqatlar institutunun saytında yerləşdirilmişdir. Yuxarıda təsvir olunan dövrdə Azərbaycanda optimal mədəniyyət siyasətinin işlənilməsi məqsədilə mütərəqqi təcrübənin öyrənilməsi və istifadə edilməsinə, aparıcı ölkələrin mədəniyyət siyasətlərinin müqayisəli təhlilinə böyük ehtiyac duyulurdu.

Nəticə olaraq demək olar ki, ölkəmizdə mədəniyyətin sosial bazasının öyrənilməsi, yeni mədəniyyət siyasətinin xarakterinin və vəzifələrinin müəyyənləşdirilməsi, mədəniyyətin düzgün başa düşülməsində müxtəlif strukturlara və sosial qruplara kömək göstərilməsi, onun insanın inkişafında, həyatın keyfiyyətinin və Azərbaycan cəmiyyətinin rifahının yüksəldilməsində funksiyasının və imkanlarının öyrənilməsi layihənin prioritetlərini təşkil edirdi.

Ədəbiyyat

1. https://www.culturepartnership.eu
2. https://migration.gov.az/en/press_detail/273
3. http://creative.az/
4. Azərbaycan Milli Ensiklopediyası, Azərbaycan, Azərbaycan Milli Ensiklopediyası NPB, 2007
5. The Grove Encyclopedia of Islamic Art and Architecture, Jonathan M. Bloom and Sheila Blair, Azerbaijan, Oxford University Press, 2009

Nazənin ŞİRİNOVA
Azərbaycan Turizm və Menecment Universiteti, magistrant
nazeninshirinova@gmail.com

AZƏRBAYCANDA ETNİK-MİLLİ MÜXTƏLİFLİK VƏ MULTİKULTURALİZM

ЭТНОНАЦИОНАЛЬНОЕ РАЗНООБРАЗИЕ И МУЛЬТИКУЛЬТУРАЛИЗМ В АЗЕРБАЙДЖАНЕ

ETHNIC-NATIONAL DIVERSITY AND MULTICULTURALISM IN AZERBAIJAN

Xülasə: Azərbaycanda müxtəlif dil və dinə mənsub icmalar mövcuddur və onlar dinc şəraitdə yaşayırlar. Azərbaycan bir çox Qərbi Avropa ölkələrində mövcud olan multikultural modeli təbliğ etmək niyyətindədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev multikulturalizmi dövlət siyasəti elan edərək Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ili "Multikulturalizm ili" elan etmişdir.
Açar sözlər: multikulturalizm, etnik müxtəliflik, turizm, dil, din, milli azlıqlar

Абстракт: В Азербайджане есть общины, принадлежащие к разным языкам и религиям, и они живут в мирных условиях. Азербайджан намерен продвигать мультикультурную модель, существующую во многих странах Западной Европы. Президент Азербайджанской Республики г-н Ильхам Алиев объявил мультикультурализм государственной политикой и объявил 2016 год «Годом мультикультурализма» в целях сохранения, дальнейшего развития и широкой пропаганды традиций мультикультурализма в Азербайджане.
Ключевые слова: мультикультурализм, этническое разнообразие, туризм, язык, религия, национальные меньшинства

Abstract: There are communities belonging to different languages and religions in Azerbaijan and they live in peaceful conditions. Azerbaijan intends to promote the multicultural model that exists in many Western European countries. The President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev declared multiculturalism as a state policy and declared 2016 as the "Year of Multiculturalism" in order to preserve, further develop and widely promote the traditions of multiculturalism in Azerbaijan.
Keywords: multiculturalism, ethnic diversity, tourism, language, religion, national minorities

Cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərin formalaşmasına obtektiv və subyektiv amillər təsir edir. Obyektiv amillərə tarixi, coğrafi, sosial, iqtisadi, siyasi və mədəni səbəblər aiddir. Subyektiv amillərə isə dövlətin cəmiyyətdə etnik-mədəni müxtəlifliklərin artmasına rəğmən apardığı siyasəti aid etmək mümkündür.

Azərbaycan çoxsaylı mədəniyyətlərin, dinlərin və sivilizasiyaların qovuşuğunda yerləşən ölkədir. Qədim dövrlərdən bu torpaq Avropa ilə Asiya arasında körpü kimi tanınırdı. Eramızdan əvvəl II minillikdə Azərbaycan Qafqaz və Hind-Avropa xalqlarının köç yolu üzərində yerləşirdi. Eramızdan əvvəl IV əsrdən eramızın VII əsrinə qədər Zərdüştiliyin mühüm mərkəzi olmuşdur. Eramızın I və II əsrlərindən başlayaraq Azərbaycanın şimalına xristianlıq gətirilmişdir. VII əsrdə isə ərəblər Azərbaycana İslamı gətirdilər.

Azərbaycan Böyük İpək Yolunun üzərində yerləşdiyindən mədəni müxtəlifliyin mərkəzi hesab olunurdu. Böyük İpək Yolu - Çindən Avropaya gedən karvan yolları regiondakı millətlərarası mübadilədə mühim rol oynamışdır. İndiki Azərbaycan ərazisində zərdüştilər, sünni və şiə müsəlmanları, Qafqaz alban xristianları, rus pravoslav xristianları, molokanlar, Avropa yəhudiləri, "dağ yəhudiləri" və digərləri məskunlaşmışdır. İndiki əhalinin böyük əksəriyyəti İslam dininə tabedir.

Ədəbiyyatımızda "Kitabi-Dədə Qorqud" dastanından bu günə qədər çoxmədəniyyətliliyə, orta əsrlər Azərbaycan poeziyası nümayəndələrinin əsərlərində ümumbəşəri dəyərlərin təbliğinə rast gəlinir. Söz sərrafı olan və bədii yaradıcılığın ən gözəl nümunələrini yaradan Nizami Gəncəvinin əsərləri bu cəhətdən xüsusilə fərqlənir. O, hələ XII əsrdə yeddi mədəniyyəti təsvir edən "Yeddi gözəl" əsərini yaradır. Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. İrqi, milli və dini ayrı-seçkiliyi qəbul etməyən bu şairin qəhrəmanları içərisində türk, fars, ərəb, hindli, çinli, həbəş, yunan, gürcü və başqa xalqların nümayəndələrinə rast gəlirik.

Azərbaycan dünyanın ən polietnik və polikonfessional ölkələrindən biridir. Azərbaycan türklərindən başqa, dağ yəhudiləri, tatlar, talışlar, kürdlər, molokanlar, ingiloylar, saxurlar, avarlar, ləzgilər, xınalıqlar, buduqlular və digər etnik qrupların nümayəndələri özlərini azərbaycanlı hesab etsə də, hər bir qrup öz mədəniyyətinin fərqli elementlərini qoruyub saxlamışdır. "Dövlət çoxlu xalqlardan ibarət olsa, zənginləşər, çünki bu xalqların hamısı dünya mədəniyyətinə və sivilizasiyasına öz töhfələrini verirlər". Ölkənin ümummilli lideri Heydər Əliyevin bu bəyanatı müasir Azərbaycan dövlətçiliyinin mahiyyətini, müasir Azərbaycan dövlətinin siyasətinin siyasi, psixoloji və ideoloji-mədəni mənşəyini əks etdirir.

Azərbaycan təkcə etnik mədəniyyətlərin geniş spektrinə malik deyil, həm də həyatın bütün sahələrində hər bir mədəniyyətin adət-ənənələrini, dəyərlərini qoruyub saxlayır. Azərbaycanda etnokonfessional rəngarənglik onun tarixi və mədəni həyatında çoxəsrlik birgə yaşayışın nəticəsidir.

Azərbaycan əhalinin çoxunu müsəlmanlar təşkil edən liberal ölkələrdən biridir. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu hər kəsin dinə münasibətini müəyyən etmək, ifadə etmək və həyata keçirmək hüququnu bəyan edir. Azərbaycanda müxtəlif dinlərin mövcudluğu onun tarixi inkişafı, coğrafiyası və əhalinin etnik tərkibi ilə bağlıdır. Ölkədə müxtəlif dövrlərdə buddizm, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dinlər mövcud olmuş və bir-birlərinə təsir göstərmişlər. Hazırda Azərbaycanda qeydiyyatda olan 510-dan çox dini icma mövcuddur, onlardan 32-si qeyri-islam dininə mənsubdur. Azərbaycanda müxtəlif dini inanclara sahib icmalarının mövcudluğu ölkədə dini etiqad azadlığının olduğunu bir daha təsdiqləyir. Milli azlıqlar bu gün Azərbaycan əhalisinin 9,4 faizini təşkil edir. Konstitusiyanın 18-ci maddəsinin 1-3-cü bəndlərinə əsasən din dövlətdən ayrıdır və hər bir din qanun qarşısında bərabərdir. Dini təbliğat insan şəxsiyyətini boğur və humanizm prinsiplərinə ziddir.

Konstitusiyamızın "Milli mənsubiyyət hüququ" adlı 44-cü maddəsində isə göstərilir: "Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz."

7 oktyabr 1992-ci ildə qəbul edilmiş "Təhsil haqqında" qanunun 6-cı maddəsinə və "Dövlət dili haqqında" qanunun 3-cü maddəsinə əsasən, müxtəlif milli azlıqlar öz dillərində təhsil ala bilərlər.

Bu gün Azərbaycanda onlarla milli mədəniyyət mərkəzləri, təkcə Bakıda 20-dən çox müxtəlif mədəniyyət icmaları fəaliyyət göstərir. Onların arasında ruslar, ukraynalılar, kürdlər, laklar, ləzgilər, slavyanlar, tatlar, tatarlar, gürcülər, ingiloylar, talışlar, avarlar, axısqa türkləri, Avropa və dağ yəhudiləri, almanlar və yunanlar var. Hazırda Azərbaycanın paytaxtı Bakıda, Quba və Oğuz şəhərlərində yeddi sinaqoq fəaliyyət göstərir. 2003-2012-ci illərdə hökumət Avropanın ən böyük sinaqoqlarından olan və öz memarlıq xüsusiyyətlərinə görə diqqət çəkən iki yeni sinaqoqun tikintisini maliyyələşdirdi. Regionlardakı milli və yerli radiostansiyalar müxtəlif dillərdə verilişlər təşkil edirlər.

Azərbaycan multikulturalizmi ümumbəşəri dəyərlər sisteminə çox töhfə verir. 2013-cü il oktyabrın 31-də keçirilən üçüncü Bakı Beynəlxalq Humanitar Forumunda ən çox multikulturalizm müzakirə olunub. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi həm ölkə daxilində, həm də xaricdə bir sıra layihələr həyata keçirir. 2014-cü ilin fevral ayında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidməti yaradılmışdır.

Azərbaycanda müxtəlif millətlərin nümayəndələri cəmiyyətin ayrı-ayrı sahələrində məhsuldar işləyərək ölkənin inkişafına layiqli töhfələr verir, dövlət strukturlarında çalışırlar. Milli Məclisdə ölkənin bir sıra etnik azlıqları, o cümlədən, rus, ləzgi, tat, talış və b. öz nümayəndələri ilə təmsil olunurlar.

Multikultural təhlükəsizliyin ümumi mahiyyəti etnik, dini, irqi, mədəni mənsubiyyətindən asılı olmayaraq bütün xalqların, etnik qrupların mədəni dəyərlərinin qorunması deməkdir. Cəmiyyətin multikultural təhlükəsizliyinin təmin olunması qarşısında yaranan problemlər inkişaf edərsə, bu, etnik, dini, irqi zəmində qarşıdurmalara, münaqişələrə səbəb olar. Son dövrdə Avropanın bir sıra ölkələrində etnik və dini radikalizm, ksenofobiya, antisemitizm, islamofobiya meyllərinin artması qeyd olunanların bariz nümunəsidir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya bəyan etdi. Bununla bağlı Heydər Əliyev qeyd edirdi: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq".

Müasir dövrdə Azərbaycan Respublikası cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin düzgün tənzimlənməsi sahəsində örnək dövlətlərdən biridir. Bu sahədə Azərbaycan böyük nailiyyətlər əldə etmişdir. Bunun əsas göstəricisi ölkəmizdə etnik, dini və irqi zəmində heç bir qarşıdurmanın, münaqişənin olmamasıdır. Bu nailiyyətlər əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla aparılan multikulturalizm siyasətinin nəticəsidi

Ədəbiyyat

1. Azərbaycan Multikulturalizmi, Kamal Abdulla, Bakı: BBMM, 2017, 421 səh
2. The Shared Values of Multiculturalism and Secularism in Azerbaijan and Switzerland, Tahira Allahyarova, Nadine Schouwey and Simon Zurich, Geneva and Baku 2015, 76 pages
3. Multikulturalizmə giriş, Hacıyev A.N., Cəfərova E.H., Məmmədov İ.M., Bakı-Mütərcim, 2018. – 372 səh
4. Multikulturalizm Azərbaycanın həyat tərzidir, M.Hacıyeva, N.Alışova, Bakı, 2016, 59 səh
5. https://multiculturalism.preslib.az/en_a3.html
6. https://bakuresearchinstitute.org/en/multiculturalism-in-azerbaijan/
7. http://www.anl.az/down/meqale/baki_xeber/2016/may/492398.htm
8. https://president.az/en/articles/view/8296

Kitab «Delta Uni» MMC-də
səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 30.11.2022
Tiraj: 100. Sifariş № 283

delta print
house

AZ 1009, Bakı, Bəşir Səfəroğlu küç. 13,
Tel: 012 409 07 17;

e-mail: office@delta-service.az

www.deltaprint.az